AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

QƏRBİ AZƏRBAYCAN FOLKLORU

VI CİLD

"Elm və təhsil"
Bakı -2025

AMEA Folklor İnstitutu Elmi Şurasının qərarı ilə
(21 may 2025-ci il 3 saylı protokol) nəşr olunur.

Layihə rəhbəri: **Hikmət QULİYEV**
Filologiya elmləri doktoru, dosent

Toplayıb tərtib edənlər və ön sözün müəllifləri:
Atəş ƏHMƏDLİ
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Elçin ABBASOV
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Dadaş ƏLİYEV
Filologiya üzrə fəlsəfə doktoru

Elmi redaktor: **Əziz ƏLƏKBƏRLİ**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

Qərbi Azərbaycan folkloru, VI cild.
Bakı, "Elm və təhsil", 2025, 374 s.

Kitabda 1948-1951 və 1988-ci illərin deportasiyasından sonra Göyçay və İsmayıllı rayonlarında məskunlaşmış qərbi azərbaycanlılardan toplanmış folklor örnəkləri və etnoqrafik bilgilər təqdim olunmuşdur. Bundan başqa, arealın aşıq sənətinin daha geniş yayıldığı mühitlərində dünyaya göz açmış və bu sənətdən bəhrələnərək yaradıcılığa başlamış (o cümlədən son deportasiyadan sonrakı dövrdə fəaliyyətə başlayan yazarlar da nəzərə alınmaqla) bir neçə şairin "yurd" mövzusundakı şeirlərindən seçmələr kitaba daxil edilmişdir. Müəllifləri bəlli folklor mətnlərinə də kitabda yer ayrılmışdır və həmin mətnlər "müəllifli" başlığı altında oxuculara təqdim olunmuşdur.

www.folklor.az
ISBN 978-9952-601-02-2

© Folklor İnstitutu, 2025

ÖN SÖZ

Xalqların faciəli olaylar yaşaması, hətta tarix səhnəsindən tamamilə silinmək təhlükəsi ilə üzləşməsi dünyada çox təsadüf olunan haldır. Lakin bir xalqın eyni mahiyyətli faciəni dönəm-dönəm yaşaması və hər dönəmdə də öz doğma yurd-yuvasından didərgin salınması dünyada çox az təsadüf olunan haldır. Məhz Qərbi Azərbaycan türkləri vaxtaşırı, həm də heç bir "çərçivə tanımayan" bu cür müdhiş zorakılıq ilə "hesablaşmaq" məcburiyyətində qalmışlar. Xalqımız arasında belə bir deyim var: "Arxalı köpək qurd basar". Deyildiyi kimi də oldu və buna şübhə də olmamalıdır, çünki "xalq nə deyibsə, o da yerinə yetib". Bütün bu təqibləri və xalqımızın başına gətirilən digər müsibətləri şübhə yoxdur ki, havadarlarının hesabına ermənilər həyata keçirdilər. Lakin belə bir atalar deyimi də vardır: "Sən saydığını say, gör fələk nə sayır". Üzərindən otuz il keçməsinə baxmayaraq nəyimiz qəsb olunmuşdusa indi də mərhələ-mərhələ qəsbkarlardan geri alınır. Özü də necə? Məğlubiyyətlərini "boyunlarına aldıqları" bir şəraitdə! Bütün bu olayı ona görə mərhələlərə hesablayırıq ki, artıq geridönüşün "Qarabağ mərhələsi" "Böyük zəfərlə" yekunlaşıb və indi gündəmin prioritet məsələsi "Zəngəzur mərhələsi"dir. Ümumiyyətlə, istər Qarabağ, istər Zəngəzur, istərsə də Qərbi Azərbaycan olsun, əslində, bu adlarda Azərbaycanımız bütövlükdə ifadə olunub və bu adlarla gələnəklərimiz, kimliyimiz dünyaya tanıdılıb.

İndiki Ermənistanın tarixi Azərbaycan torpaqlarında təşəkkül tapdığına zərrə qədər də şübhə yoxdur. Yəni bu həqiqəti görmək, anlamaq və təqdim etmək elə də müşkül məsələ deyil. O torpaqlardakı toponimlər, hidronimlər, oykonimlər, bü-

tövlükdə bölgənin onomastik mənzərəsi – coğrafi göstəricilər bunun etibarlı dəlilləridir. Belə ki, bu ölkənin xəritəsinə baxdıqda və oradakı mahal adlarını (Göyçə, Zəngəzur, Dərələyəz, Ağbaba, Şörəyel, Dərəçiçək, Vedibasar, Zəngibasar, Qırxbulaq, Sərdarabad və s.) nəzərdən keçirdikdə onların tamamilə türk mənşəli olduğuna əmin olursan və istər-istəməz düşünürsən ki, bu yer adları ancaq həmin ərazilərin aborigen sakinlərinin tarixi təcrübəsindən, yaşam tərzindən qaynaqlana bilərdi. Bu mahal adlarından başqa sonradan yaradılmış onlarla rayon adı (Basarkeçər, Çəmbərək, Dilican, Qarakilsə, Qəmərli, Şəmsəddin, Paşalı, Üçkilsə, Axta, Qızıl qoç, Düzkənd, Cəlaloğlu, Ərtik, Ellər, Allahverdi, Vedi), yüzlərlə kənd və oba adı (Camışlı, Dangirməz, Damcılı, Güllücə, Yengicə, Korbulaq, Kələşkənd, Əlikcik, Ağbulaq, Qarabulaq, Qoşabulaq, Qaranlıq, Qırx dəyirman, Qotur, Qırxboğaz, Saçlı, Təkəli, Alagöz[1] və s. toponimlər) bu torpaqların azərbaycanlıların dədə-baba yurdu olduğunun əsl sübutudur. Amma təbii ki, bunun ən mühüm sübutlarından biri də burada yaşamış sinədəftər baba-nənələrimizin yaratdıqları söz xəzinələridir. Bu söz xəzinələri əsrlərin arxasından boylanaraq onları yaradanların etnopsixoloji özəlliklərini, məişət qayğılarını, sırf şəxsi və ictimai baxışlarını, adət-ənənələri, mərasimləri, deyimləri, inancları və s. göstəricilərini əks etdirən dəyərli mənbələrdir. Oxucuların və folklor araşdırıcılarının diqqətinə çatdırılan bu kitabda məhz həmin söz xəzinələrinin yalnız bizə məlum hissəsi əhatə olunmuşdur.

Məlumat üçün deyək ki, bu materialların az bir qismi 1948-1953-cü illərdə Qərbi Azərbaycandan deportasiya olunmuş və müəyyən fasilələrdən sonra Göyçay rayonunda özlərinə sığınacaq tapmış ailələrin, nəsillərin davamçılarından əldə olunmuşdur. Məsələ o idi ki, Göyçaya pənah gətirməzdən

öncə həmin ailələr Azərbaycanda bir neçə dəfə məkan dəyişməyə məruz qalmışlar. Başlıcası, məskunlaşdıqları ərazilərin relyef və iqlim şəraitinin onlarçün əlverişsiz olması bu yerdəyişməni zəruri etmişdir. Hər halda, dağ şəraitindən birdən-birə aran şəraitinə keçilmə bu cür gedişatın baş verməsində müstəsna rol oynamışdır.

Bütün bunlar köçürülənlərin nə qədər uzun və məşəqqətli yolçuluq həyatı keçirdiklərini təsəvvürə gətirməkçün yetərlidir. Bir neçə məntəqə dəyişdikdən sonra Göyçaya pənah gətirmiş ailələrdən – Cəfərovlarla söhbət zamanı ailə başçısı Abbas kişi bu haqda daha dolğun danışdı: "Xəbər çatdı ki, cəmi iki saat vaxtınız var, hazırraşın, köçürsünüz. Ailə başçılarına köçürülmə biletləri verirdilər. Mənim cəmu beş yaşım vardı o vaxt. Hər ailəyə bir maşın ayrılmışdı. Sözsüz ki, bütün ev əşyalarını, mal-qaranı götürə bilməzdik. Bəzi adamlar tanış-biliş tapıb buna icazə ala bildi. Qışın o soyuğunda mal-qarasinan pay-piyada dağlarla Azərbaycana yol aldılar. Bizi maşınla Şərura[2] gətirdilər. Ordan da yük vaqonlarına doldurub yola saldılar. Yadımda qalmıyıb, neçə gün yol getdik. Axırda qatar Qaradonlu (hazırda İmişli – A.Ə.) stansiyasında əylədi. Bir on beş, iyirmi gün bizi orda saxladılar. Onnan sonra Salyanın Kürqaraqaşlı kəndinə göndərdilər. 1949-un noyabırında ordan çıxmağımıza baxmayaraq, bir aya yaxın qatar Qaradonluda qaldı. Elə vaqondaca qalırdıq. Təsəvvüruza gətirin, hər tərəf qar, soyuq, camaat da vaqonnarda. Şayə gəzirdi ki, bizi Qazaxıstana köçürmək fikirrəri var. Deyilənə görə, Mircəfər Bağırov buna qəti etiraz edib, sora da yuxarılar bu fikirdən daşınıblar. Bağırovu millət xaini kimi güllələyiblər, amma insafnan, millət üçün müsbət işləri də olub, heç onlardan danışan yoxdu, desələr də, elə-belə, ötəri... Nə isə, atamla anam bizi də götü-

rüb Kürqaraqaşlıya gəldilər, bənna Mirzəmməd kişinin evinə. Mirzəmməd kişi arvadı Badamnan iki otaqlı evdə yaşiyırdı, birini bizə verdilər. Bir müddət orda qaldıq, sonra özümüzə ev-eşik düzəltdik. Mirzəmməd kişi, Badam arvad bizi balalarından ayırmadı. Onlardan o qədər yaxşılıq gördük ki, desən qutarmaz. Hə oğul, cəlayi-vətən* olduq, soyuq bulaq suyu içən adamı gətirib atdılar düzənniyə" deyib, Abbas kişi bu məqamda sözünə ara verdi (S:1;T:2). Yeri gəlmışkən, Abbas kişinin nəsil şəcərəsi haqda qısa bir məlumat verək: "Atası Cəfərqulu hələ keçən əsrin 30-cu illərinin əvvəllərində Səhər adlı bir qızla ailə qurmuşdu... Lakin o qadın ilk uşağı dünyaya gələrkən həm özü, həm də körpəsi tələf olur. Bundan çox pis hala düşən Cəfərqulu uzun müddət subay qalır. Təxminən 1935-ci ildə ağsaqqalların təkidi ilə Cəfərqulu vəfat etmiş yaxın qohumu Kərimin 3 uşaqla dul qalmış arvadı Baharla ailə qurur... Cəfərqulunun Baharla evliliyindən daha 3 uşaq dünyaya gəlir. Kərim (1936), Süleyman (1938) və Abbas (1944)" (1,55). Bu məlumatı Abbas kişinin böyük övladı Aqil Kəngərlinin "Xatirələr dil açsaydı..." kitabından qeydə almışıq. İxtisasca tarixçi olan Aqil müəllim öz ata-babasından eşitdiklərini vaxt ikən qələmə almış və bunları kitab halında ərsəyə gətirmişdir. Onun tarixçi olması görünür prosesə ciddi faktlara əsaslanmaqla yanaşmasına rəvac vermişdir. Məsələn, kitabda təqdim olunmuş belə faktlardan birinə diqqət çəkək: "SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 saylı və 1948-ci il10 mart tarixli 754 saylı qərarları ilə 1948-1953 illərdə 150 mindən çox Azərbaycanlı əhali Ermənistan SSR adlanan Qərbi Azərbaycan torpaqlarından zorla deportasiya edildilər. İnsanlara köçürülmə biletləri və 1-2 saat vaxt verir, sonra

isə onları maşınlara yığaraq dəmiryol stansiyalarına gətirir və yük qatarları ilə Azərbaycana yola salırdılar" (1, 54-55).

Kitabda hadisələrin təsvirinə də geniş yer verilmiş, bəzən bu hadisələr bədii planda şərh olunmuşdur: "Bu deportasiya nəticəsində yüzlərlə insan həlak oldu. Yüksək dağlıq şəraitdə, təmiz havada yaşayan, buz bulaqların suyundan içən əhalini ilan mələyən şoran torpaqlara, əsasən Saatlı, Sabirabad, Salyan, İmişli, Ucar kimi rayonlara köçürdülər. İsti iqlimə dözə bilməyən xeyli insan qızdırma[3] xəstəliyindən də dünyasını dəyişdi. Bu isə açıq-aşkar o zamankı ittifaq rəhbərlərinin türk-müsəlmanlara qarşı həyata keçirdikləri soyqırım siyasətinin davamı, tərkib hissəsi idi" (1, 55). Heç şübhəsiz, bu cür təsvirlər reallığı əks etdirir və o dövrkü köçün əsl mahiyyəti haqda aydın təsəvvür yaradır (Yaşına və təcrübəsinə görə kifayət qədər ədəbi məhsulu olan Aqil müəllim indiyədək on iki kitab nəşr etdirmişdir ki, onlardan da beşi sırf poetik ruhdadır. Bunları nəzərə alıb, "yurd sevgisi ilə yoğurulmuş" bir neçə şeirini və müəllifi olduğu bayatılarını kitabımıza daxil etmişik)[4].

İnsanların təbiətin "amansız" vaxtı "köçürülmə"yə məruz qalmalarına dair yazılanlar kitabda diqqətimizi çəkən və bizi daha artıq mütəəssir edən fraqmentlərdən idi. Bu haqda Aqil Kəngərlinin anası Göyərçin Balıyevanın "Xatirələr dil açsaydı..." kitabına təqdim etdiyi qeydlərdən məlumat almaq olur: "1949-cu ilin noyabr ayında Qərbi Azərbaycanın Vedi rayonunun Ərmik kəndində dünyaya göz açmışam. Mən qırx günlük körpə olanda 150 min Azərbaycan türkü kimi bizim kəndi də, bizim ailəni də deportasiya ediblər. Təbii ki, o vaxt mən bunları bilə bilməzdim. Ancaq sonralar atam-anam qardaşım İsmayıla və mənə köçürülmə vaxtı o soyuqda, qarda çəkdikləri zülmlərdən danışırdılar. Biz 1950-ci ilin yanvar ayının

1-də İmişli rayonunun Qaralar kəndinə gətirilmişik. Mənim doğum haqqında şəhadətnaməm olmadığı üçün yeni düşdüyümüz rayonda şəhadətnamə alındı mənə. Amma doğum yerim kimi Vedinin Ərmik kəndi deyil, İmişlinin Qaralar kəndi göstərildi. Doğum tarixim isə 1949-cu ilin noyabr ayının 18-i deyil, 1950-ci ilin yanvar ayının 28-i yazıldı" (1, 60).

Öz doğma əmisi oğlu ilə ailə qurmuş Göyərçin ananın milli mətbəximizə aid yeməkləri necə tamlı hazırladığının da şahidi oldum. Söhbət əsnasında hətta onların hazırlanma qaydaları ilə məni tanış etdi. Amma xüsusi vurğuladı ki, bizim şəraitin bitkilərindən qatdıqda bu yeməklər daha ləzzətli alınır (Bu da tamamilə anlaşılan idi – A.Ə.). Qərbi azərbaycanlılar üçün daha spesifik hesab olunan yemək növləri və onların hazırlanması haqda bilgilər kitabın "Milli mətbəx" bölümündə oxuculara təqdim olunmuşdur.

İnsanların tez-tez yerdəyişməyə məruz qalmaları onların məişətinə, təsərrüfat həyatına ciddi fəsadlar gətirirdi. Çətinliklə də olsa alışdıqları şəraiti bəzən iş tapmamaları səbəbindən tərk etməyə məcbur olurdular. Nəhayət, bu böyük ailə uzun və ağır bir yolçuluq keçdikdən sonra Göyçayda özünə sığınacaq tapdı. Yenə də Aqil Kəngərlinin kitabından növbəti bir fraqmentə nəzər salaq və müəllifin olub-bitənlər haqda kiçik əmisi Süleyman Cəfərovdan aldığı qeydlə oxucuları tanış edək: "Salyan camaatı, xüsusilə Kürqaraqaşlı kəndinin əhalisi bizə çox kömək etdilər. Atam Cəfərqulu kişi əvvəlcə həmin kəndin daxil olduğu kolxozda sıravi kolxozçu kimi fəaliyyət göstərib. Bir müddətdən sonra isə onun zəhmətkeş və halal adam olduğunu görüb Salyanın Kürqaraqaşlı, Cəngan, Beşdəli, Qardaşbəyli və Ərəbqardaşbəyli kəndlərinə kənd sovetinin sədri təyin etdilər. Atamdan eşitmişdim ki, Nəbi əmimgili də İmişliyə-Qaralar kəndinə köçürüblər. Biz 1957-ci ildə Salyandan Bər-

dənin İmirli kəndinə köçdük. Daha sonra isə valideynlərimiz, qohumlar orda yaşasalar da, biz beş qardaş işlə bağlı Göyçaya köçdük. Sonralar isə ata-anamızı da Göyçaya yanımıza gətirdik. Onlar hər ikisi Göyçayda vəfat etdilər. Anam 1987-də, atam isə 1990-da. Məzarları Göyçayın Potu kənd qəbristanlığında yanaşıdır" (1, 63).

Yəqin Göyçayda doğulub, boya-başa çatdığımdandır ki, bu məqamda bir haşiyə çıxmağa ehtiyac duydum. Uşaqlıqdan bilirdim ki, Göyçayda şəhərlə Potu kəndini birləşdirən aralıq zonada "Salyanstroy" adlanan iri bir yaşayış massivi var. O çağlar bu massivin hansı məqsədlə və kimlər tərəfindən salındığı haqda tam məlumatsız idim. Bircə onu bilirdim ki, bu kompleks ərazidə əsasən gəlmələr yaşayır. Sakinlər arasında qeyri millətlərdən də gözə dəyirdi və onların da çoxunu ruslar təşkil edirdi. Əsası 1953-cü ildə qoyulan bu massiv hələ bu ailə bura gələnə qədər (1958) kiçik və yöndəmsiz quraşdırılmış daxmalardan ibarət olub. Söhbət əsnasında Abbas kişi onu da əlavə etdi ki, buranın abadlaşmasına Salyandan gələn inşaat idarəsi rəhbırlik etdiyinə görə ərazi Salyanstroy adlanıb: "Əvvəlcə bizi baraklarda[5] yerləşdirdilər. Orda qala-qala tikintisində də işləməyə başladıq. Buranın salınmasında biz qardaşların da əməyi az olmiyıb. Altmışıncı ilə qədər fəhlələlik etmişəm, sonra tikintiyə baş mühəndis, axırda da müdür seçilmişəm[6]. Deyim ki, biz gələnnən sora böyüyüb inkişaf elədi, yoxsa boş çöllük idi bura. Halal əməyimin bəhrəsidi, bax, bu gün burda yaşamağımda" (S:1;T:2).

Bu yerdə Aqil müəllim də söhbətə qoşuldu: "Atam Dərələyəzdən (Sallıdan) beş yaşında çıxmasına baxmayaraq indiyədək yerli ləhcəni olduğu kimi qoruyub saxlayıb. Bu onun şüurunda elə dərin iz salıb ki, köçkünçülük dövrü müxtəlif şəra-

itlərə düşsə də, hətta çoxlu kollektivlərlə qaynayıb-qarışsa da, danışanda elə bilirsən Dərələyəzdən indi gəlib. Məsələn, indinin özündə bizə bir iş buyuranda deyir ki, "A bala, çavıx gəl, dokkazın qələsin xəkrizzə, cəvizin altında həvirrəşən itdəri selbələ, dəhmərrə, qavala, savışıb getsinnər". Sanki, Dədə Qorqud dövrünə düşürsən. Ya nəsə, adicə söhbətləşəndə bu danışıq tərzinu büruzə verir: "Bəyənnən gün kürəyimizi qavırır, əyənnən küləh savrığ atır". Eləcə də, fərz edirsən ki, orta əsrlərdən gəlmə adamla ünsiyyətdəsən. Düzdür, indilikdə anlaşılmaz görünə bilər bu deyiliş, amma öz dialektləri olduğu üçün dərələyəzlilər anındaca bunu başa düşürlər. Başqa bölgələrdən olanlara da anlaşıqlı olsun deyə, gəlin izahını da verək bu deyimlərin: "A bala, get qapının cəftəsin bağla, qoz ağacının altında ağız-ağıza verib hürən itləri ağacla döyəclə, yerindən tərpət, qov, çıxıb getsinlər." Digərinin aydınlatması da maraqlıdır: "Bu yandan gün kürəyimizi yandırır, o yandan külək toz qaldırır." İndi özünüz baxın, bugünkü danışığımızla müqayisədə nə qədər koloritlidir o cür deyiliş!

Atamın dediyinə görə bizim kənd yetmiş evdən ibarət olub. Onun 54-ü türklərə (ermənilər bizi belə adlandırırdı), 16-sı isə ermənilərə məxsus idi. Hətta, ümumi kolxoz sədrimiz də bizim millətdən olub. Desəm biləcəksiz, Bəhmən kişi, nəvəsi də sizin Folklor İnstitutunun əməkdaşıdır[7]. Əslində, atam bəzi məqamlara toxunmadı, ola bilsin ki, o bunları bir söhbətə sığışdıra bilməyib, elə onun dilindən qoy onları da mən sizə danışım, deyə, Aqil müəllim əvvəlki səhmanla sözünə davam etdi. Düzü, kitabımda bu məqamlara ötəri toxunmuşam, amma indi bunları detallı açıqlayacam sizə. Əhalini köçürməmişdən öncə haralara paylanacaqlarını müəyyənləşdirmək üçün yerlərə göndərilən ağsaqqallardan biri məhz Bəhmən kişi olub.

Yuxarının göstərişi idi, o da rəsmi adam, neyniyə bilərdi?! Bəhmən kişi həm də aşıq sənətinə yiyələnmiş adam idi. Kəndin xeyri, şəri onsuz ötüşməzdi. Deyim ki, Qərbi Azərbaycanın digər bölgələrində olduğu kimi bizim Dərələyəzdə də aşıq sənəti yaxşı inkişaf keçirib. Elə Aşıq Cəlilin adın çəksək buna layiqli nümunə olar. "Cəlili" də daxil olmaqla o, on iki aşıq havası bu xəzinəyə ərməğan edib. "Baş Cəlili", "Orta Cəlili", "Ayaq Cəlili", "Qəhrəmani"[8], "Dərələyəz gəraylısı", "Qaytarma", "Badamı" kimi havalar sənətkarın öz "barmaqlarından qopan" bəstələridir. Başqa aşıqlarımızda olub, saysam böyük siyahı alınar. Ümumiyyətcə, aşıqlıq həm də bölgəmizdə ağsaqqallığın göstəricisi idi. Elin toyu, yası, nəyi olurdusa, aşıq ön cərgədə olmalıydı orda. Bıları babam[9] danışıb bizə. Aşıqlar öz yerində, insafən, camaatın arasında sayılan kişilərdən[10] çox olub kəndimizdə.

İndi ki, yerinə düşüb, qoy deyilməmiş məqamlardan daha birin yada salım. Atam beş yaşında ikən kəndimizdə başına gəlmiş bir hadisəni də tez-tez xatırlayır. Deyir ki, uşaqlıqda Yurik adlı erməni həmyaşıdı ilə həyətimizdə oynayırlarmış. Bu vaxtı anam bizi çağırıb hər ikimizə bir parça yavan çörək verdi. Çörəyi yeyə-yeyə həyətdən çıxıb kənd içi başladıq gəzməyə. Samson adlı anbardar var idi, anbara çatanda bizi görüb səslədi. Atam deyir, bı Samson Yurikin çörəyini aldı, üstünə bal çəkib qaytardı özünə. Mən də çörəyimi ona sarı uzatdım ki, baldan ora da çəksin. Ermənicə, "türk küçüyü, rədd ol burdan" deyib, sinəmdən itələdi. Yıxıldım, yer sucaq* idi, çörək də əlimdən düşdü palçığa. Atam bundan çox pis olur və uzun müddət bunu zehninnən çıxara bilmir. Düşünüb ki, anası (yəni nənəm) ermənіyə çörək verib, bəs, nədən o biri erməni onunla belə davranıb. Deyir, xeyli sonralar anladım ki, sən demə on-

lar bizim millətə qənim kəsilibmiş... Baxın, 49-cu ildə olub bu əhvalat, üstünnən az qala bir əsr keçir... İndinin özündə bu əhvalatı yada salanda atam çox pərişan olur. Bilirsiz niyə? Deyir ki, olara çörək yoxe, nə nemət versən də, yenə ermənidilər. Nəinki, indi bizdən neft, qaz istəyirlər... Görəsən, daha nə plan qururlar ?!" (S:2;T:2).

Aqil müəllim bunları danışdıqca Abbas kişi başını aşağı, yuxarı hərəkət elətdirirdi, sanki bununla deyilənləri təsdiqləyirdi. Bu anda vaxtilə yazdığım bir məqalədən yadıma bir yanaşmam düşdü: "Aşırı humanist və unutqan olmağımız dönəm-dönəm bu faciəni yaşamağımıza rəvac vermişdir". Yəqin müsahibim də davranışı ilə bunu etiraf etmək istəyirmiş...

Araşdırmamız genişləndikcə yeni-yeni maraqlı faktlar aşkara çıxarmağa müvəffəq olduq. Bu minvalla, növbəti müsahibimiz Zəngibasarlı Məmmədov Vaqif Əli oğlu oldu (1955). O, atası Məmmədov Əli Abbas oğlundan (1927-1993) eşitdiklərini bizə belə təqdim etdi: "Ermənilər 1948-ci ildə Zəngibasardan (indiki Masis rayonundan – A.Ə.) bir qrup ağsaqqalı Azərbaycana göndəriblər ki, bəyəndikləri yerləri bildirsinlər, yerlərdəki adamlarını oralara köçürtsünlər. Həm də camaata yalandan vəd veriblər ki, guya orda krandan su yerinə süd axır, bəs sizi orda çox gözəl həyat gözləyir. Məhz bu yolla camaatı aldadıb tavarnı vaqonlara[11] doldurub göndərirlər Azərbaycana. Mən bu hadisədən düz yeddi il sonra Azərbaycanda doğulmuşam. Bunları isə mənə rəhmətlik atam sağ ikən danışıb. Atam o hadisələri yaddaşında yaxşı saxlamışdı, iyirmi yeddinci ildən idi və o zaman onun iyirmi bir yaşı olub. Üç il davam edən bu məşəqqətli köçürülmə, nəhayət, 1951-ci ildə başa çatıb. Camaatımızın bir hissəsi Mərdəkanda yerləşir, qalan hissəsi isə əvvəlcə Ucar rayonuna, oradan da Göyçaya

köçməli olur. Atamın dediyinə görə, Ucara qatarla gəlişləri təmin olunsa da oranın şəraiti onları qane etməyib, torpağı normadan artıq şoran idi, həm də yayı çox isti keçirmiş. Dağ yerində yaşayan adamçün aran şəraiti dözülməz olur. Hətta özləri ilə gətirdikləri mal-qara heç bir il çəkmir ki, burada tələf olur. Müqayisədə Göyçayın təbiəti "yola verən" idi, suyu bol, torpağı da ki, münbit... O vaxtdan ailəmiz Göyçayda məskunlaşıb, ta indinin özünədək...

Atam onu da deyərdi ki, biz bura gələndən sonra mövsüm vaxtı görürdük ki, bağlarda üzüm başlı-başına qalıb, yerli camaat az bir hissəsin yığıb yeyirdi, çoxu isə meynələrdə batıb gedirdi. Biz neynədik, yığıb, ondan irçal* düzəltdik, mürəbbə bişirdik, ən yerdə qalanınnan spirt hazırladıq. Tullantıya hesablanan üzümnən gör nə qədər məhsul aldıq. Sonra, deyirdi ki, biz bura təzə gələn vaxtlar yerli camaat arasında xiyar, pamidor əkib becərən görmürdük. Oları əkdik, üstəlik badımcan, bibər və başqa tərəvəzzər də yetişdirdik. Həm biz fayda gördük, həm də yerli camaat" (S:3;T:2). Bu məqamda mənim də yaddaşım təzələndi. Vaqif müəllimin əkin haqda atasından eşitdiklərinin eynisini Masisdə olarkən özüm müşahidə etmişdim. Böyük xalam oğlu ordan evlənmişdi və 1985-ci ildə məni ora qonaq aparmışdı. Doğrudan da, zirək camaatı var oranın. Gün çıxmamış, ala-toran vaxtı qalxardılar, yetişdirdikləri tərəvəzləri yığıb, səliqə ilə qablaşdırıb, maşınlara yükləyib, dolanışıq üçün bazara aparardılar. Məhsul qurtaranadək hər iki, üç gündən bir bu proses təkrarlanırdı. Maraqlı ənənələri də var idi, hər altı-bazar yığışıb iməcilik keçirərdilər. Məsələn, birinin hasarını tikərdilər, növbəti həftədə digərinin yarımçıq qalmış tikintisini başa çatdırardılar. Bu qayda ilə, yəni növbəli şəkildə hər həftə bir ailə üçün təmənnasız iməcilik təşkil edərdilər.

Əmioğlusuna dəstək olaraq, bu məqamda Əkbər Əlioğlu öz açıqlamaları ilə söhbətimizə qoşuldu. Atasından eşitdiklərindən yaddaşında nə qalmışdısa, o da onları belə xatırladı (Qeyd edim ki, əslən Zəngibasardan olan Əkbər müəllim rayonumuzun ilk folklorşünas alimidir):

"1948-ci ildə ailəmizin, qohum-əqrəbanın, tanış-bilişlərin bir yatabda[12] deportasiyası ilkin olaraq Mərdəkana yönəldildi. O vaxtın qəzetlərindəki foto görüntülərdə bu "köçürülmə" ictimaiyyətə təntənəli bayram ovqatında təqdim olunur. Çalan kim, oxuyan kim, oynayan kim... Bunlar isə könüllülük iddiasını əsaslandırmaq, görüntü yaratmaq məqsədi daşıyırdı. Böyük rəhbərin göstərişinə əsasən hər şey sovet xalqlarının "mənafeyi naminə" həyata keçirilirdi. Buna görə də çal-çağırsız keçinmək olmazdı. Əslində isə mahiyyət beləydi; bu məkan dəyişməyə köçürülənlər hazır deyildi, onların daxilində buna bir etiraz vardı. Və bu inciklik, sınıqlıq uzun zaman onlara daxili bir stress yaşatdı. Deportasiya olunanları yol boyu sosial gərginliklər və ağır məişət problemləri müşayiət edirdi" (S:4;T:2).

Sayı yetərincə olmasa da, ədəbiyyatımızda bu olayları əks etdirən bədii və sənədli əsərlər mövcuddur. Bu cəhətdən qədirşünas ziyalılarımızdan Həsən Mirzənin on dörd cilddən ibarət olan əsərləri, Eldar və Hüseyn İsmayılov qardaşlarının birgə qələmə aldığı "Göyçənin qisası qalır" sənədli romanı olduqca dəyərli mənbələrdir.

Əkbər müəllim danışdıqca, atasından eşitdiklərini ardıcıllıqla bizə çatdırmağa çalışırdı: "Bizim nəsil və onlarla birlikdə Mərdəkana köçürülənlər heç yarım il çəkməmiş Mir Cəfər Bağırova məktubla müraciət edərək burada onların yaşayış məşğuliyyətinə təminat verəcək torpaq sahəsinin olmadı-

ğını əsas götürərək respublikanın düzən rayonlarına köçürülmələrini xahiş edirlər. Və onların bu xahişi nəzərə alınır...

Böyük əmim Məşədi Məmməd ailəsilə Beyləqana, Əziz əmim və ailəmiz, ana qohumlarımız Mərdəkandan Göyçaya köç edirlər. Köçürülənlər Qarabağlar, Potu, Çayarxı, Alpoud kəndlərinə, eləcə də şəhər ərazisinə yerləşdirilir. Deportasiya ilə bağlı valideynlərimin söylədiklərindən az-çox yadımda qalanlar bunlardır. Bununla belə onların mənəvi dünyası, adət-ənənəsi, dil-ifadə tərzləri ilə səsləşən bir neçə detalı qeyd etmək istərdim. Bunların içərisində folklor ovqatı ilə yüklü nümunələr də vardır.

Gəlin, öncə o dövrdə ailəmizin başına gəlmiş bir olaydan sizə söz açım. Əmim oğlu Paşa müəllim sağlığında nəql edirdi ki, Oktyabr inqilabından əvvəlmi, ya sonramı (olayın tarixini dürüst xatırlamadı) babamızın əmisi oğlu Hacı Heydər indiki su pulu yığan vəzifəsini icra edirmiş. Dövlət rüsumunu ödəməkdən boyun qaçıran bir həmkəndlisi ilə öcəşir*, söyüş və təhqirə rəvac verilir. Həmin şəxs də kənddə sayılan nəsildən olub. Məsələ böyüyür. Bir neçə gün sonra qardaşı Hacı Səfər dəlləkxanada üzünü qırxdırarkən güzgüdən görür ki, həmin şəxsin qardaşı naqanı belində ora yaxınlaşır. Özünü itirmədən naqanını çəkib atır. Həmin şəxs ölür və iki böyük nəsil arasında düşmənçilik yaranır. Bizimkilər bir neçə dəfə kəndin ağsaqqalını, mollasını, qazısını həmin nəslin evinə üzrxahlığa göndərirlər. Nəticə olmur. Bunlara xəbər çatır ki, bəs onların çox yaşlı bir ağbirçəyi var. Onun hüzuruna getməklə bəlkə qan düşmənçiliyi aradan götürüldü. Bizimkilər xrom sapoqları[13] çıxarıb içini qumla doldururlar və ağbirçəyin hüzuruna yollanırlar. Otağa daxil olarkən onlar çəkmələrini boyunlarından

asırlar, xəncərlərini çıxarıb əlləri uzanı, başları enmiş vəziyyətdə[14] qocaman ağbirçəyin qarşısına yeriyirlər:

– Nənə, bizi ya bağışla, ya da bu xəncərlərimiz, al qisasınızı!

Qoca nənə bu adlı-sanlı mərdanə kişilərin üzrxahlığını qəbul edir, qan düşmənçiliyi aradan götürülür. Buna baxmayaraq, hökumət iki qardaşı və babanı həbs edir. Bir müddət sonra adama yarım kilo qızıla həbsdən buraxılırlar" (S:4;T:2).

Söhbət əsnasında mövzular vaxtaşırı şaxələnirdi. Əkbər müəllim bu dəfə diqqətimizi dil və ədəbiyyat məsələlərinə yönləndirdi: "İrəvanlıların özlərinəxas şivəsi vardır. Əksərən, danışanın irəvanlı olmasını asanlıqla təyin etmək mümkündür. Eləcə də bəzi sözlər var ki, onların mənasını yalnız özləri bilir. Məsələn, yaşlılar zir* dedikdə, biz, Göyçayda doğulanlar bunu anlamayacaq. Halbuki bu, nəlbəki deməkdir.

1918-ci ilin qaçaqaçında atam Əli Hüseyn oğlu Əliyev (1910-1973) səkkiz yaşında idi, anam Zəhra Əsgər qızı Əliyevanın (1917-1987) isə o zaman bir yaşı olub. Atam əsəbi, hirsli olduğu qədər də həssas adam idi. "Leyli və Məcnun", "Şah İsmayıl" operalarının radio verilişlərini dinləyəndə həmişə kövrələrdi. "Keçmişə hücum" inqilabi çağırışını təşviq edən bir mətni hərdən ritmlə – mahnı kimi oxuyardı:

Vur çəkici danq,
Nə lazım durmaq.
Zülm evin gərək,
Biz bərbad edək.

Anam Zəhranın ən çox sevdiyi mahnı C.Cabbarlının özü yazıb bəstədə oxuduğu "Azad bir quşdum" idi. Hər dəfə bu mahnını oxuyanda kövrələrdi, onun səsində bu mahnını lentə almışam. Qırx beş ildən çoxdur ki, şəxsi arxivimdə saxlayı-

ram. Özünün söylədiyi bayatılardan ikisi yadımda qalıb. Vaxtilə onları rayon qəzetində çap etdirmişdim:

Bağa girdi ərənlər,
Bağın gülün dərənlər.
Hər kəs könülsüz getsə,
Ölməsə də, vərəmlər.

Bir yaralı qoçam mən,
Yerim yoxdu qaçam mən.
Varmı qaya daldası,
Bir yaramı açam mən.

Dərd, kədər qoxuyan bu bayatılar, görünür, qaçaqaç dövrünün olaylarına münasibətdə deyilib. Məzmunlarından da bunu aydın sezmək olur. Daha nələr demişdi anam, qoy onları da yada salım:

Bizlərdə cici-bacı qonşuluğu dəbdə olub. Tez-tez bu ona pay göndərir, gah da o buna. Bu "qonaqpərvərliyin" bir az ucuzlaşdığını hiss edibmişlər kimi qonşular belə bir deyim qoşublar:

Get çanağım,
Gəl çanağım,
Ortalıqda süz çanağım.

Anam bunu xüsusi bir tərzdə deyərdi və bu istər-istəməz gülüşə səbəb olurdu. Onun dilindən eşitdiyim ibrətamiz bir hekayəti də təqdim etmək yerinə düşərdi.

Anam söyləyərdi ki, bir kişi ilə bir qadının gözlərinin ağı-qarası bir oğul övladları vardı (Qeyd edim ki, bu örnək "anası cibinə daş qoyub" zərbi-məsəlinin açması misalındadır. Ərə verilən qızın cibinə daş qoyub deyərdilər, – ər evində öz yerini bil, bu daş kimi sus, dindiriləndə danış). Vaxt gəlir, oğulun evlənmək vaxtı yetişir. Ona bir qız alırlar. Gəlin "anası

cibinə daş qoymuş" qızlardan idi. O, üzərinə düşən vəzifəni tapşırıqsız, danışıqsız yerinə yetirdiyindən iki, üç gün ondan səs çıxmır. Ata ilə ana narahatçılıq keçirirlər, üç, dörd gün də gözlədikdən sonra belə qərara gəlirlər ki, gəlin lalmış. Oğlana məsləhət görürlər ki, bu gəlin çox mərifətlidir, amma belə də olmaz, onu ikinci arvad kimi saxlayaq, get özünə başqa bir arvad al. Bu təklifi oğul qəbul edir. Bir axşam o, atın belində, tərkində də yeni gəlin açıq darvazadan həyətə daxil olur. Evin gəlini ocaq çatıb* süd bişirirmiş. Ani olaraq ərinin tərkində yad qadını görüb karıxır*, özünü itirir, diqqəti ocaqdan yayınır, süd daşır. Bunu görən təzə gəlin atın belindən qışqırır:

Ay kar gəlin, ay kor gəlin,
Görmürsən süd daşır,
düşürsənə…

Evin gəlini artıq bu məqamda dilə gəlir:

Eheey, tumanı yəhər qaşında,
Gözü ocaq başında,
Düş, özün düşür!

Ər arvadından bu sözləri eşitcək yavaşca atın yüyənini geri döndərir.

Bu hekayət gerçəkmi, ya rəvayətmi, fərqinə varmayaq, ağbirçək nənələrimizin hikmət, ağıl, abır, həya dünyasının fərqinə varaq.

Novruz mərasimləri ilə bağlı inancların sınanılması xalqımız arasında çox geniş yayılıb. Qərbi azərbaycanlılar da bu adətləri həmişə əziz tutub. Məsələn, səməni halvasının bişirilməsi mərasiminin haxıştalarla müşayiəti bizim irəvanlılarda daha təntənəli olub. İnanca görə, axşamdan qazanda dəmə qoyulub səhər üstü açılan halvada barmaq izi görünsəydi, o zaman uşağı olmayan cavan gəlinlərin alnına həmin halvadan

sürtərək ağbirçək nənələrimiz deyərdilər: – Ay bunu göyərdən, bu gəlini də göyərt. Eləcə də bizim irəvanlılar seyidə, əl düşərliyinə[15] inanan olublar.

Ailəmiz on iki nəfərdən ibarət olub. Atam, anam, əmim və digər dünyasını dəyişmiş qohumlarımız Göyçay şəhər qəbiristanlığında dəfn olunub. Allah hər kəsin ölənlərinə rəhmət eləsin!

Ana tərəfdən bir qohumumuz vardı – Talıb. "Sehri" təxəllüsü ilə ortabab şeirlər yazardı. "Leyli-Məcnun" filminin Türkmənistandakı çəkilişində operator kimi çalışmışdı. Həm də bir az baməzə adam idi. Şair təbli olduğu üçün məcazlı danışmağı sevərdi. Hərdən bizə qonaq gələrdi. Növbəti gəlişində dəmiryolçu çamadanından iki ədəd qarğıdalı bişmişi, iki ədəd də bulku (kökə) çıxararaq dedi:

– Alın, bu məkəyiz*, bu da xəkəyiz*.

Xəkəni deyə bilmərəm, yəqin bu qafiyə xatirinə deyilib, çünki "xəkə" sözü bizlərdə, yəni Göyçayda içilən çayın tullantısına deyilir, bunun undan hazırlanmış məmulatla əlaqəsini görmürəm. O ki qaldı "məkə"yə, sonralar mənə məlum oldu ki, camaatımız qarğıdalını bu cür adlandırır.

Valideynlərimin yaşadığı yerlərdən məşhur Ağrı dağının zirvəsi görünərmiş. Talıb Sehri şeirlərinin birində dağı belə vəsf etmişdi:

Ağrı dağım, xan Arazım,
Əyləncəyim, murazım… (S:4;T:2).

Bu məqamda daha bir haşiyə çıxmağa ehtiyac duydum. Masisdə qaldığım evin həyətindən bu dağ ap-aydın görünürdü. Qohumlardan bu hansı dağdır soruşduqda, dedilər biz bu dağa Ağrı deyirik. Çox maraqlıdır ki, Türkiyə dövlətinin ərazisində yerləşən bu dağa ermənilər rəsmi olaraq Ararat adı verib. Nə

qədər xəyalpərəst millət olasan ki, beynəlxalq səviyyədə qəbul olunmuş ərazi toxunulmazlığına dair norma və prinsiplərə məhəl qoymayıb, başqa dövlətin halal mülkiyyətinə öz "qondardığın" adı verəsən?! Yəqin ki, dünya çapında belə yaramaz işə yalnız ermənilər "qol qoya" bilər!

Əlqərəz deyərək, Əkbər müəllim fikrini tamamladı: "Bütün bu olub-bitənlərdən çıxardığım nəticə bundan ibarət oldu: Unutma! Və çomağını əlindən yerə qoyma. Yarağını tikantək çiynində həmişə hazır saxla. Birliyini qoru. Belədə türkə zaval yoxdur!" (S:4;T:2).

Kitabda yer almış materialların daha böyük hissəsini isə vaxtilə Qərbi Azərbyacanda yaşamış və 1988-ci il deportasiyasından sonra İsmayıllı rayonunda məskunlaşmış həvəskar folklor toplayıcısı (həm də söyləyici qismində qeydə aldığımız) Nizami Cabbarov[16] bizə təqdim etmişdir. Gənc yaşlarından ağız ədəbiyyatına böyük maraq göstərən bu şəxs eşitdiyi və şahidi olduğu maraqlı əhvalatları, folklor baxımından əhəmiyyətli sayıla biləcək faktları həvəslə qələmə almış, hətta onları sistemləşdirməyə səy göstərmişdir. Biz də heyət olaraq bu fədakarlığına görə Nizami Cabbarova minnətdarlığımızı bildirir və bu əhəmiyyətli işi davam etdirməsini arzulayırıq. Heç şübhəsiz, hazır materiallar bizi ümidləndirdi və folklor mütəxəssisi olaraq daha yeni nümunələr əldə etmək üçün İsmayıllı rayonuna ezam olunduq. Məhz bu bölgədə məskunlaşmış qərbi azərbaycanlılardan qeydə alınmış folklor örnəklərinin həcmi bizi o qənaətə gətirdi ki, belə bir toplunu nəşrə hazırlayaq (Öncə də bildirmişik ki, bu kontingent Göyçayda daha erkən (48-53-ci illərdə) məskunlaşıb və bu səbəbdən bir neçə dəfə soy yenilənməsinə məruz qalıb. Təbii olaraq, yaşlı nəsil zamanla dünyadan köçmüş və bu hal özlüyündə yeni nəsillə mü-

badilə prosesini səngitmişdir. Nəticədə mövcud informasiyaların böyük hissəsi obrazlı desək, yaddaşlarla birgə bu dünyanı tərk etmişdir. Heç şübhəsiz, bu dialektika (nəsildəyişmə) davam etdikcə istər-istəməz ənənə də öləziyir və mənəvi dəyərlərin itirilməsilə sonuclanır. Bu anlamda, Göyçayda məskunlaşmış qərbi azərbaycanlılardan qeydə aldığımız materialın həcmi (minimal həddə olduğu üçün) bizdə o təəssüratı oyatdı ki, onları təsnifat üzrə deyil, qarışıq səpkidə oxucuya təqdim edək. Bunun da ən optimal variantı onların "Ön söz"də sərgilənməsi idi və düşünürük ki, bu səpkidə təqdimat oxucu üçün də maraqlı olacaq).

Qərbi Azərbaycan folklorunun əlimizdə olan cildlərinə əsaslanmaqla deyə bilirik ki, janr spesifikasına görə onları bizim hazırladığımız cildlə yaxınlaşdıran xüsusiyyətləri çoxdur və bu məqam təqdimatda aydın seziləcək. Bütün bunlarla yanaşı, bu seriyadan olan nəşrə yeniliklə müşayiət olunan bəzi əlavələr də edilmişdir ki, bunun da folklorşünaslıq camiəmizdə müsbət qarşılanacağına ümid edirik. Məsələn, "Dialektoloji sözlük", "Aydınlatmalar" və "Milli mətbəx" bölümləri bu anlamda təşəbbüsümüzü doğrulda bilər.

İndi də kitabda toplanmış folklor örnəklərini ədəbi növ, janr, mövzu və ideya baxımından səciyyələndirməyə çalışaq. Əvvəlcə növ baxımından təsnifatı nəzərdən keçirək. Kitabda daha çox epik və lirik növə aid olan janrlar yer almışdır. Bunlardan əfsanə, rəvayət, nağıl, lətifə, tapmaca, atalar sözü və məsəllər, bayatılar, aşıq sənətindən qaynaqlanan poetik nümunələr və s.-ni qeyd etmək olar.

Yeri gəlmişkən bir vacib məqamla bağlı fikrimizi oxucularla bölüşmək istərdik. Məlumdur ki, orta çağdan (XVI əsrdən) başlayaraq aşıq poeziyası şifahi ənənə ilə yazılı ənənənin

inteqrasiyası fonunda inkişaf keçirmişdir. Bəzən də bu proses daha intensiv xarakter ala bilmişdir. Bu da özlüyündə, ədəbi dilə xas təmayüllərin bu poeziyada "sığınacaq tapmasına" gətirib çıxarmışdır. Həmin səbəbdəndir ki, bu poeziya nümayəndələrindən qeydə aldığımız nümunələrdə bu üslubi əlamətlər aşkarlana bilmişdir. Hətta şifahi ənənəyə çox sıx bağlı olan Göyçə mühiti də bu təsirdən sığortalana bilməmiş, burada dünyaya göz açmış yaradıcı insanların əsərlərinə də bu cəhət sirayət etmişdir. Odur ki, bu mühitdən "pərvazlanan" el şairlərinin yaradıcılığından seçmələri kitaba daxil edərkən bu nüansa lazımınca diqqət yetirmişik. İstisnalar da vardır ki, kitaba daxil etdiyimiz müəyyən qisim mətnlər söyləyicilərdən yazılı şəkildə əldə olunmuşdur və bu halda mətn ədəbi təsirə daha kəskin məruz qoyulmuşdur. Bir neçə əfsanə və nağıl, az sayda deyim və mətbəxə aid bəzi mətnləri bu anlamda misal gətirə bilərik. Bütün bunlara baxmayaraq, bu folklor mühiti heç vaxt öz ənənəsindən tamamilə qopmamış, ədəbi dildən gələn təsirləri vaxtaşırı öz süzgəcində "saf-çürük" etmiş, "meyar" bidiyindən faydalanmış, əks təqdirdə mayasına "hər nə gəldi" qatmamış və nəticə etibarilə özünəməxsus gələnəkli mühit kimi qala bilmişdir.

Böyük qismi Göyçə və ora yaxın ərazilərdən olan, lakin hazırda İsmayıllı rayonunda (Soltankənddə) məskunlaşmış əhalidən toplanan əfsanə, rəvayət, nağıl, ata sözləri yurd-yuvasından didərgin düşmüş bu əhalinin inanc və etiqadları, əsatirlərə dayanan davranış və həyat postulatları (həqiqətləri) haqqında müəyyən təsəvvür yarada bilir. Məsələn, əfsanələrin bəzisində biz Qərbi Azərbaycan, eləcə də Qarabağ, Gəncəbasar bölgəsi üçün səciyyəvi olan maral kultuna bağlı elementlər (maralların hansısa ocaqlarla əlaqəsi, onların həmin ocaqlarda

sağılması, "bir dolça maral südü ilə bütöv bir qoşunun doyuzdurulması" və s.) müşahidə edirik. Bu, bölgənin inanc sistemində maralın müqəddəsliyi, onun bolluq və bərəkətlə bağlı əski kultunun buradakı işartılarının mövcudluğundan xəbər verir. Maraq üçün deyək ki, bu tip əfsanələrdən biri Göyçə gölü sahillərində boya-başa çatmış yazıçı-publisist Mehdi Həsənovun 1971-ci ildə İrəvanda nəşr etdirdiyi kitabında yer almışdır. Müəllif uşaqkən öz doğma kəndində yaşlı sakinlərdən eşitdiyi əfsanə və rəvayətlər əsasında həmin kitabı hazırlamışdır[1]. Təəssüf ki, o, bu kitabın nəşrini görmədən, elə kitab nəşrə hazırlanan il vaxtsız dünyasını dəyişmişdir. Göyçə yaxınlığındakı "Maral bulağı"nın necə yaranmasından bəhs edən "Maral əfsanəsi" adlı həmin kiçik həcmli hekayədə deyilir ki, bir ovçu meşədə yaşayan ən gözəl maralı bulağa su içməyə gələrkən vurur və sonra öz əməlindən peşmanlıq hissi keçirərək bulağın yaxınlığında bir çala qazıb maralı orada dəfn edir. Onun üstünə "nişanə üçün bir ağac sancır". Səhəri gün hamı gəlib görür ki, köhnə bulaq quruyub, maralın məzarı üstünə basdırılmış quru ağac isə qollu-budaqlı çinara çevrilib. Bu məzar-təpəciyin yanında da iki yeni bulaq əmələ gəlib. Sonra əfsanədə deyir ki, xalq hesab edirdi ki, bu bulaq maralın göz yaşlarından yaranıb və bu maral da əslində heyvan cildinə girmiş mələk olubmuş. Eləcə də bizim topludakı "Keyti dağı" əfsanəsi bu anlamda müqayisə predmeti kimi götürülə bilər. Əfsanədə Mehdi adlı birisinin "maral dərisinə bürünmüş qardaşını" – Kehdini yanlışlıqla öldürməsi və sonra özünə qəsd etməsindən bəhs olunur ki, burada da həm maralla bağlı müəy-

[1] M.Həsənov. Maral əfsanəsi. Yerevan. "Hayastan" nəşr., 1971, s. 12-14.

yən tabunun, həm də çevrilmə motivinin izlərini görə bilirik. Deyilənə görə, elə o vaxtdan bu dağ "Keyti dağı" adlanır.

İnsanların marala çevrilməsi, maral ovlamanın peşmanlıq gətirməsi motivlərinə əfsanələrdən əlavə, Azərbaycan nağıllarında və dastanlarında da rast gəlirik. Ov tematikalı folklor nümunələri içərisində maralla bağlı mətnlərin çoxluğu, hətta "Kitabi-Dədə Qorqud"da "keyik ovu" ritualının mövcudluğu onun (bu inancın – E.A.) daha geniş dairədə izlənən mifoloji semantikasından xəbər verir (Orada bəzi keyiklərin "Bəkül süncüdür" deyə öldürülməməsi ovda müəyyən qadağaların olmasını göstərir).

Onu da qeyd edək ki, kitabdakı əfsanələrin böyük qismi toponimik səciyyəlidir. Mifik mündəricəli mövzularla əhatələnsə də, bəzən bu tip əfsanələrin məzmunu real hadisələrlə əlaqələndirilir, mövzunun ideyası arxaik səciyyəsindən daha üstün planda təqdim olunur.

"Çoban qayası" əfsanəsində çoban Qasımın düşmən ermənilərlə apardığı mübarizəsi, "əmanətə xəyanət yoxdur" deyərək geri çəkilməməsi və bu yolda, nəhayət, onun daşa dönməsi təsvir olunmuşdur. "Gəlin qayası" əfsanəsinin təqdim etdiyimiz variantında əzazil bir insandan xilas olmağa can atan gəlinin öz istəyi ilə qayaya çevrilməsindən bəhs olunur.

Əfsanələrdən başqa, kitabda müxtəlif mövzulu rəvayətlər də təqdim olunmuşdur. Bu rəvayətlərdə əsasən tarixi və dini şəxsiyyətlərdən bəhs açılır. Peyğəmbərlərdən Süleyman və Musanı, hökmdarlardan isə İsgəndər Zülqərneyn və Teymurləngi misal gətirmək olar.

"Ailədə sirr olmamalıdır" rəvayətində Süleyman peyğəmbərin kəramət sahibi olduğu təsdiqini tapır və buradan belə bir fikir hasil olur ki, ailənin möhkəmliyi onun üzvlərinin

bir-birinə olan etimadından keçir. “Haqq yerini tapar” rəvayətində isə Musa peyğəmbər gördüyü qəribə hadisələrin sirrini öyrəndikdən sonra bu qənaətə gəlir ki, dünyadakı möcüzələrin gerçəklikdən qaynaqlandığını qəbul etmək lazımdır. Kimliyindən asılı olmayaraq hamı həyatın ibrət dərslərindən nümunə götürməlidir. “İsgəndərin ölümü” rəvayətində İsgəndərin anası oğlunun ölümündən sonra yaşamaq və yemək istəmədiyini söyləyir. Lakin ağıllı bir şəxsin tədbiri sayəsində bir həqiqət aşkar olur ki, ölənlə ölmək yanlışlıqdır. Teymurlənglə bağlı rəvayətdə belə nəql edilir: hökmdar əmr edir ki, ermənilər bir yerə toplayıb hamısını qırsınlar, amma iki nəfəri nümunə üçün diri saxlasınlar ki, hər kəs bilsin bu millət necə xain və satqındır. “Qanlı çökək” və “Qanlı dərə” rəvayətlərində 1918-1920-ci illərdə ermənilərin törətdiyi qanlı cinayətlər və minlərlə günahsız insanı qətlə yetirmələrindən danışılır. Maraqlıdır ki, rəvayətdə Basarkeçər toponiminin mənşəyi Teymurlənglə əlaqələndirilir. “Qaradaş dağı” rəvayətində də “xain qonşu” motivi aparıcı mövqedədir. Rəvayətdə dağ başında qaynayan bulağın suyunun müqəddəs olduğu və onun ancaq halal adamlara buyurulduğundan danışılır. Xain və xəyanətkar ermənilər onun suyunu içən anda bulağın quruduğu burada bildirilir. “Hacı Nağı” ilə bağlı rəvayətlərdə bu şəxsin məşhur alim və mötəbər loğman kimi insanlara şəfa verməsindən bəhs olunur.

Maraq doğuran nümunələrdən bir qismi də bəzən xalqın öz dərdlərinin çarəsini tapmaq üçün üz tutub getdikləri və müqəddəs bildikləri ocaqlara həsr olunub. Belə ki, Miskin Abdal (Sarıyaqub), Seyid Bayram (Daşkənd)[17], Qaradaş (Qoşabulaq yaylağı) və s. bu tipli ocaqlar indi də tapınaq yeri kimi camaatımızın yaddaşında qalmaqdadır.

Epik nümunələrin arasında bir neçə kiçik həcmli nağıla da rast gəlinir. Onlardan biri "Allah yazanı pozmaq olmaz" nağılıdır. Nağılın mövzusunda irəli sürülmüş ideyanı doğruldan hadisələr əsasən burada nəql olunur. Nağıl janrına aid nümunələr həcmcə kiçik olsa da, ideya baxımından kifayət qədər əhəmiyyətli hesab edilə bilər. "Bülbül vətəndə" nağılında qəfəsdə yaşayan bülbülün simasında vətən həsrəti ideyası ön plana çıxarılmışdır. "Quzu və canavar" nağılında vaxtın hər şeydən üstün olduğu və buna laqeyd yanaşanların xoşagəlməz aqibətlə qarşılaşa biləcəyi fikri üstün mövqedədir. "Kəmərbəndi" nağılında musiqi bilicisi olan şah və xanəndədən söz açılır. "O ağılnan, bu ağılnan" nağılında isə bir qoca ilə cavanın həyata baxışları, insanın özünə güvənli və daha qətiyyətli olması fikri əsas ideya olaraq götürülmüşdür. "Şeytanın əməli" adlanan nağılda həqiqi şeytanla insan-şeytan müqayisəyə gətirilir, hansının daha güclü şər törədə biləcəyi əsnasında onlar mərcə girir. Nəhayət, insan-şeytan elə əməllər törədir ki, həqiqi şeytan onun qarşısında aciz və təslim qalır. "Şeytan və firon" nağılında da insanların məkrli niyyətlərindən və onların qəlbindəki paxıllıq hissindən danışılır. "Qadının günahı" nağılında çörək bişirən qadın üstünü bulayan uşağı xəmirli əllərilə təmizlədiyi üçün Allahın qəzəbinə gəlir və Allah çörəyi ərşə çəkir. Yalnız itlərin ulaşmasından və Yaradandan insanlar üçün mərhəmət diləmələrindən sonra çörək yenidən yerə qaytarılır. Mətndən çıxarılan nəticə belədir ki, zümrəsindən asılı olmayaraq çörəyin qədrini hər bir insanın bilməsi olduqca vacibdir. Ümumiyyətlə, nağıllarda insanlar bəd əməllərdən çəkindirilir və xeyirxahlığa çağırış təbliğ olunur.

"Payız söyləmələri" bölməsində "İki səyyah" adlanan nağılda belə nəql olunur ki, səfərə çıxan iki yoldaş bir-birlərin-

dən yeməklərini əsirgəyirlər. Evində qonaq olduqları qoca da hiss edir ki, bu adamlar bir-birinə yoldaş ola bilməz. Yoxlamaq üçün ayrılıqda hər birindən yoldaşı haqqında nə düşündüyünü soruşur. Biri yoldaşını itə, o biri isə eşşəyə bənzədir. Yemək zamanı süfrəyə plov əvəzinə yal və saman gətirilir. Qoca onları utandırır və bildirir ki, onların yoldaşlığı saxtadır, nə qədər gec deyil ayrılsınlar.

Bundan başqa, kitaba "Maraqlı əhvalatlar" başlığı altında mətnlər də daxil edilmişdir ki, bunlardan bəziləri baş vermiş real hadisələri canlandırır. Məsələn, "Ana sevgisi" əhvalatında heyvanat aləmindən bəhs olunsa da, burada məqsəd əsl ananın fədakarlığını diqqətə çatdırmaqdır. "Düşmən kişi kimi" əhvalatında isə keçmişdə düşmənçilik edən iki tayfanın aqibətindən söz açılır və burada Xosu Abdulla adlı şəxsin mərd hərəkəti təqdir edilir. Əhvalatlara aid bir qisim nümunələrdə isə hadisələr nağılvari tərzdə təqdim olunur və buradakı təfərrüatlar əsasən bədii rakursdan şərh olunur. Məsələn, "Molla və pozğun qadın" əhvalatında ziyarətə gedən molla ilə pozğun qadının yolçuluğu zamanı başlarına gələn hadisə nəql olunur. Qadın vaxtını ağlayan ac uşaqları yedirtməyə sərf etdiyi üçün karvandan geri qalır və ziyarətə gedə bilmir. Lakin ziyarət anında qadının əksi mollanın gözləri önündə canlanır və o elə zənn edir ki, qadın da onunla birgə ziyarət edir. Əhvalatdan çıxarılan nəticə odur ki, hansı durumda olmasına rəğmən, mərhəmət insanı paklaşdıra bilir.

Kitabın maraqlı tərəflərindən biri də burada deyimlər bölümünün təqdim olunmasıdır. Ünsiyyət (nitq) anında mütəmadi aşkarlana bildiyindən bu janr xalqımız arasında daha işləkdir və situasiyadan asılı olaraq gündəlik törənə bilir. Özəlliklə, təsadüfdən yaranmış deyimləri bu anlamda qeyd etmək olar.

Lakin ata sözləri haqqında bu qənaətə gələ bilmərik, çünki həmin örnəklər illərin təcrübəsi hesabına məzmunca dolğunlaşmış və nəhayət, mükəmməl kanonik mahiyyət almışdır. Bu janr həm də müxtəlif mövzularda xalqımız arasında yayğındır. Amma nəzərə alaq ki, hər iki janr mütəmadi inteqrasiyadadır, bəzən onları bir-birindən fərqləndirmək belə çətin olur, hətta məqamına düşdükdə biri digərinin yerində işlək ola bilir. İndi də hər iki janr göstəricisi üzrə nümunələrə diqqət çəkək.

Çörək haqqında:

Çörək süfrənin bəzəyidir.

Çörək itirən çörək tapmaz.

Doğmalar, bacı-qardaş münasibətləri haqqında:

Üzüyün qaşı, bacının qardaşı.

Doğmanın yerini heç vaxt yad tuta bilməz.

Ana-bacı olunca daş olasan.

Ədəb-ərkan, dostluq mövzusunda:

Böyük sözünə baxmayan böyürə-böyürə qalar.

Kişinin sözü bütöv olar.

Zarafat dostluğu pozur, şər, böhtan gətirir. Şit zarafatdan uzaq dur.

Vətən və qürbət haqqında:

Vətən həsrəti ən ağır dərddi, bundan ağır dünyada dərd yoxdur.

Anayla Vətən qoşa məfhumdu, onların ikisi də insanın qibləgahıdır

Dünyanın təzadları haqqında:

Yaxşılıq et, dərhal pislik gör.

Bu gün yaxşılıq etdiyim adam sabahı mənə pislik etdi.

Dedilər: A dağ çayı, bu nə hay-haraydı salıbsan?

Dedi: – Haray salan mən deyiləm, açdığım yarğanların naləsidir.

Epik növün çox işlək janrlarından biri də tapmacalardır. Kitaba daxil edilmiş tapmacalardan bir neçə nümunəyə diqqət çəkək:

Adamdan atı,
Dəmirdən qatı (səhəng).

Üstü ağac, altı daş,
Səkkiz ayaq, iki baş (vəl).

O tayda bir qurd durub,
Dişin dişinə vurub.
Cümlə cahanı yeyib,
Yenə yerində durub (dəyirman).

Tapmacaların cavablarının sırf xalqın məişəti və təsərrüfat həyatı ilə bağlı olduğunu məzmunlarından aydın görmək mümkündür.

Şifahi ədəbiyyatın ən populyar janrlarından olan lətifələrə kitabda geniş yer verilmişdir. Lətifələr müəyyən toplumun psixologiyası, nəyə dəyər verdiyini və nəyi dəyərsiz hesab etdiyini, ümumən həyata baxışını daha ibrətamiz göstərən folklor örnəklərindən sayılır. Eləcə də Göyçə əhalisinin mənəvi dünyasını, sevinc və kədərini, intellektini, yumor hissini açmaqda lətifələrin xüsusi önəmi vardır. Göyçənin Bəhram Qamanov, Aşıq Behbud, Şamxay kimi lokal lətifə qəhrəmanları vardır və təqdim etdiyimiz lətifələrin də çoxu bu tipajların adı ilə bağlıdır[18]. Ümumən götürsək, "lətifələrdə romantizm yox, çılpaq reallıq əsasdır və bu səbəbdən lətifənin qəhrəmanları nə "Qarabağ maralları", nə də "İsmi-Pünhan" Şəki gözəlləri de-

yil, bəhlul danəndələr, cuhələr, bu adamlar, molla nəsrəddinlər, hacı dayılar olur. Çox vaxt həqiqətin, çılpaq reallığın ifadəçisi rolunda "ağılın" (hiylənin, yaltaqlığın, maskalanmanın, süniliyin, etiketin) buxovundan azad "dəlilər", "divanələr" çıxış edir" (2, 119).

Bununla belə, lətifənin öz reallığı var və o, burada emosional təsirin qabarıq təzahürünə baxmayaraq, ağılın və məntiqi mühakimənin sferasındadır. Ona görə də lətifələr həm də intellektual yaradıcılıq aktıdır. Akademik Y.Qarayev yazırdı ki, lətifədə bütün finallar ağılın və ağılsızlığın aşkara çıxdığı, için, daxilin qabıqsız, qılafsız, çılpaq qaldığı situasiyalardır və lətifənin strukturu fani dünyanın "pozulan sahmanı və onu nizama salmanın ifrat utilitar modelini" ortaya çıxarır (3, 21-22).

Öncədən qeyd etdik ki, Göyçə lətifələri əsasən Aşıq Behbud, Şamxay və Qamanov ünvanlı şəxslərin adı və əməlləri ilə bağlıdır. Lakin bir qisim nümunələr vardır ki, qarışıq mövzulardadır və maraqlıdır ki, onların arasında ənənəvi lətifə qəhrəmanımız – Molla Nəsrəddinlə bağlı nümunə də yer almışdır. Özəlliklə, regional lətifə qəhrəmanlarından olan aşıq Behbudla bağlı mətnlər daha koloritli təsir bağışlayır. Məsələn, "Kimdir günahkar?" başlıqlı lətifədə öküzü oğurlanmış Behbud onu sorğu-suala çəkən milis işçisini başa salmağa çalışır ki, ona verdiyi bu suallardan ən vacibini oğruya versin və ondan soruşsun ki, "adam başqasının öküzünü oğurlayarmı?" Lətifədə cinayət araşdırıcısı olan bəzi vəzifəli şəxslərin sürüdürməçiliyi və səriştəsizliyi gülüş hədəfi kimi götürülmüş və incə yumorla tənqid olunmuşdur. Kitaba Aşıq Behbud mövzusunda elə lətifələr də daxil edilmişdir ki, bunlarda birbaşa ermənilər hədəfə alınmışdır: belə ki, bir dəfə ermənilər onu məcbur edirlər ki, onların necə adam olduğunu özlərinə

desin. O da çəkinmədən deyir ki, qaraçılar sizdən min dəfə yaxşıdırlar, çünki onlar sizin kimi gəlmə olsalar da, sizin kimi yaşadıqları torpağı özününküləşdirmir. Harada yaşasanız, orada ölüm, faciə, müharibə baş alıb gedir.

Ümumi elmi fikrə görə, "lətifəyə gözlənilməz sonluqda dəqiq və çox hallarda kifayət qədər kəskin formulə edilmiş kulminasiya nöqtəsinin vacibliyi xarakterikdir. Bu zaman adətən, gizlin və ya fiktiv məna daşıyan əlaqələrə işarə edilir, onların nəzərə çarpdırılan açımı isə dinləyicinin və ya oxucunun gözlədiyinin əksinə olur. Gizli və aşkarın (çılpaqlığın) bu xarakterik dialektikası lətifənin spesifikasını təşkil edir. Oradakı gizli və ya ikibaşlı məna daşıyan söz oyunu açılarkən gülüş doğurur" (4, 20).

Bizim qeydə aldığımız lətifələrdə də bəzən gülüş dilimizdəki hansısa ifadənin və ya sözün çoxmənalılığı, "ikibaşlı" anlam daşıması hesabına yaranır. Nümunəyə diqqət çəkək:

Bir kəlbəcərli qadın Göyçədən avtobus marşrutu ilə mahalın Qaraqoyunlu kəndinə gəlir və düşəndə avtobus sürücüsünə belə bir tərzdə minnətdarlığını bildirir:

– Sürücü qardaş sən məni götürdün, Allah da səni götürsün!

Lətifənin "zərb cümləsi"nin (Y.Qarayev) – "sən məni götürdün, Allah da səni götürsün!" Azərbaycan danışıq dilində alqış xarakterli "Allah səni güldürsün!", "Allah da səni sevindirsin!" kimi deyimlərlə analoji modeldə olması diqqəti çəkir. Lakin burada "Allah da səni götürsün!" ifadəsi "Allah səni öldürsün!" anlamına gəlir və nəzərdə tutulan duaya tam əks məna gətirir. Bunu da tamamilə təbii hesab etmək olar, çünki avtobusun sürücüsü erməni millətindən olur.

Struktural antropologiyanın banisi K.Levi-Stross mifin strukturundan bəhs edərkən universal əksliklərin daha yumşaq

oppozisiyalar üzərinə keçirilərək həllini, "mümkün dünya ahənginin bərpası"nı miflərin başlıca struktur səciyyəsi kimi dəyərləndirmişdi (5,183-207). Bu aspektdən müəyyən tip lətifələrin strukturu mif strukturu ilə bir növ təzad təşkil edir. Daxilində sıxılıb qalmış istəkləri, ağrı-acıları lətifə üzərinə keçirən, proyeksiya edən insan bu lətifə dünyasında öz ifrat "birtərəfli" dünya modelini qurur və ... sonra da bu modeldəki ifratçılığın özünə gülür, gülür, ona görə ki, o, insandır, onun qəlbi duymaq, ağılı dərk etmək, ruhu nurlanmaq iqtidarındadır. Gülüş burada reallaşmayan istəklərin kompensasiyası, məsələnin "lətifəvari" həlli yoludur. Məhz bu qəbildən olan lətifələrdə məqsəd, təqdim olunan vəziyyətdə – "reallıqda" problemin, məsələnin, sualın ən unnatural (qeyri-təbii), ən mümkünsüz, ən radikal, ən çətin, qeyri-adi, məntiqsiz, ən sərfəsiz, eyni zamanda lətifədəki vəziyyətə uyğun əsaslanan "həllini" təklif etməkdir. Məsələn: "Qamanov özünə bir dəst təzə kostyum alır. Arvadı ona deyir:

– Bəhram, Bəhram, nə yaraşır sənə, bu paltarı elə gey, üstünə toz da qonmasın!

Qamanov paltarı soyunur və arvadına deyir ki, ona bir yaylıq versin. Arvadı təəccüblə – yaylıq nəyinə gərəkdir? – deyib soruşduqda Qamanov cavab verir:

– Paltarı yaylığa büküm, qoltuğumda gəzdirim ki, üstünə toz qonmasın".

Göyçə lətifələrində normal, lazım olan hərəkətin, davranışın başqa kontekstdə, başqa situasiyaya daşınması da gülüş yaratmanın formalarından biridir:

"Alməmməd telefonla arvadı ilə danışır. Arvadı xısın-xısın danışdığı üçün zorla səsi gəlir. Alməmməd soruşur:

– Niyə yavaş danışırsan, zorla eşidirəm.

Arvadı cavab verir:

– Alməmməd, sarımsaq yemişəm, ağzıma yaşmaq tutmuşam ki, iyi səni vurmasın".

Bəzən atmaca şəklində olan lətifələrə rast gəlinir ki, onların da mətni iki, üç cümlədən ibarət olur, amma, gülüşü bol, məzmunu da ki dolğun... Nümunəyə baxaq:

" – Nə üçün ermənilər kosmosa uçmurlar? – deyə, İrəvan radiosuna sual verirlər.

– Ona görə ki, ermənilərin sevincdən, gürcülərin paxıllıqdan ürəkləri partlayıb ölərlər, bütün Qafqaz azərbaycanlılara qalar!"

Başqa bir nümunəyə diqqət çəkək: "Bir evə bir qonaq gəlir, bir gün, iki gün, üç gün... getmək bilmir ki, bilmir. Evin adamları lap zinhara gəlirlər. Ona görə də ona deyirlər ki, sən arvadın üçün, qızın üçün darıxmırsan?

O deyir:

– Əlbəttə, darıxıram. Məktub yazaq, onlar da gəlsin".

Kitabda epik növün çox yığcam janrı – şəbədəyə aid nümunə də yer almışdır. Həmin nümunədə Səməd adlı bir dülgərin şah seçilməsi haqqında danışılır. Adətə görə, idarəçiliyə başlamazdan öncə təzə seçilmiş şah vəfat etmiş şahın qulağına "nə isə" deyib "o biri dünyaya" ismarıclamalı idi. Səməd də şahın qulağına pıçıldayaraq bunu deyir: o dünyada deynən, dülgər Səməd də padşah oldu, özləri biləcək bu dünyada vəziyyət necədir!

Azərbaycan xalqının uşaq folkloru janr baxımından olduqca zəngin və mövzularına görə çoxşaxəlidir. Adı "uşaq folkloru" olsa da, əslində, bu səciyyədə olan örnəklər uşaqlar üçün böyüklər tərəfindən düzülüb-qoşulur. Hər necə təşkil olunsa da, bu folklor örnəklərinin uşaqların həm mənəvi, həm

də fiziki inkişafına önəmli təsiri vardır. Məsələn, laylalarla yuxuya verilən körpələr əzizləmələrlə yuxudan oyadılır, yaşa dolduqca yanıltmaclarla nitqləri inkişaf etdirilir, həddi-buluğa yetişdikdə oyunlarla fiziki hazırlıqları yüksəldilir və s. Bütün bunları nəzərə alıb kitaba daha səciyyəvi hesab etdiyimiz nümunə daxil etdik. Həmin nümunəni gözdən keçirək:

Birə – birək,
İkiyə – dirək.
Üçə – ürək,
Dördə – döşək.
Beşə – beşik,
Altıya – aşıq.
Yeddiyə – yeşik,
Səkkizə – səbət.
Doqquza – donuz,
Ona – oraq,
On birə – daraq.

Qərbi azərbaycanlılardan əldə olunmuş folklor arsenalı içərisində daha artıq diqqət çəkən janrlardan biri də bayatıdır. Ümumazərbaycan rakursundan baxdıqda bu bayatıların da ənənəvi mövzulara həsr olunduğunu görə bilirik. Bu rəngarənglikdə onları yaradan insanların səmimiliyinə, düşüncələrinin əhatəliliyinə, bədii söz demək qabiliyyətlərinə və mental (milli) özəlliklərinə necə sadiq qaldıqlarına heyran olmaya bilmirsən.

Göyçə bayatılarında Göyçə mahalı və ona yaxın yerlərin adı aktiv şəkildə çəkilir. Bu hal bir yandan Vətən həsrəti, doğma yerlərin nisgili ilə bağlıdırsa, digər tərəfdən həmin yer-yurdun özünün coğrafi özəllikləri, bölgə insanının gündəlik həyatında, təsərrüfatında, istirahətindəki rolundan və ya onun

üçün sakral anlam daşımasından qaynaqlanır. O sarıdan Göyçəyə müraciətlə çağırılmış nümunələri gözdən keçirək:

Gün düşər göy çəmənə,
Nur verər göy çəmənə.
Ürəyimdən, canımdan,
Əzizdir Göyçə mənə.

İllərlə məcburən Göyçədən ayrı yaşayan bu insanların yurd həsrətinin qismən də olsa ovudulduğu bayatıya yansımışdır. Digər nümunəyə diqqət çəkək:

Əzizim Göyçə məndən,
Yad gedər göy çəməndən.
Göyçədən ayrılmazdım,
Ayrıldı Göyçə məndən.

Vətən həsrətilə yaşayan insanın baxışları yalnız bir istiqamətə zillənir:

Vətənə sarı,
Gedəmmirəm vətənə sarı.
Mənim bu üzüm heç gülməz,
Ağlayar, vətənə sarı.

Bu bayatının digər bir maraqlı tərəfi də ondan ibarətdir ki, tipik səciyyə daşıyan bayatılarımızın ilk misrasında yer alan "aşıq", "mən aşıq", "əzizim" və s. kimi başlanğıc formullar burada buraxılmış, bayatı İraqda yaşayan Kərkük türklərinin xoryatlarına yaxın quruluşda təqdim olunmuşdur. Bu bir tərəfdən bayatının lokal xüsusiyyəti və ya variantı kimi qəbul olunsa da, digər tərəfdən fərdi söyləyici və ya dinləyici zövqünün, onun poetik özünüifadəsinə (emosiyasına – D.Ə.) bağlana bilər. Belə ki, bu tipli bayatılarda biz ənənəvi formulların yoxluğu ilə yanaşı, həm də qafiyə sisteminin söyləyici tərəfin-

dən qəsdən dövrün siyasi-sosial hadisələri ilə əlaqələndirilərək pozulmasını müşahidə edə bilirik.

Yurdundan didərgin düşən bu insanların içində bir nisgil də onları rahat buraxmır: yurdumuz yağıya qaldı:

Haray, ellərim, haray!
Şana tellərim, haray!
Yurdum yağıya qaldı,
Soldu güllərim, haray!

Elindən, yurdundan ayrı düşən insanlar daim bir suala cavab axtarışında olur: bir daha o yurda qayıdış olacaqmı?

El getdi, binə qaldı,
Yurd-yuvam kimə qaldı?
Göyçəynən görüşüm[2]
Qiyamət günə qaldı!

Yurdun hər bucağı əzizdir, xüsusən də iki əsrdən artıq Araz çayı ilə ikiyə bölünmüş bütöv Azərbaycan dərdi:

Araz, Araz, can Araz,
Mən sənə qurban, Araz.
Zaman məni yandırdı,
Sən də alış, yan, Araz!

Bu ayrılıq duyğusu digər bir bayatıda daha təsirli ifadə olunub:

Sərhəd qırıb dizimi,
İtirmişəm izimi.
Qollarım həsrət qalıb,
Qucmağa Təbrizimi.

[2] Yerli ləhcənin tələbinə əsasən misra altı hecada təqdim olunmuşdur. Mətndə "xəta" kimi görünsə də, bayatı söyləyiciliyində bu cür üslubi məqamlarla arasıra qarşılaşmaq olur. Nəşr zamanı belə istisnalar nəzərə alınmış və söyləyicilərin "özünüifadə təşəbbüsləri" mətnlərdə təbii halında saxlanılmışdır.

Onu da deyək ki, bayatı yaratmaq ənənəsi bu gün də davam etməkdədir. Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsi uğrunda şəhidlik zirvəsinə yüksəlmiş general Polad Həşimova həsr olunmuş bayatı bunun gözəl nümunəsidir. Qərbi azərbaycanlılardan qeydə alınmış bu nümunəni də kitaba daxil etməyi zəruri saydıq:

Əzizinəm, Poladdır,
Dəmir deyil, poladdır.
Düşmənlərə dağ çəkən,
Generalımız Poladdır!

Kitabda Qərbi Azərbaycanda yaşamış el şairlərinin Vətənə, Anaya və Azərbaycan-Ermənistan münaqişəsinə həsr olunmuş şeirləri, o cümlədən müəllifli bayatılar da təqdim olunmuşdur. Burada, həmçinin aşıq ədəbiyyatına aid nümunələr, o cümlədən Göyçəli Aşıq Rəcəbin şeirlərindən örnəklər verilmişdir. Böyük Vətən müharibəsində (1941-1945) iştirak etmiş Aşıq Rəcəbin şeirlərində vətənə məhəbbət, düşmən üzərində qələbəyə çağırış başlıca ideyadır. Bu anlamda aşığın "Oldu"[19] qoşması daha səciyyəvi nümunə hesab oluna bilər:

Harayladım igidlərin mərdini,
Çəksin özü öz xalqının dərdini.
Tar-mar etsin işğalçının yurdunu,
Çalındı qələbə, şöhrət, şan oldu!

Bu kədərdən heç coşarmı, de, ilham?!
Aşıq Rəcəb, sözü gəl eylə tamam.
Köməyinə çatan on iki imam,
Açdı bəndərgahı, kərəm-kan[3] oldu!

[3] Kərəm tək alışıb yanmaq

Aşıq Rəcəb Çöyçənin Qoşabulaq kəndində doğulub, 1980-ci illərin sonlarında başlayan erməni talanları və qətllərindən xilas olmaq üçün ailəsi ilə birlikdə İsmayıllı rayonunun Soltankənd adlanan kəndinə köçüb. O, 2006-cı ildə elə orada da vəfat edib. Özünün ifasında bir neçə lent yazısı və sağ ikən övladlarının ondan qələmə aldıqları azsaylı şeirləri qalıb. Aşıq Rəcəbin ortancıl oğlu, el şairi kimi tanınan Vahid Əhmədovdan eşitdiklərimizə görə 1990-cı illərdə BDU-nun professoru Qara Namazov atasının ifasında "Qaçaq Mayıl" dastanını yazıya alıb[20]. Amma yazıya alınmış dastanın sonrakı taleyi haqda məlumatlı olmadığını da o, bizə bildirdi. Yerində qeyd edək ki, bölgədə folklor materialları toplayarkən Aşıq Rəcəbin ifasında olan həmin dastanın səsli (lent) yazısını ailəsindən əldə etmişik. Həmin vəsaitin səsləndirilməsilə bağlı meydana çıxan texniki problem qısa zamanda aradan qaldırılarsa, yaxın perspektivdə bu yazının mətnini çapa hazırlamağı nəzərdə tutmuşuq.

Heç şübhəsiz, həm mühitin cazibəsindən, həm də ki, atalarının qoyub getdiyi irsi daşımaq instinktindəndir ki, aşığın varisləri – Vahid və Müstəcəb qardaşları da hazırda bu sahədə fəaliyyət göstərməkdədirlər. Bunu nəzərə alıb, bir neçə şeir kitabının müəllifi Vahid Əhmədovun və özəl təbə malik qardaşı Müstəcəb Əhmədovun aşıq poeziyası ruhunda yazdıqları bir qisim şeirlərini və müəllifi olduqları bayatıları kitaba daxil etmişik. Bu minvalla, kitabda bir neçə Göyçəli həvəskar şair də təqdim olunmuşdur ki, onların bəzilərinin şeirləri ilk dəfədir işıq üzü görür. İstisna olaraq, bu sırada hazırda dünyasını dəyişmiş bir qadın yazarın şeirlərindən seçmələr də oxuculara ərməğan edilmişdir (Əlavə edək ki, Qərbi Azərbaycanın digər bölgələrindən olub hazırda Göyçay rayonunda məskunlaşmış həvəskar şairlər də vardır ki, onlar da bu təsnifatda yer almaq-

dadırlar). Belə spesifiklik, yəni kitabda təqdim olunmuş şeirlərin az önəm kəsb etməyən qisminin sıravi göyçəlilər tərəfindən düzülüb-qoşulması göstərir ki, Göyçə əhalisinin əksəriyyətini, Məmmədhüseyn Təhmasibin ifadəsilə desək, "aşıqlıq ənənələrinin ən incə sirlərinə vaqif olanlar" təşkil edir və "mübaliğəsiz demək olar ki, bu mahalda saz çalmağı, söz deməyi bacarmayan adama ancaq nadir hallarda təsadüf olunur" (6, 176).

Sözsüz ki, Göyçənin erməni qəsbkarlarının və onlara dəstək verən xarici güclərin təzyiqləri nəticəsində tərk edilməsi Göyçə folklor mühitinə, o cümlədən aşıq mühitinə ölçüyəgəlməz ziyan vurmuşdur və onun etnomədəni arealımızın bir parçası kimi itirilməsi təhlükəsi vardır. Amma bu folklor özünə "göyçəli" deyən, o yerlərin müqəddəslərini, dağını-daşını, kəndlərini, sazını-sözünü ən azından xatirələrində yaşadan insanlar var olduqca hələ yaşamını sürdürəcəkdir. Və şübhəsizdir ki, bir də doğma torpaqlarımıza – Göyçəmizə qayıdış istəyi, qayıdacağımıza inam bu etno-mədəni mühitin yenidən dirçələcəyinə olan ümidimizi, arzumuzu heç vaxt sönməyə qoymayacaqdır.

Yaman kövrəlmişəm körpə uşaq tək,
Vətən yada düşüb, getməyim gəlir.
Payızda durnalar köçüb gedən tək,
Mənim də vətənə getməyim gəlir.

Ömür qısaldıqca qəlbim daralır,
Hicran xəstəsiyəm, rəngim saralır.
Mənim bu dünyada bir arzum qalır,
O da vətənimdi, getməyim gəlir.

Göyçə Azərbaycan aşıq sənətinin güclü inkişaf etdiyi mühitlərindən olduğu üçün orada poetik zövq də nisbətən yük-

sək olmuşdur. Göyçə xalq şeirində metaforaların, təşbehlərin xüsusi təzahürləri ilə qarşılaşa bilirik. Asif Hacılının yazdığı kimi, "Azərbaycan xalq şerinin "əksər janrlarında hər bir real obyekt – "qərib", "aşiq", "bacı", "ata-ana", "dağ", "dərə", "bağ", "gül", "baxılmaz yollar", "batmış ay", "bükük boyun", "şirin çayın qəndi", "yarın üzü", "zülf" – ənənəvi metafora olmaqla bərabər, müəyyən funksiya daşıyan mücərrəd rəmzi məna daşıyıcılarıdır" (7, 20). Sözü ümumidən xüsusiyə, yəni xalq şeirindən birbaşa bayatıların üzərinə gətirən müəllif təhlilini daha da konkretləşdirərək az sözlə, həm də ayrı-ayrı kateqoriyalar üzrə bayatının poetik məziyyətlərini detallı şəkildə incələyir: "Lakin bayatıların poetik kamilliyi elədir ki, bu kimi işarəvi rəmzlər eyni zamanda insani hissləri, şəxsi duyğuları bildirən məcazlardır və həm də tarixi-etnik məlumatı daşıyan obrazlardır – bədii dərinlik bayatını fərdi dinləyici səviyyəsinə, maraq və istəyinə uyğun dəyərləndirməyə imkan verir (necə ki, yasda ağıları dinləyən kəslərin hərəsi əslində öz dərdinə ağlayır)" (7, 20).

Əslində, Göyçə aşıq mühitinin zənginliyinin əyani sübutu kimi biz bu nümunələri kitabda təqdim etdik və göstərməyə çalışdıq ki, bu yurdun hər bucağında onlarla saz çalan və söz qoşan azərbaycanlılar yaşamışdır. Şübhəsiz, Qərbi Azərbaycan digər aşıq mühitləri ilə də tanınır və daha spesifik olanları haqqında oxucuları məlumatlandırmaq yerinə düşür. Bu anlamda Dərələyəz aşıq mühitini misal gətirmək olar. Burada sənət Göyçə aşıq mühiti civarında olduğu qədər genişlənməsə də, hər halda Dərələyəz mühiti də Cəlil kimi bölgədə ad-san qazanmış və mükəmməl bəstələri olan aşıq yetişdirmişdir. Bundan başqa, Dərələyəz Azərbaycan aşıq sənətinə Aşıq Qulu, Aşıq Mirzalı, Aşıq Bəhmən, Aşıq Bərxudar kimi ünlü

sənətkarlar, Vəlinin, Hacıməmmədin şəxsində balaban ustaları bəxş etmişdir. Bütün bunlar ona işarədir ki, Qərbi Azərbaycan aşıq mühitləri ilə bağlı hələ xeyli görüləsi işlər vardır və ümid edirik ki, yaxın gələcəkdə bu işlərlə bağlı növbəti nailiyyətlər əldə olunacaq. Məlumat üçün onu da bildirək ki, Göyçay və İsmayıllı bölgələrində məskunlaşmış qərbi azərbaycanlılardan qeydə alınmış folklor materialları arasında dramatik növə aid nümunələrə rast gəlinmədi.

Kitabın ərsəyə gəlməsində bir çox insanların iştirakı olmuşdur və onların müəyyən qismi haqqında ayrıca olaraq "Söyləyicilər" bölümündə məlumat verilmişdir. Təəssüflər olsun ki, söyləyici kimi qeydə aldığımız həmin insanlardan bəziləri artıq dünyasını dəyişmişdir. Xeyirxah missiyada iştiraklarına görə daima xatırlanacaqlarına əminik və onlara Uca Tanrıdan rəhmət diləyirik. Bir qisim insanlar da vardır ki, kitabın hazırlanmasında bizimlə sıx əməkdaşlıq etmişlər və bu fəaliyyətlərini nəzərə alıb burada onları ictimaiyyətə tanıtmağı zəruri saydıq. Vətəndaş təəssübkeşliyi nümayiş etdirmiş belə insanlardan aldığımız bilgilər, heç şübhəsiz, kitabın daha dolğun hazırlanmasına müsbət təsirini göstərmişdir (Nəzərə alaq ki, onlardan bəziləri, həm də folklor söyləyicisi qismində bizimlə əməkdaşlıq etmişdir və "Söyləyicilər" bölümündə barələrində bioqrafik məlumat verilmişdir). Dəyərli bilgilərlə vaxtaşırı bizi təmin edən bu insanlara dərin təşəkkürümüzü bildirir və onların kimliyi, fəaliyyət sferası haqqında qısaca da olsa oxuculara məlumat veririk:

Zeynalova Zivər Oktay qızı – Göyçay RİH-nin müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri.

Əhmədova Sevil Kazım qızı – İsmayıllı RİH-nin müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri vəzifələrini icra etmişdir, hazırda təqaüddədir.

Əliyev Əkbər Əli oğlu – Göyçay ş., əslən Zəngibasar r., Çarbax k., təqaüddə olan maarif işçisi, filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü.

Əliyev Tahir Əyyub oğlu – İsmayıllı ş., əslən Laçın r., Cağazur k., Azərbaycan Respublikası Qaçqın və Məcburi köçkünlərin işləri üzrə Dövlət Komitəsinin İsmayıllı və Qəbələ rayonlarının nümayəndəsi.

Məmmədov Vidadi Şərif oğlu − İsmayıllı ş., əslən Dərəçiçək m., Axta r., Təkəli k., Qərbi Azərbaycan İcmasının İsmayıllı rayonu üzrə nümayəndəsi.

Məmmədov Vaqif Əli oğlu − Göyçay ş., əslən Zəngibasar r., Sarvanlar k., təqaüddə olan mədəniyyət işçisi.

Cəfərov Aqil Abbas oğlu – Göyçay ş., əslən Dərələyəz m., Keşişkənd r., Sallı k., ixtisasca tarixçi, Azərbaycan Yazıçılar Birliyinin üzvü.

Zülfüqarov Rövşən Qasım oğlu – Quba r., Birinci Qarabağ müharibəsinin iştirakçısı, kiçik biznes sahəsində çalışıb, hazırda təqaüddədir.

Kazımov Yusif Kazım oğlu − Göyçay r., Potu k., əslən Dərələyəz m., Keşişkənd r., Sallı k., ixtisasca terapevt-radioloq.

Cabbarov Nizami Bəşir oğlu – İsmayıllı r., Soltankənd k., əslən Göyçə m., Basarkeçər r., Qoşabulaq k., ixtisasca zootexnik, hazırda təqaüddədir.

Qeyd: Təqdim etdiyimiz nümunələrin mənbələrini və ümumən kitabda təzahür olunan çatışmazlıqların izahını oxuculara çatdırmaq məqsədilə kitabda müxtəlif təyinatlı işarələrdən (hərf, simvol və rəqəmlərdən) istifadə olunmuşdur.

Əvvəla, hər bir nümunənin sonunda onun mənbəyini göstərən kod verilmişdir (kodlaşma bir neçə mətndən sonra aparılıbsa, o zaman bu mətnlərin də mənbəyini həmin kod əsasında axtarmaq lazımdır). Belə ki, mötərizə içərisində verilən **"S"** hərfi söyləyici sözünün işarəsi, sonrakı rəqəm isə söyləyicilərə aid tərtib olunmuş siyahıda həmin söyləyicinin sıra ardıcıllığının işarəsidir. Digər halda, mötərizədəki **"T"** hərfi toplayıcı sözünün işarəsi, sonrakı rəqəm isə toplayıcılara aid tərtib olunmuş siyahıda həmin toplayıcının sıra ardıcıllığının işarəsidir.

İkincisi, bəzi mətnlərdə elə söz və leksik tərkiblərə təsadüf olunur ki, onlar ancaq bu mətnlərin qeydə alındığı bölgədə məskunlaşmış əhali üçün anlaşıqlı olur. Başqa bölgələrin sakinləri üçün də anlaşılsın deyə, kitaba əlavə olunmuş "Dialektoloji sözlük"də bu qəbildən olan adlanmalara lazımi şərhlər verilmişdir.

Nəhayət, kitabda rəqəmlərlə işarələnmiş söz və məfhumlar yer almışdır ki, onların da açılışını təmin etmək məqsədilə sonluğa daha bir bölüm əlavə etməyi zəruri saydıq. "Aydınlatmalar" adı altında sərgilənmiş bu bölümdə kitabda aşkara çıxarılmış hər hansı anlaşılmazlığa məqamında və ardıcıllıqla şərh verilmişdir. Ümumilikdə tətbiq etdiyimiz qaydaları bir qədər də sadələşdirilmiş şəkildə təqdim edirik:

1. Folklor mətnindən sonra verilmiş kod (məsələn, S:14; T:1) aşağıdakı mahiyyətin açılışını şərtləndirir: **S:14** – mətn siyahı üzrə on dörd nömrə ilə işarələnmiş söyləyicinin (yəni, Nadirov Tahir Dünyamalı oğlunun) dilindən qeydə alınmış, **T:1** – mətn digər siyahı üzrə bir nömrə ilə işarələnmiş toplayıcıya (yəni fil.ü.f.d D.Əliyevə) məxsus mənbədən götürülmüşdür. İstisnalar vardır ki, mətn bir yox, daha artıq sayda (məsələn, iki) söyləyicinin prosesdə iştirakı şəraitində qeydə

alınıb və bu halda kodlaşma da həmin kəmiyyət üzrə aparılıb. Bu prinsip eynilə toplayıcıların kodlaşmasında da nəzərə alınıb.

2**.** Mətnin içərisində yer almış simvol **(*)** aşağıdakı mahiyyətin açılışını şərtləndirir: Məsələn, mətndə ulduzla işarələnmiş "zir" sözü kitabın arxasında verilmiş "Dialektoloji sözlük"də "nəlbəki" kimi izah olunmuşdur.

3. Mətnin içərisində yer almış rəqəm (**11-ci nümunə**) aşağıdakı mahiyyətin açılışını şərtləndirir: Məsələn, mətndə həmin rəqəmlə işarələnmiş "tavarnı vaqon" ifadəsi kitabın arxasında verilmiş "Aydınlatmalar" bölümündə "yük qatarı" kimi izah olunmuşdur.

Son olaraq deyə bilərik ki, Qərbi Azərbaycan folklorunun yalnız kiçik bir qismini səciyyələndirməyə çalışdıq, onun janr rəngarəngliyini və mövzu tutumunu, ideya axarını və estetik təsir diapozonunu müəyyənləşdirməyə səy göstərdik. Bir daha əmin olduq ki, istedadlı, sinədəftər xalqımız öz soykökünə çox sıx bağlıdır və nə qədər məhrumiyyətlər yaşasa da, bu xalq heç bir vəchlə ruhdan düşmür. Ümid edirik ki, bir vaxtlar öz doğma yurd-yuvasından ayrı düşmüş soydaşlarımız nə zamansa biryolluq o yerlərə pənah aparacaqlar!

ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

KEYTİ DAĞI

Göyçə mahalının Sarıyaqub kənd yaylağına yaxın Kəlbəcərin Zəylik kəndinin və məşhur Sarıyer yaylağının ən uca zirvələrindən olan Keyti dağı haqqında əfsanə danışılır, bu ellərdə, bu obalarda cürbəcür deyimlərlə.

Keyti dağının zirvəsində "İki qardaş" məzarlığında iki qardaş uyuyur. Deyilənə görə, olar əslən Göyçənin Sarıyaqub kəndindəndilər. Hər iki qardaş – Kehdi və Mehdi həmin dağda ova çıxıllar. Olar hərə bir tərəfdən zirvəyə doğru gedillər. Kehdi daha tez zirvəyə çatır və bir maral ovluyub, onu soyur, sora isə onun dərisinə bürünür. Mehdi onu uzaqdan maral bilib, oxla vurub öldürür. Sora yaxınnaşıb görür ki, bu maral yox, qardaşı Kehdidi. Nəhayət, o, özünü qardaşı Kehdinin yanında vurub öldürür. O vaxdan Göyçə mahalının ən uca zirvələrindən olan Kehdi dağı əfsanəsi yaşayır.

GƏLİN QAYASI

Göyçə mahalının Qoşabulaq kəndinin yaylağında Gəlin qayası adlanan bir qaya var. Qaraqaya və Elbulağı ilə üzbəüzdür. Deyilənə görə, Göyçə gözəli olan bir gəlin bulaqdan su götürüb evə qayıdırmış. Çox da uzaqda olmayan bir yerdə çox əzazil olan bir adamın ona tərəf gəldiyini görür və diz çöküb Allaha yalvarır ki, onu bu əzazildən xilas etsin. Ulu Tanrı onun səsini, imdadını eşidib onu daşa-qayaya çevirir. Bax, beləcə Azərbaycanımızın daha bir "Gəlin qayası" adlı əfsanəsi yaranır.

KOROĞLU QAYASI

Azərbaycanın əksər yerində olduğu kimi, Göyçə mahalında da Koroğlunun adıyla bağlı yerlər, məkanlar vardır. Keyti dağının ətəyində – Yuxarı Şorcadan[21] Kəlbəcərin Zəylik kəndinə gedən yolda bir qaya var. Deyilənə görə, Koroğlu həmişə Göyçədən Kəlbəcərə bu yolla gedərmiş və həmişə də bu qayanın üstünə çıxar, bırdan hər yerə göz gəzdirərmiş. Bura füsunkar və əlverişli yer olduğunnan bir neçə saat burda istirahət edər, əylənərmiş. Ona görə də, yerli camaat bu qayanı Koroğlu qayası adlandırıb. Amma onu deyək ki, mənfur qonşularımız bu qayanın da adın özünküləşdiriblər. Olar Koroğlu ruhuyla yaşayan bu xalqın hər şeyin öz adlarına çıxdıqları kimi, bu qayaya da Ohan qayası deyirlər (S:5;T:1).

ÇOBAN QAYASI

Yağılar qəfil gəldilər. Obanın qız-gəlini də döyüş libasını geyindi, əllər qılınca qurşanıb nərə döndülər. Onlar az, yağılar çox idilər. Torpağın sinəsində lalələr açdı. Yaralılar sıralandı. Sağ qalanlar dağlara pənah apardı. Yağılar da onların ardınca (Yağılar gavurlardan qalmadılar). Bir elin, bir obanın izini itirmək, nişansız qoymaq istəyi ilə dağlara yol saldılar. Dağlar elə səngər oldu, el dağlara arxalandı. Obanın hünərvər oğlu Elgünəşin arvadı onunla idi. Qəfil gələn ox Elgünəşin də libasını paraladı, sinəsində bulaq qaynadı. Gülmar ərinin diz çökdüyünü görəndə dünya onun gözlərində zülmətə döndü, eli haraya səslədi. Səsinə səs verən olmadı, dolub-boşalan gözlərini ətrafa dikdi, bir ins-cins yox idi. Dağlara duman gəldi, onları düşməndən gizlətdi. Bir ürəyin yanar hayı-harayı yalçın qayalarda çilikləndi*:

Əzizim, ulu dağlar,
Çeşməli, sulu dağlar,
Burda bir igid ölüb,
Göy kişnər, bulud ağlar.

Qatar qayanın səmtindən ensiz cığırlarla bir qatar gedirdi. Yükü ağır olsa da, kəhər yerişini dəyişmir, sürətini azaltmırdı. Dağlarda kök salıb elin varını saxlayan Qasım çoban el anasını hörmətlə qarşıladı. Gülmar yana-yana çobana dedi: – Xəbərin varmı, yağı el-obamızı taladı, qız-gəlinimizi əsir götürdü, ərlər oxlandı, igidlərimizin – şəhidlərimizin qanı torpaqda lalələrə, qərənfillərə döndü.

Qasım çoban komasına atıldı, üç pudluq çomağı ilə qayıtdı. Dayan, – dedi Gülmar. Dayan, çoban, tək əldən səs gəlməz! Gözlə məni, qonşu obalara gedərəm, el gücü, sel gücü, deyiblər. İkimiz bir ordunun qəzəbinə tab gətirmərik. Qonşu obanın igidləri ilə dönənə kimi, məni gözlə, səbrini bas, çoban! Atı tərpətdi. Yarı yolda birdən geri döndü. Yəhərdən düşüb yanaqları bahar yağışları ilə dolan övladlarını öpdü. Göz yaşlarını çoban görməsin deyə, üzünü yana çevirdi. İçəridən göynəltisini boğdu: – Bir cüt bala əmanəti, çoban – dedi.

– Arxayın ol, qızım!

Günəş yanağından boylananda Qasım çoban müqəddəs Qaradaş dağının zirvəsinə çıxıb gündoğana boylandı, heç kəs gözünə dəymədi. Üzü günbatana baxanda qanı coşdu. Ensiz bir cığırla bir dəstə yağı, yəni erməni yürüşdə idi. Çoban komasına qayıtdı. Elin var-dövlətini arxaca* yığıb girəcəyi sal qayalarla bərkitdi. Gülmarın yuxulu qızlarını Qatar qayanın sağında-solunda gizlətdi. Təpə kimi daş yığdı, ox düzdü, qılıncını bağlayıb tütəyini götürdü. Köməksiz çoban dağlara bitişən qoşa qayaya arxalandı. Oxlar vıyıldadı. Yad dilli sözlər bir-bi-

rinə qarışmışdı. Çoban yaralanmışdı, qan gölməçələnirdi. Dünya çobanın gözlərində qaralmışdı. Yıxılmamaq üçün Qatar qayaya söykəndi. Daş qurtarmış, ox tükənmiş, qılınc parçalanmışdı. Çoban üç pudluq çomağına güvənirdi. Yağı dəstəsi çataçat idi. Çoban gücünü topladı, çomağı birdən hərlətdi, dördü birdən yıxıldı. Selin qabağında durmaq olardımı? Çalkeçidin[22] cığırlı dağları sinəsindən ermənilərə yol vermişdi.

Ağ saçlı pəri dağlar,
Heç bəri baxmır dağlar.
Yadlara məskən oldun,
Bir utan, əri, dağlar!

Dağ çoban Qasımın töhmətini götürmədi. Buludlar aralandı, küləklər at çapdı. Müqəddəs Qaradaş dağı hirslə tərpəndi. Daşlar silkələndi, ağaclar toppuz oldu, qayalar yumruq oldu, düşmənə qırğın gəldi. Çoban için-için ağladı, göz yaşları bütün vücuduna yayıldı. Sərin sular yaralarına mərhəm oldu, yanar bədəni soyudu. Qayadan aralandı, bu dəfə yaralarına məlhəm də olmadı. "Əmanətə xəyanət yoxdur" deyib, ayıq durdu, sayıq dayandı. Axşam sərinliyi iliyinə işləndi. Xain qəlbli ermənilərin bir dəstəsi çathaçatda idi. Tufana döndü, çoban ulu Tanrıya üz tutdu: – El töhməti ağır olur, – dedi. – Daşa dönüm, heç kimsə əl vurmasın əmanətə, elimizin nişanəsi itib-batmasın! Daşa döndü Qasım çoban! Gülmarın əmanəti olan qızlarını düşməndən qorumaq üçün qayalaşdı. Bu zaman ərənlər yetişdi, qayanın içərilərinə gedən yolu kəsdi.

El gücü sel gücü oldu. Ərənlər ermənilərі – yağıları darmadağın etdilər, obalara xəbər yayıldı, sağ qalanlar qayıtdılar. Gülmar çobanı, qızları axtardı.

Cığırlar dəyişilmiş, daşlar qalaqlanmışdı. Ana odlana-odlana dağlara baxdı, göynəyə-göynəyə daşların yan-yörəsinə

boylandı. Çoban dayandığı qayaya çatanda sevindi. Çoban çomağına söykənib dayanmışdı.

– Salam, çoban! – dedi, – gecmi gəldim, çoban? Çobandan səs çıxmadı. Ana hönkürdü, səsi daşlarda çilikləndi.

– Çoban, hanı mənim qızlarım? Niyə, daşa döndün?! Ana Qasım çobanın daş ayaqlarına çökdü. Bir azca aralıdakı lalələrin çiçəkləri xəfif-xəfif titrədi. Payızda lalə! Qasım çobanın sağında-solunda çiçəklənmiş lalələri görəndə Gülmar Ülkərinə oxşatdı, Zöhrəsinə bənzətdi, balalarının nəfəsini duydu. Ana inlədi. Dağların damarından süzülüb, daş çobandan yuxarı – aralı üzə çıxan zümrüd bulağın zümzüməsini eşitdi:

– Çoban Qasım əmanətə xəyanət etmədi!

Göyçənin "Çoban Qayası" bax, beləcə yaranıb (S:6;T:1).

AİLƏDƏ SİRR OLMAMALIDIR

Süleyman peyğəmbər ilə dünya gözəli Yəmən padişahı Bilqeys xanım bir neçə il idi ki, evlənmişdilər. Onların ailəsində sevgi, məhəbbət, biri-birinə hörmət olsa da, amma övladları olmurdu. Bunun üçün Bilqeys xanım gecə-gündüz dua edirdi Allaha! Bir gün o yenə dua edirdi. Qeybdən ona bir səs gəldi: Sənin duan qəbul oldu.

Doqquz ay keçəndən sonra duası nazil oldu Bilqeys xanımın. Uşaq yavaş-yavaş böyüməyə başladı. Bir müddət keçəndən sonra onlar gördülər ki, uşağın əlləri və ayaqları hərəkət etmir.

Bir gün Bilqeys xanım yuxuda gördü ki, yenə dua edir və deyir:

– Ey Ulu Yaradan, sən bizə bir uşaq vermisən, o da hərəkətsiz. Bu vaxt bir nurani adam ona deyir ki, sizin ailədə sirr olmamalıdır, ər-arvad arasında gizlin heç nə qalmamalıdır. Sü-

leyman peyğəmbərin gəliri, ailəsinin dolanışığı səbət toxuyub satmaqla olurdu. Səhərisi Bilqeys xanım Süleyman peyğəmbərdən soruşdu ki, sən səbəti satanda ürəyindən, könlündən heç bir şey keçmir?

O cavab verir: – Bəzən olur ki, deyirəm kaş ki, bir az çox pul verəydilər ya da ki, baha alaydılar.

Bu vaxt onlar gördülər ki, uşağın əlləri hərəkətə gəldi, əlləri ilə oynadı.

Bu zaman Süleyman peyğəmbər Bilqeyis xanımdan soruşdu ki, bəs sən hər gün şikayətçiləri qəbul edirsən. Elə olurmu ki, qəbula gələn şikayətçi kişilər arasından biri sənin nəzərini çəkir?

Bilqeys xanım deyir: – Düzdür, elələri olur, amma mən onlara o nəzərlə baxmıram. Çünki Süleymanım mənim, sən kişilərin ən yaraşıqlısı, gözəli, yaxşısı və mərdisən.

Bu vaxt uşağın ayaqları da hərəkətə gəlir və uşaq durub yeriməyə başlayır.

Bax, buna görə də, ailədə heç bir sirr olmamalıdır. Onda ailədə heç bir problem olmaz, ər-arvad xoşbəxt ömür sürərlər. Beləcə, bizim şöhrətli və səxavətli, xeyirxah Süleyman peyğəmbərimiz və dünya gözəli Yəmən padşahı Bilqeys xanım kimi (S:7;T:1).

HAQQ YERİNİ TAPAR

Musa peyğəmbər bir gün Ulu Tanrıdan rica edir ki, bir möcüzə göstərsin və deyir: O öz gözləri ilə Yaradanın möcüzəsini görsə, o bu haqda xalqa danışar. Xalqın ona inamı və ümidi daha da artar.

Ulu Tanrı cavabında bildirir ki, onsuz da xalq sənə inanır, sitayiş edir, inamı çoxdur, buna ehtiyac yoxdur. Amma Musa peyğəmbər çox xahiş edir və onu razı salır. Çox çəkmir

ki, həmin möcüzə baş verir. Onlar görür ki, bir atlı bulaq başında dayanıb. Bulaqdan su içmək üçün atdan düşür, özü ilə bərabər bir xurcunu – ləl-cəvahirətlə, qızılla dolu yerə qoyur. Su içdikdən sonra bir qədər öz yoluna davam edir. Amma bu zaman o, xurcunu unudur. Bir az keçdikdən sonra bir uşaq qoyun axtara-axtara gəlib ora çıxır. O da su içir və xurcunu da götürüb gedir. Bir müddətdən sonra isə bir qoca kişi bulaq başına gəlir, su içir, bir az dincəlir. Bu vaxt xurcunu unudan atlı geri qayıdır və başlayır qoca ilə dalaşmağa. Amma qoca andaman edir ki, o, xurcunu görməyib, indicə gəlib, heç nə də bilmir. Atlı hirslənib qocanı vurub öldürür və çıxıb gedir.

Musa peyğəmbər Ulu Tanrıdan bu gördüyü möcüzənin təfsilatını soruşur və deyir ki, o nə üçün belə etdi.

Ulu tanrı bildirir: Bax, o, atlının unutduğu xurcun qoyunları axtaran uşağın ailəsinin xurcunu idi. O gəlib xurcunu götürdü, tanıdı və apardı. Vaxtı ilə xurcunu o atlı onlardan oğurlamışdı.

O öldürülən qoca isə vaxtı ilə atlının atasını öldürmüşdü. Atlı da bilmədən vurub qocanı öldürdü. O bilmədən-tanımadan atasının qisasını aldı. Beləlikə, hər üç halda haqq öz yerin tapdı. Bax, mənim möcüzələrim bundan ibarət oldu.

Həyatda hər kəs möcüzəyə inanmalıdır. Hamı, hər kim olursa olsun, həyatın ibrət dərslərindən nümunə götürməlidir (S:6;T:1).

İSGƏNDƏRİN ÖLÜMÜ

İsgəndər qəflətən vəfat edir. Onu dəfn etmək məqamı gələndə onun anası daş atır, başın tutur ki, icazə vermərəm onu dəfn edəsiniz. Nə qədər ki, mən sağam, elə bir şey ola bilməz.

Nə qədər aqil adamlar, alimlər, münəccimlər, rəmdarlar yığışırlar, İsgəndərin anasını razı sala bilmirlər İsgəndəri dəfn etməyə.

Axırda bir aqil adam ona deyir:

– Əgər səndən bir zərrə qədər şübhəmiz olsa, söz bizimdir.

Aqil adam əmr edir ki, İsgəndərin meyidini və anasını bir otağa qoysunlar. Yeməк-içməyi, çörəyi-suyu meyidin üstündən assınlar, otağın da qapısını bağlasınlar.

Elə də edirlər. Bir neçə gündən sonra aclıq İsgəndərin anasına meydan oxuyur. O, aclığa tab gətirmir. Meyitin üstünə çıxır və asılmış yeməк-içməyi götürür. Pəncərədən bunu izləyən aqil adam və onun dəstəsi qapını açıb içəri girirlər. İsgəndərin anası meyitin üstündə donub qalır və bir söz tapa bilmir.

Aqil adamın arifliyi sayəsində bu ağılasığmazlıq aradan qaldırılır və İsgəndər dəfn olunur.

ƏMİR TEYMUR HAQQINDA RƏVAYƏTLƏR

I

Xalq arasında Teymur Ləng, Topal Teymur kimi tanınan Əmir Teymur deyilənə görə, Göyçə mahalını da fəth etmişdi. Elə ona görə də Göyçə mahalının mərkəzi Basarkeçər adlandırılmışdır, onun şərəfinə. Onun haqqında Göyçədə çox rəvayətlər söylənirdi. Onlardan bir neçəsini diqqətinizə çatdırırıq.

Onlardan biri odur ki, Teymur gənc vaxtlarında elə sürətlə qaçırmış ki, guya qaçarığına* ceyranı, cüyürü, maralı tutarmış. Ona görə də, ətraflarda bu heyvanlara rast gəlmək olmur. Bunu görən və bilən xain vəzir onun topuğunu oxla vurub, onu topal edib (Başqa versiyada isə, bunu onun atası edir).

II

İkinci rəvayət odur ki, Əmir Teymur Göyçə mahalını fəth edərkən gəlmələrin, yəni ermənilərin burda çox az, barmaqla sayılmaqlarına baxmayaraq, çox kinli, xain, bədxah olduqlarını görüb, bir üç aya mağaraya doldurur. Qapısına da

keşikçi qoyur və deyir ki, heç kimi nə çölə, nə də içəri buraxsın. Onlardan ikisini salamat qoyacam və gələcək nəsillərə çatdıracam ki, qoy gələcək nəsillər bilsinlər ki, dünyada necə bədxah, kinli tayfa var imiş, həm də çox satqın imiş.

III

Bir gün sora bir qancıq it orda gəzirmiş, keşikçilər ona əhəmiyyət vermir. Aradan bir az keçəndən sonra qancıq it, çoxlu it və küçüklər çıxıb mağaradan gedirlər.

Bir neçə gündən sonra Əmir Teymur gəlib mağaranı yoxlayır və ins-cins görmür. Keşikçilərdən soruşduqda, onlar ora heç kimin girib-çıxdıqlarını görmədiklərini dedilər. O çox təkid etdi. Nəhayət, keşikçilər ordan yalnız qancıqla, dalınca it və küçük sürüsünün çıxdıqlarını dedilər. O tez barmağını dişlədi, məsələnin nə yerdə olduğunu başa düşdü. Sən demə qancıq hansısa erməni imiş, o, ermәniləri əfsunlayıb it və küçük halına salıb çıxarıb. Bax, beləcə də ermənilər qancıq nəslindən əmələ gəliblər.

IV

Əmir Teymurun arvadı xəstələnir. Onun on iki münəccimi var imiş. Onları çağırıb onlara əmr edir ki, onun arvadını sağaltsınlar. Onlar baxıb görürlər ki, əlac yoxdur. Amma yenə də ümidlərini kəsməyib Allaha yarvarırlar ki, onların ömürlərindən kəsib ona ömür versin. Allah onların duasını və yarvarışlarını eşidib Əmir Teymurun arvadına daha on iki il ömür verir, münəccimlərin hərəsinin ömrünün bir ilini almaqla (S:8;T:1).

HACI NAĞI RƏVAYƏTLƏRİ

Göyçə mahalının Kərkibaş[23] kəndində yaşamış Hacı Nağı, həm də loğman Hacı, təbib Hacı kimi adlarla tanınmış,

elin-obanın hörmətini qazanmış, adına bir çox rəvayətlər və əfsanələr qoşulmuşdur.

Bir dəfə bir neçə nəfər Sarıyer yaylağından bir gənc xəstəni onun yanına gətirirlər. O, oğlana baxıb deyir ki, mən onu sağalda bilmərəm, ona ümid yoxdu. Olar xəstə oğlanı ümidsiz halda geri qaytarmalı olullar. Olar yolda bir qayanın altında dincəlməli olur. Qayadan bulanıq su axırmış. Oğlan yalvarır ki, o sudan ona versinnər. Elə də edillər, o, bir neçə dolça bu sudan içir. Oğlan deyir ki, su çox məzəli dad verir və qoxusu var. Olardan biri qayanın başına çıxır və nə görsə yaxşıdı: Xeyli yuxarıda qar əriyir, suya dönür, danaqıran çiçəyi də suyun axarında, bir ölmüş ilan da suyun içində.

Bir müddət keçəndə oğlan sapa-sağlam olur. Xəstə oğlanı gətirib Hacıya deyillər ki, sən dedin, buna ümid yoxdu. İndi gör, necə də sağlamdır, hələ də yaşiyır. Hacı da deyir: Mən hardan alaydım, ərimiş qar suyu, içində də danaqıran çiçəyi, ölmüş ilanla zəhərlənmiş, özü də peyinin içindən axan... (S:9;T:1).

***

Bir dəfə elə olur ki, Hacının öz oğlu xəstələnir və bu xəstəlikdən də ölür. Hacı özü də bilmir ki, oğlunun dərdi nə imiş. Bir gün həyat yoldaşı həyətdə paltar yuyurmuş, orda da sabınnı su qalıbmış. Bı vaxtı bir qurbağa atlanıb sabunlu suya düşür və orda da ölür. Bu mənzərəni görən Hacı Nağı o saat fikrə gedir ki, oğlunun nədən öldüyünü niyə indiyədək bilməyib. Deyilənə görə, bunun səbəbini tapsa da, Hacı ölənədək bu sirri heç kimə açıb demir (S:10;T:1).

***

Bu rəvayətin bir başqa variantında deyilir ki, Hacının bir oğlu olubmuş, o da xəstəlikdən ölür. Hacı bunun səbəbini bil-

mək istiyir, amma tapammır. Axırda məjbur olur, oğlunun meyitini yarır. Yaranda görür ki, oğlunun ürəyinə hərrəmə tük dolanıb. Deyilənə görə, Hacı bunnan çox peşman olub və deyibmiş ki, əgər oğlu yorğa at çapsaydı, o tük ordan qırılıb düşərdi, ölümnən xilas olardı.

***

Bir dəfə də ölümcül hala düşmüş bir xəstə oğlan uşağını onun yanına gətirirlər. Sağalacağına da ümiddəri yoxmuş. Hacı uşağı gətirənnərə deyir ki, bını verin mənə. Uşax da ət kimi olur, pambığın içində bəstillərmiş uşağı. O vaxtı artıq Hacının oğlu ölmüşdü. Fikirrəşir ki, sağaldıb oğulluğa götürərəm bını. Gətirir quru torpağın üstündə yatırdır bını, başının altına da daş qoyur, balınc əvəzi. Uşaq bir ilin içində tam sağlam olur. Aparanda valdeynnəri Hacıya dellər ki, bını sən həyata qaytardın, oğlun yoxdu, qoy bu uşaq sənin oğlun olsun. Və təkrar uşağı verirlər Hacıya. O da uşağı oğulluğa götürür (S:11;T:1).

QARADAŞ DAĞI

Göyçə mahalının Basarkeçər rayonunun Qoşabulaq kənd yaylağının ən uca zirvəsi olan Qaradaş dağı haqqnda bir çox olaylar, rəvayətlər, əfsanələr dolaşmaqdadır.

Dağın ən uca zirvəsində dupduru, dişgöynədən bir bulaq axırdı. Bu bulaq müqəddəs ocaq sayılırdı, 1988-ci ilə kimi. O vaxtlar rayonun hər yerindən azərbaycanlılar və kürdlər bura ziyarətə gəlir, qurban kəsərdilər. Kimin nə arzusu var idi, hasil olardı, xəstələr isə şəfa tapardı. Yüzlərlə belə misal gətirmək olar.

Bulaq üç ay axardı, sonra isə kəsilərdi hər il. Deyilənə görə, hardansa bir erməni gəlib bu bulaqdan su içir. Həmin

vaxtda bulaq quruyur, çünki suya haram əl toxunduğu üçün. Müqəddəs suya haram və nankor toxunsa, belə olur həmişə. Ermənilər harda müqəddəs sudan içsələr, toxunsalar, su həmişəlik quruyur. Çünki olar yad, gəlmə, haram və xaindilər. Həm də gözləri heç vaxt doymur.

Xatırlatma. 2000-ci ilin əvvəllərində Bryansk vilayətində (Rusiya) Zukovka rayonunun Foşnya kəndində bir gur bulaq axırdı. Onun suyu ilə bir neçə dəyirman işlətmək olardı. O da müqəddəs sayılırdı. Nəinki vilayətdən, hətta başqa vilayətlərdən gəlib bu sudan içir, çimir, doldurub aparırdılar. İllərlə bu suyu aparıb saxlayır, evlərə çiləyir, içirdilər. İllər, aylar da keçsə, bu qoxumaz, iylənməzdi, sanki indicə bulaqdan doldurubsan. Biz də həmişə bu sudan istifadə edərdik, orada yaşadığımız vaxtlar.

Elə həmin illərdə haradansa bir Bakı ermənisi gəlib çıxdı və orada yaşamağa başladı. Adını, familiyasını dəyişən bu erməni də sudan içən kimi həmin bulaq tamamilə qurudu. Sanki burada nə bulaq olmuşdu, nə də su axırdı. Əvvəllər Qaradaş bulağının hadisəsi bizə yuxu kimi gəlir, əfsanə hesab edirdik. Amma Foşnyada olan bulağın hadisəsini gözlərimizlə görəndə başa düşdük ki, olaylar necə əfsanələrə, rəvayətlərə dönür.

QANLI ÇÖKƏK

I

Göyçə mahalının Daşkənd və Qırxbulaq (Sovet dövründə dəyişdirilərək ermənicə Aqunq, yəni "bulaq" qoyulmuşdur) kəndlərinin arasında, Kefli kəndinin xarabalıqlarının yaxınlığında ən böyük çökək Qanlı çökək adlanır.

Deyilənə görə, 1918-ci ildə bu çökəklikdə erməni faşistləri üç mindən çox müsəlman gördüklərini qanlarına qəltan

edərək vəhşicəsinə öldürmüşlər. Bu qətliamda faşistlər qoca və uşaq, qadın və xəstə – heç kimə məhəl qoymayaraq güllə-bəran etmişlər. Qətliamdan təsadüfən yalnız iki nəfər sağ-salamat qalmışdı. Onlardan biri ağbirçək qarı meyitlərin arasına düşüb, on altı-on səkkiz yaşlarında oğlan var gücü ilə qaçıb, qadını qurtarıb. Sonra gecə qayıdıb gəlib. O, qadını –qarını tanıyıb. O həmin adam 60-70-ci illərdə, ahıl yaşlarında bu faciəni bizlərə söylərdi. Adama elə gəlir ki, bu hadisə sanki dünən olub. Çünki 1988-ci ilə kimi bu yerə Qanlı çökək deyirdilər və hələ də insan sümükləri ilə dolu idi ora. İllər keçsə də, Göyçə-Kəlbəcər aralığındakı Sümüktökülən kimi o da 1918-ci il hadisələri kimi yaddaşlarda qalıb.

QANLI DƏRƏ

II

(Geniş variant)

Göyçə mahalının Basarkeçər rayonu Qırxbulaq kəndi ilə (vaxtı ilə Qırxbulağa gəlmiş tayfanın adı verilmiş kənddir. Sonralar azərbaycanlılar qovulmuş, xaricdən gələn ermənilər burada yerləşdirilmiş, kəndin adı ermənileşdirilmiş, Aqunk, ermənicə bulaq qoyulmuşdur) Daşkənd arasında keçmiş xarabalıqları duran Kefli kəndinin yaxınlığında bir dərə var idi. 1988-ci ilə kimi bu dərə Qanlı dərə adlanırdı.

1918-ci ildə bütün Qafqaz, Türkiyə, İranda müsəlmanları qıran ermənilər faşistsayağı planlarını alman faşizmindən betər Göyçədə həyata keçirmişlər. Bu qırğında təkcə azərbaycanlılar deyil, müsəlman kürdləri də soyqırıma məruz qalmışlar. Azərbaycan kəndləri ilə yanaşı, kürd kəndləri də qaniçən, yadelli, gəlmə, qaxtağan[24] ermənilər tərəfindən hücuma məruz qalıblar.

1918-ci ildə canlarını erməni qəsbkarlarından qurtarmaq, həmin Qırxbulaq-Daşkənd kəndləri arasındakı bu dərədə dincəlmək istəyən müsəlman kürdlərini burada yaxalayan ermənilər üç mindən çox əhalini – qoca, cavan, uşaq, qarı, körpə, xəstə bilmədən güllələbaran etmişlər. Elə həmin vaxtdan həmin dərə Qanlı dərə adlanırdı. Bu qətliamdan yalnız iki nəfər təsadüfən sağ qalıbmış. Biri qoçaq bir oğlan ermənilərin güllələbaranına baxmayaraq, var gücü ilə, ölümün gözünə dik baxaraq qaçıb canını qurtarmışdı. Bir də bir qarı təsadüfən meyidlərin altına düşərək sağ qalıbmış. Həmin qarını bir neçə gündən sonra qayıdıb gələn həmin on beş, on altı yaşlarında olan oğlan tapıb. Sonralar həmin oğlan yetmiş, yetmiş beş yaşlarında olarkən biz uşaqlara danışmışdı, bunlar bizim yaddaşımıza belə hopub qalıb.

Həmin dərədə biz də olmuşuq. Düzəndi, həndəvərində uşaqikən qoyun-quzu otarardıq. Hələ də qan qoxusu gələrdi, neçə-neçə illər keçməsinə baxmayaraq, özü də insan sümükləri ilə dopdolu idi, qanürpədici, tükürpədici, qorxunc idi. Belə insan sümükləri ilə dolu olan başqa bir dərə – Sümüklü dərə – Şəhidlər dərəsi Göyçənin Ağkilsə yaylağından – Qullubulaqdan düz Kəlbəcərin Dik Yurd yaylağına kimi idi. Bir neçə kilometrə çatan bu dərədə də yağış yağandan sonra insan sümükləri görünürdü. Bu da bəlkə min, on min göyçəlinin – insanın şəhid olması anlamına gətirib çıxarır. Bu dərə haqqında Məmməd Aslan çox yazıb. Yaxşı olardı ki, həmin o "Şəhidlər dərəsi"ndə bir abidə ucaldılsın, ya da heç olmasa bir lövhə yazılıb qoyulsun (S:10;T:2).

NAĞILLAR

ALLAH YAZANI POZMAQ OLMAZ

Biri var idi, biri yox idi. Bir odunçu var idi. O, meşədə odun qırıb gətirir evə, sonra bazarda satıb ailəsini dolandırırdı. Bir gün odun qırarkən, bir kötüyün içində gizlədilmiş halda bir neçə kiloqram qızılı kötüklə birlikdə evə gətirir. Amma, yuxuda görür ki, bir nurani qoca kişi ona deyir ki, qızıl ona yox, qonşu kənddə filankəsə çatacaq, onun qismətidir. Odunçu Allah adamı idi, Allaha çox inanırdı, çox dindar idi. Ona görə də, odunu bir müddət həyətində saxlayır, işin axırını gözləyir. Bir gün möhkəm yağış yağır, sel gəlib həyətə dolur, qızıl dolu kötüyü də aparır. Kişi kötüyü axtarmağa gedir və kötüyü həmin yuxudakı adamın həyətində görür. Əhvalatı ona danışır. Həmin adam buna razı olmur, deyir ki, ata malı kimi yarı bölək. Ancaq odunçu razı olmur. Onda həmin adam arvadı ilə məsləhətləşib odunçunun torbasına bir neçə çörək qoyur, çörəyin içində də qızıl. Odunçunun yolda ayaqqabısı cırılır, yırtılır. O gedir ayaqqabı təmiri ustasının yanına, amma pulu olmadığı üçün pul əvəzinə həmin çörəkləri ustaya verir. Ustanın ailəsi pul borclu olduğundan aldığı çörəkləri qonşusuna verir. Həmin qonşu da kim olsa yaxşıdır, hansı ki, sel gətirib həyətinə qızıl dolu kötüyün əvəzinə içi qızıl dolu çörəyi odunçuya vermişdi. Onlar görür ki, qızıl qoyduqları çörəkdir. Ər-arvad başa düşürlər ki, həqiqətən Allah nə versə, o da olacaq. Allah bilən hamısından əzəldir. Haqqın-ədalətin zəfər çağı deməkdir. Allah yazanı pozmaq olmaz, hər vaxt, hər zaman bunu bilin! (S:12;T:1).

ŞEYTANIN ƏMƏLİ

Bir gün Allahın qovduğu şeytan Mələk Tovuz adam cildinə girərək, gedərkən yolda bir bəni-insana rast gəlir. Söhbət zamanı Mələk Tovuz deyir ki:

– Allahın qəzəbinə tuş gələn yeganə mələyəm. Bircə günaha görə qovulmuşam. Bəs sən kimsən? Nəçisən? Hardan gəlib, hara gedirsən?

Bəni-insan dedi ki:

– Mən insan-şeytanam, özüm üçün gəzirəm, boş-bekar dura bilmirəm. Şeytançılıq eləməsəm, dözə bilməm.

Mələk Tovuz dedi:

– Sən insansan, əsl şeytan mənəm.

O dedi, bu dedi, axırda mərc gəldilər ki, kim güclüdür, kim qalib gələcək? Nə isə, uzun sözün qısası, hərə bir tərəfə üz tutdu, amma sözləşiblər ki, yenə harada gəlib görüşsünlər.

Bəni-insan şəhərə gedib bir dükanın qarşısında yazıq-yazıq durdu. Dükanın sahibi cavan oğlan idi. O, şeytan xislətli olan bəni-insanı görüb, onun yazıq-yazıq durmasına dözə bilməyərək onun yanına gəlib soruşdu:

– Kimsən, nəçisən?

Şeytan xislətli insan dedi:

– Şəhərə təzə gəlmişəm, kimsəsizəm, heç kimim yoxdu.

Dükan sahibinin ona yazığı gəlib dükana apardı, yaxşı yedirtdi, geyindirdi. Bəni-insan bir neçə gündə tacirin gözünə elə girdi ki, ona etibar etməyə başladı.

Bir gün tacir iş üçün onu evə göndərdi. O, gəlib tacirin təzə evləndiyi arvadını gördü. Bir az söhbətdən sonra o dedi ki:

– Mənim sənə yazığım gəlir. Sənin kimi gözəl, namuslu, qoçaq arvadı alan tacir qonşuluqda bir gəlinlə sevişir, onlara gedib-gəlir. Tacirin arvadı taciri həddən artıq sevirdi. Ona görə gəlin dedi:

– Axı mən onu qəlbən çox sevirəm. Onsuz bir günüm olmasın, onsuz yaşaya bilməm.

Yalanın baş tutduğunu görən şeytan xislətli insan dedi:

– Axşam o evə gələndə ülgücü götür, onun bığlarını qırx. Onun sevişdiyi qız sənin ərini bığlarına görə sevir.

O, dükana qayıdıb gələndə taciri də aldatdı:

– Sən çox yaxşı adamsan. Amma sənin arvadın sənə xəyanət edir, mən onu sənin evində oğlanla gördüm, onlar sözləşdilər ki, gecə arvadın səni öldürsün. Ülgüclə sənin başını kəsəcək.

Tacir evə gəlib heç nə demədi, yatanda özünü yuxuculluğa vurdu. Bir azdan gördü ki, arvadı ülgüclə ona yaxınlaşır. Tacir elə qəzəblənib arvadın vurdu ki, arvadı o dəqiqə öldü. Həmin şeytan-insan qaçıb arvadın qardaşlarına xəbər verdi ki, bəs:

– Tacir bacınızı öldürdü.

Tacirin qayınları gəlib taciri öldürdülər. Tacirin qohumları da eşidib gəldilər. Nə isə bərk dava düşdü, qan su yerinə axdı, vuran vuranın, öldürən öldürənin oldu. Şəhər bir-birinə qarışdı.

Şeytan-insan qaçıb görüşəcəkləri yerə gəldi. O, gördü ki, əsil şeytan – yəni, Mələk-Tovuz bir ağacın dalında gizlənib sakitcə nəyəsə tamaşa edir. İnsan-şeytan əsil şeytana dedi ki:

– Burda nəyə durubsan, gəl gedək şəhərə. Gör şəhərə nə divan tutmuşam.

Əsl şeytan dedi:

– Səs-küy salma, bax, ora, o qızın qəlbinə girmişəm. Ona görə də, o oğlan nə qədər ona yalvarırsa, qız ona rədd cavab verir, razı olmur oğlanın onu sevməyinə.

İnsan-şeytan dedi:

– Səninki elə budu, mən də elə bilirəm, şeytanlıq eləməyi bacarırsan. Heç nə edə bilmirsən!

İnsan-şeytan məcbur əsl şeytanı darta-darta gətirib hadisələr baş verən yerə çıxartdı. Mələk-Tovuz bunu görüb dəhşətə gəldi, onu vahimə basdı.

Bir azdan özünə gəldi və insan-şeytana dedi:

– Vay-vay, şeytan-insanlar, sizlər nəyimişsiniz? Doğrudan da, sizdən çox-çox qorxmaq lazımdır. Siz bizdən on qat, yüz qat yox, min dəfə, milyon dəfə artıq şeytansız, vəhşisiniz, paxıl, qaniçənsiz. Dad, min dad sizin əlinizdən. Sizləri ki, belə gördüm, min şükür Allaha ki, biz belə deyilik. Siz bizdən betərsiniz. Sizlərə daha sözümüz yoxdur. Sizləri belə gördüm, daha buralara gəlməyə, getməyə ehtiyac yoxdur. Sizin kimiləri var burda, bəsdi.

Allah bütün şeytanlara lənət eləsin! (S:10;T:2).

ŞEYTAN VƏ FİRON

Bir gün şeytan insan cildinə girib gəlib fironun qapısını döydü, firon içəridən dedi:

– Kimsən, nəçisən?

Şeytan dedi:

– Allah qonağı.

Firon dedi ki, qapı açıqdı, keç içəri. Şeytan qapını açıb içəri girdi və dedi:

– Sən özünü Allah sayırsan? Sən necə Allahsan ki, bilmədin kimdi, nəçidi? Amma Allah hər şeyi bilir, hər şey Allaha agahdı, Allahdan gizlin heç nə ola bilməz. İkimiz də məlunuq, ikimizin də yeri cəhənnəmlikdi. Mən qovulmuş mələk, sən isə özünü Allah hesab eləyən məlun.

Firon dedi:

– Nə etsək ki, ikimiz də bir əməlin sahibiyik, Allah yolundan çıxmış, əməllərini azan məlunlarıq. Bundan sonra heç nə edə bilmərik, cəhənnəm bizim üçün hazırdı, bizi gözləyir.

Şeytan dedi:

– Yox, bizdən də betərləri var, biz onlara baxanda şükürlüyük. Səni bilmirəm, mən bircə dəfə yolumu azdım, günah

işlətdim, Allah məni qovdu, məni bağışlamadı. Amma eləsi var ömrünün əvvəlindən sonuna kimi günah işlədə-işlədə yaşayır.

Firon soruşdu:

– O necə olur?

Şeytan dedi:

– Yenə bir dəfə insan cildinə girdim ki, gedim görüm dünyanı fırlanım, görüm nə var, nə yox. Gedib bir kətdə bir qarının qonağı oldum. Kimsəsiz, heç kimi, heç kəsi olmayan, uşağı-əri, qohumu-əqrəbası olmayan bir qarı bir daxmada yaşayır. Hər axşam bir inəyi olan qonşunun uşağı ona bir qab süd və çörək gətirib verirdi. Qonşunun hesabına yaşayan qarıya çox yazığım gəldi, dedim, ölümdən başqa nə desən eləməyə gücüm çatır, əlimdən nə desən gəlir, sən nə arzun var de, eləyim. Qarı nə desə yaxşıdır?

Firon soruşdu:

– Nə dedi qarı?

Qarı dedi ki, bacarırsan qonşunun inəyini öldür. Dedim, a qarı, axı qonşu sənə pislik eləmir, əksinə, hər gün inəyi sağıb sənə süd və çörək verir. Niyə belə?

Qarı dedi:

– Qonşunun inəyini döşü südlü, kök, gümrah görəndə ürəyim partlayır, paxıllığımdan gündə yüz dəfə ölüb-dirilirəm, diri-diri.

Görürsənmi, a firon, bizdən betərlər, pislər olanlar da var. Bax, gör biz necəyik, onlar necədirlər? Nə olsun ki, biz cəhənnəmliyik, onlar da cəhənnəmlikdi.

QUZU VƏ CANAVAR

Bir quzunu canavar tutub yemək istəyir. Quzu çox yalvarır ki, o, dünyaya təzə gəlib, onu buraxsın. Çox yalvarışdan sora canavar quzunu buraxır.

Aradan bir ay keçir. Yenə də quzu ilə canavar rastlaşır. Canavar soruşur:

– İndi sözün nədir?

Quzu cavab verir:

– İndi söz sənindir, nə deyə bilərəm?

Qışda yazı gözləyirik, yazda isə qışın qayğısı ilə yaşayırıq. Təkrar, təkrar eyni şeylər. İndi kefin necə istəyir elə də elə. Bunu eşidən canavar bir göz qırpımında quzunu parçalayıb yeyir.

BÜLBÜL VƏTƏNDƏ

Bir bülbülü gətirib qəfəsə salırlar. Bülbül o gündən bəri nəğmə oxumağı tərgidir və günü-gündən saralıb solmağa başlayır. Ona nə qədər nəvazişlə və ürəklə qulluq etsələr də xeyri olmur. Axırda saray adamlarından biri bülbülü qəfəsdən açıb buraxılmasını təklif edir. Onun təklifini bəyənirlər və bülbülü açıb buraxırlar. Amma onu izləməyi də unutmurlar. O, qəfəsdən buraxılan kimi qara bir tikanlığa uçur və o dəqiqə də sevinc ilə oxumağa başlayır: Vətənə gəldim, dinə-imana gəldim.

Bəli, Allah heç kimə vətən həsrəti gətirməsin. Axı hər şeyin hüdudu var. Vətənin də sərhədi var. Amma vətən sevgisinin nə hüdudu var, nə sərhədi var. Bu sevgi sonsuzdur. Özü də bu nəinki insanlarda, hətta belə, heyvanlarda çox güclü hissdir (S:5;T:1).

QADININ GÜNAHI

Bir qadın çörək bişirirmiş. Baxır ki, uşağı ağlayır. Sən demə uşaq özünü bulayıbmış. Qadın tənbəllik elədiyindən uşağı aparıb başqa yerdə su ilə təmizləmir. O, rəftə* ilə uşağın bulaşığını təmizləyir. Bu, Ulu Tanrıya çox ağır gedir, bu qa-

dını daş eyləyir. Buğdanı və çörəyi ərşə çəkir. Ən çox aclıq çəkən itlər üzlərini səmaya tutub ulayır və yalvarırlar ki, insan bu əmələ görə cəza çəkməsin. Ulu Tanrı itlərin bu yalvarışlarını eşidib dünyanın bu əziz nemətlərini – buğdanı, çörəyi təzədən yer üzünə qaytarır. Ona görə də deyirlər ki, dünyadakı əvəz olunmaz çörəyin qədrini bilin. Gərək çörək bişirəndə itə də pay verəsən. Çünki bu pay itindir. Bu ruzi yerə düşəndə onu gərək öpüb göz üstünə qoyasan, onun müqəddəsliyini unutmayasan.

MOLLA VƏ POZĞUN QADIN

Molla və pozqun qadın birlikdə ziyarətə gedirlər. Onlar bir kənddən keçərkən bir evdən uşaq ağlaması eşidirlər. Qadın ona deyir ki, gəl, gedək, baxaq, görək uşaqlar niyə ağlayır. Molla qadına cavab verir ki: Mən dəstədən geri qala bilmərəm, mənim nə işimə qalıb ki, uşaqlar niyə ağlayır. Qadın nə qədər deyirsə, molla inadından dönməyib yoluna davam edir. Qadın isə qapını döyür, sonra isə içəri girir. O görür ki, ocağın üstündə qazan qaynayır. Yanda isə uşaqlar anaları ilə toplaşıb ağlayır. Ana sakitləşdirməyə çalışsa da, uşaqlar yenə ağlayır. Yolçu qadın qazanı açıb baxır ki, sudan və daşdan başqa heç nə yoxdur. O məsələni başa düşür və yola götürdüyü ərzaqla uşaqları yemləyir. Sonra isə öz pulu ilə bazara gedib onlara paltar və yemək-içmək alır. Pulu qurtardığı üçün ziyarətə getmir. Molla dəstəsi ziyarətdə görür ki, həmin pozğun qadının şəkli oradadır. Onlar çox məəttəl qalırlar. Qadın yetim və aca əl tutduğu üçün bu möcüzə baş verir.

Dünyada bundan savab və xeyirxah nə ola bilər. Qoy Allah hamının ürəyinə mərhəmət hissi gətirsin (S:13;T:3).

KƏMƏRBƏNDİ

Deyirlər, muğam xəstəsi olan bir padşah günlərin birində baş vəzirini yanına çağırıb dedi:

– Vəzir, gərək mənə, elə bir xanəndə tapıb gətirəsən ki, bütün yer üzündə tayı-bərabəri olmasın. Səsindən göydə uçan quşlar qanad saxlasın. O, oxuyanda 7 ağacdan avazı gəlsin.

Vəzir gördü yox, bu hana o hanadan deyil, o, pis yerdə axşamlayıb. Fikirləşdi ki, mən bədbəxt oğlu heylə oxuyanı haradan tapıb gətirim? Odur ki, şahı fikrindən daşındırmaq üçün dedi:

– Qibleyi-aləm sağ olsun, məmləkətimizdə nə qədər məşhur oxuyan varsa, hamısı şan-şöhrətli şahımın möhtəşəm sarayına toplaşıb. Şah sarayının xanəndələrinə tay ola biləcək bir oxuyan nəinki məmləkətimizdə, heç onun hüdudlarından kənarda da ola bilməz.

Lakin şah iki ayağını bir başmağa dirəyib dedi:

– Vəzir, sənə qırx gün möhlət verirəm. Əgər mən deyən oxuyanı tapa bilməsən, saraya qayıtma.

Yazıq vəzir daha nə edə bilərdi?! Odur ki, yol tədarükü görüb elə həmin gün səfərə çıxdı. Şəhərləri, kəndləri bir-birinə vurdu, neçə-neçə toy məclislərində, şənliklərdə oldu. Ancaq qəlbinə yatan bir xanəndəyə rast gəlmədi. Ümidi hər yerdən kəsilən vaxtda gəlib çıxdı bir meşənin kənarına. Bu vaxt qulağına bir oxumaq səsi gəldi. Vəzir səs gələn səmtə tələsdi. Bir xeyli gedəndən sonra baxdı ki, cavan bir çoban özünü verib qoyun sürüsünün qırağına, əlini qulağına qoyaraq vallahi-billahi bir zəngulələr vurur, bir oxumaq oxuyur ki, gəl görəsən.

Vəzir sevincindən bilmədi nə etsin?! Axtardığı yar idi, yetirdi pərvərdigar – deyib özünü verdi çobanın yanına. Salam-kəlamdan sonra dedi:

– Çoban qardaş, mən filan padşahın vəziriyəm. Qibleyi-aləmin hökmü ilə bu saat mənimlə saraya getməlisən!

Bundan sonra məsələni olduğu kimi çobana dedi, çoban işdən agah olub dedi:

– Vəzir başına dönüm, bəs mən bir kəlmə də olsun söz bilmirəm.

Vəzir çobana ürək-dirək verdi və dedi:

– Onun fikrini eləmə, çoban qardaş, orası mənim boynuma.

Padşahı muğam bilicisi olanın vəziri gör nə olardı?! Nə isə, vəzir çobana bir neçə təsnif öyrətdi, zilini-bəmini başa saldı, axırda da dedi:

– Oxuduğun hər təsnifin, hər vurduğun zəngulənin adını şah səndən soruşacaq. Odur ki, hər vaxt gözünü məndən çəkmə.

Vəzir çobanı saraya gətirdi. Bəli, padşahın əmrilə sazəndələr yığıldı, çoban başladı vəzirin öyrətdiyi yolla oxumağa. Çobanın səsi həqiqətən saray əhlini valeh etdi. Gözəl və məlahətli səsdən feyziyab olan şah arabir soruşurdu:

– Onun adı nə oldu, çoban?

Belə vaxtda çoban tez baxırdı vəzirə. Vəzir də şərtləşdikləri kimi qoyurdu əlini əbasının düyməsinin üstünə. Dərhal çoban deyirdi: Şah sağ olsun, "Hüseyni"dir. Vəzir əlini başına qoyanda bilirdi kı, bu "Vilayəti"dir. Yox, əgər vəzir əlini sinəsinə qoysaydı, çoban dərhal bilirdi ki, oxuduğu muğam hissəsinin adı "Gərayi"dir. Şah hər dəfə bu cavabları aldıqca razılıq əlaməti olaraq deyirdi: – Bərəkallah!

Nəhayət, muğam dəstgahının axırına yaxın çoban elə bir zəngulə vurdu ki, saray əhlinin heyrətdən gözləri böyüdü. Handan-hana özünə gələn şah bu təkrarolunmaz zəngulənin adını soruşdu. Çoban vəzirə baxdı. Ömründə belə bir şey eşitməyən vəzir gözlərini döyə-döyə qaldı, əllərini cütləyib

kəmərinin üstünə qoydu, çiyinlərini çəkib sanki demək istədi, bilmirəm ay çoban! Çoban dərhal fikirləşmədən dedi:

– Şah sağ olsun, Kəmərbəndi!

TACİR VƏ DOSTU

Bir dəfə bir tacirin evinə dostu qonaq gəlir. Axşam yeməyi zamanı nədənsə çıraq sönür. Tacir tez qaranlıqda kürd dostunun əlini tutur ki, o heç bir şey yeməsin, heç bir hərəkət etməsin. Dostu isə nə qədər əlləşirsə, onun əlindən qurtula bilmir. Sonra tacirin arvadı təkrarən çırağı yandırdıqda, dostu heç bir təkidə baxmayaraq çıxıb gedir. Gedən zamanı isə tacirə deyir:

– Səndən heç vaxt dost olmaz. Sən qaranlıqda dostunu itirdin. Əgər sən qaranlıqda əsil, sadiq dostunu itirirsənsə, işıqda onu tapa bilməzsən. Çalış, qaranlıqda dostunu itirməyəsən ki, işıqda axtarmayasan (S:7;T:1).

O AĞILNAN – BU AĞILNAN

Bazardan çıxıb kəndlərinə qayıdan cavan bir oğlan qoca bir kişiyə yoldaş olur. Oğlan görür ki, qoca kişi eşşəyin belinə iri bir xurcun aşırıb. Bu xurcunun bir gözünə buğda yığılıb, o biri gözünə çaylaq daşı. Oğlan qalır mətəl ki, qoca bunu bazardan alıb aparır. Xeyli tərəddüddən sonra oğlan bu sirrin mənasını qocadan soruşur:

– Ay oğul, belə eləmişəm ki, buğda eşşəyin belini bir tərəfə əyməsin. Bir növ tarazılıq eyləmişəm.

Oğlan gülüb deyir:

– Ay dayı, elə buğdanı iki yerə bölə bilməzdin?

Qoca əlini başına aparıb deyir:

– Heç ağlıma gəlməyib, ay bala!

Bundan sonra köməkləşib, xurcunu eşşəyin belindən alıb qoyurlar yerə. Qoca başlayır xurcunun daş olan gözünü boşaltmağa. Cavan oğlan qocaya ağıllı görünür. Odur ki, daşları boşalda-boşalda soruşur:

– Ay oğul, inəkdən-qoyundan, atdan-eşşəkdən nəyin var?

Oğlan deyir:

– Bir atım, bir öküzüm, beş-altı da qoyunum var.

Bu vaxt qoca əlini saxlayır, təəccüblə oğlana baxıb deyir:

– Ay bala, o ağılnan sənin bir atın, bu ağılnan mənim iki atım var, o ağılnan sənin bir öküzün, beş-altı qoyunun var, bu ağılnan mənim iki öküzüm, iyirmi-otuz qoyunum var. Yox, oğlum, öz işimi öz ağlımla tutsam yaxşıdı.

Qoca belə deyib, təzədən daşları yığır xurcunun gözünə (S:14;T:2).

SİÇAN VƏ QURBAĞA

Siçan çayın qırağında yuva salmışdı. Qurbağa da çayda, suda yaşıyan cannıdı. Bunnar çıxıllarmış, özdərini günə verirlərmiş. Siçan yuvasınnan çıxırmış, qurbağa da sudan çıxırmış. Bunnar deyir ki, əşi, onsuz da çıxırıx həmişə bura, tay belə məsləhətdəşək ki, özümüzü günə veririk, gəl dost olax. Kimə lazım olsa bildirsin, çıxsın. Deyir, neyniyək? Siçan deyir ki, gəl hər ikimiz əyağımıza kəndir bağlıyax. Sənə lazım olanda sən kəndiri çəkərsən, mən çıxaram, mənə lazım olanda mən kəndiri çəkərəm, sən çıxarsan.

Siçan da, qurbağa da əyaxlarına kəndir bağlıyıllar, qurbağa suda, siçan da quruda yaşıyıllar. Günnərin birində qurbağa suda olur, amma siçan çıxıb çayın qırağında hərrənəndə qartal yuxarıdan görür bunu, şığıyır, qartal siçanı götürür. Siçanı götürəndə (axı qurbağaynan siçanın əyağı kəndirnən bağlı-

dı bir-birinə), qaldırır göyə, qurbağa da sudadı axı, o dəyqə sudan çıxır, başdıyır göydə çabalamağa. Siçan deyir ki, ay qurbağa qardaş, bax, məni qartal aparır, gedir. Bəs sən harıya gedirsən? Sən niyə gedirsən? Deyir, mən də dost yolunda gedirəm.

Yəni axı bunnar dostuydu bir-birinə. Siçan quruda, qurbağa da suda, o dəqiqə çıxır da. "Mən də dost yolunda gedirəm," – deyir. Bu da dostluğun nəticəsi.

QOCA VƏ DİVAR

Bir qoca varımış, bir köhnə evdə yaşıyırmış. Hər ikisinin vaxtı keçmişdi. Qocanın ölümü yaxınnaşırmış. Divar da o qədər köhnəymiş, artıx uçmağa meyilliymiş. Nəsə bunnar şərtləşillər, deyillər, gəl dost olax. Qoca deyir, mən ölsəm, sənə bildirərəm, divar deyir, mən də uşsam, sənə bildirərəm. Bunnar dostlux eliyillər, bir müddət yaşıyıllar.

Günnərin birində divarda bir çart əmələ gəlir, qoca durur o çartı palçıxnan örtür, suvuyur. Aradan bir müddət keçir, yenə çart əmələ gəlir, bir az da əvvəlkindən böyük. Qoca yenə durur, suvaxnan onun üzünü suvuyur. Aradan bir xeylax müddət keçənnən sora daha böyük çart əmələ gəlir. Qoca o çartı da suvuyur. Bir neçə vaxtdan sonrasına divar uçur, qoca qalır divarın altında. Qoca deyir, ay namərd dost, biz dost idik axı, demədim kin, uçanda xəbər elə, deynən, mən də öz işimi bilim də. Divar deyir ki, qardaş, deyir, heş qoydun ki, mən ağzımı açam? Ağzımı aşdıxcan suvadın, ağzımı aşdıxcan suvadın. Çatdar əmələ gələndə mən ağzımı açırdım ki, deyəm şələ-pələni* yığışdır. Bu qaydanan qoca divarın altında qalır, ölür. Onnarın dostluğu da belə başa çatır (S:15;T:2).

MÜQƏDDƏS OCAQLARIMIZ

I

Göyçə mahalının özünəməxsus bir sıra müqəddəs ocaqları var idi, 1988-ci illərə kimi. Bunlar Daşkənddə Seyid Bayram, Sarıyaqubda Misgin Abdal, Qoşabulaqda Qaradaş, Böyük Qaraqoyunluda Mirəli-Sənəm, Kəlbəcərə gedən yolun kənarında, Hüseynqulu Ağalı yaylağında, Zod-İstibulaq yolunun üstündə Seyid Əsədullah (qardaşlar) ocağı. Şah İsmayıl Xətayinin sarayında xidmət edən Misgin Abdal haqqında çoxlu əfsanə, rəvayətlər və həqiqətlər mövcuddur. Deyilənə görə, o vaxtlar Göyçə sıx meşələrlə örtülmüş bir ərazi olub. Bu meşəliklərdə çoxlu maral sürüləri yaşayırmış. Sarıyaqubun marallarını da Miskin Abdalın həyat yolda-şı sağırmış, həm də əfsanəyə görə, bir dolça sütlə Şah Xətainin bütöv bir qoşununu doyuzdururlarmış.

II

Deyilənə görə, bir dəfə Miskin Abdalın həyat yoldaşı maralı sağarkən, süd əvəzinə qan gəlir. O saat başa düşür ki, onların ailəsində kimsə qan töküb. Həqiqətən də onun oğulları Batmanqılınc və Dalqılınc kimisə öldürüblərmiş. Onu da deyim ki, hər hansınınsa qəbri Sarıyaqub kənd qəbirstanlığında idi. 1918-ci ildə faşist ermənilər Sarıyaqubda Miskin Abdalın evini sökmək istəyərkən bir neçəsinin qılçaları* qırılmış və yaxud da ağır xəsarət alıb ölüblərmiş. Daşkənddəki seyid Bayram da dövrünün çox hörmətli və möhtərəm şəxsiyyətlərindən biri olub. Onun hörməti nəinki Göyçədə, bütün Qərbi Azərbaycanda – Zəngəzur, Dərələyəz, Dərəçiçək, Kəlbəcər və başqa yerlərdə var idi. Seyid Bayram da Miskin Abdal kimi sınanmış din xadimlərindən və ağsaqqallarından biri idi. Onun haqqında daha çox əfsanələr və rəvayətlər mövcuddur. O həm ağsaqqal kimi adamlar arasında nüfuz qazanmışdı, həm də adamlar ara-

sında dava düşəndə onlara kömək edərmiş. Heç zaman onun sözündən çıxmazdılar, onun sözünü yerə salmazdılar.

III

Bütün bu müqəddəs ocaqlarımıza hər hansısa bir şəxs və hər hansısa bir ailə getsə idi hansısa diləklə, arzu ilə, onun diləyi hasil olardı. Bu ocaqlara nəinki Göyçədən, hətta, uzaq yerlərdən gələrdilər. Aran rayonlarından da eləcə. Hüseynqulu Ağalı[4] kənd qəbiristanlığındakı VII əsrə aid olan at, qoç və başqa heykəllər də müqəddəs ocaq kimidir. Əgər kiminsə uşağı gec danışırdısa, ya da ki, yeriməyə başlayırdısa, onu buraya gətirib qoç heykəlinin altından üç dəfə keçirirdilər. Beləliklə, çox keçməzdi ki, həmin adam ya tezliklə danışardı, ya da yeriyərdi. Amma təsüf ki, faşist ermənilər bu abidələri yerlə yeksan etdilər. Qoşabulaq kənd yaylağındakı Qara daş dağının zirvəsindəki qaya və bulaq sonradan öz mö-cüzəsi ilə hamını heyrətə gətirmişdi. Bu dağın zirvəsindəki bulağın özündə ilin yalnız üç ayı su axırdı. Sonra isə quruyurdu.

IV

Bu ocaq da sınanmış ocaqlardan biri sayılırdı. Bunu da əlavə edək ki, mən bunu öz həyatımda görmüşəm. 1970-ci ilin əvvəllərində dayım oğlu Musanı mən də aparmışam həmin yerə – Qaradaşın ocağına. O vaxta kimi günü xəstəxanalarda keçən dayım oğlunu Qaradaşın ocağına aparandan sonra sağlam yaşayır. İndi yaşı yetmişdən çox olan bu adam mexanika elmləri doktoru, professordur. İndi müqəddəs ocaqlardan əlimiz üzülüb, ünümüz, səsimiz oradan kəsilib. O ocaqlarımızın daş müqəddəsliyinə və mö-cüzələrinə inanırıq və bildiririk ki, nə vaxt-

[4] Sovet dövrü N.Nərimanovun şərəfinə kənd Nərimanlı adlandırılmışdır.

sa o ocaqlara qayıdacağıq. Onda da bu ocaqlar, ziyarətgahlar dayağımız olacaq Ulu Allahımızın köməyi ilə! (S:13;T:2).

V

Ağbulaxda Mirələkbər məllim varıydı. Deyilənə görə güjdü seyid idi. Ermənilər də ona sitayiş eliyirdi. Danışannar deyirdi ki, bizimkilər ordan köçənnən sora azərbaycannıların nə qədər mərmər başdaşdarı olub, ermənilər hamısını söküblər. Amma Mirələkbər məllimgilinkinə qorxularından dəymiyiblər. Olar da köçüb gəlib Məmmədlidə[5] yaşıyırlar. Mirələkbər məllim (1932-2004) rəhmətə gedib bir xeyli olar, amma uşaqları məllimdi, hamısı savaddıdı.

Seyid kimi qəbul eliyirdilər. Şəxsən biz gedirdik, ziyarət eliyirdik. Biz olara nəzir veririk, həmişə sitayiş etmişik. Nəzir göndərdim, dedilər ki, bəs oğlunun biri qəbul edir. Elə adam var, tanıyıram ki, Mirələkbər məllim deyəndə üzünə salavat çəkir, ona çox inanırlar. Nəzir var idi, onu göndərirdilər. Dedim ki, bəs onun üç oğlu var, üçü də məllimdi. Mən oğlunun birinə dedim ki, indi biz nəziri kimə veririk? Üç qardaşdılar. Bayaqdan Mirələkbər məllimin evinə gedirdik, nəzir verirdik. Dedim, bəs Mirələkbər məllim yoxdu, bu nəzir kimə veriləcək? Dedi ki, indi onun ocağında oturubdu Mirağa. Oğlunun birinin adı Mirağadı, biri Mircəfərdi, biri Mirqasımdı. Mirqasımın oğlu da yaxşı uroloqdu. Dedi ki, Mirağıya verilir, çünki mülkdə Mirağa oturub. Ən kiçik oğludu. Mənim dayımın qızının biri oların gəlinidi. Mirqasımın yoldaşıdı. O, mənə dedi ki, sən əziyət çəkib getmə, kimdən istiyirsən göndər. Dedim, yaxşı, yol uzaxdı deyənə, hər dəfə getməy olmur. Mən də verdim tanış adama, dedim, mənim adımdan aparıb verərsən olara (S:16;T:2;3).

[5] Burada Bakı şəhərinin ətrafında yerləşən Məhəmmədi kəndi nəzərdə tutulub.

ALQIŞLAR

Çörəyləriniz isti, suyunuz sərin olsun.
Allah heç kimin külfətini kül etməsin.
Allahın əli kürəyində olsun.
Ocağın yansın, tüstün tütsün.
Əzəlin gəlincə axırın gəlsin.
Yaman gün görməyəsən.
Həmişə üzün gülsün.
Nə edim, necə edim deməyəsən.
Ümid yeri olasan.
Sinəndə ağ tüklər bitsin.
Ağ günlər görəsən.
Toyunu görüm.
Əli kəmərini qurşasın.
Allah səni bədnəzərdən qorusun.
Dizin yerə gəlməsin.
Üzündə güllər açsın.
Xəcalət təri tökməyəsən.
İki cahanda da üzün ağ olsun.

QARĞIŞLAR

Çörəyim səni tutsun.
Çörəyin burnundan gəlsin.
Yalançının çörək evin yıxsın.
Eybini qara torpaq örtsün.
Yurtda qalma.
Əlin qurusun.
Daşın atılsın.
Torpaq səndən qəlbi dursun.
Qazandığını yemə.
Papağı boş qalsın.
Payın palçığa dönsün.
Boyunu bükük qalasan.
Əməyin əlində qalsın.
Axırın qar suyuna dönsün.
Əməyin dovşan əməyinə dönsün.
Üzünə gərdək asılmasın.
Yediyin içində qalsın.
Qazancın qana dönsün.
Üstündə otlar bitsin.

ANDLAR

And olsun Misgin Abdal ocağına.
And olsun Seyidbayram ocağına.
And olsun yerin-göyün sahibinə.
And olsun haqqın tərəzisinə.
And olsun torpağa tökülən alın tərimə.
And olsun əlimin qabarlarına.
And olsun 124 min peyqəmbərə, 12 imama.
Bu Əli yolu haqqı.
Suyun mələkləri haqqı.
Çörək haqqı.
Çörəyə and olsun.
Süfrədəki çörəyə and olsun.
Günəş kimi batım ki.
Şam kimi əriyim ki.
İşığa kor baxım kı.
Ocaqda gözüm yansın kı.
Kəsdiyimiz duz-çörək haqqı.
Etdiyimiz salam haqqı (S:15;T:2).

ATA SÖZLƏRİ

Çörək haqqında

Çörək süfrənin bəzəyidir.
Çörəyi ver çorəkçiyə, birin də artıq.
Çörəyin qədrini bilməyən nankordur.
Çörək insanın mayasıdır.
Çörək itirən çörək tapmaz.
Çörək insan həyatının varlığıdır.
Çörək açmayan qapını qılınc açа bilməz.
Çörəyə xor baxan ac qalar.
Əyninə köynək, qarnına çörək.
Çörək yerə düşər, öpüb gözüstə qoyarlar.
Çörəyə süpürgə vurmazlar.
Çöräksiz hər nə yesən qarın doymaz.
Çörəyi ayaqlamazlar.
Çörəyin ətri, ananın xətri.
Çörək insan zəkasının kəşfidir.
Çörək hər nemətdən üstündür.
Çörək ağır zəhmətin bəhrəsidir.
Çörəyi basmazlar.
Filankəs çörək ağacından düşübdür.
Toxun acdan nə xəbəri.
Ac doyuran cənnət qazanar.
Bir yerdə çörək kəsmişik.
Çörək dostu düşmən olar.
Çörəyi adam aparmır, çörək adamı aparır.
Yedin, doydun, naşükürlük etmə çörəyə.
Çörəyli vətən heç vaxt basılmaz.
Allah haqqından sonra çörək haqqıdır.

Çörəkdən gözəl nemət yoxdur.
Çörək yerin-göyün bərəkətidir.
Çörək yalnız yemək üçün deyil.
Evin sütunu, dirəyi çörəksə, sən də çörəksən.
Çörəkdir xeyir-bərəkət, onun qədrini bilməyənə lənət.
Dünyada çörəyi minnətlə yeməkdən acı heç nə yoxdur.
Dünyada çörəkdən və təmiz addan başqa bir şey qalmır.
Allaha min şükür, biz çörək yedik, doyduq, sizə də qismət olsun.

Digər mövzularda ata sözləri

Kor tutduğunu buraxmaz.
Kişinin sözü bütöv olar.
Keçi can hayında, qəssab piy axtarır.
Kələklə gələn küləklə gedər.
Kasıb öləndə qəbir tapılmaz.
Özgə atına minən tez düşər.
Sirkə nə qədər tünddüsə, bir o qədər də acıdır.
Hər şeyin təzəsi, amma dostun köhnəsi.
Yanında igid olsun, kol dibində düşmən.
Alçaq təpələr özlərin dağ sanarlar.
Ayağını yorğanına görə uzat.
Hər işi vaxtında gör.
Saxla samanı, gələr zamanı.
Artıq tamah həmişə baş yarar.
Balıq başından iylənər.
Ağacı qurd içindən yeyər.
Böyük sözünə baxmayan böyürə-böyürə qalar.
Özünə məsləhət bilmədiyini özgələrə də bilmə (S.6.T.1).

MƏSƏLLƏR

Onun örkəninin üstünə darı sərmək olmaz.
Quşu gözündən vurur.
Bundan qışda qar istəmə.
Anası çıxan ağaca, qızı budaq-budaq gəzər.
Əslini danan haramzadadı.
Oğul atanın kövşənini* əkər.
Darayının* darlığı bezin qıtlığındandı.
Naxırçı qızının könlü naxır əppəyi istər.
Naxırçı qızını ərə verdi, adını da üstəlik.
Nə yardan doyur, nə əldən qoyur.
Kor atlanar, məhləsin çapar.
Evində yoxdu urvalıq, könlündən keçir darğalıq.
Çuvalda pişik var.
Ağzının kəsəri yoxdu.
Zor zəyrəkdən bəzir çıxarar*.
Bu necə ağızəmməz adamdı.
Bu necə korafəhim adamdı.
Haca gedən gəldi, saca gedən gəlmədi.
Ələyə gedəni ərə verirlər (S:15;T:2).

DEYİMLƏR

Allahı düşün, insanlığı unutma.

Allah heç kimin qəlbinə şeytan salmasın.

Hamının evi yaxşıdır, mənim uçun daxmam hamısından yaxşıdır.

İnsanların ən xoşbəxti onların ruhlarıdır, çünki ruhlar bütün aləmi insanları tərk etdikdən sonra azad, sərbəst gəzib-dolanırlar.

Əgər göz yaşarmırsa, günah gözdə yox, özündədir.

Özgə ağlar, yalan ağlar.

Arzuların çin* qucağında yaşamasan həyatın əzab-əziyyətlə keçəcək.

Diktə[25] ilə yaşamaqdansa, ölmək daha yaxşıdır.

Qədirbilməzə, nankora ürəyini şam etsən, yenə də bigah* olacaqsan.

Saqqız ağacı varlıya göz və göz, alça ağacı kasıba köz və köz.

Yalançı heç vaxt heç kimə inanmaz.

Çalış, nəfsi olan adamdan uzaq ol, ondan heç vaxt xeyir gəlməz.

Müqəddəsə toxunsan, əzab çəkəcəksən.

Bacar büdrəmə, büdrədinsə, evin yıxıldı.

Həyatda ancaq qardaş-bacıya bel bağlamaq olar.

Üzüyün qaşı, bacının qardaşı.

Ana-bacı olunca daş olasan.

Əgər qardaşını və bacını itirirsənsə, dünya-aləm sənin olsa da, yenə də tənhasan.

Qardaşından başqa heç kim sənin arxan, dayağın ola bilməz.

İnsan var insan yox, həm ilandır, həm də ilanı yuvasından çıxarır.

Adam var bir damla su ilə yerindən tərpətmək olar, adam var tərpətmə, yerindən qalxmaz.

Özünə ovac* ova bilmir, özgəyə əriştə kəsir.

Saflıq və təmizlik qaldı Göyçədə.

Dünyada ən böyük faciə biganəlik və laqeydlikdir.

Dar gündə yaxşı da, pis də əyan olur.

Özünün hisslərinə qapılmaq özgələrlə bölüşməkdən min dəfə yaxşıdır.

Doğmaları itirəndən sonra onların qədri bilinir.

Oddan kül törəyəndə vətənsiz qalırsan.

Vətən həsrəti ən ağır dərddi, bundan ağır dünyada dərd yoxdur.

Özününkülər səni saymayanda və ya qədrini bilməyəndə özgələr səni tapdalayar.

İstəsən də, istəməsən də, bəzən tənha qalmalısan.

Əgər qadını ölürsə, kişi min dəfə ölüb dirilir.

Allah insanın ağlını alınca canını alsa, ondan yaxşıdır.

Davalı yerdə ot da bitməz.

Demə ki, arvadın gəlir, de azreilin gəlir.

Təmkinli və səbirli qadın susmağı bacarır.

Allah səni sevindirir ki, sən də kimisə sevindirəsən.

Haqlı olmaq o demək deyil ki, haqsızlıq edəsən.

Qocalıq dağı arana, aranı dağa aparan, kövrəkliklə körpəliyin qovuşma anları deməkdir.

Əgər qocanın həyat yoldaşı vəfat edirsə, demək qoca bu dünyada cəhənnəmi görür.

***

Özüm özümə elədim, külü gözümə, daşı başıma.

Yağ yağla qaynayır, yarma quru qaynayır.

Azı saxlaya bilməyən çoxu da saxlaya bilməz.

Kasıbın baxtı olsaydı, kasıb doğulmazdı.

Adam var ki, tamahını balta kəsməz.

Nəyin varsa, Allaha min şükür et, artıqtamahlıq etmə, artıq tamah baş yarar.

Yağış yağdı, çaqqıllıqların* üstünü basırdı, görünməz elədi.

İkiayaqlı itlə dördayaqlı it boğuşdular, heç hansı qalib gələ bilmədi, eyni xislətə görə.

Eşşəyə məxmər çullarsan, gedib küllükdə ağnar.

Min bəzən birə uduzur, çünki adam var ki, min dəfə yaxşılıq edirsən, amma bir dəfə edə bilmirsənsə, onda həmin adam səni dünyanın ən pis adamı hesab edir (S.6.T.1).

***

Əvvəllər qızı gəlin köçəndə anası onun cibinə daş qoyar, deyərmiş:

– Qızım, bu daşı həmişə cibində gəzdir, əgər qayınata, qayınana qarşısında daş düşsə, sən də gözdən düşərsən.

Bir də deyərlər ki, gərəkdir gəlinin dilinin altında həmişə şəkər olsun, dilinə acı söz gətirməsin.

***

Qonşudan aş gəldi, yedim xoş gəldi, "başıma vuranda" gözümdən yaş gəldi.

Yer bəyin, xış bəyin, işlə, hey cırılsın göbəyin.

Yağ mənimdir, belə yeyərəm, əritmərəm, kərə yeyərəm.

Soğanı yeyər dərdəcər*, pis sözü deyər eybəcər.

Dağ ol, duman yığ başına, duman olub dağılma.

Dövlətliyə küdül* lazım olsa, kasıb səhəngini sındırar.

Cavanlıqda daş daşı, qocalıqda ye aşı.

Təzəcə doğulan quzudan qoç döyüşü gözləmə.

Gözdən düşən boy atmaz.

Boynun yoğun olsa, boyunduruq həmişə var.

Meşəsi çox olan elin məzarı az olar.

Yaş kəsən baş kəsər.

Əyilməsən keçmək olmaz.

Ayaq qoymağa yer istədi, bütün bədənini saldı.

Ağıl nə qədər iti olsa da, mənzil başına ayaqla birgə çatır.

Ağıl paylananda yemək kimi deyil, o da hamıya çata.

Övlad gül kimidir, çox su verərsən solar, az su verərsən quruyar.

Özünə hörmət etməyən adam bədbəxtdir, özündən razı olan adam isə axmaqdır.

Əgər qocanın həyat yoldaşı – qadını dünyasını dəyişirsə, ondan soruşsalar ki, "necəsən?", o desə ki, "yaxşıyam", inanmayın, o, bunu ya başa düşmür, ya da xala xətrin qalmasın deyir (S:17;18;T:1).

***

Ürək var faciəyə görə bir tükü tərpənməz, bir xorum* otu da yanmaz.

Ürək var faciəyə görə dosta-yada baxmaz, alışıb-yanar.

Vəhşini nə qədər əhilləşdirsən də, vəhşilik xisləti onun canında qalacaq.

Dünyada ən dəhşətli odur ki, öz vətənində qərib kimi, kölə kimi yaşayasan.

Bacar, özünü səni sevən adamda tap.

Tora düşən özü səbir etməsə, təmkinli olmasa, özü fəlakətə uğrayar.

Əgər gözdən yaş çıxırsa, demək, ürəyi incidiblər.

Səsin, ünün yetişməyəndə sən diri-diri ölürsən.

Bir mala ki haramlıq qarışdı, heç vaxt ümid qalmaz halallığa.

Bacar, lovğa və təkəbbürlü adamdan uzaq ol.

Tənbəllik və acizlik biganəliyə və laqeydliyə aparıb çıxarır.

Xeyirxah və səxavətli olmaq böyük mənada "insan" olmaq deməkdir.

Şəhidlik ölməzliyin ən yüksək zirvəsidir.

Nankor insandan qaç, canını qurtar.

Vətənsiz adam qurumuş ağaca bənzər.

İlk məhəbbət gəldi-gedər olsa da, sıxıntıda acısı-ağrısı yada düşər.

Qardaşa və balalarına qarğış eləyən heç vaxt qardaş canına doğru and içməz.

Dünyanın ən dəhşəti ağaya yox, nökərə nökər olmaqdı.

Acizi həmişə at kimi minib çaparlar.

Ana sözü, atalar sözü – həyatın özü, qulağında sırğa et!

Doğmanın yerini heç vaxt yad tuta bilməz.

Qardaş dərdi çəkmək ən ağır dərddi, onu da hər adam çəkə bilmir.

Pay düşünəndə təkcə özünü yox, Allahın, yerin-göyün payını da düşün.

Anayla Vətən qoşa məfhumdu, onların ikisi də insanın qibləgahıdır (S:17;T:1).

***

Tez evlənənlə vaxtında ayrılan peşman olmaz.

Əgər kiminsə ata-anasına münasibəti necədirsə, həyat yoldaşına da həmin münasibətdə olur.

Qonşun pis nəfisli, paxıl oldusa, ondan xeyir yox, ziyan gözlə.

Ağa mənəm, dağ da mənəm.

Ən qorxulu adam yaxşılığı, xeyirxahlığı itirəndi.

Əgər qohum qohuma salam vermirsə, heç vaxt ondan xeyir gözləmə.

İndi yala hürüyənlərin* sayı çoxalıb.

Yazana rəhmət, pozana lənət.

Tənbəllik və acizlik dünyanın başına bəladır.

Nökərsən, nəyə, bekarsan, niyə?

Çağırılmamış qonaqdan ehtiyatlı ol!

Həyasız ol, vəfasız olma (S:18;T:1).

***

Yaxşılıq, yamanlıq, kor eşşəyə samanlıq.

Əgər biri yaxşılığı unudursa, ondan qorxmaq lazımdır.

Əgər həyat yoldaşın (qadının) ölürsə, sən ondan qabaq ölürsən.

İnsanlar bir-birlərinə qarşı səmimi, istiqanlı, ədalətli olmalıdırlar ki, onlarda həyat eşqi sönməsin.

Allaha rəğbəti möhkəm və böyük olanlara, çağıranda həmişə köməyinə gələr.

Qurdun yanında qoyun həmişə günahkardır.

Qumarbaz adamdan qaç, onla dost olma.

Zarafat dostluğu pozur, şər, böhtan gətirir.

Şit zarafatdan uzaq dur.

Xəbərçini eşitmə, ev yıxar, xəbərçilikdən əlhəzər et!

Sən xalqa səmimi və sədaqətli ol ki, el-oba da səni tutsun (S:19;T:1).

***

İnsanların çoxu ana tərəfin və arvad tərəfin tayfasını ata tayfasından çox istəyir.

Yersiz gələndə özü ilə müharibə, ölüm, fəlakət gətirir.

Ağıl pulla alınmır, nə də satılmır (S:20;T:1).

***

Allah kimsəni kimsənin qarşısında boyun əydirməsin (S:21;T:1).

TƏZADLAR

Hamıdan çox yanan da mən, yaman da mən, aldanan da mən.

İçim də özümü yandırır, çölüm də.

Yaxşılıq evində ölmə.

Allah var, amma ədalət yoxdur.

Allah həmişə yaxşı insanları pis adamların əlindən qoparıb aparır.

Yaxşılıq et, dərhal pislik gör.

Bu gün yaxşılıq etdiyim adam sabahı mənə pislik etdi.

Doğmaları itirdikdən sonra onun qədri bilinir.

Qızını döymə, dizinə döy.

Qaranlıqdan işığa gedən adamın yolunu kəsən haqsızlıqdan dəm vurur.

Söyüş ürək bulandırır, amma qarğış ikibaşlı olur, onu edənə lənət!

Oddan kül törəyər, həm də küldən od.

Saman sənin deyil, samanlıq ki sənindi.

İlanın ağına lənət, qarasına da.

Özü özünə eləyənə el yığılsa, eləyə bilməz.

Evdə anasını döyər, bir saatdan sonra toyda "Ana" muğamatını oxutdurar.

Göz yaşları günahı yumur.

Hamıya yanan oldum, özüm ümid işığında ölümə düçar oldum.

Kiməsə şam kimi yandım, amma o, külünüsə də toplamadı.

Özgələr məni başa düşür, özüm özümü başa düşmürəm.

Əgər oğru doğrudan, yalançı həqiqətdən danışırsa, zavallı doğru bəs onda nədən danışsın?!

Allahım, qurban olum kəramətinə: səmimi, mehriban, istiqanlı, vicdanlı, saf, xeyirxah insanlar da Allaha and içir, kafir, vicdansız, oğru, kələkbaz, fırıldaqçı, pis insanlar da.

***

Vətən kasıblar üçündür: Kasıb düşünər, mən ölüm, Vətən yaşasın.

Varlılarsa düşünər: Vətən necə olursa olsun, mən yaşayım.

Vətən də, yer-yurd da, müharibə də, şəhidlik də kasıblar üçündür.

***

Dostumun dostu düşmənimdi. Düşmənimin düşməni dostumdu.

İndiki zamanda dostun olmaqdansa, tənha qalmaq min dəfə ondan yaxşıdır.

İndiki zəmanənin dostları elədi ki, heç adama düşmən lazım deyil.

Keçmişdəsə düşmənlər indiki dostlardan min dəfə etibarlı olublar. Məsələn, İsrafil ağayla Qaçaq Kərəm kimi[26].

***

Yaxşı ad üçün yüz il bəs etmir, amma pis ad üçün bir gün bəsdi.

Susmaq qadının ən qiymətli zinətidir, amma hər qadın bu zinəti gəzdirə bilmir.

Özümüzü özümüz kimi görə bilmirik.

Yersiz gələndə yerli qaçar olur.

Xeyirsöyləməzə dedilər ki, heç olmasa bir dəfə xeyir söylə, o dedi: – Nə söyləyim, Şah Abbas bu gün öləcək.

Dilindəki mənim olsun, ürəyindəki sənin.

Qardaş dedim, dilim od tutub yandı (S.6.T.1).

***

Qanan qanmayana borcludu.

Nökər ölməyi, ağa yaşamağı arzular.

İnsan həddən çox varlananda xəsisləşir, insanlıq simasını itirir.

Bəzən min, birin əlində aciz qalır.

Zəngin həyat ağıllı adama müvəffəqiyyət, ağılsıza bədbəxtlik gətirir.

Acizi və düzü at kimi minib çaparlar.

Əgər insan özü üçün yanmırsa, başqaları üçün yalan yanır.

"Hə" başa düşməyən "yox" deyir, "yox" başa düşməyən "hə" deyir.

Biz vurduğumuzdan qan çıxır, siz vurduğunuzdan su çıxır.

***

Dedilər: A dağ çayı, bu nə hay-haraydı salıbsan?

Dedi: – Haray salan mən deyiləm, açdığım yarğanların naləsidir (S:17;T:1).

ÖYÜDLƏR

Dostuna xəyanət edən ömrü boyu xəyanətin qurbanı olar.

Qadının müdrikliyi və dəyanəti kişidə qeyrətlilik tərbiyə edir.

Çalış, zamanı buraxma, sonra ömrü boyu peşmançılığını çəkməyəsən.

Əgər biri səni sevirsə, heç vaxt onu naümid qoyma.

Əgər biri əlində iki qarpız tutmaq istəyirsə, çalış ondan uzaqlaş.

Çalış, heç kimə, heç kəsə sirr vermə.

Çalış, Allahın qismətinə bel bağlayıb irəli get.

Səbirli, təmkinli adam heç vaxt uduzmaz.

Yeri gələndə uşağa da qulaq as.

Həyatın qədrini bilən çox yaşar (S:10;T:2).

İNANCLAR

Şər qarışandan sonra ev süpürüb, dırnaq tutmazlar, düşəri, düşməzi olar.

Uzanan adamın üstündən adlamazlar, həmin adamın başına xata gələr.

Körpə uşağın ilkin dırnağını kim tutsa, ona da oxşar.

Mal-qoyun doğum ayında olanda üstünə oğlan uşağı gətirərlər ki, balası erkək olsun.

Günün şər vaxtında yanar ocağa su tökməzlər, ailənin başına xata gələr.

Kündəni təndirə yapanda yanında oğlan uşağı durmaz, yoxsa, çörək küt gedər.

Əgər bilmədən çörəyi ayaqlasan, gərək, üç dəfə öpüb gözünün üstünə qoyasan, yoxsa çörək sənə qənim olar.

Heç vaxt boş ələyi unun üstünə qoymazlar.

Qoyun sürüsünün, mal naxırının qabağından vedrə ilə keçməzlər, istər dolu, istər boş olsun. Sürü və ya naxır keçəndən sonra keç.

Sürünü və ya naxırı içi boş qamışla və nə iləsə qovalamazlar, onda bərəkət də gedər.

Sürünün və ya naxırın yanında şapalaq çalmaq olmaz, düşəri-düşməzi olar.

Pəyənin və ya tövlənin qapısını ev süpürgəsi ilə süpürməzlər, yalnız çalğı* ilə süpürülməlidir.

Şər qarışanda qapıdan borc çıxmamalıdır.

Sarımsağı və soğanı dərman əvəzi verməzlər, heç kimə, heç kəsə.

Mal-qaranı şapalaqla* qovalamaq olmaz, onda bərəkət qaçır.

Əgər qadın boş vedrə ilə qabağına çıxırsa, xeyir gəlməz, ziyan gələr.

Hər adam sarımsaq və soğan əkməz, düşər-düşməzi olur.

Əgər əllərini qoynuna qoyub durursansa, bədbəxtlik gətirər.

***

Uşağa göz dəyirsə, tez başının üstündə üç dəfə duz hərlədib oda atarlar. Ya da üzərrik yandırıb tüstüsünə verərlər. Həm də yeri deşib, üç dəfə həmin deşikdən keçirərlər. Əgər buna imkan yoxdursa, üç dəfə tüfəngin qundağından – remenin[27] arasından keçirərlər. Ya da ipək parçanı bağlayıb onun arasından üç dəfə keçi-rərlər.

***

Əgər uşaq qızılcaya tutulursa, ona başdan-ayağa qırmızı geyindirmək lazımdır. Hətta belə, yorğan-döşək, yastıq da qırmızıdan olmalıdı. Xəstə uşağın yanına gələndə demək lazımdı ki, "əyə pipiyin nə tez qızarıb, xoruz kimi mübarək olsun. Səni evləndirmək lazım, vaxt keçir. Al-qırmızın nə qəşəng yaraşır sənə. Qəşənglər qəşəngi olubsan. Göz dəyməsin sənə, lap gözəllər gözəlisən", onda yüngül olar xəstəlik, qızılca xəstəliyi tez ötüb keçər, uşaq tez sağalar.

***

Hamilə gəlin şər vaxtı çöl-bayıra getməz, düşər-düşməzi olur.

Şər vaxtı evdən pul, duz, istiot verməzlər.

Səhər evdən borc pul verməzlər.

Təzə doğmuş inəyin və qoyunun məhsulundan qonşuya pay verəndə, o qabı heç vaxt boş qaytarmazlar.

Döl vaxtı erkək quzu, buzov ilk olursa, bərəkətli olar, ruzili olar.

Təndirdə bişən çörəyi özgə kim görsə, ona çörək verərlər, bol ruzi üçün.

Qonşun paxıl, xain və qoşaəllidirsə* xeyir iş olanda onun gözünün qabağında qab-qacaq sındırarlar ki, xata-bəladan uzaq olasan.

***

Əgər uşaq qorxubsa, suyun içinə lumu töküb əridirsən, sonra isə uşağın başına ağ parça qoyursan. Həmin lumu ilə qarışıq həll olunmuş suyu həmin ağa, parçaya tökürsən. Həmin parçada kimin və nəyin şəkli alınsa, demək uşaq ondan qorxub. Onda uşağın qorxusu, qorxuluğu gedər.

***

Uşağın qırxını çıxartmaq lazımsa, uşaq anadan olandan sonra aparıb böyürtkən kolunun uzun budaqlarının altından keçirərlər. Əgər böyürtkən budaqları yerə dəyirsə, onun altından üç dəfə keçirdərlər ki, uşaq sağlam və gümrah böyüsün, böyüyəndə göz dəyməsin, qorxmasın.

***

Maşınla gedəndə pişik qabağına çıxırsa, yola qəpik atırlar.

***

Mal-qaraya, qoyuna ziyan vurmamaq üçün canavarın ağzını qayçıyla bağlayarlar ki, sürüyə, naxıra xələl, ziyan gətirməsin.

***

Əgər it ulayırsa, ev sahibinin ayaqqabı və ya qaloşunu itin ağzına vurmaq lazımdır. Yoxsa evə xata gələr.

***

Uşağın ağzından və burnundan selik axırsa, uşağın ayaq geyimi ilə silmək lazımdır, gündə üç dəfə, onda selik axmaz.

Gunortadan sonra heç vaxt hamilə gəlini qonşuya göndərməzlər. Düşər-düşməzi olar.

Hamilə qadın heç vaxt çığırmaz, onda uşaq çığırğan olar.

Qabağına xırda pul, qəpik-quruş çıxırsa, götürmə, o yerin payıdı. Götürsən, ruzi-bərəkət evdən yoxa çıxar.

Döl vaxtı, ilk doğulan erkək olursa, xeyir-bərəkət gələr. Ona görə də, onu damazlıq saxlayarlar.

Vaxtsız banlayan xoruzu kəsərlər, çünki o, ziyan gətirər.

***

Heç vaxt yad adama mal-qoyun, toyuq-cücə satarkən tövləyə, dama buraxmazlar. Onda ziyanlıq olar. Ona görə də bazarda satmaq lazımdır. Bazar olmasa da çöl-biyabanda alver edin.

***

Şər vaxtı heç vaxt borc pul, duz, istiot verməzlər. Onda ziyan olar.

Şər vaxtı evi süpürməzlər, süpürsələr də qapının dalına yığarlar. Şər vaxtı zibil atmazlar. Atsalar ruzi-bərəkət qaçar.

İlk məhsuldan – malın, qoyunun südündən, ağartısından verilən payın qabın boş qaytarmazlar. Şirinlik qoyarlar içinə (S:6;T:1).

NOVRUZ İNANCLARI

Novruz bayramı gecəsi bizlərdə həm də sevgi, ürək gecəsi adlanır. Gənc oğlanlar sevdikləri qızların evinin bacasından salladıqları qurşaqların ucuna bir dəsmal bağlayırdılar. Qız və qızın valideynləri o saat mətləbi başa düşürdü. Əgər bu işə razılıq varsa, dəsmalı qurşaqdan açıb qızın qoluna bağlayırdılar. Yox, əgər razı deyillərsə, dəsmala bayram sovqatlarından qoyub geri qaytarırdılar.

***

Novruz bayramı şəninə açılmış süfrənin künc tərəflərində kimsə oturmaz. İnanca görə ruhlar da bu axşam gəlib künc tərəfdən yaxınlaşaraq süfrədəki nemətlərdən dadırlar. Süfrənin künc tərəfində oturmaqla ruhların qarşısı kəsilmiş olur. Bundan inciyərək küsüb gedən ruhlar evə ziyanlıq gətirə bilərlər.

***

Novruz bayramı axşamında yandırılmış tonqal sönənə yaxın üzərinə üzərlik səpib deyərlər: Ocağımıza əyri baxanın gözləri partlasın, özü yanıb çatlasın.

***

Novruz bayramı üçün göyərdilmiş səməni saralıb-solanda axar suya axıdırlar. Arxasınca da şirni atarlar. Belə elədikdə deyərlər ki, evdə xeyir-bərəkət çoxalar, ruzi artar.

***

Bayram axşamı yandırılan tonqalda üzərlik alışdırıb tüstüsünü ev-eşiyə, mal-qaraya verərlər ki, sağlamlıq, əmin-amanlıq olsun.

***

Bayram günündə bir-birlərini təbrik edərlər, bir-birinə təbrikə gedərlər, getdikləri evin ailə üzvlərinin sayı qədər bişmiş və qırmızı rəngə boyanmış yumurta apararlar. Bu həmin ailəyə dünyada ən şirin nemət olan can sağlığı, xoşbəxtlik arzulamaq nişanəsi sayılır.

***

Novruz bayramı gecəsi işığı səhərə kimi sözdürməzlər ki, rəhmətə gedənlərin ruhu inciməsin, şad olsun.

***

Bayram yeməkləri bişirəndə ocağa yağ atarlar ki, rəhmətə gedənlərin ruhu şad olar, onlara agah olar ki, onları unutmayıblar.

***

Bayram axşamı ocağı, işığı yandıranda rəhmətə gedənlərin adına yandırıb onların adlarını çəkərlər, onda ruhlar bunu hiss edib bilərlər ki, həmişə onları anırlar, onları yaddan çıxarmayıblar, onlar sağ qalanların yadındadır (S:10;T:2).

GÖYÇƏ MAHALINDA XALQ TƏBABƏTİ

Göyçə mahalı özünəməxsus füsunkar təbiəti, yaşıl çəmənləri, dişgöynədən bulaqları, zirvəsi qarlı dağları, şırıltılı axan çayları, dərin dərələri, zümrüd gölləri ilə bütün Qərbi Azərbaycanda məşhur idi. Bu füsunkar təbiət həm də ənənəvi təabət üçün zəngin qaynaq idi.

Göyçədə yetişən bitkilərin demək olar ki, əksəriyyəti ənənəvi təbabətdə dərman kimi istifadə olunurdu. Bu da imkan verirdi ki, türkəçarəçilər (təhsilsiz təbiblər) təbii yolla əldə etdikləri bu dərmanlarla xəstələri müalicə edib onlara şəfa versinlər. Məsələn, Məşədi Əli Süleyman oğlu Atakişiyev, Bənövşə Daşdəmirova, Telli Mustafayeva, Bahar Musayeva, Nazxanım Məşədi Əli qızı, Tükəzban Mövla qızı, Cəvahir xanım, Həlimə Alıqulu qızı, Səlbi Əli qızı, Gülüstan Əsəd qızı, Bahar Atakişiyeva, Zəhra Məşədi Kazım qızı, Zeynəb nənə, Töhfə nənə və adlarını çəkə bilmədiyimiz digərlərinin təbii üsullarla apardıqları müalicələr indi də dillərdə söylənilir.

Rza, Məşədi Əli, Güləli Süleymanov, Məhər Avdı oğlu, Bəşir Nadir oğlu bütün Göyçədə sınıqçı kimi tanınırdılar. Bəşir Nadir oğlu Mustafayev (Nizami Cabbarovun atası – A.Ə.) təkcə sınıqçı kimi yox, həm də göbək salan ara həkimi kimi də mahalda məşhur idi. Onun oğlu Dünyamalı da həmçinin bu peşəyə yiyələnmişdi. Ehtiyacı olanların böyük əksəriyyəti ona pənah gətirərdi. Hazırda onun Füzuli və Tahir adlı iki oğul övladı bu sənəti davam etdirməkdədilər. Onlar nəinki məskunlaşdıqları Soltankənddə, hətta ətraf kəndlərdə də mahir "göbək salanlar" kimi tanınırlar.

Türkəçarəçilərdən Zəhra Məşədi Kazım qızı Cabbarovanı da ayrıca qeyd etmək lazımdır. O, balxətmi

(bitkidir, dağlıq yerdə bitir), dəvədabanı (zoğlu bitkidir, yeməyə də qatılır) ilə yaraları, şatəranla (quzuqulağına oxşıyır, Kəlbəcərdə də bitir) babasili, həmənköməçi ilə qarın ağrısını müalicə edirdi.

Pörtdədilmiş kələm və bal ilə diz ağrılarını müalicə edirdi. Pörtdədilmiş kələmə bal sürtüb dizə bağlayar, ağrı kəsənə kimi bir neçə gün belə saxlayardı.

Balxətmi ilə bağayarpağını qarışıq halda əzib yaraya bağlayardı. Əgər balxətmi olmasaydı, təkcə bağayarpağı ilə də yaraları müalicə edib sağaldardı.

Bir sıra xəstəliklərin müalicəsində içilən çay bitkisi hesab olunan ot və çiçəklərdən istifadə edərdi. Məsələn, öskürəyin kəsilməsi üçün xəstəyə gülxətmi çiçəyinin çayını içməsini məsləhət görərdi.

Babasili müalicə etmək üçün çox sadə bir üsuldan istifadə edərdi. Əvvəlcə, şatəran bitkisini suda alayarımçıq qaynadıb vannaya tökərdi. Sonra isə xəstə bir neçə gün bu vannada on, iyirmi dəqiqə oturardı və bununla da xəstəliyin baş qaldırdığı nahiyədə ağrı kəsilərdi. İtburnu (el arasında həmərsün) çayı ilə böyrək ağrısını götürərdi. Həmənköməci çayı ilə qarın ağrısını kəsərdi. Kəkotu ilə qantəpərini qarışdırıb iştahı olmayana verərdi və bu da iştahı açardı.

Oynaqlarında duz olana dəvədabanı bitkisini (əsasən zoğunu) ət maşınından keçirib, iki stəkan suda möhkəm qaynatdıqdan sonra ona içirdərdi, bu da xəstənin vəziyyətini xeyli yüngülləşdirərdi.

Göyçə mahalının Daşkənd kəndində yaşayan Zeynəb nənəni isə Göyçənin İbn Sinası adlandırırdılar. Böyük Vətən müharibəsi (1941-1945) illərində sovet sədri işləyən Zeynəb nənə döyüşdən xəsarət alanların yaralarını, sınıqlarını müalicə

edib, onları sağlam həyata qaytarırdı. İşinin peşəkarı olması və digər xeyirxah əməlləri haqqında çoxlu olaylar, rəvayətlər indi də söylənməkdədir. Amma əsas odur ki, o, zəngin təcrübəsi və şəfalı əllərilə insanlara kömək edib, onları yenidən yaşamağa ruhlandırıb. El arası danışılanlardan bilmək olur ki, bir çoxlarının valideyn olmaq istəklərinin baş tutmasında da onun xidməti olub (S:18;T:1).

***

Qızılca xəstəsi olan adama xalq təbabətində eşşək südü içirdirlər, o da olmasa at südü içirdərlər. Bir də soxulcan qurdunu bir neçə dəfə təmiz suda yuyardılar, sonra axırıncı təmiz suyu xəstəyə içirdərdilər (S:6;T:1).

ETNOQRAFİK BİLGİ VƏ İNANCLAR[28]

Quyruğ doğdu, yoxsa dondu? Almuradov Məmmədxan: Əslində, o, doğdu deməkdi, səhv eləmirəmsə. Quyruğ dondu yox, doğdu[29] deyirlər.

Bu kəndin hamısı Qaraçurludu, yoxsa tək sizin özünüzsüz? Müxtəlif yerlərdən gələnnər də var idi. Deylənə görə, bizim babamız İrannan gəlmədi, ulu babamız. Mən elə o zonanı Qaraçur tayfası bilirəm. Camaat arasında deyirdilər ki, Qaraçurlar davaya bir az meyillidilər. **Başqa nə tayfa var idi, məsələn, sizin tayfa kimlərdi?** Hə, Məmmədfəllər tayfası, Alanlar tayfası, Musallar tayfası. **Onlar kimlərdən idi?** Elə eyni kəndiydi, elə eyni millətiydığ da. Ulu babamın adıynan gələn tayfaydı da. **Məsələn, kəndin əsasın kim qoymuşdu?** Deylənə görə, üçüz ilin kəndi olub. Yaşdı adamlar danışırdı bunu. Müxtəlif yerlərdən, hətta dəvəçidən gələnnər olub bizim kəndə. Camal kişi, o rəhmətdiy danışıb biları. 120 yaşa qədər yaşadı. Həmən kəndin qəbirsannığında dəfn olunub, Axta kəndinin. Bu kişinin də (yanında əyləşmiş Kərəm kişini göstərərək) atası (Əbdürrəhman) yaxşı mollaydı. Camaatımızın xeyirşərinə yariyan adam idi. Allah hər ikisinə rəhmət eləsin! Bizim kəndin ağsaqqal, ziyalı adamları çox olub. Surxay məllim ki deyirəm (tanıyarsız, Nazir Əhmədovun atası, olar Gabudkənddən idi), həmən Surxay məllim unverstet bitirmişdi. Orta məktəbdə məllimim olmuşdu, çox fəhmli adam idi, həm də ərəbi, farsi yaxşı bilirdi, ilinən də oxuyurdu yazını. İndi çoxu yadımnan çıxıfdı. Kəndin qəbirsannığında xaç daşdarı var idi. Axı xaç daşdarı iki cürdü. Birində bir az uzundu, biri bir az güdəy, bax, onnan idi. **Alban dövrünnən qalma xaçıydı?** Alban dəyildi. **Başı yumrusov idi?** Yox, elə yumru dəyildi **O, nə tə-**

hər gəlib müsəlman qəbiristanlığına düşüb? Əslində, bizim kəndin qəbirsannığıdı ora. O yer xristiyan dəyildi. Naxçıvan Pedaqoji İnistutun məllimi var idi, Qəhrəmanov, bizim kətdən Aşır vardı, onun oğlu Ədalətnən gəlmişdi. O fizik idi, həmən inistutda işliyirdi. O gəldi hamısın yazdı, amma deməsdi xristiyandı. Mənim o haqda bir qəzet yazım da olub. Babək rayonunun Qahab kəndində məllim işləyəndə orda çap etdirmişəm, Naxçıvanda. **Məsələn, o vaxtlar, siz bura gəlməmişdən qabaq ziyarət yerləriniz varıydı, müqqəddəs yerlər, gedib ziyarət eliyirdiz, niyət eliyirdiz? Qoçları ziyarət eliyirdilər?** Yox, qoçu atalarının, analarının üstündə qoymuşdular. **Nəyə görə qoyurdular, soruşmurdular ki, o bunu niyə qoyub?** Bu, indi dədə-babalar deyir də. Guya qoç xəyaldı. Pirlərimiz varıydı da, gedirdilər. Ojax idi. **Nə piri idi?** Nəzir qoyulardı da elə bil. Gömür kəndi varidi. Gömürnən Axtanın arasında Cındırrı piri variydi, böyründə də alça ağacı, qaratikan koluna oxşiyıdı. Ora gəlip gedən əski bağliyardı. Ama Axtaynan Gabud yolunun arasında bir pir də varıydı, ojağ deyərdilər. Ora ziyarətə gedirdilər. Mənim anam, üzür istirəm sizdən, birinci uşağım olanda, mən tək olmuşam. Birinci uşağım olanda anam yeddi il ora qurvannığ apardı, ayağyalın getdi, gəldi. Hardasa kilometir yarım olar, iki kilometir. **Ocağda nə varıydı ağsaqqal, daş varıydı, ağac varıydı?** Daşnan hörülü, üstü ağacnan örtülü. **İçində məzar varıydı?** Yox, daş var idi, göy daşıydi. **Ümumiyyətlə, bu sizin dediyiniz tərəfdə pir deyirdiz, ocağ deyirdiz, türbə deyirdiz, nə deyirdiz?** Ocağ deyirdilər elə ora, biz deyirdik pir ojağı, nəzir ojağı, helə deyirdığ. Həqiqətən o, qırx bir-qırx beşdən, keşmiş vaxtardan qalan bir ojağ idi. Doğurdan yeri orda olube, mən özüm görmüşəm, getmişəm. **Nə üçün gedirdilər ora?** Daşnan hö-

rülmüşdü qıraxlarına da, u vaxtı da, məsələn, mənim altmış yaşım var, mən özüm görmüşdüm, getmişdim. **Adı nə idi?** Bilmirəm, deyirdilər elə çay ojağı. Niyət eliyib gedirdilər. Bizə deyirdilər, deyirdığ ki, çay yuxardakı ojağa gedirix da. Mənim qardaşım əskarlıxda idi, deyirdim qardaşım əskarlıxdan sağsalamat gəlsin gedəjəm o ojağa nəzir qoyam. **Amma məsələn, deyək ki, müəyyən xəstəliynən bağlı getmirdilər?** Gedirdilər, hamısı da gedirdi. Biri daş götürürdü, xəstə olanda kürəyinə sürtürdi. **O daşı da, hə?** Bəli, bəli, orda daş variydi, belə çaylaq daşdarı variydi, bəli. Belə top da variydi, yastısı da variydi. Məsələn, bir xəstəynən gedəndə birinin kürəynə sürtürdülər və ya, birinin qolu ağrıyırdı, qoluna sürtürdülər. Kimin başı ağrıyırdı, belə boynun dalına. O ocağa gedip gələnnər pul da qoyurdu, ziyarətə gedənnər. Mən çox üzür istiyrəm, mən çox təvəzökar adamam, özümi tərifləmirəm. Mən yetim böymüşəm, yoldaşdar bilillər, çox kasıb dolanmışam. Və o ocağa gəlip gedən kasıbkusub urdakı pullardan götürərdi, onnarın da biri mən olmuşam. Ehtiyacı olannar üçündü. Yox, bunu niyə danıram ki. Mən yetim uşağ idim, sonradan oxudum, dolandım da.

Hal var idi, hal aparar, hala sizlərdə nə deyərdilər? Uşağı nə cür qoruyurdular haldan? Uşağı yoxe, ananı qoruyurdular. Hal, ananı deyərdilər aparır. **Nə cür qoruyardılar?** Yəni yanına mis qoyardılar. Bizdə həmin misdən elə anam uşağın başının altına qoyardı. Həmən mis də qalırdı, bilmirəm, indi durumu, anam vermişdi yoldaşıma. **Məsələn, vurğun varıydı, ağacın altınnan keçmiyin, vurğun sizi vurar?** Hə, deyərdilər qoz ağacının altında yatma, qapının darvazasında oturma, ya, yatma Vurğun vurma variydi, yəqindi. **Nə təhər təsəvvür eliyirdilər vurğunu, insan formasında, nə formasında?** Murtuzayeva Xədicə: Olar gözə görünməz idi, qaralırdı. Biz də

gözə görünməz qüvvə kimi hesab eliyərdik. Mənim papam diyirdi ki, mən qoyun otarırdım, günorta idi. Deyir, qoynu yığırdım kolluğa, deyir, aynə belə qaytərəndə gördüm, əmsi qızdarı variydi, adi Günəş idi birinin. Həmən Gomur kəndində olup. Deyir, gördüm bir qadın gəldi oturdu, bu elə namaz üstündeydi də, deyir, elə doğurçımı, yalannan, gözə görünüb, olub yox. Deyir, elə bildimki əmmiz qızı Günəşdi, hardansa gəlir. U məni burda görüp, gəlip yanıma da. Deyir, dedim Günəş oturginən qoyunu qaytarım çıxıram sənə sarı. De-yir, oturdi. Deyir, hərrəndim, belə gəldim, deyir, Günəşə çatanda deyir, bir də gördümki arvad yoxdu. Deyir onun donunda, onun paltarında. Deyir, doğirdən hey fikirləşdim, belə, pis oldum da. Deyir, dedim bissimillah bu nəydi ki, bu qadınıydı. **Yuxuydu?** Yoxe, nə yuxuda, doğurçidi. Papam deyir elə birdən yox oldu.

Təzə uşağ gətirən qadının yanında həmşə adamı tək qoymazdılar, oturardılarki, hal aparar. Yəni ananı aparar da. Misdə çırpıb, belə çak-çuk eliyərdilər, mis qab da, belə kasada döyəcliyirdilər ki, qorxsun da. **Şəvə zad yoxiydi sizdə?** Niyə yox idi, variydi, babaqqulu*, haqqıx*, şəvə*. Göycə varıydı, göy öskürəyə qarşı. Göy öskürəyə qarşı dərman deyirdilər göycə. **Hal dişi varıydı?** Varıydı. **O, nə təhər şeydi hal dişi?** Onu mən görməmişəm, ama eşitmişəm. **Nəyə qarşıydı?** Onu asırdılar uşağın üstünnən. Dağdağan varıydı, elə şeylər varıydı, nə bilim vallah. Hal gözə görünməzdi. **Yadızda əfsanə, nağıl, nə bilim, belə şeylər, rəvayət, dini əfsanələr varmı?** Bizim kəndin yuxarsında, bu əfsanə deyila, həqiqətdi, 18-ci ilin erməni-müsəlman davasında camaatımız yığılır Banavın dalında, düz yer variydi, ora. Banav dağı variydi, onun arxasında hündür dağ. Orda kalafalar* qoyulmuşdu, camaat ordan baxırdı. Yaşıyırmışlar orda, ermənilər qovub kətdən çıxardıblar.

Onda Yexeqnadzor rayonu, keçmiş Mikayan idi, sora dəyişdilər Yexeqnadzor elədilər. Onun adı da ayrıydı. Dəyan. Mikayanın adı nəydi, bizim Azərbaycanın vaxtında, dəyərəm indi, Keşiş kənd. Həmən orda Əynəzur kəndi varıydı, ordan görürlər yanan işığları, ordan görnürdi. İndicə adnı çəkdiyimiz Paşalı[30] kəndinnən bir nəfər gəlillər, onnarı bələdçi götürər. Nuraynın babası deyərdi, yoxsa atası, qocalar deyərdi. O, bələdçi kimi gətirib orda bizim camatın bir hissəsin qırmışdılar gecə yatdıxları yerdə. Bir qadının belində uşağ olanda xəncəri elə vurmuşdular ki (Bahara), arvadın da başı yarılmışdı, amma uşağ ölmüşdü (S:22;23;T:2;3).

XATİRƏLƏR… TƏƏSSÜRATLAR...

Kəndimizin adı Quyludu, bu sözün hardan götürüldüyünü yaşlılar bizə demişdi. Orda su quyudan çıxırdı. İki dənə quyumuz var idi: biri şirin suydu, biri duzdu su. Biri işməli suydu, biri elə-belə, işdətmək üçün idi. Sözün də mənası bu quyulardan götürülmüşdü, yəni kənd "quyulu yer" deməkdi.

Deportasiya: Biz 1949-cu ilin oktyabr ayında gəlmişik. Qərbi Azərbaycandan bizi Mir Cəfər Bağırov köçürdüb. Yerevannan qonşuyduх. Kənəkir rayonu varıydı. Ermənilər onun adını dəyişdi, oldu Kotay rayonu. Yerevannan birrəşik idi o rayon. Onun kəndində olurdux, Quylu kəndində. Zəngibasara yaxındı.

O vaxtı bizim bir tanışımız varıydı. Ağstafada qohumuydu. O, Mircəfər Bağırova işliyirdi. Onda mənim on beş-zad yaşım varıydı. Rəhmətlik atam iş adamıydı. O tanış dediyim gəldi bizə söylədi ki, sizi köçürəcəklər. O vaxtı ermənilər nə qədər ki, biz burda qonşu olmuşux, burda yaşamışıx, bizə pis olmuyuflar. Mən şahidəm, yadımdadı ki, bizi köçürdüb gətirəndə, köçümüzü yığanda qonşuluq elədiyimiz ermənilər bizim dalımızca ağlıyırdılar. Deyirdilər, niyə gedirsiniz? Bir kənddə altmış ev idi, otuzu azərbaycanlı idi, otuzu erməni **(Ermənilər biznən dosdux da eliyiblər, qonşulux da eliyiblər. Amma bir də görürsən, söhbət gələndə deyirdilər ki, biz uşaxlarımız anadan olanda, uşağın göbəyin kəsəndə uşağın qulağına deyirik ki, yadında qalsın ki, bizim düşmanımız türklərdi).**

Orda üç dənə əsas iş var idi. Biri sədr idi, biri anbardar, biri briqadir. Kənd idi da. Məsəlçün, oranın da nə haqq-hesabı varıydısa, kolxozun nə haqq-hesabı varıydısa, onu ancax

anbardar həll eliyirdi. O da mənim atam idi, Ramazanov Mirzə. Savaddı adamıydı. Demək olar ki, orda ən savaddı adam sayılırdı. O kənddə erməni sədr idi, atam anbardar idi, bir də briqadir variydi, vəssalam.

Həmin bizim Ağstafada olan qohum polisdə işdiyirdi. O da Mircəfər Bağırovun adyudantı olan kişiynən dostuydu, qohumuydular. O, bizə gəlib toyda danışdı ki, bəs bizi köçürdəcəklər Sibirə. O kişi söhbət elədi. Bu olub Böyük Vətən müharibəsinnən sonra. Dedi ki, Stalin bir dənə əmr göndərib. Onu billəm ki, biz orda olanda Livannan, Suriyadan ermənilər gətirmişdilər. Geyimləri də yaraşıxsız. Mən şəxsən görmüşdüm, gördüyümü deyirəm. Çox yöntəmsiz, siqana[31] oxşuyurdular. Gələn kimi yüyürüb krantı açırdılar. Deyirdik, nə axtarırsız? Dedilər, ordan bizi köçürdüb gətirəndə bizə deyiflər ki, Ermənistanda krantdardan süt axır. Gedirdilər, o kolun dibin axtarırdılar, bu kolun dibin axtarırdılar.... Nə axtarırsuz? Uşax idik, soruşurdux, dyadya[32] nə axtarırsuuz? Deyirdilər ki, axı bizə deyiblər kolların dibində töyuxlar yumurtuyur, krantdardan süt axır. Bizi olar köçürdüb gətiribdi, ona görə gəlmişik. Dedik, kül başuza, sizi alladıblar. Süt harda, yumurta harda....

Nəisə, işin içində olan danışır. Dayım oğlunun toyunda danışırdı. Stalin Mircəfər Bağırova əmr göndərib ki, Miri ("Miri" deyirdi ona), Ermənistanda olan bütün azərbaycanlıları Sibirə göndərin. Livannan erməni gətirmişik, yerimiz sıxlaşıfdı. Onda atam rəhmətdik deyirdi ki, bunnar Naxçıvanı istiyillər. Ona görə belə deyiflər. Mircəfər orda olmuyuf. Adyudantı da əmr gələn kimi baxıf görüf ki, Stalinin peçatızadı, deyir ki, azərbaycanlıları Sibirə göndərmək lazımdı. Yerimiz sıxdı, ermənilər gəlib dolub. Bu da qorxusunnan deyir, kağızı gizdətdim (Stalinin əmrini gizdətdim). Deyir, kağızda

gördüm ki, azərbaycanlıları sürgünə, qorxdum, Mircəfərin xasiyətin bilirdim. Dəli şeydi, bir də görürsən ermənilər çağırıb ağzına gələni deyirdi. Deyir, nəsə, mən kağızı gizdətdim. Aradan bir həftə keçdi, təzədənnən Stalindən bir dənə də əmr gəldi. Miri, sənə dediyim söz nooldu? Niyə həll eləmədin bəs? Dedi ki, nə sözdü? Deməli, kişi kağızı qorxusunnan ona vermiyif. Dedi ki, Abdulla, bəs bura mənə əmr gəlib, bir həftədi sən onu, Mərkəzi Komitənin əmrini niyə mənə verməmisən? Deyir ki, vallah, Miri, elə bir əmr idi ki, mən onu utandım sənə verməyə, qorxdum. Nədi? Hardadı? Deyir, getdi, kitabın arasınnan çıxartdı gətdi. Baxdı gördü ora yazıb ki, Miri, əmrim sənə çatan kimi ordakı azərbaycanlıları Sibirə göndərmək lazımdı. Deyir, Miri oxuyan kimi qayıtdı Stalini biədəb söydü. Durdu, əmri də götürdüm.

Dostu sonsuzuymuş. Öyladı-zadı yoxuymuş. Mənə deyir zəng elədi Tovuza, Qazağa, axşam saat neçiyə özünü bura çatdır, işim var sənnən. Deyir, durdum otdum poyuza getdim. Getdim gördüm ki, arvaddı evdə, Miri hələ gəlmiyib. Dedi ki, otur, indi gələcək. Getdim, otdum, çaydan-zaddan işdim, bir də gördüm gəldi. Deyir, gəldi, xoş gördük, o yan-bu yan, dedi ki, bəs mən səni çağırmışam, belə-belə, mənim evimdə qalaysan, mənim bir səfərim var, gedirəm, gələnnən sora sənə deyəjəm.

Nəsə qaldım. Mircəfər getdi. Mən qaldım orda, bu, adyudantını da götürdü, çıxıb getdilər. Demədi hara gedirik. Getdi, səhər üzü gəldi. Samalyotnan gedib. Adyudant danışır ki, getdik, a kişi, Mircəfər Bağırovu elə bil Kremlin itdəri də tanıyır. Qapıları açа-açа, heç kəsə müraciət etmədən getdi girdi içəri. Mənə dedi ki, dalımcax gəl. Mən də bunun dalıncax getdim. Qapını açdı, gördük odey, böyük bir zal, başda oturub, Stalin nəsə oxuyur. İcazə almadan düz getdi çıxdı kişi-

nin yanına. Başının üstündə durdu. Hələ Stalinin fikri yazıdadı. Birdən başın qaldırdı baxdı, durdu ayağa, Miri, xoş gəlmisən. Deyir, nə bunun salamını almadı, nə də buna vec vermədi. Kişi and içirdi, ona nə düşüf yalan deyə. Dedi ki, nə əmr idi? Buna qayıtdı ki, Miri, bəs sənə əmr göndərmişəm, mən Mərkəzi Komitənin katibiyəm, bir həftədi mənim əmrimə niyə cavab vermirsən? Deyir, kağızı belə tulladı onun qabağına, qayıtdı ki, bu nə əmrdi?! Sən bəyəm təkcəsən? Ermənilər səni yenə başdan çıxardıb, eləmi? Deyir, indi qışqırır ki, Beriya, Mikoyan hamısı bura gəlməlidi. Stalinə deyir ki, onlar bu dəyqə hardadılarsa, gəlsinnər bura. Onnar nə səən başuvu yeyif. Nə məjburiyyət eliyirsən? Mən niyə azərbaycanlıları Sibirə göndərməliyəm?! Əgər yeruuz yoxdusa da, niyə ermənilər ordan-burdan yığıb gətirib doldurduuz Ermənistana?! Yeruuz yox idisə, niyə gətirirdiniz? Azərbaycanlı orda doğulub, orda böyüyüb, oralıdı. Niyə azərbaycanlıları Sibirə göndərirsiniz?!

Çox mübahisədən sonra, Miri, mən də bu boyda Mərkəzi Komitənin katibiyəm, bəs mənim sözüm atkaz olanda mən kim oluram? Deyif, kim olursan, ol. İndi ki belədi, mən azərbaycanlıları köçürdüb Azərbaycana aparacam. Sibirə niyə aparıram?!

Onnan sora Mircəfər Bağırov gəldi Yerevana. Bu günkü kimi yadımdadı. Bizim hansı kənddə rəhbərrərimiz var idi, iş başında olan adamların hamısını çağırdı apardı Yerevana. O cümlədən, orda mənim əmim oğlu varıydı. Rəhmətdik Abbasəli əmi. O, Ermənistan Dövlət Unverstetin qurtarmışdı. Onun da müharibədə ayağının biri yox olmuşdu. Onnan sora onu çağırdı, məsul şəxsdərdən apardı Yerevana. Mircəfər Bağırov bir həftə otdu Yerevanda. Harda azərbaycanlılar varıydı, onnarın hamısını yığdı, çağırdı. Çağırdı apardı, orda göstəriş verdi, dedi ki, hər birüüz rəhbər kimi kəndüüzdə, şəhərüüzdə, harda yaşı-

yırsuzsa, orda nə qədər azərbaycanlı var, onnarın hamısını siyahılıyırsuuz, neçə ailə üzvü var, neçə yaşında, siyahılaşdırıb bir həftiyə kimi mənə məlumat verirsüüz.

Demirəm, bizdən də rəhmətdik Abbasəli əmim getmişdi. Getdilər, yazdılar, pozdular. Orda bulara demişdi ki, gedin Azərbaycana, gəzin Azərbaycanın şəhərin, kəndin, hara sizin yerüzə, təbiətüzə (dağı var, aranı varı) uyğun gələcəksə, sizi ora köçürdəjəm. Nə qədər ki azərbaycanlı yaşıyıb, onnarın hamısının nümayəndələri olub orda. Hamısının nümayəndəsini çağırıb yığıb ki, gedin, Azərbaycanda haranı bəyənsüüz, deyin. Məsələn, elə adam var idi arannı idi, dağa, dağlı idi, arana. Bizdən də rəhmətdik Abbasəli əmim, bir Yusif kişi var idi. Savaddı bular idi. Bular ikisi gəldilər Azərbaycana, axtarmağa. Gəlib Qaraməryəmi bəyənmişdilər. Çünki biz pambıx görməmişdik axı ömründə. Bular da gəlib görüblər pambıxdı hər yer, Qaraməryəmi bəyənmişdilər. Qaraməryəm adıyla da bizi poyezə yığdılar. Nəyimiz varsa da, məsəlçün tükanda nə varsa da, iki kilo konfet varsa, biri bizim, biri onnarın. Tolada dörd dənə mal varsa, ikisi bizim, ikisi buların, ermənilərin. Cəmi altmış ev idi, yarısı azərbaycanlı idi, yarısı ermənilər. Mal-qaramızı, qoyundan, itdən-pişikdən nə varsa hamısını çıxardıx. Bizə dedilər ki, gedin bəyənin. Qaraməryəmi bəyənib gələndə gəldilər məlumat yazdılar. Ona görə hər bir ailə üçün bir tavarnı vaqon ayırmışdılar. Bir dənə evdən başqa, lap süpürgən varsa, süpürgüyü də apar. Hamısını yığdılar tavarnıya, ləngər-ləngər gəldik. Saxladılar Ucarda. Ucarda gördük ki, Potunun maşınnarı diyanıb. Biz Qaraməryəmə getməliyik axı. Potunun maşınnarı diyanıb deyəndə bizim rəhbərrərimiz, savaddılar, atamgil-zad dedilər ki, yox, biz burda düşmürük, biz

Potuya getmirik. Biz Qaramәryәmә gәlmişik. Biz Qaramәryәm adıynan gәlmişik.

Cәmilә Ağayeva onda rayispolkom idi. Nә isә, bular hamısı tökülüşdü gәldi, dedilәr ki, ay qardaş, sizi Potuya tökәciyik. Siz Potuda olacaxsız. Çünki Qaramәryәmә mәsләhәt görülmür. Biz dә dedik, biz oranı bәyәnmişik. Nәsә, üç gün bizim adamlar poyuzdan düşmәdilәr. Dedik ki, Qaramәryәmdisә, gedirik, yoxsa biz düşmürük.

Uzun sözdәn sonra gәldilәr, danışdılar, ora-bura, rәhbәrrik, obşum[33], düşdük Potuya. Bizi tökdülәr Potuya. Potuda demә ki bizdәn qabax evlәri bölüblәr. Kimin iki evi var, birini, kimin üç evi var, ikisini. Siyahılaşdırıblar-eliyiblәr әmәlli-başdı. Apardılar, evlәrә bölüşdürdülәr. Biz dә düşdük, o övlәrdә qaldıx. Sonra Mircәfәr Bağırov hәmәn rәhbәrrәrimizi çağırdı, Göyçayın raykomuna apardı. Bölüşdürdülәr Potuya, Çayarxına, Şәhadәtә böldülәr. Böländәn sonra dedi ki, hәrә öz kәndindә nә qәdәr ki, adam düşür, ona yetdik ev tiksin. Mircәfәr Bağırov әmr verdi. Onnar üçün posyolka[34] salın. Hamısı qoy yaxın olsunnar. Evlәr tikiländәn sonra әmr verdi ki, on il sizdәn noloq, ev pulu alınmayacax. On ildәn sonra nә qәdәr şey olsa, işdәdiyiniz әmәk haqqından faiznәn o pullar çıxılacax. Yaş kağızdarın hamısını topladı. Bir ildәn sonra yenә yığıldılar, ispolkom iclasa çağırdı, bәs Mircәfәr Bağırov әmr verib ki, o evlәrin pullarının hamısı bağışlanılsın. Heş kәs pul verməsin. Tez-tez camaatın vәziyyәtin soruşurdu. Rәhbәrrәri aparırdı, “camaatdan muğayat olun, kim nә iş başarır, onu verin!”

***

Bizim Göyçә ilә çox әlaqәmiz var, göyçәli qohumlarla. Ağbulaq, Ardanış, Şorca. Ermәnilәr elә hәrәkәtdәr eliyirdilәr

ki, olara qarşı. Onlar 1988-ci ildə köçüblər. Onda mənim dayımın nəvəsi Ağbulağın kolxoz sədri idi. Onlar Krasnoselski rayonuna baxırdılar, qabaqca Çəmbərək idi. Gədəbəynən sərhəddi ora. Siz inanın ki, köçmək söhbəti düşəndə oları dəhşət incidirdilər ki, çıxsınnar getsinnər. Çoxlu malları, qoyunnarı olandı axı onların. Krasnoselskiynən Gədəbəy arasında bircə dənə dağ var axı. Orda bir erməni azərbaycanlıları xəlvətcə-xəlvətcə Gədəbəyə keçirirmiş. Ermənilər hətta evlərinə gejə hücum eliyirmişdər buların. Bizim qohumların danışığını deyirəm. Olar məjbur gəlirlərmiş gejələr bunnara ki, dalaşıllarmış, çıxıb getsinnər, malları-zadı nələri varsa, qoyub çıxsınnar. Dayımın nəvəsi Telman məllim kolxoz sədriymiş. İndi olar Sumqayıtda yaşıyır.

Bir erməninin qruzovoy[35] maşını varıymış. Elə təşkil eliyiblərmiş ki, həm onnarın sözü olsun, həm də guya ki, bu tərəfdən bizə yaxşılıx eliyirlər, bizə hörmət eliyirlər. Məsələn, bu gün Əkbər müəllimi görürmüş (yanında əyləşən həmyerlisinə işarə edir – A.Ə.), deyirmiş ki, axşam hazırraş (guya buları qoymullar kənddən çıxmağa, öldürmək istiyillər), mən sənin köçünü gəlib aparacam. Deməli, axşam gəlirmiş, Əkbər müəllimin köçünü yüklüyüb, xəlvətcə Krasnoselskidən keçib Gədəbəyə düşürdüb qayıdırmış. Bir neçəsini belə-belə eliyirmiş, evinnən-eşiyinnən çıxsın getsin, evlər qalsın. Çoxu elə oldu.

Axırda dayımın nəvəsi, kolxoz sədri Telman məllimi hədəliyirlər. Cannı cavan oğlan idi. O deyirmiş ki, çıxmırıx, niyə çıxax ki, öz kəndimizdi. Bir dənə də erməni yox idi orda, hamısı azərbaycanlılar idi. Görür ki, buna hücum-zad eliyiblər. Elə eliyiblər ki, idarədə otduğu yerdə hücum eliyiblər buna. Hücum eliyiblər, qapını bağlıyıb içəridən. Ermənilərin qurqu-

su olub. Həmən adamları ora-bura aparan erməni Telman məllimin idarəsinin qapısın bağlıyıb, guya ki, buna dəyməsinnər. Gecənin bir aləmi gəlib ki, Telman məllim, mənim sənə hörmətim o olar ki, gəl otur maşına, səni aparıb keçirdim Gədəbəyə. Ailəsini, uşağını keçirdibmiş guya o vasitəynən. Sən də tələsmə, qoy gecə qarannığ olsun, ermənilər sakitdəşsin. Təzdənnən gecə gedib idarənin qapısını açıf, Telman məllimi qoyub maşına, aparıb Gədəbəyə düşürdüb. Ermənilər qorxuzmax mənasında elə qurğu qurublar ki, evlərin-eşiklərin qoysunnar getsinnər. Oların çoxun elə elədilər. Bizi Mircəfər Bağırov köçürdəndə süpürgəmizi də gətdik.

Telman məllim danışırdı ki, gecə erməni mənə dedi ki, mənim sənə hörmətim o olar ki, səni sağlam burdan çıxardaram, qoymaram öldürməyə. Guya Telman məllimi öldürəcək ermənilər. O qurğuynan Telman məllimi qoyub maşına, aparıb Gədəbəyə düşürdüb. Olar heş-zad gətirəsi olmadı da. Oların hər şeyi qaldı.

***

Mənim babam şəxsən Gəncədə yaşıyıb siftə. Gəncədən köçüb gediblər. Evimiz-zadımız da vardı Gəncədə. Qohum-əqrəbamız hamısı Gəncədədi. Bizim qohum-əqrəbadan beş-altı nəfər köçüb. Mircəfər Bağırov bizi köçürdəndə əmr vermişdi ki, on il biz dediyimiz yerdə qaleysuz. Ayrı yerə köçməyə icazə yoxdu. On ildən sonra hara köçürsünüz, köçərsiniz. On il orda qalannan sora kimdi köçən?! O tərəfləri çox pis köçürtdülər. Dayım oğlunun çoxlu var-döyləti, malı-qoyunu varıydı, hamısı qaldı orda.

***

Mənim böyük qardaşım, rəhmətə gedən qardaşım dörddə, beşdə oxuyardı. Mənnən bir yaş balacadı. Deməli, erməni uşaxlarıynan oynuyullar. Kolxoz sədrinin oğlunu döyüb. Qar olur, hündür binaların arasına qar yağanda örtür. Şəpə* deyillər. O şəpəylə damın arasında məsafə qalır. Qar basır, aşağı boşluq qalır. Çıxıblar məktəbin üstündə oynuyullarmış. Kolxoz sədrinin oğlu bunun aşığını udub. Aşıq oynuyullarmış. Özü də İrəvannan bura kolxoz sədri gəlib. Mirzəcan idi adı. Qardaşımnan oynadıxları yerdə bunun aşığını nağayrıb bilmirəm, qardaşım götürüb ermənինin oğlunu qarın arasına, damın arasına salıb. Hündürlüyü nə boydadı (əlləri ilə göstərir – A.Ə.). Ordan çıxmax çətindi. Qarnan binanın arasında qar bir az əriyib, boşlux qalıb. O da götürüb hündür binanın arasından gədəni salıb arıya. İndi gədəni çıxarda bilmillər ordan. Erməni kolxoz sədri gəlib (anam rəhmətdik deyirdi ki, elə bilifdi ki, dədəm də əsgərrikdədi, erməni sədr qardaşımı döyəjək), mənim uşağımı hara eləmisən. Gəlib deyib ki, ay dığa, uşax necoldu? Mənim oğlum necoldu? Deyir ki, sənin uşağuu döydüm, odey atmışam ora. Elə onda da ataman idi. Deyir, bax, salmışam qarın arasına. Qarın arasınnan çıxartmaq üçün gərək o qar uça, sökülə, tökülə.

Uzun sözdən sonra bunu çıxardıflar. Qarın dalınnan uşağı çıxardıflar. Atam müharibədə, biz də uşağıx. Anam da elə bilif ki, qardaşımı vurajax erməni sədr. Sədr çağırıf buları, deyif ki, niyə vurmusan onu? Niyə salmısan ora? Deyif ki, götürdü aşığımı vermədi, cığallıx elədi. Aşıq oynuyullarmış. Oğluna deyif, elədi? Deyif ki, hə. Deyif ki, sən, a köpəkoğlu, görürsən, sən yağnan-balnan böyüyürsən, yəni mən sədrəm da, amma o, əsgər uşağıdı, bir qarın yemək tapır, bir qarın tapmır

(müharibə vaxtıdı). Bax, sən nə oğlusan ki, o, səni döyüf, səni atıbdı ora? Öz oğluna bir şillə vuruf, mənim qardaşımın da üzünnən öpüf, deyif, get, halaldı sənə. Səni ki türki lamuk (ermənicə türk küçüyü, türk tulası) döyüf, əcəb eliyif. Ajığınnan eliyif. Yəni sən yiyib-içirsən, yağ-bal içində yaşıyırsan, amma o, atasız uşaxdı.

***

Bizim kəndimizdə kürddər var idi. İki cür kürd var idi: Yezidi kürddər, Əcəmi kürddəri. Əcəmi kürddəri bizim dinimizə qulluq eliyirdilər. Yadımdadı, kürdün birinin adı Tamo idi. Yaxşı oğlannarın biriydi. O, müharibiyə getmişdi, müharibədən general rütbəsiynən gəlmişdi. Gəlmişdi Yerevana. Əslində, bizim kəndçimiz idi. Quyludan idi. Yerevana gəlmişdi motosikletnən. Dedilər ki, bəs bunu çağırıblar Yerevana, general rütbəsiynən gəlib də, buna yağın vəzifə-zad verəcəklər. Onun Mərkəzi Komitədə işini təyin eliyiblər. Qayıdanda onun motosikletini vurub öldürmüşdülər. Ermənilər eləmişdi. Baxıb gördülər ki, rütbə verdilər, ev veriblər, getsin Yerevanın özündə ölsün.

***

Kürddər də biznən barabar Noyruz bayramı keçirirdi. Biz nağayrırdıxsa, Əcəmi kürddər də onu eliyirdi. Amma Yezidi kürddər biznən düz gəlmirdi. Olar deyirdi ki, guya onnarın xamırı bizim qanımızdan yoğrulur. Acıtmalı ki xamır yoğururux e, onnan. Bizim kürddər deyirdi ki, Yezidi kürddərnən dosdux eləmiyin. Olar bizim düşmanımızdı. Nəyə görə? Bu xamırdan o xamıra götürüb xamıra saxlıyıllar. Deyirdi, yadımdan çıxıb xamıra götürməmişəm, kəsilifdi. Yezidilər bizim kimi azərbaycanlı, ya Əcəmi kürdü axtarıb, öldürüb, onun

qanınnan götürüb xamıra düzəldillər. Elə bir rəvayət var idi (S:16;T:2;3).

***

Bizim Qəmərli rayonu İrəvan mahalına baxırdı, ermənilər dəyişib elədilər Şaumyan. Mən özüm voleybolçu olmuşam. Yığma Azərbaycanda oynuyurdum. Yaxşı oyunçu idim. Ermənilər bilirdilər bunu. Yerevanda oynadıx. Zal instutun yanında idi. Dedilər sən yaxşı oynuyursan, hayıf ki, türksən. Sənnən biz istifadə eliyəmmərik.

***

Əmioğlum Ceyhunun (yanında əyləşənə işarə ilə – A.Ə.) bir əmisi varıydı, Nəriman Kərimov. Heş bir erməni orda türkə söz deyəmməzdi. O, gedib onun cavabın verirdi. Bular qalan evin yanında məktəb varıydı, Əzizbəyov məktəbi. Ora qıraxdan-zaddan gələnnər varıydı. Kimi ki incidirdilər, onu Nəriman qoymurdu. Olar çox pis olublar Azərbaycana qarşı. Azərbaycanlıları sevmiyiblər. Amma Nərimanın adını eşidəndə qorxurdular.

Bir qohum var, o deyirdi ki, Nərimannan bir məhlədə qalırdıx. Deyir, məni bir dəfə ermənilər tutdu, döymək istiyirdilər, dedilər ki, Nərimanı tanıyırsan? Deyir, dedim, hə. Deyir, buraxdılar ki, get. Sən əgər Nərimanı tanıyırsansa, get.

***

Yerevanda bir hadisə olmuşdu. Kadındı, nazirin yanına girib. Nazir deyib ki, sizin qanuuzu işmək lazımdı. Bu arvad da ürəhli olub, yeriyib bunun üstünə ki, iç də, iç! Deyib get, get! Qanuu bura töhmə. Ermənilər imkan olsa qanımızı içəllər.

***

Bir dəfə Yerevanda bazara girmişdim. Bir dənə oğlandı, azərbaycanlıdı, qulaxları da sınıxdı. Bildim ki, bu güləşçidi. İndi bu suyu dağıdıb, erməni arvaddar bunu məjbur eliyir ki, əlinnən yığ. Qoymadım. Dedim ki, siz nağayrırsuz? Dağılıb, dağılıb da, cəhənnəmə dağılsın. Əl çəhdilər oğlannan.

***

Mənim babamgil yeddi qardaş olublar. Buların hərəsinin nə qədər də uşağı olub. Babamın qardaşı uşaxları çox olub. Orda da Zəngi çayı güjdü axırdı. Bir az, deyir, xoşumuza gəlmiyən olurdu, vururdux, düşürdü çaya, getdi, deyirdik erməni. Olara heş kim söz deyəmməzmiş. Deyir, nə qədər ermənini belənçinə vurub salıblar çaya. Sora çayın harasınnan çıxacaqdılar, tay orasını vejdərinə almazdılar.

***

Babamın adı Abbas olub, Abbas ağa. Ağa titulu varıymış. Ermənilərdə də ağa kimi status olub. Babamın qardaşı ermənini salıb atdan döyüb. Sora elə olub ki, at ürküb, həmin babamın qardaşın aparıb çırpıb dağa-daşa öldürüb. Öz atı olub. Ürküb, dağa-daşa çırpıb öldürüb. Bunu da bir dənə musurman gəlib ağıya deyib ki, muştuluğumu ver, filankəs öldü. Gəlib bunu da babama çatdırıblar. Deyib yaxşı, gedin, işinizdə olun. Geciynən həmin adamı babam öldürtdürüb. Deyib sən niyə satqınçılıx eliyirsən? Adam yolluyub, deyib gedin onu öldürün. Bu da gəlib, xançalı burdan soxub, o üzünnən çıxıb. Olar bildilər kim eliyib. Bildilər mənim babam elətdirib.

***

Mənim yadıma gəlir, balaca idim. Bir dəfə bir erməniynən dalaşdım, mən bunu döydüm. Bu diyandı-diyandı, mənim yanımda, məni vurdu, qaşdı. Mən də bunu qovdum ki, tutam. Bizdən böyük ermənilər varıydı. Gördülər ki, mən bunu tutub döyəcəm, orda podnoşka (badalaq) qurdular mənə. Yıxıldım yerə, gedə bilmədim dalican.

***

Orda hiss olunurdu ki, bizə qarşı nifrət var. Axır vaxtlar Yerevanın özündə iki yüz ev qalmışdı. Onlar bilirdilər ki, bir də qalxsalar, bizi burdan təmiz çıxardacaxlar. Hamısı bilirdi ki, bunnar burda qonaxdılar, nə vaxtsa çıxajaxlar. Ehtiyat edirdilər, ermənicə elə danışırdılar ki, erməni hiss eləməsin ki, bu, türkdü.

***

Bir dəfə orda dalaşdım, İrəvanda üç-dörd nəfəri vurdum, bəlkə də çox. Səhər xəbər çıxdı ki, burda bir türk var, ermənileri öldürür. Demədilər e, döyür, öldürür dedilər. İrəvanın bir balaca bazarı varıydı, skladçını[36] vurdum, qarolçunu vurdum, tərəzi verə-ni vurdum, hamısını vurdum. Dedilər, burda bir türk var, ermənileri öldürür. Demirlər e, yıxıb döyür, dedilər, öldürür. Bax, olar belə millət idi (S:24;T:2;3).

PAYIZ SÖYLƏMƏLƏRİ

Sarı payız, sarıca payız da beləcə yurd saldı özünə. Qalxdı sarıca kəhərinin belinə səyirtdi. Belədən-beləyə, nə öyündüyümüz Xan çinara məhəl qoydu, nə də yüz illik dədə palıda, hər ikisinə güc gəldi, yaşılca yarpaqlar xallandı, birəm-birəm qopub töküldü. Müdrik babalar əl-ayağı yığışan çöl-çəmənə baxıb əllərini saqqallarında gəzdirdilər, ağbirçək nənələrə xəbərdarlıq etdilər ki, hə, xəzəl düşdü, deməli, qış düşdü... Sizlər də ehtiyatınızı tutun. Bu vədələr günün bir yarısı yayındırsa, o biri yarısı qışındır. Nənələr qayıdıb misal çəkərlər ki, qorxma qışın arxasınca yaz gəlir, qorx yaydan ki, ardınca qış gəlir. İndi day əvvəlki vaxtlar deyil ki, qışdan qorxasan. İndi böyüklər də, kiçiklər də qarlı qışı səbirsizliklə gözləyirlər. Balacalar göydən düşən üç almanın həsrətini çəkirlər. Üç alma da ki, elə-beləcə düşmür. Nağıldan, şirin-şirin söyləmələrdən sonra enir...

Deyir, günlərin bir günü iki həmkəndli qoşalaşıb uzaq səfər niyyəti ilə yola çıxırlar. Az gedirlər, üz gedirlər, dərə-təpə düz gedirlər, günortanın istisində gəlib yetişirlər bir bulağa. "Ox qay" deyib o ki var, bulaq suyundan içirlər. Ürəyiniz yananda soyuq-soyuq sular sizin də qismətiniz olsun. Hə, yemək vaxtı gələndə başlayırlar bir-birinin üzünə baxmağa, heç biri çiynindəki xurcuna əl atmır. Beləcə, bir-birini gözləyə-gözləyə gün keçir, axşam olur. Axşamınız xeyirlə gəlsin. Acından əldən düşmüş yolçular güc-bəla ilə gəlirlər özlərini yaxınlıqdakı kəndə çatdırırlar. Bir qapını döyürlər ki, ay ev yiyəsi, bəs tanrı qonağıyıq. Ev yiyəsi də görüb götürmüş, iman yiyəsi bir müdrik qoca imiş. Söz-sözü çəkir, ağsaqqal qonaqların səfər niyyətini eşidib ürəyində deyir ki, gəlsənə onları bir bərkə-boşa çəkəm. Görüm ki, doğrudanmı, əsl dosdular ki, mənzil yoldaşı olublar, yoxsa elə burdan qayıtmaqları məsləhətdir. Axı əvvəl yoldaş, sonra yoldur deyiblər, hə, bir də deyir qonaq umduğu-

nu yeməz, olduğunu yeyər. Plov dəmə qoyulur, qoca fürsət tapıb yolçulardan birini yaxalayır ki, bir mənə de görüm, nə sayaq adamdır sənin bu yol yoldaşın. Aclıq yolçuya bir az da güc gəlibmiş, ürəyini boşaltmağa fürsət düşür:

– Eh baba, tanımırsan, bilmirsən. Nə arım*, nə ağardım, üzdən iraq, əsl heyvandır ki, durub. Mən evi yıxılmış da heyvanla yoldaş olmuşam.

Ev yiyəsi barmağını dişləyir ki, bəs, bunun dostluğu, etibarı məlum. Az keçməmiş o biri yolçunu da təkləyib qırağa çəkir. Bu yolçu da, yoldaşının xasiyyətindən yanıqlı-yanıqlı danışaraq deyir:

– Bununla yoldaş olduğum yerdə qıçım qırılaydı, ay baba! Xalis itdir ki, durub, mən it ilə yoldaş olmuşam, halıma yanan gərək.

Ev yiyəsi daha dinib danışmadı. Bəli, bir saat, iki saat, vaxt keçir, ortaya süfrə gəlmir. Sizin süfrəniz açıq olsun! Ac yolçular, ağızları sulana-sulana yeməyin gəlməsini gözləyirlər, özü də plov. Amma, di gəl ki, plov gəlmir ki, gəlmir. Yolçular sonda dilə gəlib dillənəndə qoca buyurur ki, qonaqlara yemək gəlsin. Yolçuların qabağına nə gəlsə yaxşıdır? Birinin qabağına yal, o birinin qabağına isə saman...

Yolçular əlüstü məsələni anlayırlar, amma üstünü vurmaq istəmirlər. Müdrik qoca isə özünü saxlaya bilmir, üzünü onlara tutub deyir:

– Nə qədər ki, gec deyil, qayıdın ev-eşiyinizə, çünki sizinki tutmaz. Uzaq yolun yolçuları bir-birinə qarşı etibarlı, sədaqətli, səxavətli və səmimi olmalıdır. Yolçular da aralanıb, hərə bir tərəfə üz tutub. Sizlər də doğru yolla əyri yolu ayırd etməyi bacarsanız pis yoldaşa tuş olmazsınız. Ağsaqqal məsləhəti, ağbirçək öyüdü həmişə yol göstərəniniz, ulu məsləhətçiniz olsun! (S:5;7;8;T:1).

GÖYÇƏ BAYATILARI

Mən aşıq, Göyçə dağı,
Uludur Göyçə dağı.
Məni od yandırmazdı,
Yandırdı Göyçə dağı.

Gün düşər göy çəmənə,
Nur verər göy çəmənə.
Ürəyimdən, canımdan,
Əzizdir Göyçə mənə.

Bala Məzrə[37],
Arxası qala Məzrə.
Dərdinə yas saxlayam,
Sinəmdə qala Məzrə.

Əzizim, Şişqayada[38],
Durubdur quş qayada.
Dözə bilmir həsrətə,
Ağlayır daş, qaya da.

Mən aşıq, Göyçəni yaz,
Gətir, di, Göyçəni yaz.
Dərdli yerlər içində,
Birinci Göyçəni yaz.

Əzizim, Göyçə məndən,
Yad gedər göy çəməndən.
Göyçədən ayrılmazdım,
Ayrıldı Göyçə məndən (S:25;T:2).

***

Əzizim, göy çəmənə,
Şeh düşdü göy çəmənə.
Ələsgəri çağırdım,
Səs verdi Göyçə mənə.

Gün döyər göy çəməni,
Yaşadır göy çəməni.
Ürəyimdən,qanımdan,
Səsləyir Göyçə məni.

Yağış, yağ göy çəmənə,
Həyat ver göy çəmənə.
Vallah, öz canımdan da,
Əzizdir Göyçə mənə.

Cahan birsə, Göyçə min,
Kim bilirsə, Göyçəmin.
Cənnət tay ola bilməz,
Bir küncünə Göyçəmin.

Hər yaylaq, göy çəmənsiz,
Gülərmi Göyçə mənsiz.
Kaş uğrunda can verəm,
Yaşaya Göyçə mənsiz.

Dağ başında göy çəni,
Bürüyübdür Göyçəni.
Yüz yaşamaq istəsən,
Hər yay dolan Göyçəni (S:17;18;T:1).

***

Əzizim, sana məni,
Bükmə kətana məni.
Əcəl gəlib yetişdi,
Apar vətənə məni.

Anasız qalan canım,
Atasız yanan canım,
Fələk, gözün doydumu?
Yerinə mən utanım.

Əzizim, yara qandı,
Ağrayir, yara qandı.
Baş yastiqda, göz yaşda,
Get, yara belə qandır.

Əziziyəm, kəndə gəl,
Burulmuşam, bəndə gəl.
Mən yuxuya getmişəm,
Əbdülbari, sən də gəl.

Haray, ellərim, haray!
Şana tellərim, haray!
Yurdum yağıya qaldı,
Soldu güllərim, haray!

Ağ saçlı pəri dağlar,
Heç baxmaz bəri dağlar.
Yadlara məskən oldu,
Bir utan, əri, dağlar!

Əzizim, necə dağlar,
Qarşıda necə dağlar?!
Dərdli sinəsi bilər;
Dərd onu necə dağlar!

Çay deyiləm, axam bir,
Dağı-daşı yıxam bir.
Qanadım ola, uçam,
Vətən sarı baxam bir!

Dağlara çən düşübdü,
Araya qan düşübdü.
Dostdan, qardaşdan ayrı,
Saçıma dən düşübdü.

Əzizim, el aparsın,
Elə tut, el aparsın.
Ölüm yaddır o kəsə,
El sevsin, el aparsın.

Dumanlı dağlar könlüm,
Nisgilli bağlar könlüm,
Nə açılmaz, nə gülməz,
Həmişə ağlar könlüm.

El getdi, binə qaldı,
Yurd-yuvam kimə qaldı?
Göyçəynən görüşüm,
Qiyamət günə qaldı.

Sinəm dağlara sarı,
Dağlara çək hasarı.
Daha könlüm ovunmaz,
Çoxdan sınıb, ha, sarı.

Sərin ağla,
Qəribi sərin ağla.
Ürəyində dolandır,
Dərindən dərin ağla.

Dərd bilməz,
Bu dağlar dərdi bilməz.
Quş olub uçan atam,
Gedib, dərdi bilinməz.

Dönən ağlar,
Çırağı sönən ağlar.
Harda ağlayan görsən,
Taleyi dönən ağlar.

Vətənə sarı,
Gedəmmirəm vətənə sarı.
Mənim bu üzüm heç gülməz,
Ağlayar vətənə sarı.

Dağdan arana düşdük,
Çovğun, borana düşdük.
Soyuqdan üşümədik,
Ayrılıqdan üşüdük.

Göyçəni,
Təmizlənər göy çəni.
Yüz yaşamaq istəsən,
Hər yay dolan Göyçəni.

Göy çəməni,
Şeh bəzər göy çəməni.
Hansı məkanda olsam,
Haraylar Göyçə məni.

Aşıq deyər, hey yanar,
Atəş narə hey yanar.
Daş yerinə səs gəldi,
Şah ulduzu[39] hey yanar!

Aşıq deyər, yaralı,
Ceyran gəzər yaralı,
Qeys gəzər səhralarda,
Leylisindən yaralı.

Əzizinəm, Poladdır,
Dəmir deyil, poladdır.
Düşmənlərə dağ çəkən,
Generalmız Poladdır!

Yay ötsə, göy çəməndən,
Bitirər göy çəməndən.
Ömür verib, can verib,
Söz alsın Göyçə məndən.

Qorx yaman dildən, aşıq,
Ötək ürəkdən, aşıq.
Deməsən hesab deyil,
Bir ağız zildən aşıq.

Bürüdü Göyçəni yaz,
Qovubdu göy çəni, yaz.
Gözəl yerlər içində,
Birinci Göyçəni yaz.

Xoşladım Babacanı[40],
O daşı, o bacanı.
Həkk oldu yaddaşımda,
Bu yerlər, baba canı.

Mən aşıq Göyçə gölə,
Sarıca, Göyçə gölə.
Vədəsiz nə mərd ölə,
Nə də ki, göyçək ölə.

Şəfəq göy çəməndədi,
Enib göy çəməndədi.
Qələm işləyir, demək,
Göyçə hələ məndədi.

Bu dağlar, sinə dağlar,
Dərdlərim sinə dağlar.
Hər gün baxar Araza,
Hey deyər Göyçə, dağlar.

Aşıq, bu Toxlucadı[41],
Toxlusu çoxlucadı.
Tarixdi hər qayası,
İxtiyar bir qocadı.

Göyçənin var alçası,
Döşənibdir xalçası.
Bir gözəl qız sevmişəm,
Qızılgülün qönçəsi.

Burdadı Bala Məzrə,
Arxası qala Məzrə.
Şəninə şeir yazam,
Şerimdə qala Məzrə.

De, hanı Dərəçiçək[42],
Suyundan bir qab içək?
Yar enər dağ döşündən,
Dərədə dərə çiçək.

Enəsən Ardanışa[43],
Saz dinə, tar danışa.
Əhli dil yarın ola,
Susasan, yar danışa.

Bu dağlar ulu dağlar,
Döşləri sulu dağlar.
Dərdim hıcran dərdidir,
Mənə hər bulud ağlar.

Bir dayan, Şişqayada,
Ulular düşsün yada.

Özün de, kim kam alıb,
Başacan bu dünyada?!

Bu Ərk sənin qalandı,
Bir alınmaz qaladı.
O, zalıma baş əyməz,
Odur adı qalandı.

Mən aşıq, gözüm ağlar,
Dilimdə sözüm ağlar.
Dərdə elə dözərəm,
Əlimdən dözüm ağlar.

Bu dağa, bəndə gəlməz,
Hər ov kəməndə gəlməz.
Dağ dolu ovçu olsa,
Qoç duyub, bəndə gəlməz.

Torpaq, səndə əmanətim,
Qoru, saxla əmanətim.
Ümidlərim yerlə-yeksan,
Göz yaşlarım əmanətim (S:21;T:1).

***

Yaz gələ, gülə bağlar,
Sarına gülə bağlar.
Şəhidin qəbri üstə,
Səpilən gülab ağlar.

Belə dağlar,
Göysümdə belə dağlar.

O çəlimə*, bu dağa,
Kim bələd olsa ağlar.

Əzizim, nə Çində gəz,
Nə də Çini – Mərənddə[44].
Tanrını axtarıram,
Ara, öz içində gəz.

Gündə keçər,
Ay keçər, gün də keçər.
Bir dərdə tutulmuşam,
Çırağım gündə keçər.

Ay batdı peşman, peşman,
Gün çıxdı ona düşman.
Pünhan-pünhan dərdim var,
Nə dost bilir, nə düşman.

Ağa daşı,
Bulud var ağa daşı.
Dərd kömürə döndərib,
Görmüşəm ağ adaşı.

Əzizim, sarı yemiş,
Ballanıb sarı yemiş.
Dərd məni üstələyib,
Bağrımı yarıb yemiş.

Məni görən ağlasın,
Zülfüm hörən ağlasın.

Əvvəl görən səhv görüb,
İndi görən ağlasın.

Başım qaldadır mənim,
Günüm qaradır mənim.
Bir yurd-yuva tikmədim,
Yolum haradır mənim?

Aşıq ərəb evləri[45],
Xalım ərəb evləri,
Fələyin qaydasıdı,
Qoyar xarab evləri.

Qardaş kişmiş kimidi,
Cibə düşmüş kimidi.
Qardaşı olmayan qız,
Gözdən düşmüş kimidi.

Gözlərim ağlağandı,
Yaş töküb ağlağandı.
Sən dərdli, mən yaralı,
Görək kim ağlağandı.

Dağları qəcəl* aldı,
Ot tutdu, qəcəl aldı.
Bir yanım qərib ölkə,
Bir yanım əcəl aldı.

Xoruzun ban səsinə,
Oyandım dan səsinə.

Çağıranda oyana,
Demədim can səsinə.

Əzizim, aldı udu,
Dindirdim, çaldı udu.
Elə dərdli çalırdı,
Yandırdı məni odu.

Əzizim, ağla məni,
Od götür, dağla məni.
Bəxtim qara yazılıb,
Sağ ikən ağla məni.

Dağlarda laçın[46] ağlar,
Düzlərdə qaçar, ağlar.
Sən yadıma düşəndə,
Başımda saçım ağlar.

Qızılgül hara bənddi,
Sana gör, necə bənddi.
Düşsən düşdüyüm dərdə,
Görəydin necə dərddi! (S:6;17;T:1).

***

Qaşların qibləgahdır,
Ucun əymə, günahdır.
Göyçəyə duman gəlsə,
Bil ki, mən çəkən ahdır.

Üzüyün qaşı yandı,
Üstünün daşı yandı.

Düşdü Göyçə yadıma,
Qəlbimin başı yandı.

Bülbül uçdu tüləkdən,
Qolum düşdü biləkdən.
Mənimki qara gəlib,
Çərxi dönmüş fələkdən.

Mən aşiq, dağda nə var?
El köçüb, dağda nə var?
Məcnun xəyallı könlüm,
Leylisiz dağda nə var?!

Əzizim bu yaxşıdır,
İçməyə su yaxşıdır.
Karsız uzaq qohumdan,
Yaxın qonşu yaxşıdır.

Getdi günüm, ağlaram,
Oldu zülüm, ağlaram.
Bir vədəsiz yel əsdi,
Tökdü gülüm, ağlaram.

Araz, Araz, can Araz,
Mən sənə qurban, Araz.
Zaman məni yandırdı,
Sən də alış, yan, Araz!

Kabab yanıb, köz, ağla,
Dil alışsa, söz, ağla.

Mən yadına düşəndə,
Bu dağları gəz, ağla.

Yağış yağıb dağlarda,
Şeh qoyub yarpaqlarda.
Məndən anama xəbər,
Qarışdım torpaqlarda.

Səbr eylə, sana səbri,
Mərd gərək qana səbri.
Hər bir səbir tükənsə,
Tükənməz ana səbri.

Dağ başı – qala yeri,
Gəz dolan qala yeri,
Yüz candan yanan olsa,
Heç verməz ana yeri.

Şirin laylay, can Araz,
Yurdu gendən, can Araz.
Qəm çəkən sakit olmaz,
Səndə ki, lap, lal Araz!

Vay dərdim, vay dərmanım,
Var dərdim, yox dərmanım.
Gül bitirdim, kol dərdim,
Vay dərdim, vay dərmanım.

Sərhəd qırıb dizimi,
İtirmişəm izimi.
Qollarım həsrət qalıb,
Qucmağa Təbrizimi.

Lala yalqız,
Gül qoşa, lala yalqız.
Qorxuram qərib öləm,
Cənazəm qala yalqız.

Ürəyimdə qara var,
Bənək – bənək* yara var.
Aç ürəyimin başın,
Gör yanmamış hara var?

Qazan ağlar,
Od yanar, qazan ağlar.
Qərib yerdə ölənin,
Qəbrini qazan ağlar.

Dağları gəzdim gəldim,
Daşını düzdüm gəldim.
Yurdu bivəfa gördüm,
Əlimi üzdüm gəldim (S:17;T:1).

***

Əziziyəm, yar qana,
Yar oxuya, yar qana.
Laçın vurmuş sonayam,
Qısılmışam yarğana.

Mən aşiqəm, yanaşı,
Ya ustadır, ya naşı.
Yarıma həyan ollam,
Dəfn eləyin yanaşı.

Əzizim, gün aşanda,
Ay doğar gün aşanda.
Günə gözəl deyərlər,
Sən handa, gün hayanda.

Əzizim, dərdə mənim,
Yox tabım dərdə mənim.
Mənə dərd neyləsin ki,
Tifilkən dərd əmərdim.

Əzizim, Vətən getdi,
Dözmədi, gedən getdi.
Vətən dedim, ağladım,
Ünümə yetən getdi.

Mən aşiq, elə-elə,
Göz yaşım gilə-gilə.
Qəlbimə dağ vursan da,
Salmaram səni dilə.

Mən aşiqəm, ağlıyam,
Acılıyam, ağlıyam.
Qara gəlmiş bu bəxtə,
Hönkür-hönkür ağlıyam.

Bəxtim yazılıb qara,
Düşdüm soyuqla, qara.
Bu kədərin, bu dərdin,
Əlindən gedim hara?!

Taleyimə, baxtıma,
Özüm qara yaxdım ha...

Qınamıram heç kimi,
Kitab açıb baxdırma (S:7;T:1).

***

Əzizim, bala dağı,
Bürüyüb bala dağı.
Hər yaralar sağalar,
Sağalmaz bala dağı!

Arzum elə küskündü,
Yollar hələ çiskindi.
Övlad istəyindəyəm,
Bu qismətim itkindi.

Saxlaram sirri gizli,
Bir deyil, neçə üzlü.
Ürəyimdə var yaram,
Küdrət-kinli, həm sözlü.

Ağlayan başdan ağlar,
Kiprikdən, qaşdan ağlar.
Qardaşı ölən bacı,
Durar o başdan ağlar.

Bacılar yanar, ağlar,
Yandıqca yanar, ağlar.
Dönər ağ göyərçinə,
Yollara qonar ağlar (S:6;T:1).

***

Axan oldu,
Suların axan oldu.
Bəlkə, sənə, can Vətən,
Pis gözlə baxan oldu?!

Aman elər,
Dad elər, aman elər.
Elim bir dərdə düşüb,
Kim görsə, aman elər.

Dağlar mənim dağımdı,
Müdam solum, sağımdı.
İllər keçsə, çatmaram,
Bayatımdı, ağımdı.

Bir də mən,
Qürbət ellər, bir də mən.
Hər ikimiz ağlarıq,
Orda dağlar, burda mən.

Dağlarım,
Tənha qalmış dağlarım.
Yağının tapdağında,
Bu da mənim dağlarım.

Dağlar mənə dağ oldu,
Sübh dolandı, çağ oldu.
Məndən uzaqlaşdıqca,
Ürəyim dağ-dağ oldu (S:26;T:1).

TAPMACALAR

Dağların sinəsinə,
Quş qonar binəsinə.
Quşlarda necə quşdur,
Süd verər anasına? (yarasa).

Oğrun-oğrun baxışlar,
Oda vurub alışar (şam, pərvanə).

Otağında, çəməndədi,
Yaxşı nədi, yaman nədi?
Səhər yumurtadan çıxıb,
Günortalar əmən nədi? (tısbağa).

Uzaq-yaxın gedirlər,
Yaxşı-yaman dedilər.
Axşam yeyilən xörəyi,
Səhər bir də yedilər (at, arpa, quşlar).

Adamdan atı,
Dəmirdən qatı (səhəng).

Üstü ağac, altı daş,
Səkkiz ayaq, iki baş (vəl, öküzlər).

O tayda bir qurd durub,
Dişin dişinə vurub.
Cümlə cahanı yeyib,
Yenə yerində durub (dəyirman).

Bu gülün adı nədi?
Dərmanı, dadı nədi?
Qaradan ağ boylanar,
Tap görək, adı nədi (saç).

Çil toyuq, çiləmə toyuq,
Başını kəsdim qanı yox (gəbə).

Suya saldım lilləndi,
Sudan çıxardım dilləndi (səhəng).

Əyrim-üyrüm hara gedirsən,
Təpəsi dəlik sən nə deyirsən (tüstü və baca).

Ətdən şiş, dəmirdən kabab (barmaq və üzük).

Dağdan gəlir, daşdan gəlir,
Qudurmuş aslan gəlir (sel).

Hacılar haca gedər,
Əhd edər gecə gedər.
Bir yumurta içində,
Min dənə cücə gedər (nar).

Qaradı, qaş üstəki qaradı,
Gönü göy, əti qırmızı, sümüyü də qaradı (qarpız).

Bir danam var,
Quyruqlamasan dama girmir (qaşıq).

O tayda bir qoç durub,
Buynuzun burmuş durub.
Xırmanları tək yeyir,
Yenə qarnı ac durub (su dəyirmanı).

Biz, biz idik,
Otuz iki qız idik.
Əzildik, büzüldük,
Bir taxçaya düzüldük (diş).

Alçaq dağa qar yağar (ələk və un).

Bizdə bir kişi var,
ikicə dişi var (maşa).

Bizdə bir kişi var,
Fırlandıqca işi var (cəhrə).

Duzsuz bişmiş aş gördüm,
Yatar, göyşər daş gördüm (halva və su dəyirmanı).

Altı ayağı,
İki dabanı (qədim qollu tərəzi).

Nədəndi, nərgizdəndi.
Nədəndi, əkilməmiş biçilir.
Yeyilməyir, nədəndi? (başın saçı).

NAZLAMALAR

Dağdakı keçi,
Uzundu saçı.
Gəzən qaraçı,
Bu balama qurban.

Ermənilər, harsınlar*,
Yığılsınlar, gəlsinlər,
Belinə şələ versinlər.
Şələsi qanqal, qadan alım,
Mən ölüm, sən qal, qadan alım.

Qadanı, bəlanı döşürüm mən,
Toyunda pilov bişirim mən.
Heç kimə də verməyim,
Hamsın özüm aşırım mən.

Arançının çardağı[47],
İçində gül bardağı.
Kim balama göz diksə,
Gözünə bibər yarpağı.

Ölüm ayağının altında,
Qalım ayağının altında.
Tülkü olum, toyuq tutum,
Yolum ayağının altında (S:15;T:2).

UŞAQ DÜZGÜLƏRİ

Birə – birək,
İkiyə – dirək,
Üçə – ürək,
Dördə – döşək,
Beşə – beşik,
Altıya – aşıq,
Yeddiyə – yeşik,
Səkkizə – səbət,
Doqquza – donuz,
Ona – oraq,
On birə – daraq (S:6;T:1).

ŞƏBƏDƏ

Deyir, iraq eşidənlərin canından, bir ölkənin şahı ömrünü sizlərə bağışlayır. Vəzir, vəkil, əyami-əşrəfi yığışıb məşvərət eləyirlər ki, nə təhər eləyək mərhumun vəliəhdi, bir yaxın adamı yoxdur ki, yerinə padşah seçək. Axırda bu qərara gəlirlər ki, quş uçurtsunlar, kimin başına qonsa, onu da padşah seçsinlər.

Bəli, carçı car çəkir, eşidən sarayın qabağındakı meydana toplaşır. Bu məmləkətdə Səməd adında bir dülgər yaşayırmış, gündəlik çörək pulunu güclə çıxardırmış. Əhvalatı eşidəndə durub saray meydanına yollanır ki, quş uçurdulmasına tamaşa etsin.

Xülasə, vaxt yetişir, baş vəzir quşu buraxır. Quş meydana yığılmış camaatın başı üstündə dövrə vurub qəfildən Səmədin başına qonur. Vəzir-vəkil baxır ki, oğlan lütün biridi, cındırından cin ürkür. Fikirləşirlər ki, quş yəqin səhv edib, kişləyib, birdə uçurdurlar. Quş da eləmə tənbəllik, meydanı dolaşıb gənə Səmədin başına qonur. Bu dəfə də quşa inanmırlar, üçüncü dəfə də quş Səmədin başına qonanda daha bəhanələri qalmır, naəlac Səmədi taxta çıxardıb padşahı seçirlər.

Bu ölkənin adətinə görə yeni seçilmiş padşah ölən padşahın qulağına söz deyib o dünyaya ismarıc göndərərmiş. Səməd padşah əmr eləyir, ölmüş padşahın cənazəsini gətirirlər. Səməd taxtdan enib tabuta yaxınlaşır, ağzını meyidin qulağına yaxınlaşdırıb deyir ki:

– O dünyada deynən, dülgər Səməd də padşah oldu, özləri biləcək bu dünyada vəziyyət necədir! (S:10;T:3).

LƏTİFƏLƏR

AŞIQ BEHBUDUN LƏTİFƏLƏRİ

Bir vaxtlar çoxlarının aşıq adlandırdığı Nəbiyev Behbud Əli oğlu (1897-1972) söz və sənət ustalarının diyarı olan Göyçə mahalının Qoşabulaq kəndində dünyaya göz açmışdır. Aşıq Behdud hələ gənc yaşlarında bamәzə və hazırcavab olması ilə fərqlənmişdir. Onun həyatı və məzəli söhbətləri haqqında yaranan lətifələr indi də el arasında dolaşmaqdadır. Aşıq Behbud son dövrə qədər yaşayıb yaratmış, məclislər başa vurmuş, elin, obanın xeyrində, şərində yaxından iştirak etmişdir. Aşığın lətifələrinin bir neçəsini oxuculara təqdim edirik.

ÖLMƏYİB, NEYLƏYİB?

Günlərin bir günü Qoşabulaq kəndinə bir dövlət məmuru gəlir. "Padşahın gözü aydın olsun ki, bu ölməyib" deyə ona sataşırlar. Aşıq Behbud hirslə bu sözü deyən adama baxaraq əlavə edir:

– Ölməyib, neyləyib ə, bu? Görmürsünüz bu bir dəridir, bir sümük ?!

O DÜNYA YAXŞIDIR

– Aşıq Behbud, bu dünya yaxşıdır, yoxsa o biri dünya?

– O biri dünya!

– Niyə, Aşıq Behbud?

– Əgər o biri dünya pis olsaydı, gedənlərdən biri qayıdıb gələrdi.

AD

– Aşıq Behbud bu körpəyə nə ad qoyaq?

– Onun adını Behbud qoyun.

– Axı bu sənin adındır.

– Çox yaxşı, mənim iki adım var: həm aşıq, həm Behbud, bu körpənin isə heç bir adı yoxdur.

SAÇ

Behbud kiçik yaşlarında olanda atası onu tükana göndərir və tapşırır ki, qiymətlərini görsün, ucuzlaşma var, ya yox? Behbud tükana gəlib görür ki, mallar ucuzlaşmayıb. O, dükandakı güzgünün qabağında saçını yuxarı daramağa başlayır. Tükançı ona yaxınlaşır:

– Saçların niyə biz-biz olub?

– Tükandakı malların bahalığına görə.

KİMDİR GÜNAHKAR?

Bir dəfə Behbud milis şöbəsinə xəbər verir ki, onun öküzünü oğurlayıblar. Milis soruşur:

– Sən nə iş görürdün?

– Gecə idi, yorğun idim, yatırdım.

– Bəs ev yiyəsi elə yatarmı? Qapı açıq idi, yoxsa bağlı?

– Açıq idi.

– Bəs ev yiyəsi də qapını açıq qoyarmı? Öküz bağlı idi, yoxsa açıq?

– Açıq idi, tövləyə çatmışdım.

– Bəs ev yiyəsi öküzü tövlədə bağlamazmı ?

Aşıq Behbud görür ki, milisin sualları qurtarmaq bilmir, odur, onun sözünü kəsib deyir.

Sizdən xahiş edirəm ki, oğrunu tapıb, ona da bircə sual verəsiniz, heç başqa adam başqasının öküzünü oğurlayarmı?

TƏK ÖLMƏK İSTƏYİRSƏNSƏ

Behbud kişi bir dəfə rayona getmək üçün kənddə yol kənarında maşın gözləyirdi. Öz məzəli söhbətləri, bamәzəliyi

ilə ətrafdakıları əyləndirib güldürür. Orda bir gənc cütlük də maşın gözləyirdi. Behbudun söhbətini dinlədikdən sonra özünü saxlayıb soruşurlar:

– Əmi, görürəm siz dünya görmüş adamsız. Mən də motosikletçi olmaq istəyirəm. Sizcə, hansından alım, beşikli yoxsa, beşiksiz yaxşıdır?

Behbud kişi bu dəfə də zarafatından qalmır. Gülə-gülə:
– Bala, tək ölmək istəyirsənsə, beşiksiz, yox, cüt ölmək istəyirsənsə, əlbəttə, beşikli motosiklet çox yaxşıdır.

***

Anası Behbudu qaldırır ki, tez dur məktəbə get, dərsin vaxtıdır.

O isə cavab verir:

– Hər gün mən məktəbə gedirəm. Qoy bir gün atam, bir gün anam, bir gün nənəm, sonra mən gedim. Gəlin, növbə ilə gedək. Yenə bir gün Behbudu yuxudan oyadırlar ki, məktəbə getsin, o, isə bəhanə axtarır:

– Kökə var, məktəb var, kökə yoxsa, məktəb də yoxdur

(O vaxtlar – sovet vaxtında məktəbdə kökə və süd verirdilər).

***

Bir dəfə şəhərdən gələn Aşıq Behbuddan soruşurlar:

– Aşıq, şəhər yaxşıdır, yoxsa kənd?

O isə cavab verir:

– Şəhər yaxşıdır, amma bir pis adəti var, adamlar bir şeyi ağızlarına atıb bir-birinin üstünə tüpürürlər (Aşıq günəbaxan tumlarını çırtlayanları nəzərdə tuturdu).

***

Bir dəfə Basarkeçərdə, rayon mərkəzində Behbud kişi erməni qocaları ilə söhbət edərkən onların yanından bir neçə erməni dığaları gəlib keçir. Erməni qocalar Behbud kişiyə sataşmaq üçün deyirlər:

– Bax, gör, bizim necə qədd-qamətli cavanlarımız var.

O, cavabını baməzə və ciddi verir:

– Bu cavanlar hamısı bizim kişilərdəndir, müsəlmanlardandır. Sizinkilər isə çol-çolaq, şil-axsaq olur, a bədbəxtlər.

Elə bu vaxt gözəl-göyçək qızlar, başda bir dünya gözəli, sonalar sonası bir dilbərlə gəlib gedirlər. Onda bu nankor ermənilər bu dəfə yenə də ona sataşırlar:

– Bax, gör bizim necə gözəl qızlarımız var?!

Aşıq Behbud cavab verir:

– Ay axmaqlar, onlar sizin yox, bizim qızlardır. Onların başçısı isə bizim hamımızın yaxşı tanıdığı avtobus sürücüsü Səfər Səfərovun qızıdır. Sizinkilər, küpəgirən qarıları kimi qozbel, qara, çirkin olurlar.

Bax belə, hazırcavab və baməzə Aşıq Behbud heç vaxt nankor və xain ermənilərdən qorxmayaraq cəsarəti və hazırcavablığı ilə onları susdururdu.

***

Aşıq Behbuddan soruşdular:

– Ay Behbud, arağa necə baxırsan?

O dedi:

– Arağın dadını bilməm, ancaq onu billəm ki, araq içənlər soğanı çörək kimi üyüdürlər, görmüşəm bunu.

***

Birisinin qızı valideynlərinin xəbəri və razılığı olmadan qoşulub qaçmışdı. Bu hadisədən hirslənən ata deyir ki, biabır

oldum, daha mən başıma papaq qoyub kəndin içinə çıxa bilmərəm.

Bunu eşidən Aşıq Behbud deyir:

– Bunda nə var ki, indi kişilərin çoxu papaq qoymur, sən də bundan sonra papaq qoyma, başıaçıq kəndin içinə çıx.

***

Doğma Qoşabulaq kəndinin sakinləri Aşıq Behbuddan soruşdular ki:

– Sən dünyagörmüş və gəzən adam olubsan. De görək, Əmirxan müəllimi kolxoza sədr seçirlər, kəndə, kolxoza camaata xeyri olacaq, ya yox?

Aşıq Behbud cavab verdi:

– Əmirxan müəllim kəndə, kolxoza xeyir verəcək, xeyir verməyəcək bilməm. Amma onu billəm ki, itlərə xeyri olacaq. Çünki kolxoz sədrinin işi məktəb direktorluğundan qat-qat çox olur. Ona görə Əmirxan müəllimin vaxtı olmayacaq itləri boğuşdurmağa. Kəndin itlərinin canı boğuşmaqdan qurtaracaq.

***

Gəncəbaar tərəflərdə aşıqlıq eləyən zamanlar bir dəfə Gəncədə yol üstə yenə sırtıq, xain, paxıl ermənilər Aşıq Behbudun hazırcavab və baməzə olduğunu bildikləri halda ona sataşırlar. Biri soruşur:

– Aşıq haradan gəlib, hara gedirsən?

– Niyə soruşursan? – Behbud deyir.

– O yollara, sən gələn yollara söyəcəm...

Aşıq Behbud onu yaxşı tanıdığından deyir:

– Ata-ananın qəbirləri üstündən, istəyirsən söy, istəyirsən nə edirsən, et.

***

Hər dəfə Basarkeçər ermənilər rayon mərkəzində Aşıq Behbudu görəndə onu sorğu-suala tuturlar. Bu dəfə də onun üstünü kəssirirlər ki:

– Biz ermənilər, necə millətik, bizə düzünü de.

Aşıq Behbud deyir ki:

– Məndən əl çəkin, özünüz yaxşı bilirsiniz, başqaları da yaxşı bilirlər siz necəsiniz?

Amma ermənilər əl çəkmirlər ki, əl çəkmirlər, qır saqqız olub tuturlar onun yaxasından. Axırda o deyir ki:

– Peşman olacaqsınız.

Onlar isə deyirlər:

– Yox.

Nəhayət, Aşıq Behbud deyir:

– Mən deyirəm, indi özünüz bilin. Yersiz, gəlmə, xain, paxıl, dilənçi, oğru bir xalqsınız, əgər xalq demək mümkünsə. Çünki siz hara gəlirsiniz, deyirsiniz bura bizimdi. Siz gələn yerdə müharibə, fəlakət, fitnə, ölüm hökm sürür. Həm də oğrusunuz, çünki binəniz ondan qurulub. Elə ona görə də sizin Andranikinizin də qulağını eşşək, at oğurladığına görə kəsiblər. Həm də siz təkcə at, eşşək, pul, nə bilim, daha nələr oğurlamaqdan əl çəkmirsiniz. Hətta, qonşu xalqların tarixini, ədəbiyyatını, musiqisini, rəqsini, mətbəxini və s. oğurlayırsınız. Buna görə sizə çatan yoxdur. Hətta belə qaraçılar sizdən min dəfə, milyon dəfə yaxşıdırlar. Onlar ehtiyac üzündən, yaşamaq üçün dilənirlər və ya oğurluq edirlər. Heç kimin malında gözləri yoxdur. Heç kimin torpağına, tarixinə, musiqisinə və s. göz dikmirlər. Heç hara fəlakət, ölüm gətirmirlər. İndi deyin görək, onlar yaxşıdı, yoxsa siz. Əlbəttə onlar sizdən qat-qat üstün və yaxşıdılar. Gəlin əyri oturaq, düz danışaq, belədi, ya yox?!

Bu sözlərdən sonra it kimi peşman olan ermənilər Aşıq Behbudun başından dağılışıb hərəsi bir tərəfə getdi. Aşıq Behbud isə bu sözlərdən sonra rahat nəfəs alıb yoluna davam etdi.

***

Rayon mərkəzində bir qızı qaçırdılar. Rəfiqəsi atılıb-düşür, ağlamağa başlayır. Oradakılar Aşıq Behbuddan soruşurlar:

– O qız niyə elə ağlayır?

Behbud deyir:

– O qız ağlayır ki, həmyaşıdı getdi ərə, mən qaldım. Ona görə də bərk ağlayır.

***

Aşıq Behbuddan soruşdular ki:

– Nə üçün ermənilər qəlyan çəkmir?

Behbud dedi:

– Burunları onlara mane olur qəlyan çəkməkdə

(S:10;T:1:2).

BƏHRAM ALI OĞLU QAMANOV[48]

1903-cü ildə Göyçə mahalının Zod kəndində anadan olmuşdur. Zaqafqaziya Mərkəzi İcraiyyə komitəsinin üzvü, iki dəfə Ermənistan SSR Ali Sovetinin deputatı seçilmiş, PNK-nın sədri, kolxoz sədri, kənd soveti sədri və başqa vəzifələrdə işləmiş, Böyük Vətən müharibəsi iştirakçısı olmuş Qamanov Bəhram Alı oğlu çox hazırcavab, bamәzə, söz altında qalmayan, özündən lətifə söyləməyi bacaran müdrik bir şəxsiyyət kimi tanınırdı. 1977-ci ildə elə həmin kənddə də dünyasını dəyişmişdir. İndi də onun duzlu-məzəli sözləri el-oba arasında ağızdan-ağıza dolaşmaqda davam edir.

HAMASARAN[49] QURTARMIŞDI?

Qamanov Bəhramı Qızılvəng kəndinə Bədöy müəllimin yerinə kənd soveti sədri qoyurlar. Bədöy müəllim Yerevanda hamasaran (darülfünun) bitirmişdı. O, savadsız olan Qamanova dərs keçdiyi zaman iki nəfər sözləşə-sözləşə içəri daxil olur. Gələnlərin biri Qamanova üz tutub deyir: Bu kişi mənim ulağımı vurub öldürüb, indi istəyirəm, vermir. O biri kişi: Əvəzinə öz ulağımı verirəm, almır.

Qamanov: Niyə onun ulağını almırsan? Ulağı ölən kişi: Bəs mənim ulağım onun ulağının tayı idi? Bu sözü eşidən Qamanov deyir: Ulaq, ulaqdır da. Məgər sənin ulağın hamasaran qurtarmışdı?

NƏ ÇOXDU CAVAN...

Müharibə illərində Qamanovun qayınanası Gülxanım arvad ölür. Arvadı layiqincə dəfn edirlər. Lakin ağ tapılmadığına görə ölünü qırmızı parçaya bükürlər. Camaat dağılışandan sonra Qamanov arvadı Gülənə deyir:

– Ananı ləyaqətlə dəfn etdirdiyimdən razı qaldınmı?

Arvadı:

– Razı qalmağına qaldım, ancaq arvadın qırmızıya bükülməsi sinəmdə ağır dərd oldu.

Qamanov:

– Ay Gülən, mən səni hər şeyi bilən bir adam hesab edirdim, amma görürəm ki, yanılmışam. Bəs sən bilmirsən ki, o dünyada nə çoxdu cavan-cavan qızlar, indi öz ağlarını anana bükülən qırmızı ilə çoxdan dəyişiblər!

O QƏZETƏ YAZILIB Kİ...

Qamanovla Bədöy müəllimi iki aylıq kursa göndərirlər. Hər gün ikisi də aşxanada birlikdə xörək yeyəndə pul vermək

məqamı gələn kimi Bədöy müəllim başlayırmış qəzet oxumağa. Hər dəfə yeməyin pulunu Qamanov verərmiş.

Kursun vaxtı qurtarır. Axırıncı gün də Bədöy müəllim qəzet oxumağa başlayanda Qamanov deyir:

– Ay Bədöy, bax gör o qəzetə yazılıbmı ki, iki ay yemək pulunu Qamanov versin?

DEMƏLİ YAĞMIR

Qamanov bir dəfə oğluna deyir:

– Ay bala, taxıl dərzləri çöldə qalıb, çıx çölə, gör yağır, yağmır?

Uşaq çölə çıxmayıb, iti səsləyib evə çağırır. Qamanov acıqlanıb soruşur:

– Nə iş görürsən, ə?!

Oğlu halını pozmadan:

Baxıram, görüm itin tükü yaşdır, yoxsa qurudur. Əgər itin tükü qurudursa, deməli, yağmır, – deyə cavab verir.

SON SÖZÜM ODUR Kİ...

Qamanov kolxoz sədri olanda onu məhkəməyə verirlər. Qış vaxtı imiş. Qamanovun yaşlı və arıq bir adam olan vəkili məhkəmədə heç nə danışmayıb tez-tez əsnəyir, mürgüləyirmiş. Qamanovun günahsızlığı sübut olunur, aşkar edilir ki, onu qərəzçiliklə məhkəməyə veriblər.

Məhkəmə Qamanovdan soruşur ki, son sözün nədir? Qamanov ayağa qalxıb deyir:

– Hörmətli hakim, vəkilim yatır, qışdır, birdən ona soyuq dəyər, ölər. Bu səbəbdən təzədən mənim üstümə iş qaldırarlar. Son sözüm odur ki, vəkilə bir yorğan gətirsinlər, bürünsün.

ONDA BİR YAYLIQ DA VER

Qamanov özünə bir dəst təzə kostyum alır. Arvadı ona deyir:

– Bəhram, Bəhram, nə yaraşır sənə, bu paltarı elə gey, üstünə toz da qonmasın!

Qamanov paltarı soyunur və arvadına deyir ki, ona bir yaylıq versin. Arvadı təəccüblə "yaylıq nəyinə gərəkdir?" – deyib soruşduqda Qamanov cavab verir:

– Paltarı yaylığa büküm, qoltuğumda gəzdirim ki, üstünə toz qonmasın!

YA SƏN GET, YA MƏN

Qamanov Zər[6] kəndinə ölü yerinə gedəndə iti də onun dalınca düşür. Yolda neçə dəfə təpinirsə, it geri qayıtmır. Əlacsız qalan Qamanov cibindən bir üçlük çıxarıb itə sarı uzadır: Al, ya sən get, ya da qayıt, mən gedim.

MƏNƏ DƏ AYRIM CAVAD DEYƏRLƏR

Qamanovun Ayrım Cavadla bərk zarafatı var imiş. Bir dəfə Qamanov ona deyir:

– Səni milisə tutduraram.

Ayrım Cavad inad edir ki, bacara bilməzsən. Höcətləşib mərc bağlayırlar.

Bir gün Qamanov atın belində yolla gedərkən üç-dörd adamla rastlaşır. Qamçını çəkib onları döyməyə başlayır. Hər qamçını çaldıqca qışqırır: Mənə də Ayrım Cavad deyərlər! Mənə də Ayrım Cavad deyərlər!

Qamçının zərbindən üz-gözləri göyərmiş adamlar Ayrım Cavaddan milisə şikayət verirlər. Ayrım Cavadı həbs edir, dö-

[6] Bəzi mənbələrdə bu kəndin adı Zərzibin kimi göstərilir.

yülənlər xəstəxanada müalicə olununca həbsdə saxlayırlar. Üzləşmə zamanı döyülənlər deyir:

– Yox, bizi bu Ayrım Cavad döyməyib, bizi döyən başqa Ayrım Cavaddır.

Beləliklə, Ayrım Cavad azad edilir, lakin mərci uduzur.

MIĞI KİMİ[7]

Mehbalı adlı birisini Zodda Mığı deyə çağırırmışlar. O, Xanlar[8] rayonuna köçür. Aradan bir müddət keçəndən sonra Zoda gəlir. Qamanov onu görüb soruşur:

– Mığı, necəsən? Çoxdan səni görmürəm.

O isə etiraz edib deyir:

– Mən Mığı deyiləm, Mehbalıyam!

Qamanov təəccüblə onun üzünə baxaraq:

– A bala, bilmirəm indi kimsən, nəçisən, amma səni buradan Mığı kimi Xanlara yola salmışam.

ÇIXART OXU

Qamanov Qayabaşı kəndində kolxoz sədri işləyəndə mindiyi maşının sürücüsü ilə bir otaqda qalırmış. Sürücü gecə yuxusunu qarışdırır, onu qara basır. Bir neçə dəfə oyanıb Qamanovdan soruşur:

– Bura, hansı kənddir?

Sürücü bir də bu sualı verəndə Qamanov ona deyir:

---

[7] "Dağların hikməti" kitabında bu mətn "Mən səni" başlığı altında təqdim olunmuşdur. Məzmunu ilə birbaşa bağlılığını nəzərə alıb, mətni "Mığı kimi" adlandırmağı zəruri saydıq.

[8] Hazırda bu rayon Göygöl adlanır.

– A bala, qoy yatım. Bir də kəndin adını soruşmaq istəyəndə məni oyatma, yol vərəqini çıxart oxu, kəndin adı orada yazılıb.

QOHUMSAN, NƏSƏN?

Qayabaşı və Qoşabulaq kəndləri ayrılıb hərəsi bir kolxoz olur. Qamanovu Qayabaşı kəndinə kolxoz sədri seçirlər. Bu kəndin payına düşən bir donuz hər gün Qoşabulaq kəndinə qaçır. Bir gün Qamanov özü gedib donuzu tutub gətirmək istəyəndə camaatın içində, Qoşabulağın kolxoz sədrinin yanında deyir: "A köpək oğlunun donuzu, sən bu kolxoz sədrinin qohumusan, əmisi oğlusan, nəyisən ki, hər gün yanına qaçırsan?!"

DEDİ Kİ...

Mötəbər bir iclasda iş heyətində əyləşən rəhbər bir işçi əyilib yanındakı yoldaşına nəsə deyir. Salonda Qamanovla yanaşı oturan soruşur:

– Qamanov, o əyilib yoldaşına nə dedi?

Qamanov halını pozmadan – dedi ki, adam çoxdur, hər adama bir qab, yoxsa, iki qab çəkilsin? – deyə cavab verir.

Səs salona yayılır, oturanlardan gülüşmə qopur.

İŞDƏN GƏLMƏYİB Kİ...

Qamanovun yaxşı bir iti var idi, həmişə onun yeminə fikir verirdi. Bir gün evə gələndə kitab oxuyan oğlundan soruşur:

– A bala, itin yalını vermisinizmi?

Başı kitab oxumağa qarışan uşaq bir neçə dəfə atasının sualını cavabsız qoyur. Qamanov hirslənib qışqırır:

– Ə, itə yal tökmüsünüzmü?

Uşaq özünü itirdiyindən belə cavab verir:

– Ay dədə, itə yal tökərik də, o da sənin kimi işdən gəlibdi məgər?

SOL ƏLİNLƏ YEYƏYDİN

Bir gün Qamanovun kəlbəcərli qohumu Ağakişi Zoda qonaq gəlir. Qamanovun arvadı bişirdiyi halvanı süfrəyə bir qabda qoyur. Elə bu vaxt işıqlar sönür. Qamanov Ağakişinin qolundan tutub işıqlar yanana kimi saxlayır. Çay-çörəkdən sonra Ağakişi soruşur:

– Qolumdan nə bərk-bərk tutmuşdun?

Qamanov:

– Qolundan tutmasaydım, basıb halvanın hamısını yeyərdin.

Ağakişi də zarafata salıb deyir:

– Yaxşı ki, tutmuşdun, acından ölürdüm!

Qamanovun oğlu söhbəbə qarışıb çoxbilmişlik edir:

– Əşi, atam sağ əlini tutmuşdu, sol əlinlə yeyəydin da.

Ağakişi halını pozmadan – Ay bala, mən yaşda adamın sol əllə halva yeməsi günahdır – deyir (8,40-43).

BİR DONUZDAN ÖTƏRİ...

Rayon katibi Qamanovu Qayabaşı kənd kolxozunun sədri işlərkən üç donuzun plandan əskik olduğuna görə iclasda danlayır.

Qamanov isə yenə bamәzəliyindən, zarafatından qalmır, iclasda oturan kolxozun zootexniki və ferma müdirini (həddən artıq kök olduqları üçün) göstərib deyir:

– Bu donuzun biri zootexnik, biri ferma müdiri, bəs bir donuzdan ötrü məni danlayırsınız, yoldaş katib?

Di gəl korı körpüdən keçirt!

ÜÇ YOX, DÖRD...

Bir dəfə rayonda, iclasda raykom katibi deyir: Bizim rayonda üç millətin nümayəndəsi – azərbaycanlılar, kürdlər, ermənilər yaşayır.

Qamanov onun sözünü kəsib yarıciddi, yarızarafatla deyir:

– Üç yox, dörd – bəs qırxbulaqlıları niyə demirsiniz?

Qırxbulaq kəndinin əhalisi çox demaqoq olduqları üçün Qamanov belə deyir.

***

Raykom katibi məruzə edərkən o, Qamanova müraciət edir:

– Yanında yatanı oyat!

Qamanov etiraz edir:

– Sən necə yatırdıbsan, elə də oyat!

***

Bir gün Qamanovdan soruşurlar ki, çox savadlı, bilikli olan Bədoy necə adamdı?

Qamanov cavab verir:

– Məndən soruşmayın, onunla yol yoldaşı olun, onda bilərsiniz Bədoy necə adamdı (S:9;T:1).

ŞAMXAYIN LƏTİFƏLƏRİ

Quliyev Şamxay Xasay oğlu 2 iyul 1956-cı ildə Ermənistan Respublikasının Basarkeçər rayonunun Qoşabulaq kəndində anadan olub. Orta təhsilini Qoşabulaq kənd orta məktəbində başa vurub. 1973-1977-cü illərdə Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun "Fizika-riyaziyyat"

fakültəsində ali təhsil alıb. Pedoqoji fəaliyyətə Kəlbəcər rayonunun Otaqlı kənd səkkiz illik məktəbində başlayıb. 1979-cu ildə yenidən Basarkeçər rayonuna qayıdıb və buradakı Texniki Peşə məktəbində ixtisası üzrə fəaliyyətini davam etdirib. 1988-ci il deportasiyasına məruz qaldıqdan sonra Azərbaycan Respublikasının Xanlar (indiki Göygöl) rayonunun Şəhriyar kəndinə köç edib və ömrünün sonunadək həmin kəndin orta məktəbində fizika-riyaziyyat fənnlərini tədris edib. Ailəli olub, üç övladı vardır. 26 sentyabr 2021-ci ildə vəfat edib və Göygöl rayon Şəhriyar kənd qəbristanlığında dəfn olunub.

Şamxayın lətifələri nıinki Qoşabulaq kəndində, hətta bütün mahalda yayılmışdı. O, ali təhsilli müəllim olsa da, uşaqlıqda və tələbəlikdə özünü qəribə aparması və bamәzəliliyi ilə dillər əzbəri olmuşdu.

***

Atası məktəbdən gələn Şamxaya çox bərk hirslənir. O qaçıb gedir kolxozun taxıl anbardarı Tatoğlu Hüseynin yanına. Bu vaxt Hüseyn kişi anbardar imiş və taxıl paylayırmış. Şamxay ona yalvarır ki, qoy anbarda yatsın. Hüseyn icazə vermir, amma bu vaxt ona təcili zəng gəlir. Tələm-tələsik qapını bağlayıb gedir. O, axşam gec, qaranlıqda gəlir. Evdə bir az dincəldikdən sonra birdən Şamxay yadına düşür. O, arvadı Maraldan onu soruşanda o da deyir ki, bilmirəm, xəbərim yoxdur. Onlar tələsik anbara qaçırlar. Amma nə görsələr yaxşıdı, oturduğu yerdə yatıb, eləcə də yatır, heç yerindən də qımıldanmayıb*. Onlar Allaha şükür edib, onu qaldırıb evlərinə yola salırlar.

***

Şamxay öz onuncu sinif yoldaşları ilə Müşfiq müəllimgilə hazırlığa gedir. Bir dəfə onun qıçası qaşınır. O, gicbəsərliyindən

öz qıçını yox, səhvən stulunun altından sinif yoldaşının qıçını qaşıyır. Bunu bilən sinif yoldaşları çoxluca gülürlər.

***

Bir dəfə gecə qaranlıqda hazırlıqdan evə gələrkən bir ayaqqabısını yaddan çıxarır. Yolda Şamxayın ayağı gölməçəyə, suya düşəndə onda başa düşür ki, ayaqqabının birini geyib, birini yox. Sinif yoldaşları hər dəfə bunu xatırlayıb gülürlər.

***

Bir dəfə atası Şamxayı göndərir ki, evə gedib taxıl kisəsini gətirsin, anbardan düşən taxıl normalarını alsınlar. O isə evə gedib, dolu olan kisəyə baxmadan götürüb gətirib. Anbarda kisəni yerə tökür, kisədə də köhnə paltarlar olur. Taxıl alanlar hamısı bunu görüb qəhqəhə çəkirlər.

***

Şamxay Gəncəyə instituta qəbula gedir. O, qohumları Məmmədəli müəllimgildə qalan zaman günün günorta vaxtı balkonda yatır, imtahanlara hazırlaşmaq əvəzinə. Bu vaxt güclü leysan yağır, sel suya qarışır. O isə oyanmır. Yalnız axşamüstü onu oyadanda özünü su içində görür. Başlayır uşaqlarla dalaşmağa. Ona küçənin selini göstərəndə sakitləşir. Sən demə o elə bilib ki, uşaqlar onu sulayıb.

***

Bir dəfə də Məmmədəli müəllim ona dərs verib, işə gedir. Amma o, işdən qayıdanda görür ki, Şamxay yatır. Müəllim onu güclə yuxudan oyadır, dərsi soruşur. O isə gözlərini döyüb maddım-maddım* Məmmədəli müəllimə baxır.

***

Bir dəfə Şamxay atası, anası, əmisi, əmisi arvadı gecə şələ ilə saman daşıyırlar. Zəmi ilə evin arası çox imiş. Tatoğlu Hüseyn Şamxay saman gətirərkən onun ipini gizlincə kəsir. Şamxay bunu başa düşmür. Evə yaxınlaşanda atası ondan samanı soruşur. O isə ağır-ağır, yorğun halda ipi yavaş-yavaş çəkməyə başlayır. Sonradan başa düşür ki, saman gətirməyib, boş iplə gəlib.

***

Bir dəfə Şamxay belində dolu kisə yolla gedir. Onun yanında maşın saxlayan şəxs onun maşına minməsini təklif edir. Şamxay isə etiraz edib deyir: Yox, mən sənlə gedə bilmərəm, tələsirəm.

***

Ruhi xəstəxanaya zəng çalınır. Növbətçi tibb bacısı dəstəyi qaldırır:

– Alo, zəhmət olmasa 13-cü palatadan Şamxayı çağırın.

– Gözləyin, gedim baxım...

Tibb bacısı gedir, bir azdan qayıdır və cavab verir:

– Bilirsiniz, o, palatada yoxdur.

– Görürsünüz, axır ki, mən qaçıb sizdən canımı qurtardım! (S:6;9;T:1).

GÖYÇƏSAYAĞI LƏTİFƏLƏR

Bir kəlbəcərli qadın Göyçədən, Basarkeçərdən, rayon mərkəzindən Qaraqoyunlu[50] kəndinə gələn avtobus marşrutu ilə ora gəlir və düşəndə avtobus sürücüsünə minnətdarlığını bildirir, sürücü də erməni olur:

– Sürücü qardaş, sürücü qardaş, sən məni götürdün Allah da səni götürsün!

***

Bir neçə nəfər kəlbəcərli Ağkilsə yaylağındakı Pərixan bulağında (Qumlu bulaq da deyirlər) yolüstü Göyçədən qayıdarkən yeyib içirlər. Yeməklərin içində acı bibər var imiş. Biri deyir:

– Ay aman, necə də acıdır?

Onlardan digəri deyir:

– Zəhər olsa da, yeyəcəm, çünki pul vermişəm.

***

Bir dəfə Qoşabulaq kəndinin kolxoz sədri yaylağa gəlir. Çobanlardan birinin oğlu itə yal bişirirmiş. Kolxoz sədri buna sataşmaq üçün soruşur:

– Bu yalı kimə bişirirsən?

Uşaq cavab verir:

– Atam dedi ki, yaylağa qonaq gələcək, ona bişirirəm.

***

Qayabaşılı Başxanım bir müştəriyə şalvar tikir, amma şalvarın bir qıçası uzun, o biri gödək olur. Müştəri narazılıq etdikdə o deyir:

– Narahat olma, yuyulanda ikisi də bərabər olacaq.

***

Bir dəfə Sarıyaqublu qadın Qayabaşlı Ələmdarın üstünü kəsir ki, sən avtobusda dur, mən oturum, sonra deyir:

– Sən hər gün rayona gedib-gəlirsən, yer tutursan. Ələmdar deyir:

– Sən hardan bilirsən, mən hər gün rayona gedib-gəlirəm? Mən kişiyəm, sənsə qadınsan, bəs sən nə üçün hər gün bu yolu gedib-gəlirsən a köpəkqızı?!

***

Bir dəfə bir neçə Sarıyaqublu mübahisə edirlər, kosmosdan danışırlar, kosmosa necə uçmaqdan danışırlar?

Biri isə buna cavab olaraq soruşur:

Mən kosmos-mosmos bilmərəm, ancaq başa düşə bilməm ki, makaronun deşiyini necə açırlar?!

***

Bir dəfə bir Qoşabulaqlı xizək arabasıyla rayonun mərkəzindən bir neçə nümayəndə gətirəsi olur. Çox boranlı-tufanlı hava imiş, yolda onlar sürüşüb düşürlər. Arabaçının bundan xəbəri olmur. O, idarə qabağına atla, boş xizək arabası ilə gəlir. Ondan soruşurlar:

– Hardan gəlirsən, hara gedirsən?

O arxaya baxmadan deyir:

– Bu yoldaşları gətirmişəm, deyib, arxaya baxıb görür ki, orada heç kim yoxdur (S:6;10;T:1).

***

Qoşabulaq kəndində bir Mirzalı adında kişi var idi. O, dünyasını İsmayıllı rayonunun Qalagah kəndində dəyişib. Özü çox hazırcavab və bamәzə adam idi. Çox qoca olmasına baxmayaraq, çox gümrah, şən, deyib-gülən idi və hər gün üzünü qırxar, heç bir günorta konsertini buraxmazdı. Kəndin cavanları onunla zarafatı çox sevərdilər. O, həmişə bir at saxlayardı.

Mirzalı kişi belə olmasına baxmayaraq, onun atı həmişə yaza çox arıq, necə deyərlər, bir dəri, bir sümük çıxardı. Necə deyərlər, qışda atı asardı, yazda açardı. Ona görə də Göyçədə çox arıq adamı görəndə deyərdilər:

– "Ayə, Mirzalı kişinin atı kimi asıblar, nədi belə arıqsan?!"

***

Bir gün Mirzalı kişinin inəyi murdar olur, ölür. Sovet dövründə olan vaxtları murdar olan heyvana görə (yəni əti istifadə olunmayanda) iyirmi manat sığorta verərdilər. Amma rayon sığorta idarəsinin müdiri onu çox get-gələ salır. Çünki Mirzalı kişi beş manat rüşvət vermir. Axırda təngə gələn Mirzalı kişi müdirə deyir:

– Allah sənin balanı saxlasın, ömrünü uzun, evini şən eləsin! Müdir erməni imiş. Tez müavini Böyük Məzrədən olan Həsəni çağırır və əhvalatı ona danışır. Həsən arif adamıydı. O deyir:

– O, sənə alqış yox, əksinə qarğış eləyib, ancaq o adla.

Müdir qarğışdan çox qorxduğu üçün tez sənədi yazıb Mirzalının inəyinin sığorta pulunu göndərir.

***

Mirzalı kişi qoruqçu olan vaxtlar kolxozun otlaq sahəsində futbol oynayırlar. Mirzalı kişinin uzaqdan gəldiyini görüb bilmirlər nə etsinlər. Qorxurlar ki, o həm kolxoz sədrinə, həm də məktəb direktoruna xəbərləyəcək. Uşaqlardan ən cəsarətlisi və diribaşı, zirəyi Həsən (Allah ona rəhmət eləsin) deyir, qorxmayın, mən elə eləyəcəyəm, hər şey onun yadından çıxacaq. Mirzalı kişi yaxınlaşanda uşaqlar hamısı qaçır, Həsən qaçmır.

Mirzalı kişi onu vuranda Həsən özünü huşunu itirənə oxşadır, yerə yıxılır. Kişi çox qorxur. Uşaqlar qıraqdan çığırıb deyir:

– Onu dalına al, apar evlərinə.

O elə eləyir, amma Həsəngilin evinə yaxınlaşanda uşaqlar deyir, onu evə aparma, burda yerə qoy, get ata-anasını çağır.

O, Həsəni yerə qoyur, evə gedəndə Həsən durub qaçır. Bununla da hər şey yaddan çıxır, Mirzalı heç kimə heç nə demir (S:10;T:1).

QARIŞIQ MÖVZULU LƏTİFƏLƏR

***

– Ermənilər nə üçün qəlyan çəkmirlər:

– Çünki burunları mane olur.

***

– Nə üçün ermənilər kosmosa uçmurlar? – deyə İrəvan radiosuna sual verirlər.

– Ona görə ki, ermənilərin sevincdən, gürcülərin paxıllıqdan ürəkləri partlayıb ölərlər, bütün Qafqaz azərbaycanlılara qalar!

***

Xaricdən bir erməni XX əsrin 50-ci illərində daima yaşamaq üçün İrəvana gəlir, bir çamadan qızılla. Hava limanında təyyarədən yerə düşən kimi çamadanı yerə qoyur və torpağı öpməyə başlayır. Bu vaxt yerli ermənilər onun çamadanını oğurlayırlar. O, yeri öpüb qalxanda çamadanı görmür və başa düşür ki, onu oğurlayıblar. Başlayır ermənilərə söyməyə və qayıdıb gedir.

***

Bir erməni Soçidə Qara dənizdə bir dəfə çimərkən dənizdən bir butulka çıxarır. İçində erməni dilindəki kağızı göstərib deyir ki:

– Bu eramızdan neçə il əvvəl yazılıb.

Bir rus erməninin əlindən butulkanı alıb şüşənin üstünü oxuyur, deyir:

– Ayə, nəyə anqırırsan, butulka 1970-ci ildə buraxılıb.

***

İki şagird dərsə gecikir. Müəllim soruşur:

– Qoşa bülbüllər, dərsə niyə gecikirsiniz?

– Müəllim, məktəbin bağçasında cəh-cəh vururduq.

Müəllim hazırcavab və baməzə şagirdlərə söz tapmır və:

– Keçin, əyləşin, – deyir.

***

Şahın qızı heç kimə ərə getmək istəmir. Bütün elçilərə "yox" cavabı verir. O, ağ paltarlı, ağ atlı şahzadəsini gözləyir.

İllər ötür, bir gün ağ atlı şahzadə şəhərə gəlir. Bunu eşidən şahzadə qız tez balkona çıxıb ağ atlı şahzadəyə əl edir. Şahzadə qızın ona əl etdiyini görüb:

– Xala, mənə nəsə demək istəyirsən?!

***

Bir arvad deyir:

– Mənim ərim qızıl adamdır, qəlbi çox yumşaqdır. Az-az tapılar belə kişilər. Mən odun yarmalı olanda evdən çıxıb gedir ki, məni işləyən görməsin, ürəyi götürmür.

***

– Ana, gərək mənim adımı Qorxmaz qoyaydınız!

– Niyə oğlum?

– Axı mən böyüyəndə boksçu olacağam.

– Xeyri yoxdur, atanın adı Həqiqətdir, oğurluq üstündə həbsxanada iki dəfə yatıb.

***

Bir müdir özünə hesabdar axtarır. Ona çox təcrübəli bir hesabdar götürməyi məsləhət bilirlər. Müdir onu çağırtdırıb soruşur:

– İki dəfə iki neçə edər?

– Eh! Bunu uşaq da bilir! Dörd.

Müdir qaşlarını çatır:

– Sizin hesabat işindən başınız çıxmır. Mən sizi işə götürə bilmərəm.

Bu yolla o, bir neçə hesabdarı da imtahan edir və heç birisini işə götürmür.

Onun yanına nəhayət, bir ali savadlı mütəxəssis, amma çox baməzə və hazırcavabı gətirirlər. Müdir həmin sualı ona verdikdə, mütəxəssis tez cavab verir:

– Sizə necə lazımdır, o qədər olur.

***

Molla Nəsrəddinin oğlu evlənmək istəyir. Fikrini atasına bildirəndə Molla Nəsrəddin kasıbçılıqdan şikayətlənib deyir:

– Ay oğul, evlənmək istəyirsənsə, qoy payız olsun, bu eşşək bir az ətə-cana gəlsin, onda eşşəyi satıb toyunu edərik.

Oğlan ha gözləyir, payız ölür, qış olur, yaz olur, atasından səs çıxmır. Axırda məcbur olub dillənir:

– Ata, heç olmasa bu payız eşşəyi bir yada sal (S:10;14;T:1).

GÖYÇƏSAYAĞI ƏHVALATLAR

***

Qoşabulağın kolxoz sədri Abbasəli Hüseynov çobanlara tapşırır ki, bir qoyun kəssinlər, gəlib aparacaq. Çobanlar qoyunu kəsib ətini hündür olmayan bir yerə qoyurlar. İtlər gəlib cəmdəyi aparırlar, çobanların başları başqa bir işə qarışdıqlarından bundan xəbərləri olmur. Kolxoz sədri ətin dalınca gəlir. İşdən halı olur, çobanları danlayanda kürd Xəzəl xala Azərbaycan dilində yaxşı danışa bilmədiyindən deyir:

– Abbasəli, sən olasan it, təzə kəsilmiş qoyun əti ola, sən də onu görüb tamahın düşməyə, oğurlayıb, aparıb yeməyəsən....

Sədr pərt olub kor-peşman geri qayıdır.

***

Bir dəfə Qayabaşılı, liliputa oxşar Hümbət ATS-də işləyərkən telefonla bir qızla tanış olur. Bir aya yaxın telefonla danışırlar. Bir gün qız deyir ki, telefonla danışdıq, bəsdi, gəl rayon mərkəzinə, bir-birimizin üzünü görək.

Razılaşırlar. Hümbət deyir ki, rayon mərkəzində, avtobus vağzalında əlimdə qəzet səni gözləyəcəm. Vağzala gələn qız bir neçə saat fırlanır, amma Hümbəti tanımır, çünki o balaca uşaq boyda imiş. Qız onu uşaq bilsə də, naəlac qalıb onun yanına gəlir və soruşur:

– Qayabaşlı Hümbət sənsən, mənlə telefonla danışan?

O deyir:

– Bəli, mənəm.

Qız onun təpəsinə bir qapaz vurub deyir:

– Sən elə bil uşaqsan, uşaq boydasan, mən də elə bildim ki, sən uzunboylu, boy-buxunlu bir oğlansan. Rədd ol, burdan!

***

Göyçənin Nərimanlı (keçmiş Hüseynquluağalı) kəndində çox təmiz və saf bir Səfiyar adında kişi var idi. Özü də Göyçənin ən adlı-sanlı, məşhur tayfalardan olan bir qızla evlənmişdi. Rayon mərkəzində nərimanlıların hansı birinin ya sənəd düzəltmək, ya da xırda-para alveri olsun, onun üçün Səfiyarı göndərərdilər. Ona görə də, elə olurdu, bir gündə iki, üç dəfə rayon mərkəzinə gedib-gəlirdi. Hamı onu yaxşı tanıyırdı, heç vaxtı yolda qoymazdılar, pul-para da almazdılar. Hətta belə poçt maşınları onu götürərdilər. Çox halal, təmiz olduğu üçün. Ona görə də kim rayon mərkəzinə çox gedib-gəlsə, bütün Göyçədə belə deyərdilər: "Ayə, lap Nərimanlı Səfiyar olubsan, həmişə rayona gedib-gəlirsən".

***

Bir dəfə Allahverdi Tiflisdən gələrkən Göyçə körpüsündə rayon milis şöbəsinin rəisi yolda onu götürür. Yolda DAM işçiləri durumuşlar. Onu da deyək ki, rəis milis formasında olmur. Paltarda olduğundan onu tanımır. Buna görə də DAM milislərini görən Allahverdi deyir:

– Bu itlər yenə yolda durublar.

Rəis heç nə demir. Rəisin sürücüsü başa sala bilmir ki, bu rəisdi, nə qədər işarə eləsə də. Gəlib rayon mərkəzinə çatanda, mənzil başına çatanda Allahverdi düşərkən pul vermək istəyir. Onda rəis deyir:

– Sən yolda bizim haqqımızı verdin, çıx get, uzatma.

Sonralar Allahverdi bu əhvalatı başa düşür.

***

Bir dəfə də rayon mərkəzində Allahverdi tələsdiyindən yaşıl qazonu ayaqlayıb keçir. Elə bu zaman rayon partiya komitəsinin katibi ilə rastlaşır. Katib onu bu hərəkətinə görə vurmaq istəyəndə o, özünü lallığa vurur. Bu vaxt yaxında olan rayonun icraiyyə başçısı Zərbalı Qurbanov bunu görür.
O, vaxtilə Qoşabulaqda kolxoz sədri işlədiyindən onu tanıyırdı. O, Allahverdini kənara çəkib deyir:

– Ə, Allahverdi, sən nə vaxtdan lal olmusan?!

***

Göyçənin Şişqaya kəndində "Qancıq Əliş" ləqəbli bir kişi var idi. O, nəinki Qərbi Azərbaycanda, bütün Azərbaycanda öz fırıldaq və kələkbazlığı, həm də çox mərhəməti, xeyirxah və səxavəti ilə məşhur idi.

O, özünü gah "Azərbaycan gəncləri" qəzetinin müxbiri Mürşüd Dadaşov (M.D – qəzetin ən çox tənqid yazan müxbiri idi) kimi, gah da MK – nın məsul işçisi kimi rayonları, kəndləri gəzir, pul qoparırdı (kolxozlardan, sovxozlardan, məktəblərdən və s). Bəzən gedib varlı adamların ya qohumu, dostu, kirvəsi kimi onların başına bir qəza gəldiyini söyləyir, aldatdığını aldadıb, pulu götürüb aradan çıxırdı.

Amma iş orasındaydı ki, aldatdığı pulları ailəsinə yox, yetimlərə, kimsəsizlərə, kasıblara, dul qadınlara heç bir təmənnasız paylayar, ya da yemək, paltar alardı. Ailəsi dəfələrlə bunun üstündə dalaşırdı. O, demək olar ki, ailəsinə bir qəpik də verməzdi. Onu da qeyd edək ki, çox əməksevər, çalışqan ailəsi olub. Həm kolxozda işləyər, həm də bağ-bostanla, əkib-becərməklə, mal-qara saxlamaqla məşğul olar, heç bir korluq çəkməzdilər. O isə yalnız kasıbları, yetimləri düşünərdi.

Bir dəfə Əliş kişi Bala Məzrə kəndinə kimi maşınla gəlir. Amma oradan Şişqaya kəndinə piyada getməyi qərara alır. Dükanın qabağında Bala Məzrədə məşhur olan Arıqlar tayfasından yeddi qardaşa rast gəlir. Onlar onu buraxmırlar:

– A kişi, bu şər vaxtı, özü də piyada hara gedirsən, buna razı olmarıq. Onu məcbur evə gətirirlər (Deyim ki, olar çox it oynadan, harfa*, baməzə idilər).

Axşam yemək-içməkdən sonra yeddi qardaş Əliş kişinin üstünü kəsirlər ki, bəs, sən gərək anamızla evlənəsən. Anaları çox yaşlı olduğunnan Əlişnən məzə edillərmiş. O da qorxusundan razı olur (yeddi qardaşın qabağında nə edəcəkdiki). Elə ki, bını analarının otağına salırlar, Əliş bı qapıdan girib, o biri qapıdan xəlvətcə çıxıb, ayaqyalın, başı açıq, piyada gecəynən Şişqayaya qaçır.

***

Bir dəfə ağıldan kəm bir kişinin arvadı küsüb öz kəndlərinə, Sarıyaquba gedir. Kişi onun dalına düşür, nə qədər yalvarırsa, o qayıtmır. Kişi yarıyoldan qayıdır, əlində də arvadının çəkmələri. Ondan soruşurlar:

– A kişi, bəs arvadın hanı, neynədin onu?

O isə cavab verir:

– O qayıtmadı, ona görə də çəkmələri soyundurub əlindən aldım, qoy canı çıxsın, piyada getsin.

***

Firdovsi kolxozda zootexnik işlədiyi dövrdə kolxoz sədri Əmirxanla Tərtərə qohumlarıgilə toya gedirlər. Yolda bir neçə dəfə yeməkxanada yemək və ya çay içməli olurlar. Hər dəfə də pulunu verirmiş. Bir dəfə yolda yenə yeməkxanaya getməli

olurlar. Firdovsi görür ki, belə getsə, heç toya pul qalmayacaq. Elə yeməkxanaya daxil olurlar, Firdovsi yeməkxana sahibinə işarə edir. O da çox arif adamıymış, o dəqiqə hər şeyi başa düşür. Yemək yeyib, hesab olunanda Əmirxan müəllim deyir ki, Firdovsi ödəyəcək.

Yeməkxana sahibi isə deyir:

– Elə şey yoxdu, Əmirxan müəllim olan yerdə Firdovsi salfetkadı.

Yarıciddi, yarızarafat olan bu sözdən sonra Əmirxan müəllim naəlac qalıb yemək pulunu ödəyir, Firdovsinin toya pulu qalır.

***

Göyçədən Naxçıvana gedən təkəbbürlü, lovğa bir adamdan soruşurlar:

– Hara gedirsən?

– Duz gətirməyə gedirəm, – deyərək, lovğalıqla cavab verir. Elə ki, qayıdır, həmin adamdan yenə soruşurlar:

– Haradan gəlirsən?

– D – u – z – dan gəlirəm, – deyə, həmin adam güclə cavab verir (S:14;T:1).

GÖYÇƏSAYAĞI GÜLMƏCƏLƏR

AY İT ÜZÜN-ÜZÜN

Bir qıza bir oğlan evindən elçi gəldi. Amma kasıblarda bir belə adət varıydı ki, oğlanı odun yarmaqla, qırmaqla sınayardılar, qızları isə xalça, gəbə, palaz, corab toxumaqla.

Uzun sözün qısası, oğlana odun yarmağı tapşırdılar. Amma oğlan heç cürə odunu yara bilmirdi. Bunu görən və oğlanı sevən qız naəlac qalıb isti yal gətirib qapıdakı itin qabağına tökdü, özü də odun qıran oğlanın yanında itə dedi, ancaq oğlana eşitdirmək üçün:

– Ay it, üzün-üzün yala, ye.

Yəni ki, ay oğlan üzün-üzün yar, qır odunu. (Qızım sənə deyirəm, gəlinim sən də eşit).

Oğlan da eyhamı başa düşüb odunu üzün-üzün qırmağa başlayır. Beləliklə, elçilik baş tutur. Gülməli olsa da, sevgi, məhəbbət qalib gəlir, xoşluqla bitir sonu.

***

Alməmməd telefonla arvadı ilə danışır. Arvadı xısın-xısın danışdığı üçün zorla səsi gəlir.

Alməmməd soruşur:

– Niyə yavaş danışırsan, zorla eşidirəm.

Arvadı cavab verir:

– Alməmməd, sarımsaq yemişəm, ağzıma yaşmaq tutmuşam ki, iyi səni vurmasın.

***

Alməmmədin zarafatcıl və bamәzə dostları onu aldadaraq Zilin[51] kuzovuna mindirib zavodun direktorunun evinə

gəlirlər. Direktoru çağırıb deyirlər ki, kəl gətirmişik, göstəriş ver, harda, necə kəsək? Direktor çölə çıxır, kuzovda Alməmməddən başqa heç kimi, heç nəyi görmür. O kəli soruşanda onlar qaqqıldaşıb gülürlər. Direktor da onlara baxır, məsələnin nə yerdə olduğunu başa düşür, o da başlayır gülməyə. Alməmməd isə kuzovda hirsindən dodaqlarını gəmirirdi (S.6.T.1).

***

Vahidi anası qaldırır ki, dərsə getsin. Vahid isə getmək istəmir:

– Eh, ay ana, hər gün dərsə mən gedirəm. Gəlin, növbə ilə gedək, bir gün Zərqələm nənəm, bir gün sən, bir gün atam, sonra mən.

***

Yenə anası uşaqkən Xamayev Vahidi qaldırır ki, məktəbə getsin. Vahid deyir:

– Kökə var, məktəb var, kökə yoxdu, məktəb də yoxdu

(Sovet dövründə məktəblilərə kökə və süd verirdilər. Arada heç biri olmurdu).

***

Bağça müəlliməsi soruşur:

– Vahid, sənin neçə yaşın var?

Vahid:

– Tezliklə 5 olacaq, indi isə 3-dür.

***

Bir dəfə Vahid dərsə gecikir. Sinfin qapısı açıq imiş, Vahid müəllimə deyir:

– Müəllim qapını ört, döyüm, içəri gəlim!

***

Qayabaşı kənd sovetinin sədri Kəkoy Məmmədəli müəllim Qoşabulaqda Kəkoy Maarifgilə gəlir. Maarif Məmmədəli müəllimin kəkələdiyini görüb:

– Məm-m-əd-ə-li mü-əl-lim, sən də mə-n-i ki-mi kəkoysan.

***

Bir gün Qoşabulaqlı Kəkoy Maarif anası Ruqiyə xaladan soruşur:

– Ay ana, evimizdə mü-rəb-bə var?..

Anası deyir:

– Ay Maarif, var, amma o yekəlikdə, qarınlıqda yox!

***

Göyçənin Zod kəndində dəlixananın yanında bir neçə cavan dalaşır. Bunu görən dəlilər deyirlər:

– Ayə, bu köpək uşağı hamısı dəlidi!

***

Əzrayıl bir zodlunun sinəsinə qonub onu yuxudan ayıldır.

– Canını almağa gəlmişəm, deyir.

– Neçəyə alacaqsan?

Əzrayıl çaşır, çiyinlərini çəkir. Sonra ağzını zodlunun qulağına tutub çığırır:

– Mən Əzrayılam!

Zodlu isə daha möhkəm bağırır:

– Mən də dəliqanlı zodluyam!

***

Bir oğlan Göyçədən Rusiyaya gedir. Bir müddət orada qalıb qayıdır. Anası soruşur:

– Ay bala, orda nə iş görürdün?

– Heç, ay ana, bezdelnik idim (yəni işsiz idim), qayıtdım gəldim bura.

– Ay bala, o cür işi buraxıb daha buralara niyə gəlirdin? – deyə anası heyfislənir.

***

Qoşabulaq kəndindən Cinni Müseyib qonşu Nərimannı kəndinə elçi gedir. Bir az söhbətdən sonra ondan soruşurlar, evin-eşiyin necədir, mal-qoyundan, at-eşşəkdən nəyin var, nəyin yox?

O deyir:

– İkiotaqlı evim, aynabəndli olsa, yaxşıdımı?

Deyirlər:

– Yaxşıdır.

O deyir:

İki öküzüm, iki atım, iki eşşəyim olsa, yaxşıdırmı?

Deyirlər:

– Yaxşıdır.

Nə başınızı ağrıdım, əlqərəz, toy vaxtı olur, qız adamları gəlib görürlər ki, heç bir ev yox, uçuq daxma, həm də bir həsir, bir də məmmədnəsirdi. Cır-cındırı içində cini ürkür, yırtıqmırtıq palaz...

Qız adamları deyirlər:

– Bəs sən deyirdin, bağ belə, bostan belə, imarət belə, mal-qara belə.

O da deyir:

– Mən sizə demədim ki, var, dedim ki, “olsa yaxşıdırmı?”. Siz də dediniz “yaxşıdır”. Şüttamam, vəssalam!

***

Bir dəfə Sarıyaqublu gənclər toplaşıb elm və texniki yeniliklərdən, kosmosdan söhbət edirlər, nailiyyətdən danışırlar. Amma birisi qayıdır ki:

– Hər şeydən danışdınız, amma mən başa düşmürəm ki, bunlar hamısı bir yana, mən bilmirəm ki, makaronun deşiyini necə açırlar?!

***

Bir kürd qızı eşşəklə bazardan alış-veriş eləyib, kefi kök halda, mahnı oxuya-oxuya evə qayıdırmış. Bunu görən bir oğlan ona sataşır:

– Ay qız, kefin göynən gedir, mənə bir öpüş verərsənmi?

Qız deyir:

– Öpüş verərəm, amma birinci sən mənim eşşəyimin dodaqlarından öp, onu şad-xürrəm et, sonra....

***

Bir evə bir qonaq gəlir, bir gün, iki gün, üç gün... getmək bilmir ki, bilmir. Evin adamları lap zinhara gəlirlər. Ona görə də ona deyirlər ki, sən arvadın üçün, qızın üçün darıxmırsan?

O deyir:

– Əlbəttə, darıxıram. Məktub yazaq, onlar da gəlsin.

***

Kolonna ilə gedən maşınların bir neçəsi gecikir. İrəlidə gedəni, bir yerə yığışıb gözləyən şoferlər uzaqdan bir maşının başqa yol ayrıcı ilə sağa dönüb getdiyini görürlər.

Sürücülərdən biri başından papağını yelləyir, amma onu görməyən maşının sürücüsünə hirslənib qışqırır:

– Ayə, alabaşın, alabaşın oğlu hara getdin?

Sürücülər deyir ki, o sən bildiyin adam deyil, başqası – sənin qohumundu.

O isə cavab verir:

– Demişəm, demişəm alabaşın oğlu ki, oğlu!

Bu vaxtı DAM müfəttişi düz xəttin üstü ilə gedən həmin maşını saxladır. Sonra isə sürücüyə səbəbi deyir. Bunu eşidən sürücü ondan ayrılıb düz xəttə tərəf gedir. DAM işçisi ondan soruşanda ki, hara gedir? O isə cavab verir: Düz xəttdən üzr istəməyə gedirəm. Qoy, bağışlasın məni.

***

İsti hava kütləsi tamojnılarla[52] razılığa gələ bilmədiy üçün ölkə sərhədini keçə bilmədi (S:10;T:1).

OLAYLAR, ƏHVALATLAR

ANA SEVGİSİ

Bir dəfə çöldə bir inək doğdu, maşın çağırdıq, mən buzovu inəyin qabağından götürüb maşının kuzovuna[53] mindirdim. Maşın buzovu apardı. Amma buzovun anası – inək bütün günü mənim dalımca gəzdi, məndən əl çəkmədi. Hələ azıymış, hər gün işə gedəndə ağılın qırağı ilə gedirdim. İnək məni görən kimi ağılın içində ora-bura qaçırdı. Bu bir neçə ay belə davam etdi. Onun dili olmasa da sanki deyirdi: "Mənim balamı neyləyibsən? Qaytar, qaytar mənim balamı özümə ver, ver. Mən balasız dözməm". Heyvanda olan ana sevgisinə, ana eşqinə bax. Gör, necə də güclüymüş ananın balaya sevgisi, əzizləməsi!

DÜŞMƏN KİŞİ KİMİ

Göyçə mahalının Qoşabulaq kəndində iki qanlı düşmən tayfalar – Axundlar[54] və Dələşlər[55] tayfaları uzun illər idi ki, bir-birləri ilə düşmənçilik edirdilər.

Axundlar tayfasında Koroğlu kimi tökmə bədənli, iri cüssəli, ucaboylu Xosu Abdulla adı ilə bütün Göyçə mahalında tanınmış bir şəxs var idi. Özü də məşhur oğru idi.

Bir gün Xosu Abdulla Qoşabulağın Ortalıq deyilən bir sahəsində gecə vaxtı taxıl zəmisi sulayırmış. Ondan bir neçə kilometir aralıda – Mərciməkdə[56] Dələşlər tayfasından Cəlil taxıl sulayırdı. Xoş novraqlı aylı bir gecə idi.

Xosu Abdullanın fikrinə oğurluq gəlir. O, beli torpağa sancıb, pencəyin də belin üstünə atır. Eləməyib tənbəllik Sarıyerə oğurluğa gedir. Xosu Abdulla bir obaya çatır, görür ki, obadan kənarda, ağılın* qırağında ocaq qalanıb. Ocağın üstündə çobanlar kabab bişirirlər. Ama çobanlardan biri yatır, o biri isə yarıyuxulu kimidi. O, yarıyuxulunun yanına çatanda yarı-

yuxulu onu öz yoldaşı bilib, soruşur ki, ət bişib, ya yox. O da bir tikə yarıyuxuluya uzadıb soruşur ki, bişib, ya yox? Yarıyuxulu deyir ki, yox hələ bişməyib.

Sora Xosu Abdulla bir neçə heyvanı oğurlayıb gətirir, yenə başlayır taxıl sahəsini suvarmağa. Sonra hay-küy düşür ki, bəs, filan yerdən filan qədər heyvan oğurlanıb. O saat deyirlər ki, bu Xosu Abdullanın işidi.

Dəleşlər tayfasından Cəlil deyir ki, mən gedib çimib, Quran götürüb and içəcəm. Axı Xosu Abdulla ortalıqda taxıl suvarıb, bütün gecəni. Sən demə o, uzaqdan beli və belin üstündəki çuxanı Xosu Abdulla bilibmiş. Xosu Abdulla deyir ki, gedin deyin Cəlilə, and içməsin, mən oğurlamışam. Quran ikibaşlı olur, and içəndə. Hər ikisi düşmən olsalar da, hər ikisi kişi kimi hərəkət edirlər.

Bundan sonra Cəlil çimsə də, Qurana and içmir ki, oğurluğu Xosu edib. Bəli, görün, keçmişin kişiləri necə də düşmən olsalar da, kişi kimi, ər kimi düşmən olublar. Bir-birlərinin sınmalarına razı olmayıblar (S:13;T:2).

ƏZİZİN OLAYI

Qoşabulaq kəndində Əziz adlı biri erməni ilə dostluq edirmiş. Bir gün həmin ermənigildə gecələməli olur. Ermənin erməni qonşusu da gəlib onlara çıxır. Əziz həmişə bir təzə xrom çəkmə ilə gəzərmiş. Həmin vaxt xrom çəkməsi də ayağında imiş. Ermənin qonşusu ermənicə həmin qonşuya deyir ki, gəl bu gecə bu türkü öldürək, onun xrom çəkməsini mən götürüm, əvəzində nə istəyirsən verim.

Onlar beləcə razılaşırlar. Onlar ermənicə danışırlar, amma bilmirlər ki, Əziz ermənicə təmiz, səlis bilir, başa düşür. Əziz həmişə öz ana dilimizdə danışardı ermənilərlə. Çünki ana

dilimizi hər dildən üstün bilərdi. O təkcə öz ana dilimizdə yox, Osmanlı türkcəsi, kürd, rus, erməni dillərini də sərbəst bilirmiş.

Beləliklə, o, gecə yarı onları yuxuya verib, qonaq qaldığı erməni kəndinin o biri tərəfindəki ermənigilə gedib. Ermənicə sərbəst danışdığından onun erməni və ya türk olduğunu bilmirlər. Gecə orada qalıb, səhər erkən durub Qoşabulağa gəlir.

Ermənilər gecə nə qədər axtarsalar da onu tapa bilmirlər, onu öldürüb çəkmələrini ələ keçirə bilmirlər. Əziz erməni dili bilməsi ilə canını qurtarır. Ona görə də, atalar yaxşı deyib ki, neçə dil bilsən, o qədər də adamsan. Alllah Əzizə rəhmət elə-sin! (S;27;T:2).

HEYVANLARIN OLAYLARI

Heyvanlar da insan kimidirlər. Amma onların yalnız danışmağa dilləri yoxdur, bir də düşünmələri.... Ancaq yeri gələndə bəzi insanlardan vəfalı, sadiq və etibarlıdırlar.

Birinci olay. Sovet dövründə, keçən əsrin 80-ci illərində hardansa bir maral azıb gəlir Göyçənin Qoşabulaq kəndinin yaylağına. Çobanlar onu qovalayıb qoyunun ağılına – arxacına salırlar və kəsirlər. Görənlər deyirdilər ki, kəsmək vaxtı onun gözlərindən bıldır-bıldır yaş axırmış. Çobanlar heç buna əhəmiyyət vermirlər. Çoban olsalar da, axı onlar da insandırlar, heyvanları hiss etməlidilər. Nə demək olar....

İkinci olay. 1990-cı ildə Kəlbəcərdə bizim qohumumuz Məmməd də öz atını kənd camaatının ilxısına qatıb Göyçəynən həmsərhəd olan Dikyurd yaylağına buraxmışdı. Payız dövrü bütün hamı belə edirdi. İlxı Göyçə üzünə keçdiyindən ermənilər ilxını yığıb aparmışdılar. Bir ildən sonra at qaçıb gəlmişdi, ya da özləri buraxmışdılar, bilmədik. Bircə onu bildik ki, əclaf ermənilər atın yalmanın və quyruğunu kəsmişdilər. At düz qapıya gəlmişdi. 20-30 km yolu necə gəlmişdi, sirr olaraq qaldı. Amma Dalqılınclı kənd sakini olan qohumumuz

Məmməd atın yalmanına və quyruğuna görə elə həmin gündə özünü asıb öldürdü.

Üçüncü olay. Bir dəfə bir neçə inək çöldə doğdu. İnəklərin hamısı öz balalarını yalayıb yemlədilər axşama kimi. Yalnız bir düyə öz balasını almayıb çıxıb getdi. Amma bir gün qabaq doğan bir düyə buzova yaxınlaşıb onu yaladı, yemlədi, axşama kimi onun yanından əl çəkmədi. Öz balası kimi ana nəvazişi göstərdi.

Dördüncü olay. Bir dəfə mal-qara ilə otlayan qoyunlar da 20-30 metr enində olan çaydan keçirdi. Bir qoyunun üç balası var idi, quzuların ikisi o biri sahilə keçdi anaları ilə. Bir quzu bu sahildə qalmışdı. Qoyun bunu görüb təzədən bu sahilə üzdü, sonra isə bu sahildə qalmış quzu ilə o biri sahilə üzdü. Ana məhəbbətinin qoyunda olan gücünə bax!

Beşinci olay. Bir dəfə bir çayın üstündə 30-40 metr olan körpüdən naxır keçərkən bir maşın ona yaxın inəyi vurub öldürdü. İki qardaşın birinin bir inəyin də maşın vurmuşdu. Yük maşınının sürücüsü içkili olduğundan və maşının tormuzunun[57] tutmamağından baş verdi bu qəza. O biri qardaşın inəyi o tərəfə, bu tərəfə qaçıb bu biri qardaşın inəyini axtarmağa və böyürməyə başladı. Hadisəyə toplaşanlar bunu maraqla izlədilər və məəttəl qaldılar inəyin bu hərəkətinə (S:10;T:1).

AT AĞACA ÇIXIR

Bir kənddə bir oğlanla bir qız bir-birini sevirdilər. Amma toy ərəfəsində qızın anası barədə söz-söhbətlər gəzməyə başladı. Oğlan bunu eşidib, atı minib bulağa getdi. Qız o vaxt səhənglə bulaqdan su doldururdu. Bulağın yanında bir ağac var idi. Oğlan atı ağacın yanında qamçılamağa başladı. Qız oğlandan soruşdu:

– Atı niyə döyürsən?

Oğlan dedi:

– Bunun anası ağaca çıxırmış, mən onu döyürəm ki, o da ağaca çıxsın. Axı anası çıxan ağacı balası budaq-budaq çıxar.

Qız çox ağıllı, arif adam idi, o saat eyhamı başa düşdü ki, oğlan eyhamı haradan vurur.

Qız dedi:

– Birincisi, at heç vaxt ağaca çıxmır. Onu kim deyirsə, o ağ yalandı. At nə insandı, nə meymundu ağaca çıxsın. Atı nahaq yerə döymə, ağıllı ol.

Bu sözdən sonra oğlan heç nə deməyib evə qayıtdı. Sonralar onlar evlənib xoşbəxt həyat sürdülər. Allah sizləri də xoşbəxt eləsin, sevinclə, şadlıqla həyat sürün!

ƏSLİNƏ ÇƏKİB

Bir dəfə bir qatırı nallamaq istəyirlər. Amma di gəl ki, qatır heç kimi yaxın buraxmır, yaxına gələni təpikləyir. Axırda qatırın sahibi eşidir ki, qonşu kənddə bir nalbənd var, o, öz işinin ustası, mahir nalbənddir. Qatırın sahibi qatırı minib qonşu kəndə gedir və nalbəndə əhvalatı danışır. Nalbənd birinci qatıra yanaşıb qatırın qulağına nəsə deyir. Sonra isə qatırı nallamağa başlayır. Qatır sakitcə dayanır, heç belə cınqırığını da çıxartmır. Nalbənd qatırı nalladıqdan sonra qatırın sahibi soruşur ki:

– Sən necə etdin ki, qatır sakit durdu?

Nalbənd dedi ki:

– Mən dedim ki, sakit dayan, əslin-nəslin bəllidi, eşşək nəslinnənsən.

PAXIL QONŞU

Bir dəfə bir kişi görür ki, qoyun otaran bir oğlanın əlində bir parıldayan şey var. Kişi uşağa yaxınlaşıb görür ki, uşağın əlində olan çox qiymətli şeyə oxşayır. Uşaqdan soruşur ki, bunu hardan alıbsan? Uşaq deyir:

– Çomaqla yeri qazırdım, tapdım.

Kişi dedi:

– Onu ver mənə.

Uşaq dedi:

– Mən versəm, əvəzində nə verərsən mənə?

Kişi dedi:

– Məndə bir çürük qoz var, ondan başqa heç nə yoxdu.

Nə isə, razılaşdı. Uşaq parıldayan şeyi ona verib çürük qozu aldı. Kişi parıldayan şeyi apardı. Həmin şey gecə elə parıldayırdı ki, evə heç çıraq, işıq lazım deyildi.

Kişinin bir paxıl qonşusu varıydı, gördü ki, qonşunun evi çıraq olmaya-olmaya, kasıb ola-ola çox güclü işıqlıdı. Ürəyi durmayıb gəlib gördü ki, kişinin evində parıldayan şey var, işığı o salır. O, kişiyə dedi ki, onu ver mənə. Kişi dedi, vermirəm. Paxıl qonşu dedi ki, on min tümən verim, ver mənə.

Kişi çox ağıllı idi, bilirdi ki, bu çox qiymətli şeydi. Kişi ona görə də dedi, yox. Paxıl qonşu dedi, igirmi min tümən verim, kişi yenə dedi, yox. Nəhayət, razılaşıb yüz min tümənin üstündə dayandılar. Paxıl qonşu yüz min tüməni verib dedi, yaxşı, qoy belə olsun. Sonra parıldayan qiymətli şeyi götürüb apardı. Kişi özünə yaxşı bir imarət tikdirdi və varlandı. Amma paxıl qonşu daha da varlandı. Varı hesaba gəlməyən, daha dövlətli olan paxıl qonşu gəlib qonşusuna dedi ki, gəl belə vəsiyyətnamə yazaq, kim tez ölsə, onun var-dövləti o biri qonşuya qalsın. Razılaşdılar. Razılaşdıqdan sonra paxıl qonşu dedi ki, inşallah, sənin var-dövlətin mənə qalar. Çünki mən səni yüz min tümənlə aldadıb gör neçə dəfə artıq varlandım, dövlətli oldum. Kasıb kişi qəhqəhə çəkib, bərkdən gülüb dedi:

– Ay yazıq, mənə yüz min tümənə satdığım şeyi bir çürük qoza uşaqdan almışam.

Bunu eşidən paxıl qonşunun ürəyi partlayıb qəfildən ölür. Onun da var-dövləti kasıb kişiyə qismət oldu. O daha da

varlandı. Paxıl qonşu isə paxıllıqdan, xainlikdən, xəbislikdən cəhənnəmə vasil oldu (S:17;T:1).

BAŞIMI UCA, ÜZÜMÜ AĞ ELƏDİN

Bir evə qonax gəlir, oturullar, çay-çörək yeyillər. Kişi arvada deyir ki, arvad, qatıx gətir. Qatıx yoxuymuş. Qazanın dibində elə-belə, ayran-zad varıymış. Bu gətirmir. Aradan bir az keçəndə kişi deyir, arvad, sana demədim qatıx gətir?! Arvad da bir şey deyə bilmir, tez gedir, qatıx qazanını götürür, gətirir çırpır kişinin təpəsinə. Kişinin başı şişir, dombalır. Divində qalan qatıx da bunun üzünə-zadına tökülür, ağardır (Qatıx ağdı axı). Kişi başdıyır, özün sındırmır, deyir, arvad, sən ki qonağın yanında mənim başımı uca elədin (axı dombalıf, ucalıfdı başı), üzümü ağ elədin, sənin atana rəhmət. Lap yaxşı elədin (Qatıx tökülüf, üzü ağarıb axı bunun). Bu qayda qonaxlarını yola salıllar.

BƏYNƏN KASIB KİŞİ

Bəynən qonşu olan bir kasıf kişi olur. Bu kasıbın evində çox şey olmur da. Kasıbın nəyi olajax kin. Eşidir kin, qonşudakı bəyin evində xaşıl pişiriflər. Gəlir arvatnan məsləhətləşir ki, arvat, gəl belə eliyək da, biz dalaşax güya da, sən qaşginan bəyin evinə, yəni qonşuya, mən də arxanca tüşüf səni qovalıyım da güya. O vaxt olsun ki, artıx xaşıl pişif, hazırdı, yemək vaxtı olur.

Belə də eliyillər. Xaşıl pişif hazır olan vaxtı kişi arvadın dalınnan düşür, arvad qaçır özün salır bəyin evinə. Gedir kin, hə, tay artıx sürfə açılıf, bunnar xəşili yemək istiyillər. Bəy deyir ki, a kişi, nəydi, noluf, niyə dalaşırsınız? Deyir, deyəjəm. Deyir, yaxşı, gəlin oturun, yemək yiyək, sonrasına dərdinizi bilərəm nədi, nə döyül.

O vaxtlar da elə bil kin, iki adam bir qabda yeyirdi. Elə olur ki, bəynən kasıf kişi bir qabda yiyəsi olur. Kadınnan da bəyin yoldaşı bir qabda yiyəsi olur. Xəşil də belədi kin, xəmirin ortasına yağ töküllər və yaxud da ki, bəkməz, qırağına da ayran töküllər. Nəsə bəy bir qaşıx vuranda yağ bəy tərəfə axır. Kasıf kişi görür ki, bu, yağsız yeyəjək, ona görə də fəndə əl atır. Tay bunun tərəfində yağın hamısı axır bəy tərəfə, kasıf tərəfə də bir şey qalmır. Qaşığı əlinə alır, deyir, bəy sağ olsun, bilirsən, bu arvat nətəər höcətdi? Bəy tərəfdən xaşılın ortasınnan özünə tərəf bir cız çəkir, deyir, "bax, mən deyirəm, ay arvat, bu yolnan gedək". Onnan sora tərsinə bir dənə də ox çəkir, "arvad da deyir ki, bax, bu yolnan gedək". Bu dəfə yağ hər tərəfə, kasıf tərəfə gəlir. Bəy görür ki, yox, bu dəfə yağın çoxu da kasıf tərəfə gedir, bu da qaşığı götürür, başdıyır xəşili yağlı-zaddı qarışdırmağa. Deyir, ay qonşu, eybi yoxdu, dünyanın işdəri belə qarışıxdı. Xəşili qarışdırır, yağ hər tərəfə yayılır. Onnan sora bular da şad-xürrəm xəşili yeyif ayrılıllar.

QARIYNAN USTA

Bir kasıb qarının ustası olur. Qarı da kasıf imiş da. Birinci gün səhəri gətirir şordan, çörəkdən qoyur, yeyir. Şor-çörək yeyən usta nə işdiyəjək?! Başdıyır günün yuvadır ordan-burdan, nəsə günü axşam eliyir. Qarı görür ki, yox, day bu usta əməlli işdəmir, səhərisi günü gətirir buna ət bişirir. Kişi ətdən yeyir, başdıyır əməlli-başdı işdəməyə. Axşam qarı deyir, ay usta, niyə belə işdədin? Deyir, qarı nənə, yedim şordan-mordan, işdədim ordan-burdan. Yedim ətdən-mətdən, mən də baltanı vurdum bərtdən-bərtdən. İşdəri gördüm bərtdən-bərtdən. Onnan sora bunnar day işdərini şad-xürrəm qurtarıllar (S:15;T:2).

Aşıq Rəcəb Əhmədov

OLDU

Qırx dördüncü ilin qasım ayında,
Döyüş meydanında çox fəğan oldu!
Düşmən hər tərəfdən keçdi hücuma,
Məxluqat qırıldı, meydan qan oldu!

Snayperlər bizi aldı nişana,
İmdad yoxdu yıxılana, aşana.
Vahimədən, həyəcandan çaşana,
Ulu Tanrı özü həm həyan oldu!

Harayladım igidlərin mərdini,
Çəksin özü öz xalqının dərdini.
Tar-mar etsin işğalçının yurdunu,
Çalındı qələbə, şöhrət, şan oldu!

Bu kədərdən heç coşarmı, de, ilham?!
Aşıq Rəcəb, sözü gəl eylə tamam.
Köməyinə çatan on iki imam,
Açdı bəndərgahı, kərəm-kan oldu!

1 yanvar 1944

EYLƏRƏM MƏN

Həyalı ol, sərhəd qoy sözlərinə,
Hərcayı kəlməndən ar eylərəm mən!

Açaram eybini tay-tuş yanında,
El içində səni xar eylərəm mən!

Tanıyırlar əcdadını, ulunu,
Məclislərdə dalama sağ-solunu.
Bir zənənsən, bu bağlayır qolumu,
Dünyanı başına dar eylərəm mən!

Kənarda, gizlində gəzmə aşina,
Gəl, qarışma hər yetənin işinə.
Kül, yaxşısa, istəklinin başına,
Qəddi-qamətini dal[9] eylərəm mən!

Rəcəbi istəyən dostlar var olsun.
Səs-soraği aləmlərə car olsun.
İstəmirəm tərlan dönüb sar olsun,
Aparram, özümə yar eylərəm mən!

Göyçə, Qoşabulaq – 1946

GÖYÇƏNİN

Eşidib bilənlər, arif olanlar,
İndi sakinidi yağı Göyçənin.
Ölənəcən həsrətini çəkərəm,
Sinəmə çəkilib dağı Göyçənin!

Heç çıxmır yadımdan "Tərsə"nin dağı,
Miskin Abdal, Seyid Bayram ocağı.

[9] Ərəbcə "dəl" (د) hərfindən çevrilmədir və mətndə "əymək" anlamında işlənmişdir.

Üstümüzü kəsdi mürvətsiz yağı,
Soldu bağçaları, bağı Göyçənin!

Müqəddəs ocaqlar kimlərə qaldı?!
Tərlan oylağında sar yuva saldı.
Bunlar ürəyimdə qara bir xaldı,
Seçilmir qarası, ağı Göyçənin!

Rəcəbəm, yetmişdən keçibdir yaşım,
Bəd gəlir baharım, sərt keçir qışım.
Eşitmir qulağım, kəsməyir huşum,
Qırılır, azalır sağı Göyçənin!

4 mart 1992, İsmayıllı

VAXTIDIR

İndi bizim yerdə, ay ləzgi qızı,
Ceyran-cüyürlərin gəzən vaxtıdır.
Açılan lalədən, tər bənövşədən,
Gözəllər telinə düzən vaxtıdır.

Yaylağa çıxıbdır obalar, ellər,
Al, yaşıl geyinib çəmənlər, çöllər.
Dağların döşündən car olur sellər,
Quba qaz[58] göllərdə üzən vaxtıdır.

Qayalara düşüb kəkliyin səsi,
Bülbülün nəğməsi, turacın bəhsi,
Bulaqlar başında qız-gəlin dəsi,
Ərgan igid bağrı əzən vaxtıdır.

Oba-oymağımda qalıbdı gözüm,
Ürəyimdə təpər, qəlbimdə dözüm.
Altımda köhlən at, dəstimdə sazım,
Rəcəbin məclisdə süzən vaxtıdır.

İsmayıllı – 1996

DEYİŞMƏ

(qıfılbənd)

Aşıq Rəcəb:

Neçə baş, qulaqdır, var neçə qolu,
Söylə, varsa, onun gözü neçədir?
Sağını çox sevir, yoxsa ki solu,
Yerişi necədir, özü necədir?

Vahid Rəcəboğlu:

Bir baş, bir qulaqdır, var iki qolu,
Tək bircə dənədir gözü, ay aşıq!
Sağa nifrət edir, çox sevir solu,
Dairədir, yerişi, özü, ay aşıq!

Aşıq Rəcəb:

Vardır neçə evi, neçə pillə düz?
Addımı neçə min, bir də neçə yüz?
Daim deyir eyni kəlmə, eyni söz,
Kəlməsi neçədir, sözü neçədir?

Vahid Rəcəboğlu:

On iki evi var, altmış pillə düz,
Addımı qırx üç min, bir də iki yüz.
Daim deyir eyni kəlmə, eyni söz,
Çıq-çıqdır kəlməsi, sözü, ay aşıq!

Aşıq Rəcəb:

Ürəyi nədəndir, vurur anbaan,
Varmı onun beyni, ya canında qan?

Onunla işləyir bu cümlə-cahan,
Rəcəb adın istər – düzü necədir?

Vahid Rəcəboğlu:

Ürəyi tükdəndir, vurur anbaan,
Nə onun beyni var, nə canında qan.
Onunla işləyir bu cümlə-cahan,
Vahid saat bilir, düzü, ay aşıq! (9, 347-350).

Göyçə, Qoşabulaq – 1988

***

Göyçənin Qoşabulaq yaylağında aşıq göyərti yığan bir dəstə qız-gəlinlə rastlaşır. Ərli bir gəlin fürsət tapıb aşığa yaxınlaşır, yığdığı göyərtidən bir dəstə ona uzadır, arasında da bir məktub. Aşığa məhəbbətini bildirən gəlinə oradaca deyir:

Yorğun-yorğun yaylaqlara varanda,
Ayrılıb yoldaşdan bir dala bax, bax!
Lalə, nərgiz, tər bənövşə açılıb,
Yenicə açılan lalaya bax, bax!

Düşüb qayalara kəkliyin səsi,
Bülbül ötür, nə xoş gəlir həvəsi.
Budu gəldi gözəllərin dəstəsi,
Qatardan ayrılan sonaya bax, bax!

Yetim Rəcəb şirin candan doyubdu,
Bil ki, canın dost yolunda qoyubdu.
Bəd demirəm, qaynatandan ayıbdı,
Yoldaş getdi, qaldın bu dala bax, bax!

(10, 348-349).

GÖYÇƏ HƏSRƏTİ

(qoşma)

Baxıram dağlara, gözlərim dolur,
O, o üzdə, mən bu üzdə qalmışam.
"Göyçəgülü" onsuz saralıb solur,
"Dilqəmi"ni dönə-dönə çalmışam.

Sədd çəkibdir dağlar çənli, dumanlı,
O tərəfə əlim qalıb uzanlı.
Dünən Göyçəliydim, bu gün Şirvanlı,
Görün gəlib harda məskən salmışam.

A Göyçə, düşürsən yaman yadıma,
Odlanıram, dünya yanır oduma.
Hay salıram, çatan yoxdur dadıma,
Didərgin olmuşam, qərib olmuşam.

Yaz gəlib, bəzənib bütün çöl, çəmən,
Al-əlvan açılıb lalə, yasəmən.
Vahidəm, Göyçənin vurğunuyam mən,
Həsrət çəkib saralmışam, solmuşam (11, 6).

GÖYÇƏ DƏRDİ, VƏTƏN DƏRDİ, EL DƏRDİ

(qoşma)

Görməyən nə bilir axı necədir,
Göyçə dərdi, vətən dərdi, el dərdi.

Görənlər bilir ki, yerlə göycədir,
Göyçə dərdi, vətən dərdi, el dərdi.

Göyçəsiz göyçəli heç zaman gülməz,
Əcələ can verməz, Göyçəsiz ölməz.
Hər dərd çəkilsə də, bu dərd çəkilməz,
Göyçə dərdi, vətən dərdi, el dərdi.

Yoxa çıxıb Göyçə boyda bir mahal,
Onun dərdi qoymayıbdır məndə hal.
Əlif qəddim eyləyibdir indi dal,
Göyçə dərdi, vətən dərdi, el dərdi.

Dəyməyin Vahidə, qəmdi, kədərdi,
Dərdi bu dünyada dağlar qədərdi.
Üç dərdi var, hər bir dərddən betərdi,
Göyçə dərdi, vətən dərdi, el dərdi (11, 14-15).

GEC OLAR

(ustadnamə)

El içində sadə dolan, gəzmə şanı-şöhrəti,
Varlanmağa cəhd eyləmə, var hər qulun qisməti,
Bu dünyada savab uş gör, qazanginan rəhməti,
O dünyaya köç edəcən, basılacaq bacalar,
Nə iş görsən vaxtında gör, sonra çatmaz, gec olar.

Can cahana bir yol gəlir, gələrsənmi bir də sən,
Namərdlərlə ülfət qılıb salma özün dərdə sən,
Ərənlərlə dostluq eylə, arxalan hər mərdə sən,

Mərd ərənlər süfrə açar, çörək verər, ad alar,
Nə iş görsən vaxtında gör, sonra çatmaz, gec olar.

Arif olan, söz anlayan, məndən sizə nəsihət,
Hər işiniz avand olar, eyləsəniz məsləhət,
Nə bilməmək eyib deyil, nə soruşmaq qəbahət,
Soruş, öyrən, bilikli ol, biliklilər ucalar,
Nə iş görsən vaxtında gör, sonra çatmaz, gec olar.

Çox bilsən də azca danış, çox özünü öymə sən,
Bilmədiyin daha çoxdur, gəl döşünə döymə sən,
Hər bir işi bilmək olmaz, bilməyəni söymə sən,
Lovğalıq da cana* şeydir, lovğalar tez alçalar,
Nə iş görsən vaxtında gör, sonra çatmaz, gec olar.

Bəzi sözü dosta demə, dostunun da dostu var,
Söz yayılar dildən-dilə hamıya da car olar,
Sirr açılar, üzə çıxar, utanarsan, ar olar,
Gözdən düşər xətir-hörmət, heç nə olar düz ilqar,
Nə iş görsən vaxtında gör, sonra çatmaz, gec olar.

Nəyə lazım qulluq etmək dünyada quru ada,
Əl tutmaq qalıb Əlidən həm qohuma, həm yada,
Topladığın var-dövlətin qalacaqdır dünyada,
Apardığın təkcə rəhmət və bir də ki bez olar,
Nə iş görsən vaxtında gör, sonra çatmaz, gec olar.

Bədasilə əmək versən, nəhayətdə itirər,
Əsli olan qədir bilər, səni baya* yetirər,
Sən Vahidi sevə bilsən, sənə şərəf gətirər,

Ondan sənə saf məhəbbət, əbədi ilqar qalar,
Nə iş görsən vaxtında gör, sonra çatmaz, gec olar
(11, 197-199).

ULU GÖYÇƏ

(gəraylı)

Könlüm yaman dumanlıdı,
Min ahlıdı, amanlıdı.
Sənə gəlmək gümanlıdı,
Necə gəlim, Ulu Göyçə?!

Yollar çiskin, dağlar duman,
Gözüm yaşla dolur yaman.
Sən yadıma düşən zaman,
Necə gülüm, Ulu Göyçə?!

Ullər yaman uçub gedir,
Bu da məni məyus edir.
Dərd bağrımı elə didir,
Olur zülüm, Ulu Göyçə.

Qəm gölündə hey üzürəm,
Yaslı-yaralı gəzirəm.
Bir təhər durub dözürəm,
Susub dilim, Ulu Göyçə.

Mən Vahid çox dərd çəkəndim,
Dərd becərib, qəm əkəndim.
Yada düşüb doğma kəndim,
Çatmır əlim, Ulu Göyçə! (11, 223-224).

SARI

(təcnis)

Göyçə qalıb o dağlardan o yana,
Sızlayıram ana vətən, oy ana.
Deyirəm ki, bəlkə bəxtim oyana,
Köç eləyəm üzü Göyçəyə sarı.

Dünya bir yanadır, Göyçə bir yana,
Həsrətdən ciyərim dönüb biryana[10].
Od düşə baisin evi bir yana,
Çatmaya hayına milləti sarı[11].

Qar əriyib, yaz gəlibdir bu dağa,
Nəğmə deyir, bülbül qonub budağa.
Vahid dözür, dağ da dözməz bu dağa,
Ay fələk, insaf et bu dağı sarı (11, 276-277).

EYLƏ

(divani)

Danışanda elə danış, məclisi abad eylə,
Dahanından dürr tökülsün, könülləri şad eylə.
Əl tutmaq qalıb Əlidən, tut füqarə əlindən,
Sevindir yetim-yesiri, kömək et, imdad eylə.

Xainliklə, xəbisliklə məqsədinə çatma sən,
Dost-tanışa səmimi ol, hiylə-yalan satma sən,

[10] Biryan – kababa dönmək
[11] Sarı – burada ruslara işarə olunur

Alın tərli halalına haram maya qatma sən,
Əl qabarlı qazancını damağında dad eylə.

Böhtan demə, şər danışma, hər işin zora düşər,
Quyu qazma özgəsinə, tor quran tora düşər.
Biilqara könül versən, şirin can nara düşər,
Nə ülfət qıl namərd ilə, nə də ki, fəryad eylə.

İnciməyin aqillərin nəsihətli sözündən,
Qürrələnmə əməlinlə, çıxma özü-özündən.
Yekəxana, xudbin, lovğa düşər elin gözündən,
Bu sözləri oxuduqca Vahidi də yad eylə
(12, 96-97).

BABA DAĞI

(müxəmməs)

Qərinələr yadigarı,
Zirvəsi çən Baba dağı.
Əskik olmur boran-qarı,
Yellər əsən Baba dağı.
Şəfəq öpür qayaları,
Səhər erkən Baba dağı.
Maral gəzən talaları,
Gül bitirən Baba dağı.
Vətənimin iftixarı,
Nə gözəlsən, Baba dağı.

Möcüzəli aləmin var,
Görüşünə gün tələsir,

Şimşək çaxır, göy gurlayır,
Hərdən yağır, hərdən kəsir.
Yayın isti bir günündə,
Tufan qopur, yellər əsir.
Qırov düşür səhər-axşam,
Əl-ayağı sazaq kəsir.
Zirvən çatıb buludlara,
Göylərə tən, Baba dağı.

Meşələrdə talaların,
İlk baharda səfası var.
Mərd ürəkli insanların,
Sədaqəti, vəfası var.
Sərin sulu bulaqların,
Zəvvarlara səxası[59] var.
Ziyarətə gələnlərə,
Ocağının səfası var.
Dar günündə insanlara,
Dada yetən Baba dağı.

Bir üzündə İsmayıllı,
Bir üzündə Quba durur.
Qalxmaq, enmək çox çətindir,
Dolayların yolçu yorur.
Elat qalxır üç ay, dörd ay,
Sinən üstə binə qurur.
Bəsləyir mal, qoyun-quzu,
Yaylaq dövrün başa vurur.
Tərəkəmə oylağısan,
Gözəl məskən, Baba dağı.

Çınqıllıqda kəklik səkir*,
Qayalıqda dağ keçisi.
Bir tərəfdə palıd, vələs,
Bir yanda fısdıq meşəsi.
Budaq üstə cəh-cəh vurur,
Bülbüllərin düşür bəhsi.
Gözəlliyi seyr etdikcə,
Vahidin artır nəşəsi.
Dağ döşündə şəlaləsi,
Nərə çəkən Baba dağı (12,117-119).

GÖYÇƏMİZƏ[60]

Yollar haçan açılacaq,
Dönüm ulu Göyçəmizə.
Xan "Keytidən", "Sarınər"dən[61],
Enim ulu Göyçəmizə.

Göyçə yaram bitişməyir,
Acıları ötüşməyir,
İnləyirəm yetişməyir,
Ünüm ulu Göyçəmizə.

Göyçə mənim Kəbəm idi,
Göyçə mənim qibləm idi,
Siz basdırın mən Vahidi,
Yönüm ulu Göyçəmizə.

MÜƏLLİFLİ BAYATI, LAY-LAY VƏ NAZLAMALAR

Bağda bitibdir üzüm,
Gilədə qalıb gözüm.
Vətəndən ayrı düşdüm,
Bu dərdə necə dözüm?!

Bir payız axşam çağı,
Üstümü kəsdi yağı.
Tanrı, mənə göstərmə,
Heç vaxtı Vətən dağı.

Fələk veribdir qəmi,
Qurumur gözün nəmi.
Göyçəli qərib olub,
Yoxdur onun həmdəmi.

Göyçəmizin dağı var,
Yaylağı var, dağı var.
Sinəm üstə düşmənin,
Çalın-çarpaz dağı var.

Əzizinəm, giləvar,
Sahildə var giləvar.
Gözlər ağlar Göyçəsiz,
Nə qədər ki, gilə var.

Əzizinəm, qar salar,
Bulud qalxar, qar salar.
Göyçə dərdi od tutub,
Ürəyimi qarsalar.

Əzizim, qala qalsın,
Bürc qalsın, qala qalsın.
Göyçəni bizdən edən,
Qovğaya, qala qalsın.

Mən görməyim gözdə yaş,
Nə iztirab, nə tələş...
Göyçə, köçürəm səndən,
Gəl yola sal, vidalaş.

Əzizim, qəməsi* var,
Xəncəri, qəməsi var.
Göyçəmiz əldən gedib,
Olmuşuq qəmə suvar.

Əzizim, qəmə düşdü,
Əlimdən qəmə düşdü.
Bizi Göyçədən edən,
Dərd tapdı, qəmə düşdü.

Yara məndən,
Namə var yara məndən.
Sinəmdə el yarası,
Getməyir yara məndən.

Yara sarı,
Məlhəm qoy, yara sarı.
Qəbrimin üzünü qoy,
Göyçətək yara sarı.

Güllər açana qaldı,
Ətir saçana qaldı.
Göyçəyə getmək günüm
Görən haçana qaldı?

Quyu yaman dərindi,
Suyu da ki, sərindi.
Ürəyimdə bir yer var,
O da sənin yerindi.

Yasəməni,
Dərmişəm yasəməni.
Göyçəmiz əsir düşüb,
Batırıb yasa məni.

Mən aşıq, el yeridi,
Bu yerlər el yeridi.
Ermənilər köçürdü,
El köçdü, el yeridi.

Evim tikili qaldı,
Çəpər çəkili qaldı.
Əl qabarlı sərvətim,
Çölə tökülü qaldı.

Dərə məndə,
Dağ məndə, dərə məndə.
Qəlbim rizvan bağıdı,
Yar gülü dərə məndə.

Gülləri satan dərdi,
Hər yoldan ötən dərdi.
Hərəyə bir dərd düşüb,
Mənə də Vətən dərdi.

Gülmə kara,
Lağ edib, gülmə kara.
Köksümdə Göyçə dağı,
Mən hara, gülmək hara.

Göy çəmənsiz,
Göy otsuz, göy çəmənsiz.
Xəbər tuta biləydim,
Necədi Göyçə mənsiz.

Əskik olmur göy çəni,
Göy dumanı, göy çəni.
Cənnət görmək istəyən,
Qoy dolansın Göyçəni.

Dağlar başı dumandı,
Getmir xeyli zamandı.
Hər dərdə dözmək olar,
Göyçə dərdi yamandı.

Eləmi, mərddi dağlar?
Yolların sərtdi, dağlar.
Göyçəm yağıya qalıb,
Nə böyük dərddi, dağlar?

Dağları gəzmək olar,
Mənzərə sezmək olar.
Yaşasan el içində,
Hər dərdə dözmək olar.

Mən aşıq, ayaz səni,
Üşüdər ayaz səni.
Bizsiz Göyçəyə gəldin,
Neynirik, a yaz səni.

Bürünübdür nur dağlar,
Zirvəsində qar dağlar.
Göyçədən el dağılıb,
Ağı deyər, yurd ağlar.

Göyçədə gülüm qalıb,
Süsən-sünbülüm qalıb.
Göyçə köçüb, dağılıb,
Görün, nə zülüm qalıb.

Göyçədə dağım qalıb,
Qoşa bulağım qalıb.
Cavanlığım, gəncliyim,
Uşaqlıq çağım qalıb.

Güllər dəstə-dəstədi,
Hərəsi bir kəsdədi.
Könlüm min hava çalır,
Hamısı qəm üstədi.

Bu mahnı şikəstədi,
Zildə deyil, pəsdədi.
Göyçədən soraq verin,
Qulaqlarım səsdədi.

Ana canlı həyatdı,
Ana bu kainatdı.
Ana, mənə layla de,
Qoynun yaman rahatdı.

Anam, evim-eşiyim,
Qoynu nənni-beşiyim.
Gecəni dan eyləyib,
Çəkdin mənim keşiyim.

Göyçəmizdən gələn yox,
Əhvalını bilən yox.
El Göyçədən dağılıb,
Ağlayan çox, gülən yox.

Düzə sən,
Dərəyə sən, düzə sən.
Dərdim min qatar olar,
Muncuq kimi düzəsən.

Ay keçdi,
Ulduz keçdi, ay keçdi.
Göyçədən soraq yoxdur,
Görün neçə ay keçdi?

Bu ocağın özüdü,
Kül altdakı közüdü.
Üzümdəki yaş izi,
Ayrılığın izidi.

Mən aşiqəm gül əydi,
Şehdən boynun gül əydi.
Kaş dönəydik Göyçəyə,
Ağlayanlar güləydi.

Ha sarı,
Uçub qəlbin hasarı.
Göyçə dağı sağalmaz,
Ha məlhəm qoy, ha sarı.

Gülə bax,
Qönçəyə bax, gülə bax.
İstəyirsən sevinim,
Gəl üzümə gül, a baxt.

Oxu yar,
Şərqi söylə, oxu yar.
Sinəmi dəlib keçib,
Kipriyinin oxu, yar.

Haqqın ipi üzülməz,
Fələk işi çözülməz.
Hər dərdə dözülsə də,
Göyçə dərdi dözülməz.

Kim saya,
Kim san verə, kim saya.
Süleymana qalmayıb,
Dünya qalmaz kimsəyə.

Gözəldən,
Göz doymadı gözəldən.
Göyçə deyib ağladım,
Axır getdi göz əldən.

Bu dandı,
Bu şəfəqdi, bu dandı.
Ömrüm çinara döndü,
Budaq-budaq budandı.

Yüz cala,
Yüz biçənək, yüz cala.
Sınıq qəlbim bitişməz,
Yüz yapışdır, yüz cala.

Yüz qala,
Yüz bürc vardır, yüz qala.
Namərd ocağı yanmaz,
Yüz ətəklə, yüz qala.

Nənəmi var,
Babamı, nənəmi var?
Sevincdən, ya kədərdən
Gözündə nə nəmi var?

Lay-lay və nazlamalar

Başını qoy balınca,
Şirin yuxu alınca.
Mən də çəkim keşiyin,
Ay sabaha qalınca.

Bağlarmız gül açsın,
Zəmimiz sünbül açsın.
O günü gözləyirəm,
Mənim nəvəm dil açsın.

Açıb güllər, çiçəklər,
Şirinləşib diləklər.
O günə qurbanım var,
Nəvəm o gün iməklər.

Yağış çəməni sular,
Çəmən laləzar olar.
O günə nəzirim var,
Mənim nəvəm adaxlar*.

Lazımdı kirkit*, həvə*,
Toxunsun kilim, gəvə.
O günə nəzirim var,
Nəvəm getsin məktəbə.

Zəmisi darı balam,
Sünbülü sarı balam.
Böyü, böyük oğlan ol,
İşimə yarı, balam.

Ay doğubdur ucadan,
İşıq düşür bacadan.
Xudam səni qorusun,
O bədnəzər qocadan.

A köynəyi sarıdan,
Gecə keçir yarıdan.
Xudam səni qorusun,
O bədnəzər qarıdan.

Ay şələsi laladan,
Gətirirsən taladan.
Xudam hamıya versin,
Belə şirin baladan.

Gecə keçib yarıdan,
Az qalıb ki, ola dan.
Xudam səni qorusun,
Gələn xata-baladan.

A köynəyi xaradan,
Yaman çıxsın aradan.
Balama kömək olsun,
Yeri, göyü yaradan.

Laylay, çiçəyim laylay,
Gözəl-göyçəyim, laylay.
Böyü, böyük igid ol,
Gəl ol köməyim, laylay.

Gözəldir həyat, balam,
Olsa toy-büsat, balam.

Qoyum səni beşiyə,
Mışıl-mışıl yat, balam.

Quşlar uçsun havada,
Nəğmə desin yuvada.
Balam məktəbə getsin,
Nail olsun savada.

Bu dağların çiçəyi,
Gözəldir hər ləçəyi.
Balama qurban olsun,
Qızların ən göyçəyi.

Böyüyüb boy at, balam,
Hər arzuna çat, balam.
Keşiyini çəkəcəm,
Şirin-şirin yat, balam.

Gözlərəm ay batınca,
Sökülüb dan atınca.
Laylanı deyəcəyəm,
Ta uyuyub yatınca.

Bu bağ qoy bağın olsun,
Həm də oylağın olsun.
Tanrıdan arzum budur,
Qız sevən çağın olsun.

Ay adlayıb bacadan,
Gecə keçib, olub dan.
Yat, ay bala, ananı
Eyləmisən yuxudan.

Gecənin bu çağında,
Uzanıb yatağında,
Ya ana qucağında.
Ordadı isti həyat,
Mənim körpə balam, yat.

Dağlar, meşələr,
Tər bənövşələr,
Qəlbi şüşələr,
Bu balama qurban.

Şəhərlər, kəndlər,
Bərələr, bəndlər,
Yara həsrətlər,
Bu balama qurban.

Saysız ulduzlar,
Gəlinlər, qızlar,
Tənha-yalqızlar,
Bu balama qurban.

Çaylar, dənizlər,
Bulaq-kəhrizlər,
Dullar, ərsizlər,
Bu balama qurban.

Dağda çiçəklər,
Ağ kəpənəklər,
Sarı köynəklər,
Bu balama qurban.

Soyuq bulaqlar,
Kövrək budaqlar,
Dəcəl uşaqlar,
Bu balama qurban.

Gülüm, çiçəyim,
Gözəl-göyçəyim,
Bir ağ birçəyim,
Bu balama qurban.

Baharım, qışım,
Qarım, yağışım,
Torpağım, daşım,
Bu balama qurban.

Bağların barı,
Dünyanın varı,
Durna qatarı,
Bu balama qurban.

Filanın qızı,
Donu qırmızı,
Əllisi, yüzü,
Bu balama qurban.

Bağın gülünə qurban,
Dərən əlinə qurban.
Nəvəm təzə dil açıb,
Şirin dilinə qurban (12,208-252).

Müstəcəb Əhmədov (Rəcəboğlu)[62]

HEY AXTARIR

Yenə gəzir fikir, xəyal,
Keçən günləri axtarır.
Sinəmdə Göyçə dərdi var,
Düşüb çölləri axtarır.

Zirvəsi qarlı dağları,
Sərin sulu bulaqları,
Ürək vəfalı dostları,
Dərdi bölməyi axtarır.

Ötüb keçsə neçə illər,
Unudulmur xatirələr.
Xəyalımda daha nələr,
Yatmır, gecəni axtarır.

Köçüb gediblər dünyadan,
Qohum-qardaş, ata-anam.
Yaddan çıxmaz heç bir zaman,
Ürək yanır, göz axtarır.

Müstəcəbin qəlbi para,
Yazıq gedir hey xəyala.
Göyçə adlı bir mahala,
Həsrət qalıb, hey axtarır.

QALDI GÖYÇƏDƏ

Yaz olanda biz köçərdik yaylağa,
Mal-qaranı çıxarardıq oylağa.
Qonaq gəldi, aparardıq bulağa,
Bu kef-büsat qopub qaldı Göyçədə.

Lilpar[63] cücərərdi, qarı yarardı,
Sular üstən topasiylə çıxardı.
Qızlar qəh-qəh çəkib lilpar yığardı,
Lilparlı bulağım qaldı Göyçədə.

Atam məclis qurdu, sazını çaldı,
Neçə cavanların könlünü aldı.
Elçilik eyləyib gəlinlər aldı,
Sazlı-sözlü toyum qaldı Göyçədə.

Neçə ziyarətgah, neçə ocaqlar,
Neçə müqəddəslər, neçə qoçaqlar,
Neçə nuranilər, neçə cavanlar,
Büründü torpağa, qaldı Göyçədə.

Göyçənin fikiri məni alıbdı,
Körpəliyim, cavanlığım qalıbdı,
Müstəcəb kövrəlib, yada salıbdı,
Gəzdiyim oylaqlar qaldı Göyçədə.

QOŞABULAQ

Gəlmir səndən heç bir soraq,
Canım, gözüm, Qoşabulaq.
Doslar, gəlin məclis quraq,
Yada düşüb Qoşabulaq.

Bol məhsullu bağların var,
Sərin sulu dağların var,
Cənnət kimi çağların var,
Yam - yaşılsan, Qoşabulaq.

Gəl "Vilis"lə[64] gedək dağa,
Ordan qalxaq Ağbulağa[65],
Qızlarsa lilpar yığmağa,
Mənzərəsən, Qoşabulaq.

Bənzətmirəm heç bir yana,
Sən loğmansan xəstə cana.
Çətin bunu yetən qana,
Lap cənnətsən, Qoşabulaq.

Həsrətindən mən dəliyəm,
Yada salıb kövrəlirəm.
Qucağında ölməliyəm,
Evladınam, Qoşabulaq.

Müstəcəbəm, yorulmuşam,
Saf havana vurulmuşam.
Vətənimdən qovulmuşam,
Didərginəm, Qoşabulaq.

GƏRƏK

Bir yuxudu ömür yolu,
Ötüb keçir vərəq-vərəq.
Arzularım ürək dolu,
Sonuncunu deyəm gərək.

Allah versin tabımızı,
Qəbul etsin duamızı.
Cansağlığı, urzamızı,
Allahdan istəyək gərək.

Qonaq olduq bu dünyada,
Kimi atlı, kim piyada.
Şəhid verdik haq yolunda,
Unutqan olmayaq gərək.

Vətən eşqi var sinəmdə,
Məni salıb yaman dərdə.
Əgər qismət olsa bir də,
Dizin-dizin gedəm gərək.

Müstəcəb olub didərgin,
Yalvarıram hər an, hər gün,
Ömrümə qalsa da bir gün,
Göyçəmizə gedəm gərək,
O yerlərdə öləm gərək.

GÖYÇƏM
I

Dünya-cahan çəkə bilməz bu dərdi,
Ruhum səndə, cəsəd məndə, can Göyçəm.
Bu ağrını bir Allahım bilərdi,
Çəkilməz dərdlərin, yaralı Göyçəm.

Bir belə də ayrı düşmək olarmı,
Dözməyirəm mən bu dərdə, ay Göyçəm.
Sənsiz yaşayanlar sağmı qalarmı?!
Qırıldı millətin, qalmadı, Göyçəm.

Necə unudum mən, ay Göyçə səni,
Çünki qucağında böyütdün məni.
Babam, nənəm, əjdadımın vətəni,
Əsirdi, ay ellər, yaralı Göyçəm.

Sənsiz yaşayıram, qəlbim talandı,
Göyçə hər an xəyalımda dolandı.
Müstəcəbin yaşamağı yalandı,
Hicran xəstəsiyəm, loğmanım Göyçəm.

GÖYÇƏM
II

İllər yaman ötür, dayanmır zaman,
Tükənibdi səbrim, bir qalıb güman.
Yazılsa qanunlar, verilsə fərman,
Hicranın daşını ataram, Göyçəm.

Sevirəm dağları, çölü, çəməni,
Qoynunda bəsləyib yaşatdın məni.
Çevirdin dəftərə, vallah, sinəmi,
Ötən xatirəmi yazıram, Göyçəm.

Gəzdiyim yaylaqlar doğmadı mənə,
Qurbanam dağlardan axan çeşmənə.
Rəsmini çəkmisən, vallah, sinəmə,
Əlvan gül-çiçəklə bəzənib Göyçəm.

Gecə sübhə kimi ollam xəyalda,
Gözüm yox döylətdə, nə də ki, varda.
Müstəcəb Göyçədən qalıb kənarda,
Hayfımı gözümdən alıram, Göyçəm.

YAZMISAN

Vahid Rəcəboğlunun "Qoşabulağın qoşa dərdi" adlı ilk kitabını oxuduqdan sonra bu şeiri yazmışam

Oxudum kitabı əziz qardaşım,
Gözəl-göyçək, incə-incə yazmısan.
Dağları dağlar tək, dərəni dərə,
Hər birini bircə-bircə yazmısan.

Əvvəli də Göyçə, sonu da Göyçə,
Bütün fəsilləri lalə, bənövşə.
Unuda bilmərəm, vallah, ölüncə,
Göyçəni nə yaman miskin yazmısan.

Aranı köçürdün yaylaq üstünə,
Qonağı apardın bulaq üstünə,

Yenicə düşmüsən yazmaq eşqinə,
Bülbülün eşqini gülə yazmısan.

Sazını çəkmisən Kərəm üstünə,
Yandırıb giribsən yenə qəsdimə.
Kərəm külə döndü Əsli eşqinə,
Eşqi qəmə, qəmi eşqə yazmısan.

Sınamısan həm dostunu, həm yarı,
Yoxlamısan həm çovğunu, həm qarı.
Qərib düşən qohum, qonşu məzarı,
Kövrəlmisən, hər birini yazmısan.

Qoşabulaq dərdi olub, qoşa hey!
Sənə, mənə eyni dərddi, çəkək hey!
Ata, əmi çoxdan köçüb, ana hey!
Dayıları bir sətirdə yazmısan.

Mən öləndə bir bayatı yazginan,
Məzarımı Göyçəyə tuş qazginan.
Səhvlərimi bağışlaynan, pozginan,
Bəs mənim dərdimi hara yazmısan?

Müstəcəbə Göyçə dərdi, el dərdi,
Sevinc gedib, çatan ancaq kədərdi.
Cümşüd, Mərdan, Şahmar[66] ölmü betərdi,
Onları da sinəm üstə yazmısan!

ALLAH

Ağlayıb sızlamaq borc vermək deyil,
Yaman kövrəlmişəm, dözmürəm, Allah!
Atasız günlərim ömürdən deyil,
Anasız günlərdən bezmişəm, Allah!

Atam sağ olanda yetən gələrdi,
Süfrəm açılardı, üzüm gülərdi.
Xeyir-duamızı atam verərdi,
İndi öz başına qalmışam, Allah!

Qocalıb hey yaşa dolsam da belə,
Nəvə-nəticəli olsam da belə,
Əzablara sinə gərsəm də belə,
Yenə arxa, dayaq gərəkdi, Allah!

Müstəcəb atasız, anasız qalıb,
Didərgin düşübdü, vətənsiz qalıb,
Göyçə həsrətiylə yaman qocalıb,
Göyçəmlə qovuşub öləydim, Allah!

***

Nə ola Göyçəmi görəydim, Allah!
Hicranı qəlbimdən siləydim, Allah!

ATAM

Bahar gələn kimi gedərdi dağa,
Sanki bənövşəydi, bitibdi atam.
Sirrini söylərdi dağda bulağa,
Dağlarnan qoşaydı, sirdaşdı atam.

Elat gələn günü məclis qurardı,
Dastanlar söyləyib sazın çalardı,
Gələn qonaqları yola salardı,
Əmliyin kababın verərdi atam.

Dağların köksündən gülü-çiçəyi,
Sevərək dərərdi tər bönövşəyi.
Taxçada, buxçada olsa da nəyi,
Yetimə-yesirə verərdi atam.

Bu fani dünyadı, baxmır heç nəyə,
Yaxşıya, yamana, nə də ki, bəyə,
Səni bu dünyada bir an görməyə,
Bu kövrək qəlbimi verərdim, atam.

Kayinat beləymiş, əzəldən belə,
Əzrayıl fərq qoymur xana, nökərə.
Müstəcəb kövrəlib, ağlayır yenə,
Atalı ömrümü apardı atam.

CAN DEYƏN ANAM

Canından can verib dünyaya gətdi,
Döşündən süd əmdik, o halal etdi.
Min bir azab ilə bizi böyütdü,
Qocalıb, dərdlidi can deyən anam.

Dərdini soruşdum, yenə can dedi,
Əlləri əlimdə, gedirəm dedi,

Doluxdu gözlərim, ağlama dedi,
Köçdü bu dünyadan can deyən anam.

İndi nə atam var, nə də ki, anam,
Yorulub qollarım, xəstə bir canam.
Əhvalım soruşan, halıma yanan,
Görünmür gözümə can deyən anam.

Fikirə dalıram, gözüm yoldadı,
Mənim duyğularım hey xəyaldadı.
Qurtara bilmirəm, qalmaqaldadı,
Çarəsiz qalmışam, can deyən anam.

Müstəcəb, həyatda yanırsan, hey yan,
Bu zalım dünyanın gedişini qan.
Sənə ləl olsa da bütün bu cahan,
Silinməz qəlbimdən can deyən anam.

MƏN

Kimliyimi xəbər alan,
Eşit deyim, nəçiyəm mən.
Anam Göyçə, atam Ozan,
İtirmişəm, yetiməm mən.

Bilirsənmi, kiməm, nəyəm,
Bir bülbüləm, qəfəsdəyəm.
Göyçə deyin, mən xəsdəyəm,
Saralmışam, soluram mən.

Nə tacirəm, nə də xanam,
Həqiqətlə hər an varam.
Mərd doğubdu məni anam,
Mərd kişinin oğluyam mən.

Satmadım bir kəsə yalan,
Yeməmişəm bircə haram.
Min zəhmətlə olub param,
Şərdən uzaq olmuşam mən.

Əkib səpdim, zəmim, tarlam,
Biçinçiyəm, sənətkaram.
Həm dülgərəm, həm bənnayam,
Sınıq qəlblər tikirəm mən.

Müstəcəbəm, ağarır baş,
Qocalıram yavaş-yavaş.
İtirmişəm qohum-qardaş,
Öz dərdimi çəkirəm mən.

GÖYÇƏ

Adın ləkəsizdi, safdı, təmizdi,
Didərginin qibləgahısan, Göyçə.
Torpağın müqəddəs, candan əzizdi,
Ələsgər yurdunun tacısan, Göyçə.

Daşqın çaylarınla tər bulaqların,
Gözəl yaylaqların gözüsən, Göyçə.

Ustad aşıqlarin, mərd oğulların,
Beşiyi, məkanı, sözüsən, Göyçə.

Ayrılıq hicranı qocaldıb məni,
Gecələr yuxumda görürəm səni.
Unuda bilmirəm gözəl vətəni,
Gəlib qucağında öləydim, Göyçə.

Müstəcəb haraylar doğma məkanı,
Vuran ürəyisən, sevilən canı.
Sevirəm vətəni, Azərbaycanı,
Ölsəm, ruhum ilə qalasan, Göyçə.

BABASAN

Bilməmişəm, zaman məni qovurmuş,
Nə bilim ki, başımızı aldadıb.
Qarşımızda baba adı dururmuş,
Vaxt çatdırıb, zaman dedi babasan.

Baba adi, mənalı bir söz oldu,
Nəvə gəlib ürəyimdə köz oldu,
Şükür, Allah, Zülfiyyə[67] tək qız oldu,
Qohum-qardaş söylədilər babasan.

Allah özü verdiyinə yar olsun,
Yaşa dolsun, kaş ki, bəxtəvər olsun,
Şükür Allah, bu da mənə var olsun,
Ay Müstəcəb, sərvətin var, babasan.

OLAYDI

İstəyirəm dəliqanlı çağları,
Seyr edəydim zirvəsində dağları.
Anam baxıb hönkür-hönkür ağladı,
Atam məni danlıyan gün olaydı.

Yanıq dərəsindən qalxdım zağıya*,
Səs salmışdım dağa, daşa, obuya.
Hünərimi göstərirdim hamıya,
Aman Allah, o günlərim olaydı.

Gəncliyimin sevgisiydi çöl-çəmən,
İnsan ömrü açıb-solan yasəmən.
Ömür keçdi, cavan olmam bir də mən,
Məndən sonra bir Müstəcəb olaydı.

EY MƏLƏKXANIM

"Məclisi-üns" verilişində Füzulinin Leylisini oxuyandan sonra xalq artisti Mələkxanım Eyyubova haqqında ürəyimə gələn sözlər

Xudam qələm çəkib boya-buxuna,
Hürüsən, pərisən, ey Mələkxanım!
Rəhmət olsun adı sənə verənə,
Doğurdan mələksən, ey Mələkxanım!

Bilmirəm Leylisən, yoxsa ki, Mələk,
Füzuli Leylini eyləsin Mələk.

Xalqımın qızısan, xalqıma gərək,
Şirin nəğmələrlə, ey Mələkxanım!

Səhnəyə gəlirsən milli libasda,
Oxuynan seygahı lap asta-asta.
Səslə Qarabağı, deynən şikəstə,
Göyçə soraqlıyam, ey Mələkxanım!

Allahım yaradlb xoş gündə sizi,
Bəxş edib qəzəli, şeiri, sözü.
Müstəcəb sevinir, vallahi düzü,
Sizi dinləyəndə, ey Mələkxanım!

AY ELNARƏ[68]

Bənzərsiz səsli Elnarə xanım, rəssamlıq bilsəm, rəsm edərdim, ancaq sözlə təsvir edirəm sizi. Saz üstündə "Baş sarıtel"i oxudunuz. O səs ruhumu tərpətdi, onunçün bu şeiri sizə ithaf edirəm

Bülbül kimi cəhcəh vuran,
Ruhumuza qida verən,
Muğam, təsnif, seygah bilən,
Bir mələksən, ay Elnarə!

Şirvan elli, sarıtelli,
Ala gözlü, incə belli,
Gülər üzlü, şirin dilli,
Bir dənəsən, ay Elnarə!

Həm mələksən, həm də sona,
Tərif halal olsun sənə.
Saz üstündə oxu yenə,
"Baş sarıtel", ay Elnarə!

Oxuyanda "Sarıtel"i,
Kövrəldirsən bizim eli.
Bir dənə də "Göyçəgülü",
Oxugunan, ay Elnarə!

Müstəcəb gedir xəyala,
Yazıq düşür haldan-hala.
Oxu ki, dərdim azala,
Didərginəm, ay Elnarə!

DAĞLAR

I

Nə müddətdi düşdüm sizdən aralı,
Gəzirəm Məcnun tək çölləri, dağlar.
Həsrətindən sinəm oldu yaralı,
Çəkirsən dağ üstən dağları, dağlar.

Cavan vaxtı sizdə gəzib-dolandım,
Alagöz pərinin eşqilə yandım.
Bulağın üstündə verdiyin andın,
Sizsiz sevgimizin şahidi, dağlar.

Cavanlarla qaçışırdıq zirvənə,
Qoçaqlığı öyrətmisən sən mənə.

Lalə-nərgiz düzüləndə sinənə,
Ruh verdin eşqimə, sevgimə, dağlar.

Mən dözmədim ayrılığa, həsrətə,
Müstəcəbi niyə saldın zülmətə?
Layiqsiniz gözəlliyə, hörmətə,
Açanda bənövşən, nərgizin, dağlar.

DÜNYA

Söylə mənə sən yaşını,
Toxunmamış bir daşını,
Hey tökürsən göz yaşını,
Dərdə-qəmə uyan dünya.

Sevməyirlər bu cahanı,
Hey tökürlər nahaq qanı.
Səni, məni yaradanı,
Salmayırlar yada, dünya.

Kimi səni parçalayır,
Kimi varını talayır,
Kimi doymur, od qalayır,
Od içində yanan dünya.

Şeytan bilin Fransanı,
Təhqir edir müsəlmanı.
ABŞ-da qatır dünyanı,
Qan çanağı olan dünya.

Qarabağın hər obası,
Olubdu bayquş yuvası.
Düşüb artıq din davası,
Hara baxır görən dünya?!

Erməni-rus sözü birdi,
Zod[69] qızılın birgə böldü.
Müsəlmana zülüm verdi,
Utanırmı görən, dünya?!

Biz qocaldıq, sən cavansan,
Həm gerçəksən, həm yalansan.
De görüm, kimə qalansan?
Qalmaqalda qalan dünya.

Göyçəsizəm neçə ildi,
Müstəcəbə verdin dərdi.
Qohum, qonşu qürbət oldu,
Dağ çəkirsən dağa, dünya!

YANDIRIR

Şeir Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş və faciəli şəkildə vaxtsız dünyadan köçmüş əzizim Mərdana həsr olunur

Düşündükcə qəlbim yaman sızdayır,
Sevinc getdi, kədər məni yandırır.
Neyləyirəm, getmir gözüm önündən,
Hey dolanır, dönə-dönə yandırır.

Əksin durur ürəyimdə, gözümdə,
Silinməzdi qəlbimdə bir izin də,
Yaddan çıxmır mənalı bir sözün də,
Düşündükcə, dönə-dönə yandırır.

Kərəm yandı, birdən-birə kül oldu,
Lələ çökdü, haraylayan dil oldu,
Ağlayıram, göz yaşlarım sel oldu,
Söndü ocaq, közü məni yandırır.

Sən Mərdansan, çətinliyi bilmədin,
Qarabağda döyüşlərdə ölmədin,
Qürbət eldən sağ-salamat gəlmədin,
Sındı ürək, həyat məni yandırır.

Üz qoymuşam torpağına, daşına,
Nələr gəldi ata-ana başına,
Zülüm etdin bacına-qardaşına,
Ağlayırlar, Müstəcəbi yandırır.

***

Gəlin qəbir başına,
Adın yazın daşına.
Tanıyanlar ağlasın,
Nələr gəldi başına.

ƏLLƏRİNDƏN

Xoş günlərim getdi hədər,
Bir gün isə ömür bitər.

Sevinc oldu qüssə, kədər,
Beləsinin əllərindən.

Danışıram, o qanmayır,
Ürək sınır, qəlbim yanır.
Belə dərdə kim dayanır,
Beləsinin əllərindən.

Danlamağın xeyri yoxdu,
Havadarı yaman çoxdu.
Fikir məni niyə sıxdı,
Beləsinin əllərindən.

İnsan olan gülə gərək,
İşarəni bilə gərək,
Günahkarmı buna fələk,
Beləsinin əllərindən.

Müstəcəbi gec qanır bu,
Xoş günləri puç sanır bu,
Qışı bilmir, yaz qanır bu,
Mən qaçanda əllərindən.

QOCALDIM

I

Cavanlığın qiymətini bilmədim,
Bu səbəbdən vədəsizcə qocaldım.
Düşünməyin, günahkar da deyiləm,
Həyatımın qayğısiylə qocaldım.

Nə gizlədim, min bir əzab çəkmişəm,
Hər birinə sinə gərib dözmüşəm,
Gecə-gündüz Göyçə deyib ölmüşəm,
Vətənimin həsrətiylə qocaldım.

Göyçə itkisinə dözmür vicdanım,
Haqsız işlərə də qaralır qanım.
Bu doğma yurduma qurbandı canım,
Vətənimi sevə-sevə qocaldım.

Seyr edirdim zirvələri, səmanı,
Ömrümdə vermədim bada imanı.
Unutmadım yaxşını və yamanı,
Zaman ötdü, vədə çatdı, qocaldım.

Qocalmışam, baxan yoxdu sözümə,
Hey baxıram, tor gəlibdi gözümə.
İndi arvad da qayıdır üzümə,
Müstəcəbəm, dözməyirəm, qocaldım.

SAZIM

Əzəldən vurğunam mən telli saza,
Tellərdə dillənən işvəyə, naza.
Atamdan yadigar qalıbdı bizə,
Qəribdi, qaçqındı sədəfli sazım,
Dillən, dərdin alım, xoşdu avazın.

Nə hava desələr tezcə çalırsan,
Elə bil ağlımı başdan alırsan.

Leylisən, Məcnunu çölə salırsan,
Kərəm tək Əsliyə yanansan, sazım,
Dillən, dərdin alım, xoşdu avazın.

Həmişə məclisin şahı olursan,
Anamsan, körpənə layla çalırsan.
Yaralı könlümə loğman olursan,
Hər havan yarama məlhəmdi, sazım,
Dillən, dərdin alım, xoşdu avazın.

"Ruhani"də tərpədirsən ruhumu,
"Kərəmi"də ərşə çəkdin yuxumu,
"Dilqəmi"də ağladıbsan çoxunu,
Olmusan atamla həmdəm, ey sazım,
Dillən, dərdin alım, xoşdu avazın.

Gahdan qəmlənirsən, qəmgin olursan,
Gah da nərə çəkən qoç Koroğlusan,
Birdən də sevirsən, eşqə dolursan.
Müstəcəb dərdlisən, ay telli sazım,
Dillən, dərdin alım, xoşdu avazın.

OY

Bir söz deyim, düyün düşsün dilimə,
Köç-köç oldu, Göyçəm veran oldu hey!
Yağı düşmən divan tutdu elimə,
Körpə, qoca yaman günə düşdü oy!
Dağ çəkildi sinələrə, yandı oy!

Ermənilər dörd bir yanı alıbdı,
Yönümüzü Kəlbəcərdən salıbdı,
Əlac yenə özümüzə qalıbdı,
Qaçan qaçdı, ölən isə öldü oy!
Dağ çəkildi sinələrə, yandı oy!

Yollarımız qar-borandı, bilinmir,
Gözləyirik, heç bir kömək görünmür,
Qız-gəlinin göz yaşları silinmir,
Dözməyirəm ah-naləyə, aman oy!
Dağ çəkildi sinələrə, yandı oy!

Qorbaçov da daşnaklarla bir oldu,
Planları yanlarında sir oldu,
Ordusiylə gəlib Bakıya doldu,
Millətimi bir gecədə qırdı oy!
Dağ çəkildi sinələrə, yandı oy!

Müstəcəb də əlacsızdı, neyləsin,
Qanun yoxdu, dərdi kimə söyləsin.
Qorbaçova Allah lənət eyləsin,
İnsanları yaman günə saldı oy!
Dağ çəkildi sinələrə, yandı oy!

XƏYALLARA DALA-DALA

Nə gecəm var, nə gündüzüm,
Kimə deyim dərdim-sözüm.
Öz dərdimi çəkdim özüm,
Xəyallara dala-dala.

Yurd-yuvamdan qovulmuşam,
İndi didərgin olmuşam.
Göyçə deyib odlanmışam,
Xəyallara dala-dala.

Gecələr göyə baxıram,
Xəyal atın hey çapıram,
Gedib Göyçəyə çatıram,
Xəyallara dala-dala.

Yuxum çəkilibdi ərşə,
Bu adətdi məndə peşə.
Gecəmi verdim gündüzə,
Xəyallara dala-dala.

Müstəcəbəm, yorulmuşam,
Dərdə-qəmə çox uymuşam,
Bəlkə də dəli olmuşam,
Xəyallara dala-dala.

"VAĞZALI" YOX, "ATDANDIRMA"

Tarix boyu at çapıbdı cavanlar,
Toy edəndə gözəl-göyçək cavanlar,
Babalardan abır, həya alıblar.
Sevənlərin bir könlünü algınan,
Gəlin köçdü, "Atdandırma" çalgınan.

Tuman, kofta, örpək üzdə olanda,
Qara zurna hər havanı çalanda,
Analar da gəlin yola salanda,

Sevənlərin bir könlünü algınan,
Gəlin köçdü, “Atdandırma” çalgınan.

Keçmişini bir yada sal, sən barı,
Don sürünür, yaxa açıq, yuxarı,
Hardan oldu atdandırma vağzalı?!
Sevənlərin bir könlünü algınan,
Gəlin köçdü, “Atdandırma” çalgınan.

Ərənnərim at belində olanda,
Çapış edib, udub nəmər alanda,
Dəstəsiylə toyda yallı vuranda,
Sevənlərin bir könlünü algınan,
Gəlin köçdü, “Atdandırma” çalgınan.

Şax bəzənər, düzülərdi xonçalar,
Bəy-gəlinə tərif deyər aşıqlar,
Qohumlardan çoxlu xələt yığılar.
Sevənlərin bir könlünü algınan,
Gəlin köçdü, “Atdandırma” çalgınan.

Eldən-elə gəlin köçüb at ilə,
Devir keçib, sonra da fayton ilə,
Bir gəlin də vağzala qatar ilə.
Sevənlərin bir könlünü algınan,
Gəlin köçdü, “Atdandırma” çalgınan.

Göyçəlilər Göyçəmizə dönəndə,
Vağzalını atdandırma edəndə,
Müstəcəb də bu dünyadan köçəndə,
Sevənlərin bir könlünü algınan,
Gəlin köçdü, “Atdandırma” çalgınan.

DAĞLAR
II

Düşündükcə ah çəkirəm,
Həsrət qaldım sizə, dağlar.
İnan ki, candan keçirəm,
Əlim çatmır sənə, dağlar.
Ay Göyçədə qalan dağlar,
Cənnət məkan olan dağlar.

Könlüm quşu səndə çağlar,
Yurd yerinə baxıb ağlar.
Kimə qalıb bizim dağlar,
Ay Göyçədə qalan dağlar.

Neçə ildi qovulmuşam,
Qocalıb yaşa dolmuşam.
Vallah, sizə qul olmuşam,
Ay Göyçədə qalan dağlar.

Atam sizdə saz çalanda,
Söz qoşub məclis quranda,
El-obam ilham alanda,
Laylay dedin bizə dağlar.
Ay Göyçədə qalan dağlar,
Cənnət məkan olan dağlar.

Daşağanın[70] şırşır səsi,
Qoyun-quzu mələşməsi,
Quşlarınsa xoş nəğməsi,
Qərib düşüb bizə, dağlar.

Ay Göyçədə qalan dağlar,
Cənnət məkan olan dağlar.

Mehman olduq Ağbulağa,
Əmlik kəsdik hər qonağa.
Göyçəlilər mərddi qağa,
Mərd yaradıb bizi dağlar.
Ay Göyçədə qalan dağlar,
Cənnət məkan olan dağlar.

Qaradaşda[71] izim qaldı,
Sinəm dolu sözüm qaldı,
Ürəyimdə közüm qaldı,
Alışıbdı közüm, dağlar.
Ay Göyçədə qalan dağlar,
Cənnət məkan olan dağlar.

Müstəcəbəm, yuxum gəlmir,
Dərdim gizli, heç kəs bilmir,
Sizsiz mənim üzüm gülmür,
Agahdırmı sizə, dağlar,
Ay Göyçədə qalan dağlar,
Cənnət məkan olan dağlar.

GƏLMİŞƏM

Həsrətin çəkdiyim qoca Təbrizim,
Min arzum var, bir diləyə gəlmişəm.
Ustad Şəhriyarım, Füzulim, Sədim,
Bahar çatıb, novruz ilə gəlmişəm.

İllər boyu intizarda qalmışam,
Şəhriyarın sorağını almışam,
İndi gəlib qarşınızda durmuşam,
Salam baba, ziyarətə gəlmişəm.

Yağılar araya dava saldılar,
Qarabağı, Göyçəmizi aldılar,
Mən yazığı eldən uzaq saldılar,
Onun üçün şikayətə gəlmişəm.

Xocalımız əsir düşdü, vurdular,
Cocuqları meşələrdə qırdılar,
Millətimi yaman günə saldılar,
Dərdə düşdüm, çarəsinə gəlmişəm.

Kaş sözdərim xoş gələydi Allaha,
Dara düşən nəzir deyir Allaha,
Mənimki də qalıbdı bir Allaha,
Müstəcəbəm, Təbriz deyib, gəlmişəm,
Ana qucağı tək bilib, gəlmişəm.

QOCALDIM
II

Ömür vərəqlənir, zaman tez keçir,
Fələk hər yetəni ələyib seçir,
Ürəkdə arzum var, vədəsi keçir,
Büküldü bel-buxun, aman qocaldım,
Göyçə həsrətiylə yaman qocaldım.

Kimi qəflətdədi, baxırsan yatır,
Kimi bu dünyanı beşəlli tutur,
Kimi zəli olub insafın atır,
Sorublar qanımı, aman qocaldım,
Göyçə həsrətiylə yaman qocaldım.

Qibləm kimi üz tuturam Göyçəyə,
Göyçəni mən dəyişmərəm heç nəyə,
Aman Allah, imdad eylə getməyə,
Ayrılıq çətindi, aman qocaldım,
Göyçə həsrətiylə yaman qocaldım.

Yuxuda Göyçəyə getmişdim belə,
Həsrətlə baxırdım o Göyçəgölə,
Müstəcəb ümüdlə yaşayır hələ,
Qəfəsdə bülbüləm, aman qocaldım,
Göyçə həsrətiylə yaman qocaldım.

A DAĞLAR

Dağlar oğlu köç eylədi dünyadan,
Sizinlə əlvida etdi, a dağlar.
Sizsiz şad olmadı heç an, heç zaman,
Əbədi dünyadan getdi, a dağlar.

Dağların döşündə gəzdi hər zaman,
Onunla bir oldu şaxta, qar, boran.
Ağbulaq üstündə çox etdi devran,
İndi də məzara getdi, a dağlar.

Qıy vuran qartal tək gələrdi səsi,
O heyran edərdi bütün hər kəsi.
Ölüncə dağlara oldu həvəsi,
İmranı Göyçəsiz ağla, a dağlar[72].

Dərdimin dərmanı Göyçədi mənim,
Dağların qarıysa olsa kəfənim,
Sonuncu mənzilim, məzar məskənim,
Bir qarış torpaqdı, saxla, a dağlar.

Ay ellər, dərdliyəm, qəmdən yazıram,
Qismət varsa, ölümə də hazıram.
Müstəcəbəm, hər bir dərdə dözürəm,
Dərdlərimə əlac eylə, a dağlar.

ƏSGƏR BALAM

Dərələyəz, Göyçə vuran ürəyin,
Şirvanda doğuldun, Şirvan gərəyin,
Doğma Azərbaycan duzun, çörəyin,
Qoruynan vətəni, ay əsgər balam,
Şərəf-ləyaqətim, can əsgər balam.

Dinlə sözdərimi, hər an yada sal,
Düşmənə heç zaman verməynən macal,
Qarabağ tək deyil, get Göyçəni al,
Koroğlu qeyrətli ay əsgər balam,
Şərəf-ləyaqətim, can əsgər balam.

Göyçəyə çatanda “Göyçəgülü” çal,
Ələsgər babanı sən bir yada sal,

Sarıyaqub kəndində Misgin Abdal,
Ziyarət eyləynən, ay əsgər balam,
Şərəf-ləyaqətim, can əsgər balam.

Qarabağ dardadı, Laçınım hanı?
Kəlbəcər, İstisu, Şəmşir məkanı,
Sariyer yaylaqdı, sərhədi tanı,
Qaytar torpağımı, ay əsgər balam,
Şərəf-ləyaqətim, can əsgər balam.

Ağdamım əsirdi, Şuşa qan edir,
Füzuli dil açıb Xankəndi deyir,
Xocalı, Cəbrayıl sənə əl edir,
Göstər hünərini, ay əsgər balam,
Şərəf-ləyaqətim, can əsgər balam.

Atlan Qubadlıda, Zəngilanı al,
Ucalt bayrağını, orda zəfər çal,
Bax, onda açacaq təzə nobahar,
Göstər hünərini, ay əsgər balam,
Şərəf-ləyaqətim, can əsgər balam.

Döyüş meydanında ordumuz durur,
Cəngi Koroğlunu Vüsalım[73] çalır.
Elin alqışları Müstəcəb olur,
Göstər hünərini, ay əsgər balam,
Şərəf-ləyaqətim, can əsgər balam.

BU NƏ PAYDI?!

Cavanlığım getdi hədər,
Orta yaşım ondan betər,

Qocalmışam, artıq yetər,
Aman Allah, bu nə paydı?!

Dərdimi gizli saxladım,
Taleyimi unutmadım,
Taya-tuşa da çatmadım,
Aman Allah, bu nə paydı?!

Neçə ildi didərginəm,
Gah sökürəm, gah tikirəm,
Min bir dərdi mən çəkirəm,
Aman Allah, bu nə paydı?!

El dilində Müstəcəbəm,
Göyçəsiz qəmlə kədərəm,
Həsrət çəkdim, sərgərdənəm,
Aman Allah, bu nə paydı?!

ÖLMƏ HƏLƏ, XƏYALI YAZ

(ixtisarla)

Vətən əsil sərhəddədi,
İşğal olub, qürbətdədi.
Başlanğıcı Dərbənddədi,
Həkk eyləynən, beyninə yaz.

Tiflisdən gəlin, Borçalı,
Sevimlidi aşıqları.
Sarı aşıq dastanları,

Xındı Məmməd, Kamandarı,
Zəlimxanı ayrıca yaz.

İncədərə, Loru-Pəmbək[74],
İrəvana gedək gərək.
Zəngəzurun qədrin bilək,
Naxçıvanı ən başdan yaz.

Dərələyəzdən gədiyə*,
Karvansara durur hələ.
En aşağı, Göyçəgölə,
Dayan bir az Göyçəni yaz.

Nə gözəldi burda həyat,
Çap atını, tez Zoda çat.
Axşam düşsə sən orda yat,
Səxavətli Səməndi yaz[75].

Qoşabulaqdan uzağam,
Mən yazıq da buralıyam.
Müstəcəbəm, yaralıyam,
Ölmə hələ, xəyalı yaz.

Qayabaşı, Nərmanlıda[76],
Dahiləri çoxdu burda.
Bayraməli, Bəhman burda,
Fətullahın[77] qəhqəhin yaz.

Burda bahar tez açılıb,
Hər bir evdən saz asılıb,

Qıfılbəndlər tez açılıb,
Durma, öyrən, sinənə yaz.

Mən qurbanam Ələsgərə,
Dolanıbdı eldən-elə.
Tərif deyib çox gözələ,
O tərifli Həcəri[78] yaz.

Rəhmət baba Ələsgərə,
Düşübdü dildən-dillərə.
Tanıdıb bütün ellərə,
Göyçəgülün Göyçəyə yaz.

Doymaq olmur Ələsgərdən,
Söz çələngi o göhərdən.
Uydururam mən də hərdən,
Qərib düşən xəyalı yaz.

Ermənilər gəlib bura,
Millətimi qıra-qıra.
Nuru Paşa salıb tora,
O kəsilən qulağı yaz.

Əsir düşdü Şuşada Xan,
Yoldu saçını Natəvan.
Veran qalsın belə devran,
Bülbülü də qəfəsə yaz.

Azərbaycan qədim diyar,
Çoxdu səndə qəhrəmanlar.

Mübariz tək evladın var,
Şücayətin tarixə yaz.

Qurban kəsək biz Allaha,
Gediş-gəliş olub daha.
Son qoyaq fəryada, aha,
İşıq saçan sabahı yaz.

Göyçəli, çəkmə həsrəti,
Alçaltmayaq ləyaqəti.
Seyid Bayram, Miskin Abdal,
Əsir düşüb ziyarəti.

Hünər göstər, sən zəfər çal,
Əsir düşmüş Göyçəni al.
Keçmişini sən yada sal,
Məclis qurub, sazını çal.

Devir eyləsin aşıqlar,
Vüsala çatsın aşiqlər.
Şirin sözü, söhbəti yaz!
Zəfərinlə[79] tarixi yaz!

YAMAN XOŞDU

Telli sazın hər havası,
Aşıq Pərinin dünyası,
Söz qoşub məclis qurması,
Ürəkdəndi, yaman xoşdu.
Yaman xoşdu, yaman xoşdu,
Ürəkdəndi, yaman xoşdu.

Saz havası mənim dilim,
Qərib düşən Göyçə elim,
Dil açır, yanır Kərəmim,
Çal, Ədalət, yaman xoşdu.
Yaman xoşdu, yaman xoşdu,
Çal, Ədalət, yaman xoşdu.

Ruhum qopur “Ruhani”də,
Od tuturam “Dilqəmi”də,
Köklənmişəm “Dubeyti”də,
“Müxəmməs”də yaman xoşdu.
Yaman xoşdu, yaman xoşdu,
“Müxəmməs”də yaman xoşdu.

Ələsgərin “Göyçəgülü”,
Hüseyinin Sarıteli,
Qoy var olsun Aşıq Pəri,
Söz-söhbəti yaman xoşdu.
Yaman xoşdu, yaman xoşdu,
Söz-söhbəti yaman xoşdu.

Atam çalıb hər havanı,
Zeli dayım balabanı,
Müstəcəbin coşdu qanı,
Şeyriyyatı yaman xoşdu.
Yaman xoşdu, yaman xoşdu,
Şeyriyyatı yaman xoşdu.

BİLMİŞƏM

Gündüz xəyaldayam, gecəm il olub,
Bu uzun gecələr məni çox yorub.
Göyçə həsrətindən bulud tək dolub,
Zülmət gecələri zindan bilmişəm.

Bağ salıb becərdim, barından oldum,
Mülk tikib çalışdım, varımdan oldum,
Didərgin düşmüşəm, elimdən oldum,
Elsiz günlərimi hədər bilmişəm.

Kimi şan-şöhrətdən, varından yazır,
Kimi eşqə düşüb, yarından yazır,
Müstəcəb də dərdin əlindən yazır,
Göyçəsiz günləri hədər bilmişəm.

QURBANAM O TORPAĞA

Bülbül meyli güldədi,
Gülsə qürbət eldədi.
Göyçə deyib ağlaram,
O da çətin yerdədi.

Bir dərdimi bilən yox,
Göz yaşımı silən yox.
Qalmışam yana-yana,
İmdadıma gələn yox.

Yaşamaq bir həvəsdi,
Ayrılıq səbrim kəsdi.

Bu boyda gen dünyada,
Dünya mənə qəfəsdi.

Gedəm Qoşabulağa,
Canım olsun sadağa.
Həsrətindən xəstəyəm,
Qurbanam o torpağa.

Müstəcəb, çəkmə dərdi,
Dünya puşdu, hədərdi.
Göyçəsiz keçən günü,
Yazsam dərya qədərdi.

QALMIŞAM İNDİ

Bilmirəm yuxudu, yoxsa ki, xəyal,
Atlanıb Göyçəyə çatmışam indi.
Dağların qoynunda buz bulaqların,
Doyunca suyundan içmişəm indi.

Neçə illərdi ki, fikrə dalmışam,
Gecələr özümlə hey çarpışmışam.
Ah çəkib hayfımı gözdən almışam,
Çəkilməz dərdlərlə qalmışam indi.

Könlüm Göyçədədi, gəzə bilmirəm,
Çəməndən gülləri üzə bilmirəm,
Bülbüləm, vətənsiz dözə bilmirəm,
Çırpınıb qəfəsdə qalmışam indi.

Doğmadı o torpaq, qəlbimdə durur,
Ürəyim istəyir, gözdərim dolur.
Müstəcəb qocalıb, hey xəsdə olur,
Qalan günlərimi sayıram indi.

BİR QƏRİB EL GÖRDÜM, GÖYÇƏDİ ELƏ

Yuxum ərşə çıxıb, yatmıram hələ,
Məcnun tək düşmüşəm səhraya, çölə.
Xəyalım seyr edir ellərdən-elə,
Bir qərib el gördüm, Göyçədi elə.

Gəzirəm dağları eşqi-həvəslə,
Ağbulaq, Dağnıqsu, Qatardan[80] belə,
Mərzili[81] cənnətdi, baxıram gölə,
Qızlar su sonası, üzürlər hələ.

Dolanıb gəzirlər çölü, çəməni,
Biri də boylanıb axtarır məni.
Dərdimin dərmanı, dilim əzbəri,
Həsrət-həsrət, xəlvət hey baxır elə.

O ceyran naz iylə çölləri gəzir,
Səfalı dağları o cənnət bilir.
Laləni, nərgizi həvəslə dərir,
Düzür bircə-bircə telindən elə.

Dağları doyunca gəzib-dolandım,
Qaradaş ocaqdı, orda dayandım,

Ziyarət edirdim, qəfil oyandım,
Müstəcəb, gördüyün yuxudu elə.

A ŞİRVAN

Bütöv Azərbaycan doğmadı mənə,
Qurbanam yurdumun hər bölgəsinə.
Sazına, sözünə, şikəstəsinə,
Dahi şairlərin hər kəlməsinə.

Adını çəkməsəm qəbahət olar,
Səndə məskunlaşıb uydum, a Şirvan!
Keçmişi, bu günü, həm də sabahı,
Sabir vurğulayıb, duydum, a Şirvan!

Alim Fərqanəylə gəzir cahanı,
Allahu Əkbərlə yayır muğamı.
Mirələm, Abgül də onun davamı,
İnşallah, günbəgün artır, a Şirvan!

Füzuli Leylisi Mələkxanımdı,
Elnarə nəğməsi din-imanımdı,
Saysam yüzlər ilə, yenə varımdı,
Nəğməkar bülbülün sayı, a Şirvan!

Heyranam yurdumun aşıqlarına,
Ələsgər, Hüseyin, Kamandarına,
Şəmşir, Xəstə Qasım ustadlarına,
Şakir, Pənah qoşma desin, a Şirvan!

Əzaflının ağ saçları bir yana,
Nazpərimiz fərəh verir insana,
Müstəcəb heyrandı, alqış dövrana,
Çoxdu belə növraqların, a Şirvan!

BURNUMA VƏTƏNİN QOXUSU GƏLİR

Yaman kövrəlmişəm körpə uşaq tək,
Vətən yada düşüb, getməyim gəlir.
Payızda durnalar köçüb gedən tək,
Mənim də vətənə getməyim gəlir.

Ömür qısaldıqca qəlbim daralır,
Hicran xəstəsiyəm, rəngim saralır,
Mənim bu dünyada bir arzum qalır,
O da vətənimdi, getməyim gəlir.

Göyçəsiz qəfəsdə bülbül olmuşam,
Elə hey çırpınıb qanad çalmışam.
Gahdan dil demişəm, hey ağlamışam,
Yenə kövrəlmişəm, getməyim gəlir.

Müstəcəb Allahdan ömür diləyir,
Nəzir-niyaz verib qurbanlar deyir,
Ürəyim atlanıb getmək istəyir,
Burnuma vətənin qoxusu gəlir.

QALMIŞAM

Yağı düşmən tərki-vətən eyləyib,
Baş götürüb bu məkana varmışam.

Dərdlərimi öz-özümə söyləyib,
Alovlanıb, yana-yana qalmışam.

Gecələri sübhə kimi yatmıram,
Hey gedirəm, vətənimə çatmıram,
Bu xəyalı heç başımdan atmıram,
Çırpınıram, dar qəfəsdə qalmışam.

İllər ötür, insan ömrü qısalır,
Şux cavanlar baxırsan ki qocalır,
Hər ürəkdə neçə arzular qalır,
Mən də vətən həsrətində qalmışam.

Çərxi-fələk mənə sitam edibdi,
Dərdim üsdən neçə dərdlər veribdi,
Müstəcəbi niyə fağır edibdi,
Dərdi, qəmi çəkə-çəkə qalmışam.

BARI GÖRÜŞÜBƏN ÖLƏYDİM, ALLAH !

Mənim sözlərimi günaha yazma,
Bir neçə deyəcək sözüm var, Allah!
Qəzəbin tutmasın, qəbrimi qazma,
Elimdən didərgin düşmüşəm, Allah!

Günahsız bəndənəm, şükür hökmünə,
Qaytar torpağımı, Göyçəmi mənə.
Dizin-dizin gedəm ziyarətinə,
Qucub o torpağı öpəydim, Allah!

Əmanət bir ömür veribsən bizə,
Onu da bölübsən gecə-gündüzə.
Xoşbəxt bir ömür var, röyada gecə,
Qəflət yuxusuna gedəydim, Allah!

Dərdli Müstəcəbəm, intizardayam,
Qəm-kədər əlindən qeyri haldayam,
Balam qürbətdədi, gözü yoldayam,
Barı görüşübən öləydim, Allah!

BİLMİRƏM

Bir tərəf Gədəbəy, biri Kəlbəcər,
A Göyçəm, bağışla, tutmuram xəbər.
El yolu olubdu əzəl Sarınər,
Yollarım bağlanıb, gələ bilmirəm.

Yağı düşmən qalmaqalı salıbdı,
Göyçəmizi, Kəlbəcəri alıbdı,
Qarabağım düşmənlərə qalıbdı,
Əlacsızam, gedib ala bilmirəm.

Həsrətindən dəli kimi olmuşam,
Gecə-gündüz alovlanıb yanmışam,
Göyçəsiz günləri zindan sanmışam,
Qollarım bağlıdı, gələ bilmirəm.

Röya gördüm, qucağına gəlmişəm,
Çöl-çəməni əlvan, yaşıl görmüşəm,

Sevincimdən din-imana gəlmişəm,
Heyif, burda ölüb qala bilmirəm.

Müstəcəbəm, dərd əhliyəm bax, belə,
Gələn yoxdu, barı hal-əhval bilə,
Yaxın dosdar köçübdü son mənzilə,
Bir dost tapıb dərdi bölə bilmirəm.

XƏYALIM AXTARIR

Yenə gəzir fikir, xəyal,
Keçən günləri axtarır.
Ürəkdə Göyçə dərdi var,
Düşüb çölləri axtarır.

Zirvəsi qarlı dağları,
Sərin sulu bulaqları,
Ürək vəfalı dosları,
Dərdi bölməyə axtarır.

Ötüb keçsə neçə illər,
Unudulmur xatirələr.
Xəyalımda daha nələr,
Yatmır, gecəni axtarır.

Köçüb gediblər dünyadan,
Qohum-qardaş, ata-anam.
Yaddan çıxmır heç bir zaman,
Ürək yanır, göz axtarır.

Müstəcəbin qəlbi para,
Yazıq gedir hey xəyala.
Göyçə adlı bir mahala,
Həsrət qalıb, hey axtarır.

HAMIMIZIN GÖZÜ-KÖNLÜ TOXUYDU

Ötüb keçdi uşaqlığım, gəncliyim,
Geri dönməz yalvarsam da, neyliyim.
O günlərdən bir xatirə söylüyüm,
Evimizdə uşaq sayı çoxuydu,
Hamımızın gözü-könlü toxuydu.

Oynaşardıq, danışardıq, gülərdik,
Toplaşardıq, bir süfrədə yeyərdik,
Allaha da min yol şükür edərdik.
Aramızda ayrı-seçki yoxuydu,
Hamımızın gözü-könlü toxuydu.

Anam tezdən cəhrəsini qurardı,
Əyirərdi, ipə boyaq vurardı,
Bəzəklicə corab, əlcək hörərdi.
Sevincimin həddi belə yoxuydu,
Hamımızın gözü-könlü toxuydu.

Qış ki gəldi, xizəkləri sürərdik,
Yarışardıq, yaman bərhdən gedərdik,
Yıxılanda ağlamazdıq, gülərdik.

Uşaqıydıq, dərd-qəmimiz yoxuydu,
Hamımızın gözü-könlü toxuydu.

Bahar gəldi, köç edərdik yaylağa,
Qonaq gəldi, aparardıq bulağa,
Əmlik kəsib yedirdərdik qonağa.
Atamın da dost-tanışı çoxuydu,
Mərd kişiydi, gözü, könlü toxuydu.

Atam sazın çalıb dasdan deyərdi,
Böyük-kiçik həvəslə dinləyərdi,
Bax, beləcə gözəl məclis keçərdi.
O günlərin heç əvəzi yoxuydu,
El-obanın gözü-könlü toxuydu.

Müstəcəb didərgin düşəndən bəri,
Vətən həsrətindən olubdu dəli,
İtirib sevinci, tapıb kədəri.
Göyçəmizdə dərdi-qəmi yoxuydu,
Öz yurduydu, gözü-könlü toxuydu.

A QARDAŞ

Uşaqlıqdan biz mehriban olmuşuq,
Bir oynayıb, bir yıxılıb-durmuşuq,
Boş duranda daşdan evcik qurmuşuq,
Bax, beləcə böyümüşük, a qardaş.

Görüş yeri cüt qayanın arası,
Yaddan çıxmaz çobanların zağası.

Bacasından dırmaşardıq, çıxardıq,
Hündürlükdən hər tərəfə baxardıq.

Taxda üsdə sim düzəldib çalardıq,
Daş götürüb qayada dəf vurardıq,
Nağıl deyib guya aşiq olardıq,
Koroğludan danışardıq, a qardaş.

Silahlanıb iki dəstə olardıq,
Qayalıqda gizlənərdik, durardıq,
Dayan deyib görükəni vurardıq,
Axşamatək oynayardıq, a qardaş.

Oynayardıq cürbəcürə oyunlar,
Bölüşərdik, düzələrdi quruplar.
Çevrə çəkib dirədöymə vurardıq,
Kəmər ilə döyüşərdik a qardaş.

Gah toplaşıb çilikağac vurardıq,
Gah da oğru, gizir, vəzir olardıq,
Günahkara tez məhkəmə qurardıq,
Cəza verib yetim tükün[82] yolardıq.

Yadındamı, arabalar düzəldib,
Dağ yolunu biz piyada gedərdik.
Yol uzunu hey dəcəllik edərdik,
Tay-tuş ilə güləşərdik, a qardaş.

Səhər tezdən biz Duzdağa[83] gedərdik,
Cələ* qurub, quş ovlayıb didərdik,

Kabab çəkib gəvə* üsdə düzərdik,
Bax beləcə kef çəkərdik, a qardaş.

Dağ döşündən qarağatı yığardıq,
Malımızı çöldə tutub sağardıq,
O sərnici* buz bulağa qoyardıq,
Şirin-şirin süd içərdik, a qardaş.

İllər keçib, yaş yetmişi haqlayıb,
Tale bizi dönə-dönə yoxlayıb,
Şükür olsun, pənahında saxlayıb,
Həmi səni, həm də məni, a qardaş.

Şükür edək, artıq baba olmuşuq,
Nəvələrin qayğısında durmuşuq,
Bu dünyanın azın-çoxun görmüşük,
Bizə qalan sədaqətdi, a qardaş.

Sən ağıllı, mənsə dəcəl olmuşam,
Mən ömrümü məhəbbətlə qurmuşam,
Müstəcəbəm, vallah, mərd doğulmuşam,
Var dediyin dünyanındı, a qardaş.
Dar günümə haray çatdın, sən qardaş.

UNUTMARAM ÖLƏNƏTƏK

Kəndimizdi Qoşabulaq
Biz cahana gəldik qonaq.
Qoşa yaşayıb qocalaq,
Bu dünyadan köçənətək.

Sən bir gülsən, mən bülbüləm,
Hər an sevib, deyib-gülləm.

Əgər solsan, mən də ölləm,
Solmagınan ölənətək.

Kol dibində kəklik olar,
Cüt oynayar, cüt oxuyar.
Ovçu görsə nişan alar,
Qıyma, ovçu, qalaramtək.

Çöl-çəmənlər çiçəkləsin,
Yar sevinsin, üzü gülsün.
Axan çaylar laylay desin,
Biz yuxuya gedənətək.

Oyan quşların səsinə,
Gedək çinar kölgəsinə.
Düşək eşqin həvəsinə,
Ruh bədəndən çıxanatək.

İllər keçir ömrümüzdən,
Qocalırıq günü-gündən.
Doymamışam hələ səndən,
Ölüm demə, qalaramtək.

Qınama gəl Müstəcəbi,
Çəkməginən dərdi-qəmi.
Olaram dərdin həmdəmi,
Unutmaram ölənətək.

BEZMİŞƏM

Bu dünyanın qalmaqalı çoxalır,
Qan tökülür, müharbələr can alır.

El-oba talanır, yurd viran qalır,
Dünya, sənin sitamından bezmişəm.

Göyçə kimi mahal gedib əlimdən,
Neçə ildi ayrılmışam elimdən.
Çıxmır xəyalımdan, düşmür dilimdən,
Xəyallara qapanmaqdan bezmişəm.

Kimi gəlmə deyir, kimi didərgin,
Alışır bədənim, çoxalır dərdim.
Sərhədini tanımayan namərdin,
Üzə qarşı qınağından bezmişəm.

Görüb baxan elə bilir dəliyəm,
Cəhənnəmi bu dünyada görürəm.
Diri ikən ayaqüstə ölüyəm,
Ölü kimi yaşamaqdan bezmişəm.

Müstəcəbəm, dözməyirəm bu dərdə,
Göyçə həsrətindən olmuşam xəsdə.
Bir bülbüləm çırpınıram qəfəsdə,
Göyçə deyib ağlamaqdan bezmişəm.

SAĞALARSAN, AY ÜRƏYİM

İsdər çırpın, isdər döyün,
Sirrin saxla, ay ürəyim.
Sızıldama, ancaq öyün,
Qürurlusan, ay ürəyim.

Bülbül kimi qəfəsdəsən,
Göyçə deyin, çox xəsdəsən.
O dağlardan qar isdəsən,
Əlim çatmaz, ay ürəyim.

İtirmişəm o dağları,
Allı, güllü yaylaqları,
seçdi Türkiyəni.
Sərin, buzdu bulaqları,
Axtarıram, ay ürəyim.

Gəlsə neçə təbib, loğman,
Dərdlərimə tapmaz dərman.
İlahimiz verən dərman,
O Göyçədi, ay ürəyim.

Müstəcəbi incitmə gəl,
Oğlu, qızı qorxutma gəl,
Göyçəmizə dönsək əgər,
Sağalarsan, ay ürəyim.

DİLLƏNMƏYİR TELLİ SAZIM

Batıbdı sinən, qabırğan,
Düzəltmədi sazbənd, filan.
Simlərin də deyil taram,
Kökdən düşüb telli sazım.

Qışa dönüb bahar-yazın,
Daha gəlmir xoş avazın.

Dəyişib atam dünyasın,
Miras qalıb telli sazım.

Gəzdiniz eli-obanı,
Ərz etdiz nağıl, dasdanı.
Zeli dayım, atam hanı,
Susma, söylə, telli sazım.

Köynəyindən çıxarıram,
Kövrəlirəm, hey baxıram,
Yalvarıram, yaxarıram,
Dillənməyir telli sazım.

Vüsal dilləndirdi səni,
Vətən seçdi Türkiyəni.
Qoyub getdi sənlə məni,
Küsmə, gələr telli sazım.

Saz havası doğma dilim,
Ana yurdum, Göyçə elim.
Cavanlığım, xoşbəxtliyim,
Orda qalıb, telli sazım.

Sən yüzdəsən, mən yetmişdə,
Küsməyi qoyaq keçmişdə.
Müstəcəbdən şeyir isdə,
Mən də deyim, telli sazım.

OĞUL

Son devrimi yaşayıram,
Könlüm olub talan, oğul.
Qəm karvanı daşıyıram,
Söyləmirəm yalan, oğul.

Düşüngünən oğlu,qızı,
Yoğuş yorar, getnən düzü.
Lazım olar ata sözü,
Dar günündə hər an, oğul.

El-obanı, Vətəni sev,
Tək Allahı, Quranı sev,
Səni doğan ananı sev,
Südü olsun halal, oğul.

Dar günündə bizik gərək,
Anan gərək, bacın gərək,
Qohum-qonşu hər an gərək,
Unutma sən bunu, oğul.

Atan bütün dərdə dözdü,
El qınağı ağır sözdü.
Apardığım kəfən, bezdi,
Öz pulunla alnan, oğul.

Çalış xeyrə-şərə yara,
Müstəcəbi qoy məzara.
Əgər yoxundursa para,
Lap sadə daş qoynan, oğul.

NECƏ UNUDUM MƏN, A GÖYÇƏ SƏNİ?!

Vətənin həsrəti çox çətin olur,
Göyçə deyiləndə gözdərim dolur.
Ömür qısaldıqca gül rəngim solur,
Bəlkə də görmədim, ay Göyçə səni.

Yadımdan çıxmayır əlvan yaylaqlar,
Qonaqlı-qaralı o buz bulaqlar,
Köksündə ucalan o qarlı dağlar,
Yuxuda görmüşdüm, ay Göyçə səni.

Müstəcəb qəribdi doğma vətəndə,
Ruhum səndə qalıb, cəsədsə məndə.
Həsrətin köz olub durur sinəmdə,
Necə unudum mən, ay Göyçəm səni?!

KİMSƏ DİDƏRGİN OLMASIN

Vurulmuşam yaza, yaya,
Sevgim olub payız, qışa.
Çaylar dönüb buz bağlasa,
Ürəklərdə buz donmasın.

Hər bir fəsil ömür yolu,
Arzularla ürək dolu.
Yağılardı sağı, solu,
Göyçəm düşmənə qalmasın.

Müstəcəb çəkir intizar,
Sinəmdə Göyçə dərdi var.
Bizi eldən ayırdılar,
Kimsə didərgin olmasın.

YAŞAGİNAN, AZƏRBAYCAN!

Birləşmisən yumruq kimi,
Yaşaginan, Azərbaycan!
Müqəddəsdi dövlət kimi,
Səslənəcək hər bir zaman,
Yaşaginan, Azərbaycan!

Cəbhədən xoş xəbər gəlir,
Düşmən ağır itki verir.
Tab gətirmir, geri dönür,
İzlədik mavi ekrandan,
Yaşaginan, Azərbaycan!

Gözləyirəm son xəbəri,
Sevinc yaşı boğur məni.
Unuduram dərdi-qəmi,
Xəbər verdi baş komandan,
Yaşaginan, Azərbaycan!

Azad olub Zəngilanım,
Doğma, qəhrəman Qubadlım.
Ucalır göyə bayrağım,

Dalğalansın hər bir zaman,
Yaşaginan, Azərbaycan!

Nərə çəkir komandirlər,
Atəş açır igid əsgər.
Ermənilər diz çökürlər,
Qurtarsın Laçın işğaldan,
Yaşaginan, Azərbaycan!

Gözün aydın, Azərbaycan,
Xəbər verdi baş komandan.
Azaddı Şuşa işğaldan,
Şanlı ordum, təbrik, salam,
Yaşaginan, Azərbaycan!

Ruhun şad olsun, şəhidlər,
Rahat uyu, Ulu Öndər.
Yetdi sənin vəsiyyətin,
Tarix yazdı baş komandan,
Zəfər çaldı Azərbaycan!

BİR AİLƏNİN FACİƏSİ VƏ YA AĞILARIN HARAYI

Bəli, bu, əmimoğlu Rüstəmin ömründə bəxtəvərli günlərdən biri idi. Qohum-qardaş, dost-tanış, hamı sevinir, gülür, şənlənirdı...

Dünyanın hər üzü varmış, sevinci və kədəri kimi...

Bir an sonra ailə ağıla gəlməyən bir faciə yaşadı. Bu bir ailənin faciəsi olsa da, əslində bütün elat bu faciənin yaşantısından sarsıldi. Bu həm də elatın keçirdiyi faciəli günlərin bir növ oxşarı idi... O elat ki, yurd-yuvasından didərgin düşmüşdü, neçə-neçə "ünvan" dəyişmişdi, sığınacaqdan sığınacağa adlamışdı, amma hələ də özlüyündə toparlana bilməmişdi... İndi də taleyin növbəti bir ağır sınağı!

Qış gecəsi, saat iki, üç arasında evdə qəfil yanğın, hamı da şirin yuxuda ikən...

Ad günü bir neçə saat əvvəl qeyd olunan ana (Mahi) olaydan duyuq düşsə də, qonum-qonşunu köməyə çağırmağa taqəti olmur. Evdən bir az aralı, köməkçi evdə yatan oğul (Zöhrab)[84] çılpaq bədəndə özünü oda-alova ataraq evladlarını və ata-anasını xilas etməyə çalışır....

İki evladını və atasını xilas etsə də, özü də ağır yanır. Ana evdən çıxmaq istəsə də, xəstə ayaqları tutulduğu üçün yeriyə bilmir, tüstüdən boğulduğu üçün səsini də çıxara bilmir, yanaraq ölür. Zöhrab bir neçə dəfə özünü alova vurub böyük oğlunu xilas edə bilir, fəqət yanıq çox dərin olduğu üçün o üç gün sonra Bakıda – xəstəxanada keçinir...

Həyatın möcüzələrinə bax, ananın ad günü ana dünyasını dəyişə?! Ana torpağa tapşırılandan on gün sonra, öz ad günündə oğul dünyasını dəyişə?!

Torpaq da anadı, torpaq uğrunda şəhid varsa, demək, o, həm də müqəddəsdi! Zöhrab da ana, ata və övladının yolunda həlak oldu! Demək, o da şəhid kimi bu dünyadan köçmüş oldu! Və onun ürəyindən keçə bilənləri bayatılarımda belə təsvir etdim:

Anam da odda yandı,
Balam da odda yandı,
Çırpınıb şəhid oldum,
Yar yana-yana qaldı!

Dağ götürməz bu dərdi,
Çünki həddən betərdi.
Əlac atama qaldı,
İndi tək çək bu dərdi!

Arzularım puç oldu!
Od, alova tuş oldu!
Yar, körpələr əmanət,
Cavan ömrüm heç oldu!

MÜƏLLİFLİ BAYATI VƏ EYDİRMƏLƏR

Əzizim Göyçə məndən,
Yol gedər göy çəməndən.
Zalım düşmən əlindən,
Ayrıldım Göyçə, səndən.

Ürəyim Göyçədədi,
Ruhumsa şüşədədi.
Əzrayıla deyin ki,
Şüşədə, Göyçədədi.

Göyçə, "Göyçəgüllü"dü,
Özü ağır ellidi.
Ələsgər tək aşiqi,
Hər yurdu şeyirlidi.

Mən Qoşabulaqlıyam,
Özüm Göyçə oğluyam.
Gecə-gündüz ağlıyan,
Göyçəyə çox bağlıyam.

Göyçə qalıb yağıya,
Arakelə, dığıya.
Dönüm başına, Allah,
Qənim olnan yağıya.

Əzizim,vətən dərdi,
El dərdi, vətən dərdi.
Didərgin olan kəsin,
Dərdi həddən betərdi.

Əzizim, vətən dərdi,
El dərdi, vətən dərdi.
Məni bu günə salan,
Ancaq qüssə, kədərdi.

Əzizinəm, vətəndi,
Quşa kol da vətəndi.
Göyçə deyib ağlaram,
Göyçə gözəl vətəndi.

Əzizinəm, bu dağa,
Bülbül qonub budağa.
Yaman qəmli oxuyur,
Göyçə deyir, ay qağa.

Əzizinəm, vətəndi,
Dünya-aləm vətəndi.
Mənim kimi qula da,
Göyçə şirin vətəndi.

Ay ellər, Göyçəliyəm,
Qaçqınam, köçəriyəm.
Göyçəsiz can üstəyəm,
Yaman inildəyirəm.

Əzizim Göyçə məndən,
Yol gedər göy çəməndən.
Namərd düşmən əlindən,
Ayrıldım, Göyçə, səndən.

Könlüm qızılgüldədi,
Gül üstə, bülbüldədi.
Qəmli-qəmli oxuyan,
Göyçə deyən dildədi.

Təbib bilməz dərdimi,
Çəkilməyən dərdimi.
Var olsun ana torpaq,
Uddu məni, dərdimi.

Dərdə düçar olmuşam,
Ömrü başa vurmuşam.
Ağlamasın qızdarım,
Yeni rahat olmuşam.

Gəlli-gedimli dünya,
Sevinc, kədərli dünya,
Çoxlarını aldadıb,
Artıq hədərdi dünya.

Dağıldı Göyçə eli,
Solubdu açan gülü.
Məni eldən ayıran,
Düşmənin sınsın beli.

Göyçəni əldən aldı,
Eli çöllərə saldı.
İllərcə zəhmət çəkdim,
Yurd-yuvam viran qaldı.

Aşıq, çal “Göyçəgülü”,
Solubdu göyçə gülü.
Dərdim həddən aşıbdı,
Heç tutmaz “Göyçəgülü”.

Güllərdə Göyçəgülü,
Aşıq, çal “Göyçəgülü”.
Eynim yaşı sel oldu,
Daşacaq Göyçə gölü

Canım sənə sadağa,
Gedəm Qoşabulağa.
Bulaq gözü yoldadı,
Həsrət qalıb qonağa.

Əzizim Göyçə dərdi,
El dərdi, Göyçə dərdi.
Soruşmayın, dərdliyəm,
Dərdim dağlar qədərdi.

Dağlar aralı qaldı,
Sinəm yaralı qaldı.
Göyçə deyib ağlaram,
Qapılar bağlı qaldı.

O torpağa bağlıyam,
Kaş Göyçədə çağlıyam.
Kəndim Qoşabulaqdı,
Aşıq Rəcəb oğluyam.

Dərdimi dəftərə yaz,
Qəbrimi Göyçədə qaz.
Məni siz ağlamayın,
Ağlasın sədəfli saz.

***

Xəyallarla gəzirəm Qoşabulaq dağlarını. Adları yadımda qalan yerləri bayatılarımda qeyd etmişəm

Mal-qara getdi dağa,
Ellər köçür yaylağa.
Anam fəsəli yayıb,
Pay verir hər uşağa.

Dağlarımız baş-başa,
Hər biri bir tamaşa.
Ziyarətə gələn var,
Sevimli Qaradaşa.

El sevərdi qonağı,
Bu yaylağı, bu dağı.
Daşağanın o üzü,
Qonaqlı El bulağı[85].

Tərsə güney[86] ucadı,
Yaz cavan, qış qocadı.
Baş-başa duran dağlar,
Hər birinin öz adı.

Biri Balıdüşəndi[87],
Biri Dəlləkbiçəndi[88].

Hər birinin ətəyi,
Lalə, nərgiz, süsəndi.

Qatar qaya[89] uludu,
Altı naxır yoludu.
Lilparlı Dağınıq su,
Daşağanın qoludu.

Domba[90] quzey düz baxır,
Ətəyindən çay axır.
Çınqıllı dağ[91] dumandı,
Başında şimşək çaxır.

Şimşək çaxır, sel axır,
Günəş boylanıb baxır.
El-oba çox sevinir,
Göydən yerə nur yağır.

Kəpəklinin[92] daşı var,
Əyğı gülşən, başı qar.
Anam nəhrə yayanda,
Gətirərdim ona qar.

Bir tərəf Qaraqaya,
Bir tərəf Gəlin qaya.
Kərəntiçi* çatıbdı,
Bu gündə uzun paya*.

Davlı dərə[93] biçilir,
İgid, qoçaq seçilir.

İki dəsdə düzəlib,
Artıq yarış keçilir.

Camış uçan[94] örüşdü,
Camış getdi, sürüşdü.
Zirvədən hellən* gedib,
Gəlib çuxura düşdü.

Hər tərəfi gül-çiçək,
Arılar çəkir pətək.
Uçur xallı kəpənək,
Yanığın dərəsində[95].

Çatdıq Dəlləkbiçənə,
Burda dırmıq çəkənə.
Baxın xorum bükənə,
Burda yaman iş gedir.

Yumru ilə yanaşı,
Sunur təpə[96] də vardı.
Ətəyində maşınlar,
Hər gələndə batardı.

Mən gecəni yatmayıb,
Xəyallara dalmışam.
O dağları dolaşıb,
Özümü çox yormuşam.

Dağlar aralı qaldı,
Sinəm yaralı qaldı.

Göyçə deyib ağlaram,
Qapılar bağlı qaldı.

Ağbulağım ağlayır,
İllərdi yas saxlayır.
Qonaq-qara gəlməyir,
Ermənіyə qarğayır.

Eydirmələr

Hacı oğlu güneyi,
Çoban çalır tütəyi.
Anam bayatı deyir,
Sağır sona inəyi.

Sonam, sonam, ay sonam,
Südünü ver, ay sonam.
Nəvələr süd gözləyir,
Sənə qalıbdı güman.

Olaram sənə heyran,
Tərpənmə, sakit dayan.
Qurtarmağa az qalıb,
Qarılar sənə qurban.

Ağ qayada[97] ağıllar,
Mal-qaranı sağıllar.
Nənəmiz söyləyərdi,
Bizə şirin nağıllar (S:13;T:2).

HƏVƏSKAR ŞAİRLƏR

Nizami Cabbarov (Göyçəli)

VƏTƏN ƏBƏDİDİR

Səni tapşırıram, aman, ay Allah,
Anamın məzarı yad əldə qaldı.
Məzarı əlçatmaz, ruhu mənimlə,
Bu nə ağır sınaq, çətin sualdı.

Atam, qardaşlarım, bacılarım da,
Uyuyan o torpaq əziz Vətəndir.
Orda uşaqlığım, acılarım da,
Hər kiçik xatirəm dünyaya təndir.

Düşmənin kin dolu baxışı altda,
Mavi gözlü Göyçəm, düzüm, çəmənim.
Ən böyük, ən şirin arzum həyatda,
Vətənə qovuşub ölməkdir mənim.

Hər gecə yuxuma girir bu məzar,
O ana məzarı, o, yurd yeridir.
Deyirlər, qocalmır, ölməyir ruhlar,
Vətən əbədidir, ruhlar diridir.

GÖYÇƏ HƏSRƏTİ

Dünya göstərəndə etibarını,
Günəş şəfəqləri söndü, közərdi.
Sükut da öz qara qanadlarını,
Dərənin, təpənin üstünə sərdi.

Qərib ayrılıqlar araya düşmüş,
Gecə asimanı necə qaraltdı.
Ayaqlar altına daim düzülmüş,
Körpülər, səkilər sakitcə yatdı.

Lakin bu yuxusuz, bu lal gecədə,
Qaranlıqdan, çox-çox uzaqdan gələn,
Ürək tab gətirir, dözür necə də,
Həzin bir inilti eşidirəm mən.

Bu həzin inilti, müqəddəs Göyçəm,
Sənin o yaralı qəlbindən gəlir.
Çölümdə toy səsi, içimdə matəm,
Arzun arzumuza necə tən gəlir.

Sən mənim canımsan, mən ruhsuz bədən,
Mənim dərdli anam, sənin körpənəm.
Yaralı qəlbinlə sənin, ey Vətən,
Gecə də, gündüz də danışan mənəm.

GÖYÇƏM MƏNİM

Həsrətinlə doldum yaşa,
Yaz ömrümü verdim qışa,
Sən qəlbimdə yarla qoşa,
Göyçəm mənim!

Susuzlarçün bulaq idin,
Gecələri çıraq idin,
Canda ətlə dırnaq idin,
Göyçəm mənim!

Nəfəsində ana ətri,
Hər gülü bir şeir sətri,
Ağacların Haqqın çətri,
Göyçəm mənim!

Dilimdə bir adsan indi,
Kirpiyimdə odsan indi,
Elə bilmə yadsan indi,
Göyçəm mənim!

Düşündükcə içdən dərin,
Yada düşür gözəllərin,
Ana yurdu Ələsgərin,
Göyçəm mənim!

Əhvalından ver bir soraq,
Ümidlənək, rahat olaq.
Gələcəyik əldə bayraq,
Göyçəm mənim!

ULU GÖYÇƏ

(sərbəst şeir)

Ürəklə can kimi,
Ətlə dırnaq kimi,
Nurlu nəfəs kimi,
Yaxınsan mənə.
Elə yaxınsan,
Ana ətirli nəfəsin,
Nəfəsimə toxunur.
Bəlkə də sən nəfəsimin özüsən.

Elə yaxınsan,
Lap elə burada,
Kirpiyimin ucunda,
Qopsan uzağa düşmək nədi,
Düşərsən gözlərimin giləsinə.
Bax, ayrı nə deyim sənə,
Bircə gözüm dolusu – ürəkdən,
Baxaydım gözlərinə.
Bax, oradadır əsilim,
Ulu köküm – nəsilim.
Xıdırım, Qasımım,
Züleyxam, Nardanəm mənim[98].
Ustad Alım,
Dədə Ələsgərim,
Bir də Şımpırlı Sevgilim[99].
Sükutuna qulaq kəsilim,
Qızınım ocağına,
Qurban olum torpağına.
Ömrü verdik heçə,
Qəm-qüssə içə-içə.
Biz sənsiz, sən bizsiz,
Göyçə, ey ulu Göyçə!

ANA MƏZARI

Anacan, qayıdıb gələcəyəm mən,
Bir az aralıda, bir az gendəyəm.
Eşitdik Kəlbəcərin işğal xəbərin,
Anasız, Vətənsiz gör nə gündəyəm.

Bryansk – 1993

Salam, ana məzarı,
Xoş gördük, ana torpaq.
Mən çəkdiyim azarı,
Çəkə bilməz qaya, dağ.

Bu torpaqda gəncliyim,
Xoş günlərim, gülüşüm,
Yoxdu daha dincliyim,
Qəmi kimlə bölüşüm?

Bayatım, laylam, ağım,
Adınadır ay anam.
Mənim sənsiz qalmağım,
Gərəksiz bir pay, anam.

İndi o əziz məzar,
Yad baxışın altında.
Yol gözləyir, qalıb zar,
Qar-yağışın altında.

Gülləyə də tuş gəldi,
Daşını sökdü yağı.
Neçə bahar, qış gəldi,
Artdı sinəmin dağı.

Məzarların günahı,
Allah, nəymiş görəsən?!
Silahdır yurdun ahı,
Ana məzarı – Vətən!

YANMAĞININ MƏNASI NƏ?!

Çərxi-fələk üz döndərsə,
Qara bulud qanad gərsə,
Hər tanıyan bir dərd versə,
Yanmağının mənası nə?!

Yarın qeydinə qalmırsa,
Dost səni yada salmırsa,
Həmdəm qadanı almırsa,
Yanmağının mənası nə?!

Çərxin gərdişi budursa,
Qəlbin qəmə kölədirsə,
Tale səni mələdirsə,
Yanmağının mənası nə?!

Yar yarına möhtacdırsa,
Biri tox, beşi acdırsa,
Əzablar başa tacdırsa,
Yanmağının mənası nə?!

Bəxtin səni dindirməsə,
Göydən yerə endirməsə,
Alışdıran söndürməsə,
Yanmağının mənası nə?!

ELƏYİR

Yavaş-yavaş dostlar bizi,
Qoyub gedir, tərk eləyir.
Yaxşı günün qədrin insan,
Yaman gündə dərk eləyir.

Yaşamayaq ömrü hədər,
Dünya fani, gəldi-gedər.
Həsrət, hicran, qüssə, kədər,
Şirin canı tərk eləyir.

Sanki uçur ömrün anı,
Ömrümüz bir qum saatı.
Zalım fələk zarafatı,
Son məqamda bərk eləyir.

MƏNİM ANAM

Sərv qamətli, çiçək üzlü,
Mələk idi mənim anam.
Rəngi solmaz, ətri bitməz,
Çiçək idi mənim anam.

Bala sözü beçə balı,
Həm əzabkeş, həm vəfalı.
Gün boyu ağzı dualı,
Mələk idi mənim anam.

Zəhmətindən ruzi dərən,
Halal yeyən, haqqı görən,

Bizə həyat, ümid verən,
Ürək idi mənim anam.

Günəş idi, çıraq idi,
Dərdimizə ortaq idi.
Bir gedəri qonaq idi,
Təmtək[12] idi mənim anam.

Rüstəm Əhmədov (Qoşabulaqlı)

BİLMİRƏM

Göz yaşımla dəniz, dərya dolubdu,
Gülü-qönçəm susuzluqdan solubdu,
Ən çəkilməz dərdlər mənim olubdu,
Ölüm məndən niyə qaçır, bilmirəm?!

Bəxtimi yazanın sınsın qələmi,
Fəryadım tutubdu bütün aləmi,
Bu qədər yükləmiş qəmi, ələmi,
Ölüm məndən niyə qaçır, bilmirəm?!

Gedib qibləgahım, pirim, pənahım,
Arzuların tacı, sultanım, şahım,
Doğma, məsum, günahsız övladlarım,
Ölüm məndən niyə qaçır, bilmirəm?!

[12] Söz mətndə "yeganə" anlamında işləkdir.

***

Bu biväfa, etibarsız dünyadı,
Bel bağlama nə ömürə, nə yaşa.
Bir andaca məhv eləyir həyatı,
Cavan igidləri döndərir daşa.

***

Fələk bizə elə bir dağ çəkdi ki,
Acıları sinəmizdən silinməz.
Cavan ömür elə bir çiçəkdi ki,
Nə baharı, nə xəzanı bilinməz.

***

Dildən, dişdən, bədnəfəsdən,
Can qurtara bilmədik.
Yaman gözdən, bədnəzərdən,
Düşdük oda, bilmədik.

MÜƏLLİFLİ BAYATILAR[13]

Ara məni,
Qəribəm, ara məni.
Tez yetiş, can üstəyəm,
Öldürür yara məni.

[13] Mövzu və məzmunca bayatı səciyyəli olsa da, bəzi mətnlər səkkiz hecalı formatda təqdim olunmuşdur.

Qazamatdı,
Qaladı, qazamatdı.
Zindanda zülmətdəyəm,
Günəşim, Ayım batdı.

Gülüm ağlar,
Bülbülüm, gülüm ağlar.
Yaralıyam, yanmışam,
Sovrular, külüm ağlar.

Qış düşübdü,
Şaxta, qar, qış düşübdü.
Tanrı söz paylayanda,
Mənə qarğış düşübdü.

Boynu bükük bənövşəyəm,
Çilik-çilik bir şüşəyəm.
Heç bilmirəm kiməm, nəyəm?
Dərd əlindən divanəyəm.

Dərd yandırır sinəmi,
Bitmir gözümün nəmi.
Heç kəs yaşaya bilməz,
Bu kədəri, bu qəmi.

Dünyam alışdı-yandı,
Necə canlar apardı.
Könlüm evi virandı,
Məni məndən qopardı.

Bağçamda gülüm ağlar,
Çəkər ah, zülüm ağlar.
Yanıb külə dönmüşəm,
Sovrulan külüm ağlar.

Gülüm, belə olmazdı,
Zülüm belə olmazdı.
Biz fələyə neylədik,
Ölüm belə olmazdı.

Qəmim var, qəhərim var,
Dərdim var, kədərim var.
Zülmətlər içindəyəm,
Açılmaz səhərim var.

Şaxta oldu, qar oldu,
Gecəm ahı-zar oldu.
Alovlar bizi sardı,
Dünyam tarımar oldu.

Əzrayılın gözü çıxsın,
Seçdi, apardı balamı.
Yanğın-alov burulğanı,
Viran qoydu yurd-yuvamı.

Yaslıyam, yaralıyam,
Bilmirəm haralıyam.
Yanına tələsirəm,
Balamdan aralıyam.

Zəhmətim hədər oldu,
Sevincim kədər oldu.
Balamdan ayrılmağım,
Hər dərddən betər oldu.

Toy şənliyim vaya döndü,
Göz yaşlarım çaya döndü.
Oğul, bala gözləməkdən,
Bir anım bir aya döndü.

Od-alovun içində,
Qalan, qovrulan mənəm.
Yana-yana göylərə,
Külü sovrulan mənəm.

Qara yel əsdi getdi,
Taleyim nəsdi, getdi.
Zalım fələk, qılıncın,
Başımı kəsdi, getdi.

Bu dağı gəzməy olmaz,
Dərya qəm, üzməy olmaz.
Oğul, nəvə itirdim,
Bu dərdə dözməy olmaz.

Qəm mənəm, kədər mənəm,
Puç mənəm, hədər mənəm.
Taleyim qara gəldi,
Hər dərddən betər mənəm.

Surətimi daşda yaz,
Gözümü qan-yaşda yaz.
Dərdlilər sırasında,
Gətir məni başda yaz.

Belə igid, mərd olmaz,
Dərd bu qədər sərt olmaz.
Yana-yana kül olduq,
Belə ağır dərd olmaz.

Mən sözdən sözə düşdüm,
Ox oldum, gözə düşdüm.
Bədnəzər, bədnəfəsdən,
Alışdım, közə düşdüm.

Ah mənəm, aman mənəm,
Bəd gələn zaman mənəm.
Şən nəğmələr sizindi,
Sızlayan kaman mənəm.

Bir yanğılı səsəm mən,
Bir dərmansız kəsəm mən.
Cismim, canım qalmayıb,
Bir quru nəfəsəm mən.

Məndən aldı neçə canı,
Oğullarım hanı, hanı?
Viran qalsın bu dünyanı,
Mənim dünyam qalan kimi.

İlim, ayım, günüm qara,
Bədən xəstə, ürək qara.
Qərq oluram dəryalara,
Gözüm yaşla dolan kimi.

Harayıma gəlmirsən,
Nə haldayam, bilmirsən.
Şəklinlə göz-gözəyəm,
Danışmırsan, dinmirsən.

Həsrətindən xəstəyəm,
Qaranlıq qəfəsdəyəm.
Ölürəm, üstümə gəl,
Oğul, son nəfəsdəyəm.

Mən aşiqəm, ha sarı,
Sınıq könlüm ha sarı.
Dərddən bir ev tikmişəm,
Kədərdəndi hasarı.

Ürəyimə, bağrıma,
Qara daş bağlamışam.
Şəhid məzarlarına,
Sürünüb ağlamışam.

Dünya qədər, su qədər
Ömrünüz var, şəhidlər!
Tökdüyünüz al qanlar,
Verəcək bar, şəhidlər!

Əzizim, ara məni,
Gəl axtar, ara məni.
Sinəm çarpaz dağlıdı,
Öldürür yara məni.

Oda pərvanə mənəm,
Yurdu viranə mənəm.
Məcnunun nə dərdi var,
Dəli, divanə mənəm.

Ağam gəl, ay ağam, gəl,
Ölməmişəm, sağam, gəl.
Boynumda qəm zənciri,
Yolunda dustağam, gəl.

Bir qanadsız quşam mən,
Dərdə, qəmə tuşam mən.
Balamın sorağında,
Dərbədər olmuşam mən.

Əlil-zəlil etdin məni,
Səni zəlil qal, Əzrayıl!
Ya balamı qaytar mənə,
Ya canımı al, Əzrayıl!

Havam, suyum qəmdi mənim,
Əzəl bəxtim kəmdi mənim.
Sınıq könlüm bəmdi mənim,
Nə çalırsan, çal, Əzrayıl.

Əzizim, mərdim oğul,
Arzum, ümidim oğul.
Əbədi ayrılığım,
Ən ağır dərdim oğul.

Ay oğul, sən gedəli,
Necə darda qalmışam.
Ucuz ölüm gəzirəm,
Qapılarda qalmışam.

Nə gecəm-gündüzüm var,
Sənə çoxlu sözüm var.
Nə canımda dözüm var,
Bilsən harda qalmışan.

Gün çıxdı, baxdı getdi,
Sel-sular axdı, getdi.
Şimşəklər, ildırımlar,
Başıma çaxdı, getdi.

İtgin düşmüş yolam mən,
Karam, koram, lalam mən.
Əzrayılı gəzirəm,
Qisasımı alam mən.

Bir vətənsiz quşam mən,
Dərdə, qəmə tuşam mən.
Susuz, qumlu səhrada,
Qanqala qonmuşam mən.

Gedibdi, gələnim yox,
Dərdimi bilənim yox.
Gecə-gündüz ağlaram,
Göz yaşım silənim yox.

Od, yanğın məni tutdu,
İgidlərimi uddu.
Dərdimi kimə dedim,
Öz dərdini unutdu.

Əkbər Əlioğlu

QORQUD HARAYI

Qorqud ata qopuz çaldı,
Ər kişilər eşqinə.
Dindi qopuz,
dindi qopuz,
dindi qopuz –
Yer ağladı,
göy kişnədi,
su göynədi.
Qorqud ata çala-çala,
Haray saldı yana-yana,
o dağlara,
o çöllərə,
ormanlara,

meşələrə.
Heykəlləşmiş ölümlərə,
dirilərə söz söylədi –
ün ünlədi.
Söylər idi: –
Od qalayın –
işıq olsun.
Uca-uca dağlar başı,
yanar dursun –
od paylasın.
Könüllərdə toxluq olsun,
Qırğınlara bu dağ olsun.
Söylər idi: –
Sularınız qurumasın,
Ağacınız kəsilməsin.
Hər gününüz sevinc dolu çiçək açsın,
Çiçəklər də ləçək-ləçək ürək açsın.
Qorqud ata sözün dedi,
ünün kəsdi.
Qadir ruhun,
qopuzunu qoyub getdi –
içimizə,
qanımıza,
soyumuza,
hopub getdi.
İndi neytronlar, reyqanlar,
yer ağladır,
göy kişnədir,
su göynədir.
İçimizdə bir **qor** var,
Qanımızda bir **qut** var: –
Öz-özündən maya alır,
Öz içinə bir od salır: –

– Göyərir yüz illərin varağı,
Qılınc çəkir Dədə Qorqud harayı (13, 29-30).

QAPILARI DÖY GÖRÜM

XXI əsrin ozanına

Ozan baba, salam sənə – qalandır,
Hər gecəmiz bir sabahı doğandır,
Həyat dəftər, qələm tale yazandır.
Qadir ruhun qoy mənə də yar olsun;
Ürəyimdə təpər olsun, söz olsun.

Azadlığa can atdıq – qanadlandıq,
Qəzəbdən alov geydik – silahlandıq,
Günahımız nə idi? – parçalandıq.
Azərbaycan Kür saçını gül hördü,
Araz hörük sitəmlərə büründü.

"Savalan"ın saç-saqqalı ağarmış,
Dərd sinədə bir dağ olub qalanmış,
"Heydər baba" haray çəkib ağlarmış?!
Vətən sözü alov dilli kürəymiş,
Bu kürədə Səttarxanlar göyərmiş...

"Varlıq", "Ozan" söykənibdir qol-qola,
Xudafərin, qıyma, gözdə tor qala,
Qoca Təbriz həsrət baxır yollara.
Bu minvalla ürək dözər dövrana?
Dərd saç yolar, qeyrət çıxar meydana...

Ozan baba, bir sazını çal görüm,
Ərənləri, igidləri öy görüm,
Şad xəbərlə qapıları döy görüm.
Sevinc yaşı gözlərdən boylana,
Bəlkə onda yatmış bəxtim oyana... (13, 42-43).

"XARIBÜLBÜL" HAQQINDA BAYATILAR

Əzizinəm, xarı gül,
Yarıq bağrı qanlı gül.
Tanrının insafı bu,
Qıydı, qala xarı gül.

Bu çiçək çəmən gülü,
Dolan dərəni, düzü.
Baharın sehrinə bax,
Gül yaratmış bülbülü.

Əziziyəm, qanlı gül,
"Xarıbülbül" – qanlı gül.
Xallı böcək qəsdimi,
Etmiş bağrın qanlı, gül.

Xallı böcək, baş qaldır,
Bülbül köksündə xaldır.
Dərdə bax, göyə sığmaz,
Şər qalib, xeyir xardır.

Əzizinəm, xan bülbül,
Heyrətimi qan, bülbül.
Axı suçun nə imiş,
Xar olubsan? – yan bülbül.

Mən aşiq heyrətim çox,
Sevgim bol, həsrətim çox.
Aman bülbül, inan bülbül,
Qəlbim bulud, yağanım yox (13,113-114).

MÜƏLLİFLİ BAYATILAR

Mən aşıq bürəm-bürəm,
Azadə ömür sürəm.
Qarabağ, bizimləsən,
Kəbəm bilib sürünnəm.

Açıllam,
Fərəh-fərəh açıllam.
Bütöv Azərbaycanın,
Bayrağına sancıllam (14, 149).

Aqil Cəfərov (Kəngərli)

ÇAL, AŞIQ, ÇAL

Yenə saz götürüb meydan suladın,
Vurdun təzanəylə təzə xal, aşıq.
Elə havalanıb oxudun, çaldın,
Süzüldü dilindən şəkər, bal, aşıq.

Elə vurulmuşam havacatına,
Səsin yenə qalxıb kəhər atına.
Gedək Naxçıvanın Batabatına,
Orda "Şərili" havası çal, aşıq.

Qoşma, gəraylıdan, təcnisdən denən,
Koroğlu qurduğu məclisdən denən,
Dərbənddən, Kərkükdən, Təbrizdən denən,
Bir olan Vətəni yada sal, aşıq.

Çal, Əsli yaxası bağlı qalmasın,
Qara keşiş min hiyləli olmasın.
Kərəm alışmasın, Kərəm yanmasın,
Əslini Kərəmə, gəl, sən al, aşıq.

Çaldın "Cəlili"ni, söndü həvəsim,
Qəhərdən boğuldu, çıxmadı səsim.
Hanı Sallı kəndim, Dərələyəzim,
Necə oldu o kənd, o mahal, aşıq?

Getdi, o yerlərdən saz səsi, getdi,
Getdi, Ələsgərin Göyçəsi, getdi,
Obanın, oymağın neçəsi getdi,
Qalmayıbdı o əvvəlki hal, aşıq.

Gör neçə çöl, çəmən, meşə vermişik,
Zəngəzur itirib, Şuşa vermişik.
Yəni biz bu qədər qeyrətsizmişik?!
Məni düşündürür bu sual, aşıq.

Saxla “Ruhani”ni, “Misri”yə döndər,
Düzülsün sıraya hər igid, hər ər,
Arxada xalqımız, qarşında öndər,
Alaq Qarabağa, alaq yol, aşıq (15,15-16).

MÜƏLLİFLİ BAYATILAR

Əzizinəm, Göyçədi,
Göy çəmənli Göyçədi.
Dərdi yerə sığışmaz,
Göyçə dərdi göycədi.

Gümanım haqda qaldı,
Əlim yaraqda qaldı.
Təbriz İrana düşdü,
Kərkük İraqda qaldı.

Görünən Ərdəbildir,
Türk yurdu Ərdəbildir.
Bu millətin dərdini
Ordakı Mərdə bildir.

Əzizim, Borçalıda,
Var izim Borçalıda.
İndi yada dönmüşük,
Biz bizim Borçalıda (16, 292).

KÖKÜMDƏN BAĞLIYAM SAZ HAVASINA

Ata ocağını görmək istərəm,
Həsrətəm yurdumun öz havasına.
Yayın istisində qəlbim teşnədir,
O qarlı dağların buz havasına.

Qayası sıldırım, dağları uca,
Çal-çağır olardı hər həyət-baca.
Gərək unutmayaq yaşamadıqca,
Yenə də qoşuram söz havasına.

Gəzsən hər yanını bütün dünyanın,
Vətənçün döyünsün ürəyin, canın.
Şirin nəğməsini Azərbaycanın,
Dəyişməm yadların yüz havasına.

Doğma türk dilimdir şəkərim, qəndim,
Bu dildə dil açdım, bu dildə dindim.
Yurdum Dərələyəz, Sallıdır kəndim,
Kökümdən bağlıyam saz havasına (17, 60).

DƏRƏLƏYƏZƏ

Ora ata yurdum, ilk ocağımdır,
Yetsin səsim, ünüm Dərələyəzə.
Məkkə, Mədinətək qibləgahımdır,
Dönüb səmtim, yönüm Dərələyəzə.

Xəmrimi yoğurub öz havasıyla,
Halallıq süzülən düz havasıyla,
Ruhumu oxşayıb saz havasıyla,
Çox borcum var mənim Dərələyəzə.

Həyat davam edir, ömürsə qısa,
Gərək qədrin bilək, nə vaxt qalıbsa.
Cənnəti göylərdə axtarmaqdansa,
Bircə dəfə enim Dərələyəzə.

Bitsin ağrı, acı, qüssə, kədər, ah,
Həsrətə son qoysun açılan sabah.
Vuruşa-vuruşa əlimdə silah,
Qalib kimi dönüm Dərələyəzə (18, 37).

Akif Məmişov

QOCALIQ

Saçlarım ağardı, üzümdə qırış,
Əsibdir başımdan neçə qar, yağış.
Gəl ey cavanlığım bununla barış,
Deyəsən, üstümü alır qocalıq.

Ömrümün çox günün vermişəm hədər,
Qədrin bilməmişəm bir zərrə qədər.
Sonda peşmançılıq nə fayda verər,
Deyəsən, üstümü alır qocalıq.

Akifəm, neyləyim fələk işinə,
Dünya çox sevinir öz gərdişinə.
Qəfildən qılıncın çəkdi üstümə,
Deyəsən, üstümü alır qocalıq.

KİMİYƏM

Elə incimişəm təbiətimdən,
Baharı bəd gəlmiş illər kimiyəm.
Könlüm qərq olubdur qəm dəryasına,
O coşub çağlayan sellər kimiyəm.

Həyat gündən-günə çətin olubdur,
Zamanın gərdişi məni yorubdur.
Gözlərim kövrəlib yaman dolubdur,
Sazda köklənməmiş simlər kimiyəm.

Akifəm, bunları yazıram əbəs,
Daha heç bir şeyə qalmayıb həvəs.
Mən giley etməyim, neyləyim ki, bəs,
Vaxtsız xəzan olmuş güllər kimiyəm.

MİLLİ MƏTBƏX

Xalqımızın olduqca çeşidli və dadlı yemək növləri vardır. Təkcə plovumuzun yetmişdən artıq növü olduğu artıq təsdiqini tapıb. Bu haqda rəsmi mənbələrdən də səhih məlumat almaq mümkündür. Bu növün isə içərisində hər bölgənin özünəməxsus çeşidi yer almışdır. Məsələn, Bakıda Şah plov, Lərgə plov, Lobyalı aş, Şamaxıda (özəlliklə, Şirvan bölgəsində) Döşəməli aş, Şüyüd plov, Lənkəranda Quş plov, Ləvəngi plov və sair. Bu siyahını xeyli uzatmaq da olardı və məqsədimiz o deyil. Məsələ burasındadır ki, bölgələrə görə tərkibi və hazırlanması fərqli olan bu növlər həmin bölgələrin təbii şəraitlərindəki fərqdən və o şəraitlərdə yetişən məhsulların dad və keyfiyyət özəlliklərindən faydalandığı üçün bu müxtəlifliyin ortaya çıxmasını şərtləndirmişdir. Lakin bölgələrimiz daima inteqrasiyada olduğundan bir sıra mədəni davranışların da bu diapozonda əlaqəli inkişafına təsirini göstərmişdir. Bu anlamda, bir bölgənin mətbəx özəlliklərini digər bölgə də mənimsəyə bilmiş və öz mətbəx çeşidini daha da zənginləşdirmişdir. Odur ki, ayrıca götürülmüş bölgənin özəl çeşidinin eynisinin (yaxud da oxşarının) digər bir bölgədə hazırlandığını müahidə edə bilirik. Əslində, bu məişətimizin (geniş anlamda mədəniyyətimizin) zənginləşməsi prosesidir və davamlı olaraq bu proses baş verməkdədir. Ümumiyyətlə, Azərbaycan olduqca rəngarəng iqlim şəraiti olan bir ölkədir və bu şərait zəngin bitki və heyvanlar aləmini meydana gətirməkdə önəmli mənbə olmuşdur. Məhz bu üstünlük milli mətbəximizin zəngin qida resursları ilə təminatının və bu mətbəxin üstün keyfiyyət qazanmasının da ən ümdə şərtidir. Odur ki, milli mətbəximizin bir törəmə sub-

yekti qismində Qərbi Azərbaycan mətbəxinin də ayrılıqda diqqətdən keçirilməsinə ehtiyac vardır.

GÖYÇƏ MƏTBƏXİ

Lilpar yeməyi

Lilpar əsasən bulaqların və çayların kənarında bitir. Yazın əvvəllərindən göyərən bu bitki erkən toplanır. Lilpar adətən qızardılmış şəkildə yeyilir. Lilpar yeməyi çox dadlı olur və xoş ovqat yaradır.

Əvvəlcə soğan yağda qızardılır, sonra təmiz yuyulmuş və xırda-xırda doğranmış lilpar qızardılmış yağ-soğanın üzərinə tökülür. Lilpar yaxşı qızardıqdan sonra süfrəyə çəkilir. Daha sonra, onun üstünə sarımsaqlı qatıq tökülür və yeyilir. Bəzi hallarda qızardılmış lilparın daha da dadlı olması üçün eynilə lilpar kimi, tavaya keşməmə bitkisi də doğranır. Bir neçə ədəd keşməməni lilparla qarışdırıb, sonra bir yerdə qızardırlar.

Ələyəz yeməyi

Ələyəz əsasən taxıl əkini sahələrində bitir. Ələyəz də kiçik hissələrə doğranır, hazır vəziyyətə gətirilir. Əvvəlcə soğan yağda qızardılır. Sonra qazana su əlavə olunur. Su qaynadıqdan sonra qazana buğda yarması tökülür. Buğda yaxşıca qaynadılır. Həlim vaxtına düşdükdə ələyəz ora əlavə olunur. On-on beş dəqiqə bişdikdən sonra yemək süfrəyə qoyulur. Yaddan çıxmamalıdır ki, ələyəz ayrıca qızardılıb sonra qazana əlavə olunmalıdı.

Əvəlikli sup

Əvvəlcə soğança hazırlanır. Sonra qazana su, üstündən də yarma tökülür. Daha sonra bir neçə kartof və axırda əvəlik əlavə olunur. Yaxşı olar ki, quzuqulağı və qazayağından bir neçə yarpaq da qazana atılsın. Göyçəlilərin bir çoxu supa isti deyirlər.

Göyçə kətəsi

Göyçə kətəsi əsasən, quşəppəyi bitkisindən hazırlanır. Əvvəlcə xəmir yoğurulur. Kündələr hazır olandan sonra yuxa halına salınır. Quşəppəyi yaxşıca yuyulur və doğranır. Sonra doğranmış quşəppəyi yuxanın içinə qoyulur, sacda, yaxud da qaz pilətəsində bişirilir. Süfrəyə gətirilərkən kətənin içərisinə yağ və ya, xama qoyulur və verilir. Bəzi bölgələrimizdə quşəppəyi xırmanotu adı ilə tanınır.

Göyçə xəşili

Əvvəcə soğança hazırlayırlar. Sonra qazana buğda yarması tökürlər. Yarmadan əvvəl ora bir neçə stəkan su əlavə olunmalıdır. Qaynayıb bişdikdən sonra yemək süfrəyə çəkilir. Hərənin öz istəyinə görə, kimi şərbətlə, kimi də sarımsaqlı qatıqla yeyir. Amma şərbətlə yeyiləndə daha tamlı və ləzzətli olur.

Nənə yeməyi

Bizim Zəhra nənəmiz özünəməxsus milli yeməklər hazırlayardı. Onun bişirdiyi sup daha dadlı olurdu. Supu bişirərkən bir kiloqrama yaxın kartofu səliqəli və təmiz yuyub, xırda-xırda doğrayırdı. Sora soğanı ərinmiş yağda qızardırdı. Suyu əvvəlcədən qazana tökürdü. Su qaynadıqdan sonra qaza-

na yüz, yüz əlli qram un əlavə edirdi. Bir neçə dəqiqədən sonra o, kartofu qazana tökərdi. Supun dadlı olması üçün həm də kök, keşməmə, qoçquzu köklərini doğrayıb nə vardısa bir yerdə qaynadardı. İyirmi-otuz dəqiqə yaxşı bişəndən sonra yemək süfrəyə çəkilərdi. Bəzən elə olurdu ki, daha tamlı olsun deyə dörd-beş ədəd yemlik, yaxud da dörd-beş ədəd quzuqulağı bitkisini yeməyə əlavə edərdi. Əgər həmin vaxt dəvədabanı bitkisi olsaydı, onun da zoğundan iki-üç ədəd əzib bıların içinə qatardı.

Qeyd: Lilpar, ələyəz, qazayağı, yemlik, əvəlik, quzuqulağı, İrəvan əppəyi, quşəppəyi, xırmanotu və bu kimi təbii bitkilərin yarpaqlarından Göyçədə geniş istifadə olunurdu.

Qazayağı, yemlik, quzuqulağı, quşəppəyi həm çiy, həm də bişmiş halda yeyilir.

Keşməmə və qoçquzunun kökləri həmçinin çiy və bişmiş halda yeyilir (S:18;T:2).

Qaşıq xəngəli

Bizlərdə xəngəldən başqa qaşıx xəngəli deyilən yemək növü də vardır. Bildiyimiz kimi, xəmir yoğrulurdu, yayılırdı, dorğanırdı, hardasa beş-altı santimetr kvadratda, tökülürdü suya, süzülürdü. Bir tərəfdə də qurud əzilirdi (həm də quruddan ayran hazırranırdı), bir tərəfdə də soğança, onun içində tikə dorğanmış quzu əti və yaxud da ki, çolpa əti olurdu, yeməyin üstünə qoyulmaqçün. Bəzən xəngəl yarpaxları qaynıyana qədər onun içinə dilim kartof da dorğuyurdular. Xəngəli bişirənnən sorasına üzərinə qurud ayranı töküb, bir də ki, qovrulmuş soğannan bərabər o çolpanın və yaxud da quzunun tikələrini üstünə qoyub nuş eliyirdilər.

Amma **qaşıx xəngəli** duru xörək idi. Yəni orda da xəngəl xırda hissələrə dorğanırdı, yenə adi soğança olurdu, qovru-

lurdu, onun üstünə su tökülürdü. Sonrasına onun içərisinə yarma və yaxud da ki, düyü atırdılar, pişirdi, sonrasına onun üstünə xırda dorğanmış xəngəl tökülürdü (Xırda dorğanmış xəngəl əvvəlcə suda isladılırdı). Onun içinə xırda-xırda kartof da dorğanırdı. Hamısı pişənnən sonrasına, sup deyirik da, onun kimi, yenə onun üstünə sarımsaxlı qatıx və yaxud da ki, qurud ayranı töküb yeyilirdi. Bu da olurdu qaşıx xəngəli. Bunu qaşıxnan yeyirdilər, əlnən və yaxud da çəngəlnən yox.

Qolsapağı (əvəlik) dolması

Bizim dağlarda qolsapağı da deyirdilər, qoləvəliyi də. Nazik gövdəsi, başında da enni yarpağı olurdu. Demək olar kin, kələm yarpağı boyda. Təxminən orta kələm yarpağı boyda. Bəlkə də bir az iri. Onnan dolma bişirirdilər, tamı da turşməzə olurdu. Çox qəşəng, ləzzətdi alınırdı. İri dolmalar bükürdülər. Adi dolma kimi, kələmə nətər büküllər, əti qatırdılar düyünən və yaxud da ki, yarmaynan. Ancax iri olurdu, hansı ki, bir adam onun üçünü-dördünü ancax yeyərdi. Buna əvəlik dolması deyirdik və yaxud da qolsapağı, qoləvəliyi də deyirdilər. Həmən onun yarpağınnan qəşəng, daddı, ləzzətdi dolma olurdu.

Hörrə

Sonra hörrə bişirirdilər. Ona bəzi yerdə qındı da deyirlər. Hörra və yaxud da ki, qındı. O da iki cür olurdu: süd hörrəsi, bir də qovurma hörrə.

Süd hörrəsi. Unu qovururdular, su əvəzinə süd tökürdülər üstünə. O, sıyıx halına gəlirdi.

Qovurma hörrə. Unu qovururdular, içinə süd əvəzinə su tökürdülər, qaynıyırdı. Süd hörrəsinin rəngi ağımtıl olurdu. Amma qovurma hörrəsinin rəngi qırmızı olurdu.

Ələyəz cılbırı

Ən ləzzətli yeməklərdən biri də olurdu ələyəz cılbırı. Bizdə ələyəz bitirdi, başqa yerlərdə nə deyirlər bilmirəm, amma bizim eldə ona ələyəz deyirdilər. Taxılların içində, əkənəklərin içində bitirdi. Qəşəng tamı olurdu. Həm də dərman bitkisi kimiydi. Göyərtidə nətər hazırrıyırdılar, o qayda bişirilirdi. Soğança hazırranırdı, ələyəz yüyülüf, təmizdənib dorğanırdı. Sora tökülürdü qabaqca doğranmış göyərtinin içinə (Ağız dadına görə yeməyə başqa göylər də qatılırdı). Onun da içinə düyü, yaxud da yarma atıb, bişməyə qoyullar. Sora da üzərinə sarımsaxlı qatıx töküb yeyilirdi. Çox ləzzətdi yemək idi.

Quymaq

O da hörrə kimi hazırranır, ancax o, qatı olur, həm də onun yağı artıx olurdu. Hətta Ələsgərin şerində də adı varıydı: "Qocıya verəsən yeməyə quymaq". Həmən o, bizdərdə hazırranırdı (S:28;T:2).

DƏRƏLƏYƏZ MƏTBƏXİ

Əvəlikli əriştə

Soğan-dağ hazırlanır, sonra yuxa yayılır və əriştə kəsilir. Axşamdan tutumuna yetdik qazana su tökülür və növbə ilə dənli bitkilərdən – lobya (maş, qaragöz), noxud atılır qazana. Öncədən doğranıb isladılmış əvəlik də bura əlavə olunduqdan sonra bu bitkilər təxminən bir saata yaxın qazanda qaynadılır. Sonra qazana duz, istiot, acı bibər də əlavə olunur. Ən axırda doğranmış əriştəni atırlar qazana və hamısı bir yerdə yenidən

qaynadılır. Lazımı qədər (təxminən bir saat) qaynadıqdan sonra əriştə yeməyi hazır olur.

Şilə

Ələyəzdən bu yemək növünü hazırlamaq üçün istifadə olunur (Ələyəz bitkidir, əsasən də Qərbi Azərbaycanda, Naxçıvanda və ölkəmizin qərb zonasında yerləşən ərazilərində bitir).

Əvvəlcə soğan yağda qızardılır, Soğan-dağ hazır olandan sonra qazana su tökülür. Ələyəz hələ öncədən doğranır və suda isladılır ki, yumşalsın. Daha sonra onu yuyub atırlar qazana. Qazana az miqdarda alça turşusu da əlavə olunur. Tələbat olarsa, bir qədər düyü də qatmaq olar bu tərkibə. Bu yemək növü şilə adlanır. Şilə` də əriştə kimi sulu yemək növüdür.

Qeysəfə

Tərkibində qaysı olduğuna görə yemək növü belə adlanır. Əvvəlcə soğan-dağ hazırlanır, sonra qaysını ayrıca isladıb tumun çıxarırlar (Qaynadıb yumşaltmaq da olar). Hazırlanmış qaysılar soğan-dağla bir yerdə azca qovrulur. Ağız dadına görə qazana duz, istiot əlavə olunur. Axırda da üzərinə yumurta vurulur və ondan sonra yeyilir.

Lobyalı aş

Tərkibi və hazırlanma üsulu eynilə Göyçaydakı kimidir. Yeganə fərq ondadır ki, dərələyəzlilər bura ət əlavə edirlər. Yumru-yumru doğrandığı üçün ətə "quşbaşı" adı verilib. Əvvəlcə düyü su doldurulmuş qazanda qaynadılır. Qaynadıldıqdan sonra düyü süzülür. Sonra düyü ətlə bir yerdə qarışdırılır və dəmə qoyulur. Təxminən bir saatdan sonra yemək hazır olur. Bu növ aş əsasən xırda və "qaragöz" adlanan lobya ilə hazırlanır.

Əriştəli aş

Düyü ərişdə ilə bir yerdə qaynadılır. Sonra həlim süzülür. Tərkibindən bol həlim alındığına görə buna həlimli aş da deyilir.

Qovurma

Qoyun (toğlu) ətini öz yağında qovurar və vedrələrə yığardılar. Adətnən saxsı küplərə yığıb saxlayardılar. Belədə ət daha təzə-tər qalır. Bu da qış tədarükü hesab olunurdu.

MƏİŞƏT ALƏT VƏ MƏMULATLARI

Rəfətə

Lavaşı təndirə yapmaq üçün istifadə olunan alətdir. Əsasən söyüd ağacından hazırlanır. Əvvəlcə ağacın nazik çubuqları hörülür, sonra hörülmüş çubuqların üzərinə parça çəkilir (Daha doğrusu, parça çubuqların üzərinə bərkidilir). Bunun üçün qalın parçadan istifadə olunması məsləhətdir. Bundan sonra yoğurulmuş xəmir parçanın üzərinə qoyulur. Bunu ehtiyatla etmək lazımdır ki, xəmir qırışmasın. Daha sonra xəmir (lavaş) bu alət vasitəsilə təndirə yapılır. Bişirilmə zamanı işin rahat və təhlükəsiz keçməsi üçün əsasən bu alətdən istifadə olunurdu.

Qəzil

Keçinin tükünə verilən addır. Kustar toxuculuqda istifadə olunur. Ondan örkən, çuval və s. kəndir şəklində olan məmulatlar hazırlanır. Vaxtilə məişətdə geniş istifadə olunan bu məmulatların ipliyi yundan da ola bilirdi.

Dəstər

Buğdanı yarma halına gətirmək üçün istifadə olunan alətdir. Digər dənli bitkilərin də burada üyüdülməsi mümkündür. Əl dəyirmanı kimi istifadə olunan bu alətə el arasında "kirkə" də deyilir.

Cecim (cejim)

Palaz növüdür və yerə sərmək üçün istifadə olunur (S:29;T:2).

ZƏNGİBASAR MƏTBƏXİ

Tərs kabab

Yay yeməyi olduğu üçün əksərən ətsiz hazırlanır və ona görə də belə adlanır. Yəni, ifadə ətli yeməyə əks anlamda izah olunur. Pomidor, badımcan, kartof, bibər (şirin və acı), azca quyruq lay-lay doğranır. Əvvəlcə doğranmış quyruq qazanın dibinə döşənir. Ardınca doğranmış tərəvəzlər eyni qayda ilə qazana əlavə olunur. Yemək daha tamlı olsun deyə, yerləşdirilmiş tərəvəzlərin üzərinə təzə-tər reyhan yarpaqları düzülür. Üstündən də yeməyə yetdik miqdarda kərə yağı, istiot (əzilmiş də olar), sarıkök və duz əlavə olunur. Sonda qazana yarım stəkan su tökülür. Aşağı ölçüdə (vam xodda) qaza qoyulur və təxminən bir saat ərzində bişir. Bizlərdə "tərs kabab" adlansa da, bu yemək növü bəzi bolgələrdə (özəlliklə Bakıda) "əcəb səndəl" kimi tanınır. Onu da əlavə edək ki, ətlə hazırlanması nəzərdə tutularsa, bu zaman əti qiyməkeşlə* xırdaladıqdan sonra (qiymə halında) yeməyin tərkibinə qatmaq lazım gəlir.

Qeyd: Bizlərdə ətli yeməklər hazırlanan zaman (məsələn, küftə, yarpaq dolması, tava kabab) ət toxmaqla daş üzərin-

də yaxşıca döyülür. Belə olduqda ət təbii dadını saxlayır, maşından keçiriləndə isə əvvəlki təravətində qalmır (S:30;T:2).

İRƏVAN MƏTBƏXİ

Əvəlikli isti (şorba)

İrəvanın özündə olannarın yeməkləri ayrı idi, kənddə olannarınkı ayrı idi. Əvəlikli isti (şorba) bişirirdik. Biz irəvannılar şorbaya isti deyirik. Əvvəlcə soğanı yağda qovururuq, sora qazana lazım olan qədər su tökürük. Təxminən yarım saatdan sora quru əvəliknən lobyanı bir yerdə qaynayan suya atırıq. Bir az da duz atılır qazana. Hamısı bir yerdə yarım saat da qayniyannan sora şorba hazır olur. İndi burda da bu yeməyi bişiririk.

Qovurma

Orda qış çox olduğuna görə (altı ay qış olurdu), onlar (dayımgil) payızdan bilirdi ki, ailəsinin beş üzvü var, yaza qədər buna nə qədər ət lazım olacax. Ona görə də erkək mallar saxlıyırdılar, böyüdürdülər, yedizdirirdilər, payızda kəsirdilər. Onun ətini qəşəng pörtdədirdilər (Yığılırdılar, bu gün sizə, sabah bizə). Yığırdılar onu küpə. Onu yerə basırırdılar. Yer sərin olur axı. Qovurmanı, ətdəri seçirdilər. Pörtdədəndən sora sümüyünü-zadını təmizdiyif sora onu tökürdülər tiyannara, üstünə də bir paçka yağ. Nə qədər yağlı ət olsa, o pörtdənmiş əti yağda qəşəng, qıpqırmızı qovururdular. Qovurma deyillər buna. Onnarı yığırdılar həmən o küpələrə. Küpələri də basırırdılar yerə. İstədikləri vaxtı, bu günnərim ət bişirəjək, gedir o küpədən eşir. Elə yiməli şey olur ki o. Gedir küflətinə yetdik onnan çıxardır, ovur gətirir, təzdənnən qızdırır, kartoşka vurursa vurur, soğan vurursa vurur, özüyçün başqa bir yemək bişirir. Çox duzdu eləmirdilər, amma yağlı eliyirdilər ki, xarab olmasın.

Lavaş

Bu gün yığışırdılar bizə, çörək bişirirdilər, lavaş. Təndirə yapırdılar. Təndirə lavaşı rəfətəynən yapırdıx. Uzun şeydi, yayırdılar, yapırdılar. Biri yayırdı, biri çıxardırdı. Çardax düzəldirdilər, onun üstünə sərirdilər, quruyannan sora dəst-dəst yığırdılar. Yeməyə bir az qalmış isti suynan yuxanı suluyurdular. Rəfətə qarğı, saman kimi şey idi. Qoyurdular, üz də tikirdilər, astar da tikirdilər. Altdan da tutmaq üçün yeri var idi, təndirə yapmaq üçün. Yuxa ayrı şeydi, lavaş ayrı şeydi.

***

Sözün düzünə qalanda Ermənistanda biz badımcan, bibər, pamidor dolması bişirməmişik. Buna "Üç bacı" deyillər, onu burda görmüşəm. Ayrıca badımcan dolması bişiririk. Biz irəvannılar ona noxud da qatırıq, diri-diri təmizdiyif qatırıq ətin içinə. Göyçaylılar onu eləmir (S:16;T:2).

Alanı

Alanı şəftəlidən hazırranır. Şəftəli sucuğu da deyillər buna. Ən çox Naxçıvanda eliyirlər bunu. Yarma şəftəlidən hazırranır. Ortası o birilərinə baxanda açığ olur bu növün. Şəftəlini tamam yarıllar, qurudullar, içini qoznan doldurullar, sora asıllar, quruyur. Quruyannan sora çox yeməli olur. Naxçıvannılar indi də eliyir onu.

***

Orda biz əti alırdıx, küpümüz var idi, qovururdux, yığırdıx ora, qışda ordan götürüb istifadə edirdik. Bura gəldik, bu qaydaynan bunu bir il elədik, soralar tay eləmədik. Atama dedim, bə niyə eləmədik bunu? Dedi, burda hər vax təzə-tər alıb istifadə edirik, onunçün lazım bilmədik (S:24;T:2).

QAYNAQLAR

1. Aqil Kəngərli. Xatirələr dil açsaydı..., Tuna, 2017, 134 səh.

2. Elçin Abbasov. Lətifə poetikası // "Dədə Qorqud" jur., Bakı: 2001, № 1, s. 117-122

3.Yaşar Qarayev. Prototip şəkilidir, yaxud nəfəsdə zümzümə, tələffüzdə rəqs – Şəki şivəsi / Azərbaycan folkloru antologiyası, IV kitab. Şəki folkloru. Bakı: Səda, 2000, 455 səh.

4. Народные знания. Фольклор. Народное искусство. Москва, Наука, 1991, 168 səh.

5. Клод Леви-Стросс, Структурная антропология. Москва: Наука, 1985, 399 səh.

6. Məmmədhüseyn Təhmasib. Gözəllik nəğməkarı // "Azərbaycan" jur., 1971, №10, s. 176-193

7. Asif Hacılı. Bayatı poetikası: struktur, semantika, praqmatika. Bakı: Elm, 2019, 242 səh.

8. Şamil Əsgər. Dağların hikməti. Bakı: İşıq,1987, 100 səh.

9. Ziyəddin Məhərrəmov. Unudulmaz sazlı-sözlü yurdumuz. Bakı: Çaşıoğlu, 2001, 430 səh.

10. Qara Namazov. Aşıqlar (I kitab). Bakı: Səda, 2004, 444 səh.

11. Vahid Rəcəboğlu. Əsirlikdə qalan Göyçə. Gəncə: TMC, 2012, 349 səh.

12. Vahid Rəcəboğlu. Göyçə mənim ürəyimdə. Gəncə: Araz-M poliqrafiya MMC, 2017, 260 səh.

13. Əkbər Əlioğlu. Qapıları döy görüm. Bakı: Nərgiz, 2012, 191 səh.

14. Əkbər Əlioğlu. Vaxt soruşsa. Bakı: Bakı mətbəəsi, 2023, 244 səh.

15. Aqil Cəfərov (Kəngərli). Bir Allahın eşqinə. Təknur, 2004, 72 səh.

16. Aqil Cəfərov (Kəngərli). Yaxın və uzaq tarix. Kaspi, 2008, 295 səh.

17. Aqil Cəfərov (Kəngərli). Vaxtsız getdi gəncliyim. Azəri, 2015, 167 səh.

18. Aqil Cəfərov (Kəngərli). Günəşə boylanan ümidlər. Tuna, 2016, 141 səh.

19. Nizami Vəlişov (Tapdıqoğlu) Göyçay rayonu və onun toponimiyası, Bakı: Təhsil NPM nəşriyyatı, 2004, 246 səh.

- adaxlar – söz körpənin yenicə ayaq açıb yeriməyə başlaması anlamındadır.
- ağıl – yay dövrü üçün heyvanların saxlanılan və sağılan yeridir, təxminən bir metr hündürlükdə dörd tərəfli daş hasardan ibarət olur (Hündürlüyündən asılı olmayaraq bu yer ağac hissələri ilə də əhatəyə alına bilər).
- arxac – qoyunun topa yatdığı yerə deyilir və adətən hasarsız olur.
- arım – söz "açım" anlamında mətndə işləkdir.
- babaqqulu – nəzərə qarşı boyundan asılan ağ muncuq
- baya – söz məqsəd anlamındadır.
- bənək-bənək – ifadə xal-xal anlamındadır.
- bigah – agah olmayan
- cana – söz mətndə "elə də əhəmiyyətli olmayan", "əhəmiyyət kəsb etməyən" anlamlarında işləkdir. Burada "can" sözünə artırılmış "a" şəkilçisi sözün yeni mahiyyət qazanmasını şərtləndirmişdir. Ümumiyyətlə, "cana" dialektlərdə çox yayğın sözdür və söyləyicinin – (S:15-in) bizə təqdim etdiyi bir xalq deyimində sözün işlək məqamına diqqət çəkək:

Cəhd eyləmək cana çeydir, eldə madar olmasa.

Söyləyicinin açıqlamasına görə, buradakı "madar" vaxtilə elatda arxa, dayaq, sevimli, güvənilən kimi anlamlarda işlək olmuş, lakin zaman keçdikcə işləkliyi səngimiş və hazırda bölgə əhalisinin tamamilə istifadəsindən çıxmışdır (Əlavə mənbə üçün bax: Azərbaycan dilinin izahlı lüğəti, IV cilddə, III cild, Bakı:Şərq-Qərb, 2006, 672 səh., sözün açılışı səh. 277).

- cəlayi-vətən – vətəndən didərgin
- cələ – tələ
- çaqqıllıq (şaqqıllıq) – qoyunun yunundan sallanan peyin

- çalğı – qoyunun altını təmizləmək üçün istifadə olunan ağacdır.
- çatıb – söz yandırıb anlamındadır.
- çəlimə – ot basmış cığır, iz
- çilikləndi – əks-səda verdi anlamındadır.
- çin – doğru çıxmaq, həyata keçmək
- darayı – topuğa qədər uzanan qadın geyiminin ətəyi belə adlanır. Əvvəllər "tuman" adlanan bu geyim növündən indi də bir çox müsəlmanlar yaşayan ölkələrdə istifadə olunur.
- dərdəcər – bilərəkdən özünü dərdli göstərən
- gədik – sərt yoxuş və ya dağın zirvəsinə çıxaran təhlükəli yol
- gəvə – adətən, böyük ölçülü xalça belə adlanır.
- haqqıx – nəzərə qarşı boyundan asılan mixəyi rəngli muncuq
- harsın – pozğun, yolunu azmış anlamındadır və bölgədə erməni qadını haqda işlədilən ifadədir.
- harfa – qeyri-ciddi, nə gəldi danışan
- hellən – (hellənmək) aşa-aşa və ya yuvarlanaraq getmək
- həvə – eynilə kirkit xassəli döyəcləmə alətidir, fərqli cəhəti odur ki, bu alətdən böyük (ağır) ölçülü xalçaların toxunuşunda istifadə olunur. Belə xalçalar el arasında "gəvə" adlanır.
- hürüyən – söz hürmək anlamındadır.
- xəkə – quru çay dəmləndikdən sonra yığılıb qalan tullantısı belə adlanır (Kömürün ovuntusuna, tozuna da xəkə deyilir).
- xorum – büküm, otun əllə bükülmüş kütləsi
- irçal – üzüm mürəbbəsinin qatı halda hazırlanmış tərkibi belə adlanır. Adətən bilağanı növ üzümdən hazırlanır. Lüğətlərdə ərəbcə "bələğə" (büluğ) sözündən törəndiyi və sözün "yetişmiş, şirinliyi ən yüksək həddə çatmış" anlamlarını ifadə etdiyi bildirilir. Bəzi mənbələrdə "bilağanı" sözünün türk mənşəli olub kənd, oba adından götürüldüyü haqda da yanaşmalar vardır.

- kalafa – sığınacaq kimi istifadə olunan divarları qalmış uçuq tikili
- karıxır (karıxmaq) – çaşıb qalmaq
- kövşən – taxıl biçiləndən sonra onun yerdə dik qalmış çöpləri belə adlanır. Adətən samanlıq əraziyə də kövşən deyilir.
- kərənti – dəryaz
- kirkit – xalçaçılıqda istifadə olunan döyəcləmə alətidir, toxuma prosesində iplərin arasındakı sıxlığı təmin etmək üçün ondan istifadə olunur.
- küdül – yağışı kəsdirmək üçün icra olunan mərasimdə gəlincik qiyafəsində gəzdirilən əşyanın adıdır. Xalqımız arasında çömçə adı ilə bilinən bu əşya mərasimin aparıcı atributu olduğundan elatda həmin mərasim həm də "Çömçəxatun" adı ilə tanınmaqdadır.
- qaçarığına – söz atı qaçdığı vəziyyətdə minmək anlamındadır.
- qəcəl – quşdur, qartala bənzəyir, o da qayalıqda yaşayır.
- qəmə – xəncər, yaxud da bıçaq anlamı kəsb edən bu söz bəzi bölgələrimizdə kiçiltmə dərəcəsinə gətirilərək "qəmərti" kimi də işlədilməkdədir. Hər iki tərəfdən kəsici olması ilə qəmə digər bıçaq növlərindən seçilir.
- qılçaları – söz ayaqları anlamındadır.
- qımıldanmayıb – söz mətndə "səssizcə qalıb", "səsini çıxarmayıb" anlamlarında işləkdir. Fikrimizcə, burada "qım", yəni sözün kökü səs, söz anlayışlarına birbaşa dayanıqlıdır və sözlü ənənəmizdə "qımqımı" adlanan poetik növün hazırda işlək olması da bunu söyləməyimizə əsas verir. Qərb bölgələrimizdə (o cümlədən Qərbi Azərbaycanda) daha yayğın olan bu növ məzmunca bayatı ovqatlı olsa da, deyilişcə sərbəstdir və fərqli bölgülü misralarda təqdim edilir. Sözün kökünün ("qım"- ın) şamançılıqla ilişkili olmasını da fərz etmək mümkündür. Belə ki, ritualı idarə edən şamanın (icraçı qamın) ifa

tərzi və pantomim davranışı (“qamlama”sı) bu ilişkinin axtarılmasında təməl şərt kimi götürülə bilər. Digər halda, “qamqım” paralelliyinə əsaslanmaqla bu rabitənin tapılmasına təşəbbüs göstərmək olar və təhlil hansı tərkibin əsas, hansının törəmə olduğunu aşkarladar.

- qiyməkeş – əti qiymə halında doğramaq üçün istifadə olunan alətdir.
- qoşaəlli – söz pis gözlü, pis nəfisli anlamındadır.
- maddım-maddım – ifadə mətndə “təəccüblənmək” anlamında işlənmişdir. Bu mürəkkəb tərkib xalqımız arasında “mat qalmaq” şəklində də işləkdir.
- məkə – qarğıdalı
- ovac (umac) – yemək növünün adıdır.
- öcəşmək – mübahisə etmək
- pəyə – əsasən, iribuynuzlu heyvanların saxlanıldığı yerdir. Bəzi bölgələrdə bu saxlanc yerinə “tövlə” də deyilir.
- rəftə (rəfətə) – çörəyi, yaxud lavaşı təndirə yapmaq üçün istifadə olunan alətdir.
- səkir – (səkmək) söz mətndə “qaçır” və ya “sürətli qaçır” anlamlarında işləkdir.
- sərnic – misdən hazırlanmış qabdır, burada suyu və digər maye şəklində olan qidaları müəyyən bir müddət sərin saxlamaq olur.
- sucaq – bol sulu olan
- şapannaqla – söz şapalaq anlamındadır.
- şələ-pələ – ifadə mətndə “nəyin varsa” anlamında işləkdir. Bəzi bölgələrdə “şələ-şülə” şəklində işlənsə də, yenə eyni anlama dayanıqlıdır. Maraqlıdır ki, köçəri həyat tərzinə üstünlük verən türklər “şələ-pələ”ni daşınan ev qismində qəbul etmişlər və bu da ifadənin xeyli yaşı olduğunu əsaslandırır.

- şəpə – qar yığınına deyilir. Qışda qar elə bir səviyyədə yağırdı ki, hətta hündür binaların dam örtüyünə qədər yüksəlirdi. Bu zaman binadan qalxan hərarətin təsirindən qar yığını (şəpə) ilə bina arasında o qədər də geniş olmayan boşluq (koridor) əmələ gəlirdi. Təkrar yağıntı zamanı qar yuxarıdan arakəsməni basıb örtsə də, aşağıda yenə boşluq qalırdı. Əgər binanın damından bu aralıq hissəyə bir əşya (digər nə isə) düşərdisə, onu oradan çıxarmaq müşkülə çevrilərdi. Qeyd edək ki, əvvəllər binaların damı düzsəthli inşa olunardı və bu hal onun üzərində hərəkəti asanlaşdırardı.
- şəvə – nəzərə qarşı boyundan asılan qara muncuq
- uzun paya – ifadə dəryazçının qollarını mümkün qədər irəli açaraq otu çalması anlamına gəlir. Bu zaman daha geniş məsafədə biçim əldə olunur. Uzun paya isə burada ölçü vahidi kimi nəzərdə tutulmuşdur. Bəzi bölgələrdə – özəlliklə, Qarabağda bu tip hesablama "saceyin" adlanan alətlə aparılır (məsələn, bir saceyin, iki, üç və ilaxır). Maraqlıdır ki, üçbucaqlı şəklində və ağacın nazik (şümal gövdəli) yerindən hazırlanan bu alətin hissələri bölgədə paya adlanır.
- zağa – mağara, söz ayı mağarası anlamında da işləkdir.
- zir – nəlbəki
- "Zor zəyrəkdən bəzir çıxarar" məsəlindəki zəyrək bitki adıdır, bəzir isə ondan alınan məhsuldur. Elektrik, yaxud da istilik enerjisi sərf olunmadan su dəyirmanlarında üyüdülmə üsulu ilə istehsal olunan bu məhsuldan (yağdan) əvvəllər qida kimi məişətdə, müalicə məqsədləri üçün isə xalq təbabətində geniş istifadə olunub. Bu məhsulu istehsal edən dəyirmanlar xalq arasında "bəzirxana" adlanırdı və on, iyirmi tonluq daşlarla hərəkətə gətirilirdi. Məhsulun hansı əziyyətlə başa gəldiyi məsəldə aydın ifadə olunmuşdur.

AYDINLATMALAR

1. Bu toponim vaxtilə Qərbi Azərbaycanın şimal-qərb hissəsində yerləşən dağ adını daşıyıb. Dörd zirvədən ibarət olan Alagöz dağının ən hündür zirvəsi 4095 metrə çatır. Alagöz dağı indiki Ermənistan ərazisində ən hündür dağ hesab olunur.

2. Köçürülənlərdən aldığımız məlumatlara görə, Şərur camaatı onları çox mehriban qarşılamış, hətta onların Şərurdan digər bölgələrə aparılmamaları üçün təşəbbüs də göstərmişlər. Əlavə etdilər ki, sərhəd ərazilər olduğu üçün Dərələyəzlə Şərur camaatı daima təmasda olmuş, hətta bu təmas ailələr arasında nigah münasibətləri səviyyəsində genişlənmişdir. Özəlliklə, Böyük Vətən müharibəsi dövründə (1941-1945) Şərur camaatının onlara arxa durması, taxıl və digər növ qidalarla təmin edərək onları aclıqdan qoruduqları haqda bu insanlar böyük razılıq hissi ilə danışdılar.

3. Qızdırmaya qarşı həmin vaxt el arasında "sarı kinə" deyilən dərmandan istifadə olunub.

4. Aqil Kəngərli (Cəfərov) Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvüdür, ədəbi fəaliyyətinə görə 2017-ci ildə Prezident mükafatına layiq görülmüşdür. O həmçinin Türkiyə "İlim ve Edebiyat Eseri Sahipleri Meslek Birliği"nin (İLESAM), "Avrasiya Sanat Kültür ve Edebiyat Dernegi"nin (ASKED) və İraq-Türkman yazarlar təşkilatının üzvüdür.

5. Kortəbii üsulla tikilmiş taxta daxmadır.

6. Cəfərov Abbas Cəfərqulu oğlu 1962-ci il 16 aprel tarixindən təqaüdə çıxanadək Salyan rayonunun tabeliyində olan 3 nömrəli Tikinti-Quraşdırma İdarəsində sahə rəisi kimi çalışıb.

7. Haqqında söz açılan Bəhmən Mustafayev həmkarım Afaq Mustafayevanın ata babasıdır.

8. Sallı kənd sakini olmuş və hazırda İsmayıllı rayonunda məskunlaşmış (1935-ci il təvəllüdlü) Sadıqov Nadir Bəşir oğlu bu haqda bildirdi ki, "Qəhrəmani" havası bizim kətdən olan Aşıq Qəhrəmana məxsusdur. Haqqında məlumat çox azdır, ancaq bildiyim budu. Havanınsa onun olması adından məlumdur. Bizdən yaşlıların dediyinə görə 1905-ci ildəki erməni-müsürman davasında ermənilər tərəfinnən güllələnib" (S:31;T:2).

Nadir kişi erməni-müsəlman olayı haqda bir maraqlı məlumatı da bizə çatdırdı. Dedi ki, "1918-20-ci il soyqırımında az qalmışdı ermənilər bizim kətdəri qırğına versinnər. Camaat pərən-pərən düşmüşdü, bilmirdilər ki, necə vəziyətdən çıxsınnar. Bı vaxtı Həsən Mizəyevin atasinan mənim atam tədbir görür, ətrafdakı kətdərin də camaatın toparliyıb qırğının qabağın alıllar. Həsən Mirzəyevin özü qonşu Qovuşuq kəndinnəndi. Arpa çayının bir (sol) qolu Qızıl gül kəndinnən gəlir, o biri (sağ) qolu da Qabaxlı kəndinnən... Bı qollar gəlib Qovuşuqda birləşdiyinnən oların kəndı belə adlanırdı" (S:31;T:2).

Ruhu şad olsun, ali məktəbdə müəllimim olmuşdu Həsən Mirzəyev. O vaxtı (keçən əsrin yetmişlərində) soyadından "yev"i hələ atmamışdı, şübhəsiz, sovet müəlliminə bu "nöqsan" tutulardı... Milli məsələ idi axı bu... Ancaq hər nə olursa-olsun, həqiqəti deyənə heç vəchlə nöqsan tutulmaz! Sözümün canı odur ki, Həsən Mirzə çox humanist pedaqoq idi, təhsil aldığım müddətdə bir tələbənin də olsa ondan incik düşdüyünü xatırlamıram...

Düzü, Nadir kişinin olay haqda dediyi digər bir məlumat məni çox təəccübləndirdi. Dedi ki, "1918-də bizə yağı kəsilmiş bir ermənin oğlu 1988-ci ilin köçündə bizim müdafiəmizə qalxmışdı. Atasının adı Mehrab idi, 41-45-in müharibəsi zamanı it kimi gəbərdi. Bizim kətdən olduğuna görəmi, ya da

yaxşı qonşuluq görmüşdü bizdən, ona görəmi usandı, nədi, camaatı köçürəndə zəng eliyib qonşu kətdə yaşiyan ermənilərinə ki, əyər bı kətdən bir adama zərər dəysə, deyirəm, otuz dənə patronum var, iyirmi doqquzun sizə vuracam, axırıncını da özümə... Dəymiyin, salaciyıx yola, özzəri gedəcək. Dediyi kimi də oldu, camaat salamat çıxdı kətdən" (S:31;T:2). Nə deyək, doğrudan da, təəccüblüdür və o anda məndə belə təəssürat oyandı ki, həmin adam "xalis" erməni olmayıb, yəqin, qanı hansısa qannan "qatışıq" imiş... Təki gümanım özün doğrultsun, çünki öz təcrübəmdən türkə rəhmi gələn bir erməni görmədim və bilmədim... O bizik, aşırı humanist və unutqan millət!

Daha da təəccübümü artıran, bu erməni ilə bağlı Nadir kişinin söhbətə əlavə bir "rəng" qatması oldu. Dedi ki, "Müharəbə vaxtiydı, əhali acınnan qırılıb batırdı. Düzü, həmin devirdə Şərur camaatı bizi ajdıxdan qutardı, olar olmaseydi kim bilir, indi hardeydıx?! Həmin günnərin birində aşağı kətdən, dəyirmannan taxılımızı üyüdüb evə qayıdırdıx. Beş-altı kilo arpa, bığda olardı.... Kəndin lap əyağında, "Camalın dam-daşı" deyilən yer vardı, ora çatanda gördüh tüssü gəlir. Qardaşım dedi, keçəh, görəh nədi... Gördüh ki, həmən o erməni uşağı, iti qoyub qabağına kəsib, pişirib, yeyir. Qardaşım dedi ki, onu yemə, ölərsən. Dedi, onsuz da ölürəm da..." (S:31;T:2).

Nadir kişi bir əlavə də etdi ki, bu erməninin iki bacısı var idi, o dövrdə onlar da pişik yemişdilər. Əslində, məsələ ermənilərin çıxılmaz şəraitdə necə və nə ilə qidalanmasında deyil. Adi şəraitdə belə dünyada it, pişik və bu qəbildən olan (həm də müsəlman qövmünə buyurulmayan) digər növlərlə qidalanan xalqlar mövcuddur. Sözün məğzi odur ki, hər hansı müşkül olursa, olsun İslam dini o şəraitdən səbirlə çıxmağı üstün bilmiş, daima öz qövmünə ona rəva görülməyən təmayüllərə

adekvat yanaşmağı tövsiyə etmişdir. Dərk olunandır ki, hər üç din (musəvilik, xristianlıq, müsəlmanlıq) Yaradanın qüdrətindəndir və bunun mübahisə mövzusu olmaması da dərkə görə anlaşılandır. Belə isə, dinin bəşər övladına buyuruğu əmin-amanlığı gözləmək, haqqı güdaza verməmək, rəhmli olmaq və bu kimi keyfiyyətləri qavramaq və təqdir etmək deyilmi?! Şübhəsiz ki, tamamilə belədir... Amma ermənilər neynədi? "Allahın evin" xəyanət yuvasına çevirdi, bütün fitnə-fəsadlara burada "xeyir-dua" verdi... Belə olduqda, ermənin qocası, gənci, uşağı bundan nə əxz eləyə bilərdi?! Yalnız haqsızlıq, xəyanət, qəddarlıq və bu kimi bəşər övladına buyurulmayan xislətlər... Görün, hardan hara gəldik.... Erməni uşağının xeyirxahlığından it əti yeməsinə... Qarışıq məsələdir... Elə ermənilərin "qarışıq millət" olması kimi... Biz bura qədər.... Qalanını oxucu özü düşünüb-daşınsın!

Söhbət uzandıqca "işartı" verirdi ki, Nadir kişinin ürəyi "dop-doluymuş". Məsələn, o belə bir maraqlı məlumatı da gedişatda bizim üçün açıqladı: "Deyilənə görə, "Cəlili" havasını dinləyəndən sonra Aşıq Ələsgər Cəlildən soruşub ki, bı havanın adın nə qoymusan? Bı da deyib ki, hələ ad qoymamışam. Onda Ələsgər qayıdıb bına deyib ki, "Cəlili" qoydum mən bu havanın adın. Bı da Ələsgərdən çox razı qalır. Başqa neyniyə bilərdi? Ələsgər həm aşıqların ustadıydı, həm də bı sənətin zirvəsindəydi!" (S:31;T:2).

9. Söhbət əsnasında o da məlum oldu ki, deportasiyadan sonra köçürülən əhali əsasən iki istiqamətdə Azərbaycanın kənd rayonlarına paylaşdırılıb. Həmin vaxt Aqil müəllimin ana babası (hazırda ömrünün 102-ci baharını yaşayan Vedi rayonu Ərmik kənd sakini Nəbi Nuriyev) ailəsi ilə birlikdə İmişli rayonunun Qaralar kəndinə yerləşdirilir (Bir hissə əhalinin

Salyan rayonu istiqamətindəki kəndlərə paylaşdırıldığı haqda "Ön söz"də məlumat vermişik).

10. Aqil müəllimin nəzərdə tutduğu sayılan kişilərdən biri 1928-ci il təvəllüdlü Kazım Şamil oğlu Kazımov idi və söhbət zamanı o bu adın üzərinə nə üçün gəldiyini də bizə izah etdi: "Camaatımızı Salyana köçürənnən sora etiraz olaraq bıların hər ikisi, yəni Kazım kişinən Bəhmən kişi xəlvətcə Salyannan qaçıb, gəlillər Bərdənin İmirli kəndinə. Torpağı qazıb, özlərinə ev düzəldib, gizlin-gizlin yaşamağa başdiyıllar burda. Bizlərdə "qazma ev" deyillər belə tikiliyə. Nə isə, bılar altı ay yaşiyıllar burda, sora xəbər tutub, bıları təzədən qaytarıllar Salyana, öz əvvəlki yerlərinə. Hansısa səbəbdən, bilmirəm, amma Bəhmən kişi sonradan ailəsinən birgə Qubaya köçür, axıra qədər də orda yaşiyır. Kazım kişi isə bizim camaat kimi Göyçaya gəlir və o da eynən, ömrünün axırına qədər burda yaşıyır. Bu hadisəni şəxsən özü danışmışdı mənə Kazım kişi... Təsəvvür edin, bu adam ilin 365 gününü oruc tutardı, hər adamın bacaracağı iş deyil bu... Nə deyim, Allah hər ikisinə rəhmət eləsin! İndi baxın, görün, camaatımız o vaxtlar nələr çəkib"?!

11. Rus dilindən alınma ifadədir və dilimizə tərcümədə "yük qatarı" anlamına gəlir.

12. Rus (etap) sözünün dilimizdə təhrif olunmuş şəklidir. Sosialist inqilabından əvvəlki Rusiyada silahlı əsgərlərin müşayiəti altında bir yerdən başqa yerə göndərilən məhbus dəstəsinə verilən addır. Həmin dövrdə termindən sürgün olunan və ya həbsxanaya köçürülən dustaq qruplarını təsvir etmək üçün istifadə edilmişdir (Məlumat www.google.com saytından götürülmüşdür). "Yatab" sözü dilimizdə müvəqqəti yerləşmə anlamında da işləkdir.

13. Rus dilindən alınma ifadədir və dilimizə tərcümədə "uzunboğaz dəri çəkmə"yə deyilir.

14. Söyləyicinin açıqlamasına görə bu lal mənzərə üzrhaqlığın "qədərindən artıq aşağılanma həddi"ni ifadə edir. Bu hal isə iki səciyyəvi əlamətlə burada işarələnmişdir. Bunun bir əlaməti boyundan asılmış çəkmələrdirsə, digər əlaməti çəkmələrin içərisinin qumla doldurulmasıdır. Yəni, müqəssirlər bu işarələrlə bildirmək istəyiblər ki, "ayağa geyilmiş çəkmə" və "yerə səpilmiş qum" kimi qarşınızda qiymətsizik (S:4).

15. Bəzən el arasında "filankəsin ayağı düşərli oldu, gözləmədiyim halda işim düzəldi" kimi deyimdən istifadə olunur. Bunun eyni mahiyyəti ifadə edən, lakin şəkilcə fərqli örnəyi olan "filankəsin əli yüngül imiş, malım tez satıldı" tərkibli yanaşması da xalqımız arasında işləkdir. Əslində, bu da inancın bir növüdür və "özünü təlqin" mahiyyəti kəsb edir.

16. Deportasiyadan sonra Cabbarovlar ailəsi böyük bir tərkibdə İsmayıllı rayonunda məskunlaşsa da, bu soyadı daşıyan bəzi ailə üzvləri ölkənin digər ərazilərində qərar tutmağa üstünlük verdi. Məsələn, ana (Cabbarova Zəhra Məşədi Kazım qızı) doğulduğu Kəlbəcər rayonunun Dərəqışlaq kəndinə pənah apardı, yaxın ailə üzvlərindən ikisi (Cabbarova Kifayət və Cabbarova Həyat) Bakı şəhərinə üz tutdu, digəri isə (ata soyadını daşıyan Nadirova Gülnaz) Mingəçevir şəhərində yerləşdi. Bu ailəylə çox sıx bağlı (yaxın, yaxud da uzaq qohum olan) bir neçə şəxs də var idi ki, onlar da (Bəşirova Südabə, Məmişov Akif, Xəlilov Əbdülbari) həmçinin ölkənin fərqli-fərqli ərazilərində məskunlaşmağı lazım bildilər. Lakin müxtəlif ərazilərə səpələnmələrinə və özəl qayğılarla üz-üzə qalmalarına baxmayaraq, həmin insanlar bu müddət ərzində bir-birləri ilə əlaqələrini kəsməmiş, daima birgə dərdləşib, bir-

gə bölüşmüşlər. Elə o səbəbdəndir ki, onların folklor baxışlarına da bu səciyyənin yansıdığını müşahidə etmək olur. Yeri gəlmişkən deyək ki, Nizami Cabbarov nəinki bu gün həyatda olan yaxınlarının folklor irsini arxivləşdirməklə məşğuldur, bu fədakar folklor aşiqi vaxtilə dünyasını dəyişmiş bacı-qardaşlarının, qohumlarının, tanış-biliş həmyerlilərinin bu qəbildən olan irsini də toparlayaraq onları "itib-batmaqdan" sığortalaya bilmişdir. Bu minvalla, İsmayıllıda daimi məskunlaşmasa da, eləcə deportasiyaya məruz qalmış (həm dünyasını dəyişmiş, həm də həyatda olan) bir neçə soydaşımızın şəxsi arxivindən də kitaba nümunələr daxil etməyi zəruri saydıq.

17. Göyçə mahalı, Basarkeçər rayonunda kənddir. Bu kənd qeyri-adi və iri daşlarla zəngin olduğu üçün belə adlanıb. Çox iri daşların həcminə görə elə də ağır olmaması onların qeyri-adiliyini şərtləndirmişdi. Əksərən də bu tipli daşlar kənddən yarım km aralı "Qırma daş" deyilən ərazidə geniş yayılıb. Bir neçə növdən (tuf, penza – yerli ləhcədə "kəfəng") ibarət olan bu daşların qırmızı rəngdə olması onlara bir qədər də marağı artırırdı. Məhz bu keyfiyyətlərinə görə belə daşlardan inşaat işlərində (ev, hasar və s. tikintidə) geniş istifadə olunurdu. Bölgədə el şairləri kimi tanınmış Məmmədhüseyn və Alqayıd Xəlilov, həmçinin bu kənddəndirlər. Sonuncu həm də Seyid Bayram ocağının varislərindən idi. Məlumata onu da əlavə edək ki, deportasiyadan sonra Daşkənddən didərgin düşmüş əhalinin bir hissəsi Bərdə rayonu ərazisində məskunlaşıb və hazırda həmin ərazi Yeni Daşkənd adlanır.

18. Kitabda qarışıq mövzularda təqdim etdiyimiz yumorlu nümunələr arasında elələri vardır ki, onların da aparıcı tipajları yerli sakinlərdən ibarətdir. Məsələn, Alməmməd, Tahir, Kəköy Maarif və digərlərini qeyd etmək olar. Lakin mövzu ilə

bağlı daha səciyyəvi hesab etdiyimiz tipajlar haqqında kitabda müfəssəl şərhlər verməyi lazım bildik.

19. Ziyəddin Məhərrəmovun "Unudulmaz sazlı-sözlü yurdumuz" kitabında təqdim olunan Aşıq Rəcəbin bu qoşmasının çox az fərqlənə biləcək digər variantını aşığın ortancıl oğlu Vahid Əhmədov Soltankənddə olduğumuz zaman şəxsən özü bizə təqdim etdi. Və o, əminliklə əlavə edərək dedi ki: "Bu variant orijinal hesab oluna bilər, çünki sağlığında atamın öz dilindən övladları tərəfindən yazıya alınıb". Çox cüzi xətalarla müşayiət olunsa da, müsbət haldır ki, həmən variantın bir və dördüncü (sonuncu) bəndlərini ilk dəfə professor Qara Namazov müstəqil tərtib etdiyi "Aşıqlar" kitabının I cildində ictimaiyyətin diqqətinə çatdırmışdır (Xatırladırıq ki, "Ön söz"də professorun doxsanıncı illərdə aşıqla görüşü haqda açıqlama vermişik). Yəni, biz də o qənaətdəyik ki, "Aşıqlar" kitabında nəşr olunan variant da məhz aşığın öz dilindən qeydə alınmışdır. Nəticə də ona dayanır ki, bu variant aşığın oğlunun bizə təqdim etdiyi variantın eynisidir. Bütün bunları nəzərə alaraq, orijinal hesab olunan variantı tam şəkildə ilk dəfə oxuculara təqdim edirik:

OLDU

44-cü ilin bir yanvarında.
Döyüş meydanında çox fəğan oldu!
Tanklar hər tərəfdən keçdi hücuma,
Qırıldı məxluqat, meydan qan oldu!

Snayperlər bizi aldı nişana.
Deşildi sinələr, boyandı qana.
İmdad oldu yıxılana, aşana,
Ulu tanrım özü həm həyan oldu!

Harayladım igidlərin mərdini,
Çəkdi özü öz xalqının dərdini.
Tar-mar etdi işğalçının yurdunu,
Çalındı qələbə, şöhrət-şan oldu!

Ay Rəcəb, sözünü gəl eylə tamam,
Yetişsin dadına Sahib-əz zaman.
Sağımda vurdular bir gözəl cavan,
Dedi nişanlıyam, ömrü son oldu!

20. Şifahi dolaşan məlumatlara əsaslanmaqla deyə bilirik ki, Aşıq Rəcəbin düzüb-qoşduğu "Qaçaq Mayıl" dastanının həqiqi prototipi olan Mayıl Azərbaycanın şimal-şərq regionunda dünyaya göz açmışdır. Gənclik dövrünün daha sıx Quba rayonu ilə bağlı olması, iyirmi, otuzuncu illər kəsimində bu tarixi şəxsiyyətin bölgədəki "qaçaqçılıq hərəkatı"nın başında durması, Şura yetkililərinin yerlərdə tətbiq etdiyi qayda-qanunlarla barışmayaraq başının dəstəsilə bu idarəçiliyə fəal müqavimət göstərməsi və s. haqda gətidiyimiz istinadların mənbəyi yenə də şifahi dolaşan bilgilərdir. Danışılanlardan o da bəlli olur ki, həmin dövrdə Mayıl nəinki doğulduğu bölgədə, hətta ətraf ərazilərdə də mərd bir qaçaq kimi populyar olmuş, haqlarını müdafiə etdiyi sadə insanların böyük rəğbətini qazanmışdır. Söhbətimiz zamanı Aşıq Rəcəbin ortancıl oğlu Vahid Əhmədov Mayıl haqda atasından eşitdiklərini çətinliklə xatırlasa da, hər halda onun mövzu ilə bağlı bizə təqdim etdiyi bir məlumat bu şəxsiyyəti az-çox səciyyələndirdiyi üçün dəyərli hesab oluna bilər. Vahid müəllim bildirdi ki, "1918-ci il qırğınları zamanı camaatımız Göyçədən didərgin salındıqdan sonra hərə bir yerə üz tutur, kimi Türkiyəyə, kimisə Azərbaycanın müxtəlif bölgələrinə. Bu vaxtı Şəmkirə gələn anamın dayısını

(İmanov Müseyib Məşədi Əli oğlunu) Mayıl oğulluğa götürür (Müsahibimin dediyinə görə, ailəsi olsa da, Mayılın övladı yox imiş). Həmin dövrdə Mayıl Şəmkirin Təhnəli kəndinə sığınıbmış. Bir müddət bu uşaq Mayıla oğul kimi xidmət göstərir. O vaxta kimi ki, Mayılı həbs edirlər. Belə ki, müqavimət göstərdiyi zaman ayağından güllə yarası alan Mayılı hökumət ələ keçirir. Bundan sonra Mayıl Tiflisə aparılır və bir müddət orda ayağından müalicə olunur. Ordan hara aparılır, öldürülür, yaxud türmiyə salınır, daha o haqda məlumatlı deyilik". Vahid müəllim onu da əlavə etdi ki, o qədər sərrast atıcı olubmuş ki, almanı arvadının (Yetərin) başına qoyub, gülləynən uzaxdan vurub sala bilirmiş. Belə olanda arvadı deyirmiş ki, a Mayıl axırda o biri gözümü də sən vurub çıxardacaqsan. Bu da məlum edir ki, elə əvvəldən Yetərin bir gözü kor imiş. Hər halda belə comərd şəxsiyyəti dolğun səciyyələndirməyimiz üçün yetərli görünməsə də, Mayıl haqda Vahid müəllimin bizə çatdırdığı bu cüzi bilgiləri olduqca önəmli sayırıq və düşünürük ki, bu təfərrüatlar oxucu tərəfindən də maraqla qarşılanacaq.

Əsas təmas dağlıq hissə ilə olsa da, ümumən, İsmayıllı rayonu şimal-şərq istiqamətindəki ərazilərimizə bitişik landşaftda yerləşir və bu da bizi o qənaətə gətirir ki, İsmayıllı da Qaçaq Mayıl hərəkatının nüfuz masştabındakı ərazilərindən olub. Bu da bizi belə bir ehtimal üzərində düşünməyə vadar edir ki, ola bilsin, İsmayıllı rayonunda məskunlaşdıqdan sonra Aşıq Rəcəb yerli sakinlərdən də Mayıl haqqında hansısa söz-söhbət və ya əhvalatlar eşitmişdir. Hərçənd, aşığın ortancıl oğlu əminliklə bildirir ki, atasının yerli sakinlərlə bu mövzuda elə bir təması olmayıb. Bu etirafı ciddi qəbul edirik, amma öz ehtimalımızın da hələ ki, üzərində dayanırıq. Və güman edirik ki, Mayılın fəaliyyətinə dair yerli sakinlərdən aldığı hər hansı

bilgi aşığı daha da ruhlandırmış və öncədən ərsəyə gətirdiyi dastan versiyanı bu bilgilərlə bir qədər də təkmilləşdirmişdir Nəzərə alaq ki, "Qaçaq Mayıl" dastanı Aşıq Rəcəbə Qoşabulaqlı Aşıq Behbuddan, Aşıq Behbuda isə İnəkdağlı Aşıq Qəhrəmandan ötürülmüşdür (Bu məlumatı Aşıq Rəcəbin ortancıl oğlu Vahid Əhmədovdan əldə etmişik). Deməli, hələ Göyçədə olarkən dastan Aşıq Rəcəbə bəlli olmuşdur və həm də ənənəvi yolla ötürülməsi onun bir neçə versiyada mövcud olması ehtimalını gündəmə gətirir.

Bu da maraqlı faktdır ki, məhz İsmayıllıda qərar tutduğu müddətdə Aşıq Rəcəb bu dastanı Qara Namazova söyləyib və bu fakt öz ehtimalımızın üzərində dayanmağa bizi bir qədər də ümidləndirir. O mənada ki, hər hansı söyləmə aktında söyləyici hökmən sakini olduğu mühitin özəlliklərini də nəzərə alır və ola bilməzdi ki, aşıq bu akt zamanı bölgə ilə bağlı hansısa təəssüratlarını dastana əlavə etməsin. Yenə də qeyd edirik ki, bunlar bizim ehtimalımızdır və nə qədər ki, dastanın nəşrilə bağlı məsələ tam həllini tapmayıb, deyilənlər ehtimal olaraq qalır...

Sorğulara əsaslanmaqla deyə bilirik ki, sonrakı taleyi faciəli olan Qaçaq Mayıl vaxilə at oynatdığı ərazilərimizdə indi də hörmətlə xatırlanır və haqqında könül açan xatirələr danışılır. Belə xatirələrdən birini əslən Quba rayonundan olan və Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş (1956-cı il təvəllüdlü) Rövşən Qasım oğlu Zülfüqarın dilindən eşitməyimiz düşünürəm ki, araşdırmamıza müəyyən qədər fayda gətirdi. Öncə Rövşən bəy qeyd etdi ki, "Əyər söhbət Qaçaq Mayıldan gedirsə, bəri başdan deyim ki, o, sonsuz olmayıb. Ən azından Mayılın iki oğlu olması barədə atamdan eşitdiklərimi dumanlı da olsa, xatırlayıram. Məsələ burasındadır ki, atam da (1915-1992 təvəllüdlü Qasım Yusif oğlu Zülfüqar) buları qeyrisin-

nən yox, məhz öz atasınnan, yəni babamnan eşidə bilərdi. Çünki babam (1884-1962 təvəllüdlü Yusif Əliəkbər oğlu Zülfüqar) Qaçaq Mayılın döyüş yoldaşı olub və 1920-ci ildə bolşeviklər gələndə olar Təngəaltı (Qubada kənddir) qayalığındakı mağarada bir yerdə müdafiə olunublar. Babam deyirmiş ki, yaxşı silah, sursatdarı da olub, Maksim plamyot, Aynalı deyilən beş açılan tüfənglərnən silahlanıblarmış. Fürsət düşən kimi mağaradan çıxıb döyüşür, sonra da yerlərinə qayıdırlarmış. Bir müddət belə davam gətirdikdən sora get-gedə Mayılın dəstəsi seyrəlməyə başdiyır, yəni ölən, yaralanan olur, həm də ruslar daha böyük qüvvəynən bıların üstünə gəlməyə başdiyıllar. İki ay beləcə davam gətirə biliblər. Hökümət bıranı ələ keçirənnən sora bılar Xıdır Zindəyə (Siyəzən yaxınlığında ziyarətgahdır) gəlməli olullar. Bir müddət burda qorunannan sora babam bir neçə nəfərnən gizlincə Türkiyəyə keçir. Onnan sora Mayılın axırı nolur, o hara gedir, öldürüllər, tutullar, daha onu bilmir, yəni heş bir əlaqəsi olmur Mayılnan. Lap soralar atamnan eşidirdim ki, 41-45 müharibəsi ərəfəsində babam Azərbaycana qayıdıb. Həmin vaxt qarışıqlıq olub, onunçün sərhədi keçə bilib. Bilirsiz, babam Qafqaz İslam ordusunun zabiti olub, yəni müsavatçı idi. Sovet dövrü belə adamlar təqib olunurdu. Öldiyi tarix bilinsə də, məzarı bilinmir hardadı. Onunçün də Mehdiabad qəbirsannığında "məzarsız" adilə rəmzi bir məzar saldırmışıq babamçün. Sözsüz ki, atamın öz atası haqqında bildikləri olub. Sadəcə, bizə bu haqda danışmazdı. Sovetin xofu hələ canlarından çıxmamışdı. Amma atam sağlığında deyirdi ki, babamız Quba məzarlığında dəfn olunub, yəqin məzarının da yerin bilirmiş. Soradan xəbər tutmuşdu ki, atasının məzarı dağılıb. Əslində, dağılmiyıb, dağıdılıb! Məsələ ondadı ki, hökümət belə

adamların məzarının yerin də itirməyə çalışırdı, hökümətə qarşı çıxıb axı, həm də ki, müsavatçı, daha nə deyim...

Rəhmətlik əmim oğluna da eynən belə bir məzar düzəltdirmişik. Onun da qəbri indiyədək bilinmir hardadı. O da (1956-1993 təvəllüdlü Zülfüqarov Hümmət Əlinur oğlu) zabit idi. Birinci Qarabağ müharibəsində şəhid olub. Yəqin, bu da bir qanunauyğunnuğdur ki, Vətən yolunda evladlar ata-babalarının əməllərin davam etdirsin, çünki döyüşsüz nə torpaq verilir, nə də ki, azadlıq!

Bir az hissə qapıldım, qayıdaq Mayılın məsələsinə, – deyə, Rövşən bəy söhbətinə davam etdi. Çox şeyi xatırlamasam da, amma yaxşı yadımdadı ki, böyük qardaşım (1940-2025 təvəllüdlü Ələsgər Qasım oğlu Yusifov) ara-sıra atamızın Şamxora (indiki Şəmkir rayonuna) getməsindən danışardı. Özü bu yaxınnarda rəhmətə gedib, səksən beş yaşında. Fikir verdinizsə, əksərimiz Zülfüqarovdur, o isə Yusifov soyadilə gedirdi. Bunun da səbəbi elə o xofdan idi. Atam babamıza görə Zülfüqar soyadını ailəmizdə çox hallandırmaq istəmiyib. Deyirdi ki, bir idarəyə sənəd-sünəd verəndə baxırdılar ki, bının əsli, nəcabəti kim olub. Əyər bilseydilər ki, qaçaq filankəsin nəslidi bu, onda vay halımıza... O saat qapıların hamısı bağlanardı üzümüzə. Onunçün də ehtiyatdı davranıb həmişə. Lap soralar bu məsələdə bir az "yumşalma" olub. Hə, orda qaldıq ki, atam ara-sıra Şamxora gedirmiş. Qardaşıma deyirmiş ki, Mayılın oğlunu görməyə gedir. Sən demə, Mayılın Şamxorda oğlu variymış, çoxdan orda yaşiyırmış, atam da ona baş çəkməyə gedirmiş. Daha Mayılın oğlu barədə başqa bir şey eşitməmişdim qardaşımnan" (S:32;T:2). Rövşən bəy bu yerdə söhbətini bitirsə də, araşdırma zamanı qarşımıza çıxmış bir ziddiyyətli məqama qismən də olsa aydınlıq gətirməyimizçün bu sonluq

bizə çox önəmli informasiya kimi göründü. Vahid Rəcəboğlundan aldığımız müsahibədə o bildirmişdi ki, 1918-ci il qırğınından sonra dayısı Müseyibi Qaçaq Mayıl oğulluğa götürüb, özü də bu olay Şəmkirin Təhnəli kəndində baş verib. Elə olanda, bu məqamla bağlı Vahid müəllimlə Rövşən bəyin verdiyi informasiyaların üst-üstə düşdüyünü izləyə bilirik. Yəni hər iki məlumatda Qaçaq Mayılın oğlundan söz açılır. Amma indilikdə dəqiq təyin etmək olmur ki, haqqında söz açılan şəxs Mayılın öz halalca övladı olub, yoxsa, bu, oğulluğa götürdüyü şəxs imiş?! Əslində, bu ziddiyyət bir-birinə əks qütbdə dayanan bu informasiyaların məzmunundan qaynaqlanmışdır. Hələlik əlimizdə kifayət qədər tutarlı əsas olmadığı üçün bu məsələ bu yerdə açıq qalır... Amma bu informasiya araşdırmanı davam etdirməkçün bizə önəmli ismarıc verir... Deməli, bu tarixi şəxsiyyətin həyat hekayəsinin "müəmmalı qalmış səhifələrinin" açılışı üçün resurslar hələ tükənməyib. Heç şübhəsiz, biz bu problemə folklorşünas mövqeyindən yanaşdıq və bu mövqeyin bizə verdiyi səlahiyyət sərhədində problemi çözməyə çalışdıq. Problemsə aktual olduğu üçün milli humanitariyamızın digər sahə araşdırıcılarının da bu haqda nə düşündüklərini bilmək istərdik. İlk öncə, tarixçilərimizin problemlə bağlı deyəcəklərinin millətimizçün daha çox faydalı olacağını düşünürəm. Bizdən isə bu haqda hələlik bu qədər... Nə zamansa, bu haqda daha nələrisə danışacağımıza da ümidliyəm!

21. Şorca – kənd adıdır və torpağı nisbətən duzlu olduğu üçün belə adlanıb. Ümumiyyətlə, Göyçə mahalının Basarkeçər rayonunda Şorca adını daşıyan üç kənd mövcud olub və bunlar da yerləşdikləri ərazinin quruluşuna uyğun adlandırılıblar. Məsələn, Yuxarı Şorca, Orta Şorca və Aşağı Şorca. Daha bir Malağan Şorcası adlanan kənd isə mahalın Çəmbərək ra-

yonunun ərazisində yerləşirdi. Əhalisinin müəyyən qismini çarizm zamanında Rusiyadan (Saratovdan) sürgün olunmuşlar təşkil etdiyinə görə kənd camaat arasında belə adlanıb.

22. Çalkeçid – Ümumiyyətlə, "çal" dilimizdə çoxişlək sözdür və omonim xassəlidir. Məsələn, musiqi alətində çalmaq, ot çalmaq, ilan çalmış və s. Burada "çal" sözü ümumi səciyyə daşıyır və yerli əhali ot bitməyən və ya seyrək (zəif) otu olan dağ cığırlarını belə adlandırır.

23. Bölgə əhalisinin bir qismi Hacı Nağının mahalın Qannı kənd sakini olduğunu bildirir. Bu da səbəbsiz deyil. Belə ki, müstəqil kəndlər olsa da, yanaşı yerləşdikləri üçün Kərkibaş və Qannı bir sovetlikdə birləşmişdi və çox güman, fərqli yanaşmalar da buradan qaynaqlanıb.

24. Türkiyədə yer adıdır və oradan gələn ermənilər Göyçədə "Qaxtağan ermənilər" adlandırırdılar

25. Rus dilindən alınma sözdür və "hökm etmə", "tabeçilikdə saxlamaq" anlamındadır.

26. Bu təzadda fikir ondan ibarətdir ki, İsrafil Ağa ilə Qaçaq Kərəm düşmən olmuşlarsa da belə bir-birlərinə qarşı kişi kimi davranıblar. Qazax mahalından olan hər iki şəxs deyilənə görə, əvvəllər möhkəm dost olublar, hansısa ziddiyyətdən sonra düşmənə çevriliblər. Maraqlıdır ki, bu münasibətə dair xalq arasında rəvayətlər də söylənilməkdədir. Bir rəvayətdə belə nəql olunur ki, "Qaçaq Kərəm axırı o qərara gəlir ki, İsrafil Ağanı öldürsün və uzun sürən bu dartışmadan birdəfəlik canın qutarsın. Təsadüf elə gətirir ki, o, İsrafil Ağanın evinə gecəykən yollanır. Əmbə[14] evin içərilərinə addiyanda İsrafil Ağanı öz halalı ilə yatmış vəziyyətdə görür. Çarəsi kəsilif və xəncərin də elə or-

[14] "Amma" sinonim bağlayıcısının fonetik dəyişikliyə uğramış şəklidir.

da qoyuf, çıxıf gedir. Ha vaxsa yuxudan ayılan İsrafil Ağa görür ki, yatağ otağında xəncər... O saat başa düşür ki, Qaçaq Kərəm bırda olub, onu öldürməy issib, əmbə nədənsə ona qıymiyıb. Bax, bırdanda həmin məsəl meydana gəlib" (S:10;T:2).

27. Rus dilindən alınma sözdür və mətndə "kəmər" qismində işlənib.

28. Kitabda dialoq şəklində təqdim olunmuş bu mətn Dərələyəz mahalının Axta kəndində dünyaya göz açmış və hazırda İsmayıllı rayonunun Kökəltmə adlanan yaşayış məntəqəsində məskunlaşmış Almuradov Məmmədxan Kejdər oğlu (təv.1949) və Murtuzayeva Xədicə Hərbiyə qızı (təv.1964) tərəfindən söylənilmişdir. Barələrində "Söyləyicilər" bölümündə də məlumat verilmişdir.

29. Çox vaxt mübahisə doğuran bu mövzunun çox da maraqlı açılışı vardır. Quyruq doğdu, ya da dondu və yaxud da, doldu kimi el arasında işlənən bu ifadələrin hər biri özlüyündə müstəqil məna kəsb edir. Belə ki, yay fəsli təxminən yarı olduqda (avqustun 10-15-i arası) Buğa bürcünə (ulduz topasına) daxil və xalq arasında Ülkər kimi bilinən ulduz yerdən parlaq şəkildə müşahidə oluna bilir. Həmin vaxt dağlıq ərazilərdə hava tədricən soyumağa başlayır və çobanlar dağlıq (yaylaq) ərazilərdə otlayan sürüləri nisbətən alçaq (dağətəyi) ərazilərə köçürürlər. Bu ona görə edilir ki, həmin vaxt yağışla bahəm dolu düşə bilər və sürülər məhv olar. Dağlıq ərazilərimizdə bu ərəfədə çölə qoyulan yağlı qida məmulatları, məsələn, yağ, ət və qatı yağlı, əsas da quyruq qatqılı yeməklər dona bilir. Üçüncü, yəni sonuncu yanaşma da o məntiqə əsaslanır ki, həmən ərəfədə heyvanların, müstəsna olaraq qoyunların inkişafı sürətləndiyi üçün quyruqları dolmağa başlayır, yəni bu inkişaf (quyruq dolma) prosesi başa çatır. Amma həqiqət ondan

ibarətdir ki, bütün bu sadalanan əlamətlər bir əlamətin baş verməsindən sonra törənən keyfiyyətlərdir. Yəni yay yarı olduqda Ülkər ulduzu doğur, bu da havanın soyumasını şərtləndirir və nəhayət, canlı aləmin (istər bitki, istərsə heyvanların) inkişafı bu mövsüm üçün son həddə çatır. Bir az da konkretləşdirsək, payıza doğru getdiyi üçün təbiətin inkişafı səngiməyə başlayır. Bu haqda ətraflı bilgi almaq istəyənlər aşağıdakı mənbələrdən faydalana bilər:

1) Quyruq doğdu və onun mənşəyi, "Eko-İnter" ictimai-siyasi beynəlxalq jurnal (beş məqalə) 04, 06, oktyabr-noyabr-2004.

2) Quyruq doğdu və onun mənşəyi, "Eko-İnter" ictimai-siyasi beynəlxalq jurnal (altıncı məqalə) 09, 011, may-2005. Hər iki məqalənin müəllifi fizika-riyaziyyat elmləri namizədi Rəhim Zeynalovdur. Vaxtilə AMEA Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının elmi işlər üzrə direktor müavini vəzifəsini icra etmişdir.

30. Paşalı – Dərələyəzdə rayon tipli ərazi adıdır. Toponim türk mənşəli olsa da, 1918-ci il qırğınları zamanı ermənilər bu kənddə bir nəfər də olsun türk mənşəli saxlamamışdı. Qırılanlar öz yerində, sağ qalanlar da baş götürüb kənddən çıxmışdı. Bəzi bilgilərə görə, kənd Alı adlı türk paşasının adını daşıyırmış. Sonralar Paşalıdan 8-10 km aralıda yeni mərkəz təşkil olunur və ora Söylən adlandırılır. Sovetlər dönəmində isə Məşədi Əzizbəyovun xatirəsini əbədiləşdirmək məqsədilə rayona Əzizbəyov adı verilir. Sonuncu deportasiyadan sonra Qərbi Azərbaycanın digər bölgələrində olduğu kimi ermənilər burada da "ad islahatı" aparmış və rayonu Vayk adlandırmışlar. Yerli sakindən əldə etdiyimiz bilgiyə görə, əslində "Vayk" yox, yerin adı "Vay" olmuşdur. Məlumatda o da bildirilir ki,

vaxtilə Teymurləng bu yerdə ermənilərə divan tutduğundan bura "Vay dərəsi" adını alıb. Sonradan ad saxtalaşdırılmış və bütöv əraziyə aid edilmişdir (S:22).

31. Fonetik dəyişikliyə uğramış rus sözüdür və dilimizə tərcümədə "qaraçı" anlamındadır.

32. Dilimizdəki "dayı" sözünün ruscaya çevrilmiş şəklidir.

33. Fonetik dəyişikliyə uğramış rus sözüdür və dilimizə tərcümədə "ümumiyyətlə" anlamındadır.

34. Rus dilindən alınma sözdür, dilimizə tərcümədə "qəsəbə" deməkdir.

35. Rus dilindən alınma sözdür, dilimizə tərcümədə "yük daşıyan" deməkdir.

36. Fonetik dəyişikliyə uğramış rus sözüdür və dilimizə tərcümədə "anbardar" deməkdir.

37. Bala Məzrə – Göyçə mahalının Basarkeçər rayonunda kənddir. Ərazisi və əhalisi məhdud olduğundan belə adlanıb.

38. Şişqaya – Göyçənin Zoddan sonra ikinci böyük kəndidir. Kəndin adı onun üst hissəsində yerləşən qayanın adından götürülüb. Mahalda həm də el şairi kimi məşhur olmuş Aşıq Aydın bu kənddəndir. Söyləyicinin (S:10-un) məlumatına görə Aşıq Ələsgərlə deyişmələri də olmuşdur. Göyçə aşıq mühitinin Miskin Abdal, Ozan Heydər, Ozan İbrahim, Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Şair Məmmədhüseyn, Mirzə Bəylər, Hacı Əliş ağa, Usta Abdulla, Aşıq Məhəmməd, Daşkəndli Aşıq Nəcəf, Ağkilsəli Aşıq Nəcəf, Növrəs İman, Şair Əbdüləzim kimi ustad sənətkarları ilə adı bir sırada çəkilir (Tofiq Hüseynzadə, Aşıq deyişmələrinin poetikası. Bakı: 2017, 312 səh.).

39. Şah ulduzu – Vaxtilə Göyçədə belə bir inanc movcud olub ki, əgər bir şəxs şah seçilirdisə, hökmən göydə onun ul-

duzu görünməli idi. Özü də bu seçimə yalnız Allah taala rəvac verə bilərdi. Bunun hansı ulduz olduğu özlüyündə bilinməsə də, camaat göyə baxıb deyərmiş ki, bax, bu parıldayan "Şah ulduzu"dur.

40. Babacan – Türk mənşəli sözdür və tayfa adından götürülüb. Göyçə gölünə yaxın ərazidə yerləşən bu yaşayış məntəqəsi sonralar Qızılkənd adlandırılıb. 1918-ci il olayına qədər Qərbi Azərbaycanda 20-yə yaxın məntəqə (oba, kənd, qəsəbə və s. ərazi) Babacan adını daşıyıb.

41. Toxluca – Çəmbərək rayonuna tabe olan bu kənd də eynilə Göyçə gölünə yaxın ərazidə yerləşir.

42. Dərəçiçək – Qərbi Azərbaycandakı mahallardan birinin adıdır, sonralar ermənileşdirilmiş və bu əraziyə Razdan adı verilmişdir. Ermənistanın digər ərazilərində olduğu kimi, buradakı toponimlər də sırf türk mənşəlidir. Zəngibasar rayonunu, Axta kəndi, Zəngi çayını eynilə qeyd etmək olar. Göyçə ərazisindən axan bu çay qurtaracaqda Araz çayına qovuşur.

43. Ardanış – Göyçə mahalının Çəmbərək rayonunun tərkibində olmuş kənddir.

44. Mərənd – İran İslam Respublikasında şəhərdir. Təxminən 1750-ci illərdən başlayaraq oradan köç edən əhalinin müəyyən bir qismi də Göyçənin Qoşabulaq kəndində məskunlaşıb. O vaxtadək Qoşabulaq əhalisinin əksəriyyətini Qazaxın Kəsəmən kəndindən gələnlər təşkil edirdi.

45. Aşıq ərəb evləri,
Xalım ərəb evləri,
Fələyin qaydasıdı,

Qoyar xarab evləri – bayatısında Azərbaycanda ərəb istilası dövrünə işarə olunur. Burada xalın müqayisə predmeti kimi götürülməsi və bu məqamda bənzədilənin yerində işlək olması

ayrıca maraq doğurur. Əslində, xal qara rəngdə olması ilə əlamətdardır və qənaətimizcə, güzəranın "qara olması"nın bayatıdakı rəmzi ifadəsidir. Amma həmişə olduğu kimi, yenə də günahkar fələkdir, çünki dövrün çarxı onun ixtiyarındadır və onu istədiyi kimi hərlədə bilir. Heç şübhəsiz, fələk burada şərti iştirakçıdır və mətnaltı mahiyyətin çatdırılmasına xidmət edir.

46. Quş adıdır və qartal fəsiləsinə aiddir. El arası gəzən söhbətlərə görə, Laçın rayonu da bu quşun adını daşıyır. Belə söhbətlərdə bildirilir ki, keçən əsrin 20-ci illərində Hüsü Hacıyev bu ərazidə rəhbər olduğu zaman çox hündür qayalıqda hərəkətsiz dayanmış bir quş görüb və onunla gəzişən yerli sakinlərdən bunun hansı quş olduğunu öyrənmək istəyib. Yerlilər də həmin quşu Laçın adı ilə tanıdıqlarını ona deyiblər. Guya o da bundan sonra belə təklif verib ki, onda qoy bu ərazi də Laçın adlansın. Söhbətlərdə daha sonra bildirilir ki, Çar Rusiyası zamanında əraziyə qəza statusu verilib və həmin qəza da "Kürdüstan" adını daşıyıb. Qeyri-rəsmi mənbədən aldığımız məlumata görə 1923-1929-cu illərdə qəzanın icraiyyə komitəsinə Hüsü Hacıyev başçılıq edib.

47. Arançının çardağı – Adətən, aran bölgələrində təsərrüfat işlərinin qızğın çağında (xüsusən də yay dövründə) insanlar gündən qorunmaq üçün əkin sahələrinə yaxın yerlərdə çardaqlar qururlar. Bu tipli çardaqların damı ya kəsilmiş ağac budaqları, ya da ki, inşaat materialları (şifer, dəmir list və s.) ilə örtülür. Ümumiyyətlə, dağ yerlərinin iqlimi əlverişli olduğundan belə çardaqlar orada tətbiq olunmur. Məhz bunu nəzərə alıb, müəllif bu faktı mətndə diqqətə çatdırmışdır.

48. Qamanovla bağlı lətifələr Şamil Əsgərin "Dağların hikməti" kitabından götürülmüşdür. Kəlbəcər rayonunun Ağca kəndində dünyaya göz açan müəllif hələ gənc yaşlarından

folklora böyük maraq göstərmiş, qeydə aldığı nümunələri arasıra yerli mətbuat orqanlarında dərc etdirmişdir. Kəlbəcər rayonunun Göyçə mahalı ilə həmsərhəd olması digər tərəfdən onun bu araşdırmanı daha geniş miqyasda aparmasına imkan yaratmışdır. Göyçəyə tez-tez baş çəkən müəllif mahalın "folklor həyatına" dərindən nüfuz etmiş, gəzib-gördüyü yerlərdən əldə etdiyi nümunələr sayəsində şəxsi arxivini daha da zənginləşdirə bilmişdir. Nəhayət, müəllif onları kitab halında ərsəyə gətirməyi zəruri saymışdır. Yerində qeyd edək ki, bir müddət müəlliflə eyni müəssisədə (Kəlbəcər rayon Tarix-Diyarşünaslıq muzeyində) əməkdaşlıq etmiş Nizami Cabbarov bu xeyirxah missiyanı həyata keçirməkdə ona yaxından dəstək olmuşdur. Məhz bu Qoşabulaq sakininin vasitəsilə müəllifin elmi-ədəbi və digər fəaliyyəti haqqında müfəssəl bilgilər ala bildik. Məsələ burasındadır ki, İsmayıllı rayonunda məskunlaşdıqdan sonra da Nizami Cabbarov bu fədakar təəssübkeşliyini davam etdirmiş, Göyçədə olduğu çağlardan toplayıb yazıya aldığı və yaddaşında "qoruduğu" bir çox unikal məlumatların çox böyük səbirlə təsnifatını aparmış, sonra da onları sahmanlı şəkildə arxivləşdirmişdir. Düşünürük ki, bu arxiv gələcək tədqiqatçılar üçün də münbit mənbə olacaqdır (Əlavə edək ki, "Dağların hikməti" kitabından götürülmüş mətnlərdən savayı, bizim nəşrdə Qamanovla bağlı yeni nümunələr də təqdim olunmuşdur və onların araya-ərsəyə gəlməsində, həmçinin Nizami Cabbarovun əməyi vardır).

49. Erməni dilində gimnaziya deməkdir.

50. Göyçə mahalının Basarkeçər rayonuna məxsus olmuş kənddir. 1918-ci ilə qədər "böyük" və "kiçik (bala)" adlanması ilə burada iki Qaraqoyunlu kəndi mövcud olub. Birbirinə yaxın məsafədə (2-3 km aralıqda) yerləşən bu kəndlər

olay dövründə ermənilər tərəfindən vəhşicəsinə dağıdılmış, sonra da yandırılmışdır. 1918-ci ildən sonra Kiçik Qaraqoyunlu kəndi tamam ləğv olunur, Böyük Qaraqoyunlu kəndi isə Qaraqoyunlu adı ilə yenidən təşkil olunur. 1939-cu ildə Məşədi Əzizbəyovun xatirəsini əbədiləşdirmək məqsədi ilə kəndə Əzizli adı verilib. Mənbələr əsaslandırır ki, 1950-ci ilə qədər Ermənistanın azərbaycanlılar yaşayan bir çox mahal və rayonlarının rəhbər vəzifələrində azərbaycan (türk – A.Ə.) millətindən olanlar çalışıb.

51. Sovet istehsalı olan yük avtomobilidir.

52.Rus dilindən alınma sözdür və dilimizə tərcümədə "gömrük" deməkdir.

53. Fonetik dəyişikliyə uğramış rus sözüdür və dilimizə tərcümədə "maşının gövdə hissəsi" anlamındadır.

54. Axundlar – yerli əhalinin məlumatına görə, XIX əsrin əvvəllərində İrandan Göyçəyə köçüb gəlmiş tayfadır. Əsasən Qoşabulaq kəndində oturaqlaşmış bu tayfa o zaman buradakı əhalinin təxminən əlli faizini təşkil edirmiş.

55. Dəleşlər – türk mənşəli qədim tayfalardandır. Özəlliklə, döyüşkənlikləri ilə seçilərmişlər. Buna əsaslanaraq, yerli camaat belə bir versiya söyləyir ki, guya tayfanın adı da elə buradan, yəni "dalaş" (dalaşmaq) sözündən götürülüb. İnformatorlardan alınan digər bilgilərə görə, Dəleşlər Ağaməhəmməd Şah Qacarın dövründə Qazax mahalından Dərələyəz mahalına köç ediblər. Bir müddətdən sonra oradan da köçərək Göyçə mahalının Qoşabulaq kəndində məskunlaşıblar.

56. Mərcimək – Qoşabulaq kəndinin qurtaracağında yerləşən əkin sahəsinə verilən addır. İyirmi altı hektardan ibarət bu ərazidə əsasən taxıl əkilərdi. Lakin hər on, on beş ildən bir

digər bitkilər də (yonca və qarox – yerli ləhcədə "gülür") əkilərdi ki, bu da torpağın münbitliyini təmin edərdi.

57. Rus dilindən alınma sözdür və dilimizə tərcümədə "əyləc" deməkdir.

58. Quba qaz – quş növüdür, boğazının uzun olmasilə digər qaz növlərindən seçilir.

59. Söz səxavətli anlamında mətndə işləkdir.

60. Bu gəraylı "Göyçə mənim ürəyimdə" kitabının iç səhifəsində deyil, üz qabığının tam arxa hissəsində təqdim olunduğundan mətnin kitabda yer aldığı səhifəsini kodlaşdırmaq mümkün olmadı.

61. Sarınər – Göyçə, Daşkəsən və Gədəbəy aralığında yerləşən dağ adıdır. Əsas hissəsi Göyçə ərazisinə düşən bu dağ, həm də bu əhatədə uzanan Şahdağ silsiləsinin ən hündür zirvələrindən birini təşkil edir.

62. Müəllifin şeir və bayatıları ilk dəfə və geniş səpkidə oxuculara təqdim olunur. Müəllifin bir neçə "eydirmə"si həmçinin bu sıraya əlavə olunmuşdur.

63. Lilpar – bitkidir, həm də yeyilir. Əsasən Göyçə və Kəlbəcərdə bitir.

64. Sovet istehsalı olan minik avtomobilidir. Yay dövründə üstü açıq formaya gətirilir.

65. Şeirdə Qoşabulaq yaylağından mənbəyini götürən Ağbulağa işarə olunur. Ümumiyyətlə, Göyçə mahalının bir neçə rayonunda bu adda məkanlar mövcud olmuşdur. Məsələn, toponim Çəmbərək rayonunda kənd adını daşımışdır. Hazırda Gədəbəy rayonunda da bu adda bulaq və s. yerlər mövcuddur.

66. "Cümşüd, Mərdan, Şahmar ölmü betərdi" misrasında müəllif vaxtsız dünyasını dəyişmiş bibisi və əmisi oğlanlarını yada salır.

67. Müəllifin ilk nəvəsidir və qızcığazın dünyaya gəlişindən ruhlanaraq o bu şeiri yazmışdır.

68. Şeir Respublikanın Əməkdar artisti Elnarə Abdullayevaya həsr olunub.

69. Zod – Göyçə mahalı ilə Kəlbəcər rayonunun qovuşuğunda yerləşən kənddir və vaxtilə mahalın azərbaycanlı əhalidən təşkil olunmuş ən böyük kəndi hesab olunurdu.

70. Daşağan – Göyçə mahalında axınına görə ən böyük çaydır və hər iki tərəfdən dağlarla müşayiət olunur. Ərazidən axan Şır-şır çayı Daşağanın sol qolu hesab olunur.

71. Qaradaş – Qoşabulaq yaylağında ən hündür dağ zirvəsidir və bölgədə müqəddəs ziyarətgah yerlərindən hesab olunur. Toponimlə bağlı kitabda rəvayət də təqdim olunmuşdur.

72. "İmranı Göyçəsiz ağla, a dağlar" misrasında adı çəkilən bu şəxs Müstəcəb Rəcəboğlunun doğma əmisi oğludur. Deyilənə görə, Novruzda bayram aşını yeyəndən sonra dağlara gedər, oraları oymaq-oymaq gəzərmiş. Ona görə də, bu şəxs Qoşabulaqda "dağlar oğlu" kimi ad çıxarıbmış və bundan da çox fərəhlənirmiş. Başının qonaq-qarası da ki, əskik olmazmış.

73. Müəllif burada hərbi xidmətdə olan nəvəsi Vüsala işarə etmişdir. Önəmlidir ki, nəvə də ata-baba irsinə biganə qalmamış, sənətdə sələflərinin yolunu tutmağa üstünlük vermiş və yeniyetmə olmasına baxmayaraq, bölgədə havacatların mükəmməl ifaçısı kimi tanınmışdır.

74. Loru-Pəmbək – Qərbi Azərbaycanda mahaldır. Basarkeçər rayonunda Pəmbək adlı ayrıca kənd də olub. Yerlilərin dediyinə görə, bu kənd təxminən iki yüz il öncə həmin mahaldan köçüb gələnlərin hesabına yaranıb.

75. "Səxavətli Səməndi yaz" misrasında adı çəkilən Səmənd Ağa Zodun ən mötəbər adamlarından olub. Deyilənə

görə, hətta Aşıq Ələsgər ona sayğı göstərirmiş. Deyilənlərdən o da məlum olur ki, 1918-ci il hadisələrində Səməndağa ermənilərə aman vermirmiş, ona görə də ermənilər ondan çox çəkinirlərmiş. Necə olubsa, ermənilər onu ələ keçiriblər, sonra da başını kəsiblər. İllər keçsə də, Səməndağa indi də camaat arasında hörmətlə xatırlanır.

76. Qayabaşı, Nərimanlı – Qoşabulağa qovuşuq kəndlərin adıdır.

77. Burada Xəstə Bayraməli, Aşıq Bəhman və Aşıq Fətullah nəzərdə tutulur. Qeyd edək ki, hər üç aşıq Nərimanlı kəndinin sakini olub.

78. Müəllif burada "Aşıq Ələsgərlə Həcər xanım" rəvayətində təsvir olunan Həcəri nəzərdə tutur. Rəvayətdə Həcər həm cəsarətli, həm də fitri istedada malik bir şairə xanım kimi təqdim olunur. Onun belə istedadlı və hazırcavab olması Aşıq Ələsgəri də heyrətləndirir və Həcərlə deyişmə zamanı aciz qaldığını, hətta ona etiraf edir. Lakin Həcər bu etirafı qəbul etmir və sənətdə Ələsgərin hamıdan üstün olduğunu onun özünə xatırladır. Bütün bunlar rəvayətdə olduqca maraqlı, həm də ənənəvi (dastanvari) tərzdə təhkiyə olunmuşdur (Mənbə: Göyçə dastanları və aşıq rəvayətləri. Bakı: Səda, 2001, 700 səh. Toplayıb tərtib edən, ön söz, qeyd və izahların müəllifi Hüseyn İsmayılovdur). Əlavə edək ki, rəvayətdə təsvir olunan Həcər xanım əslində Qızılvəng sakini olub və mötəbər bir ailədə dünyaya göz açıb. Hədsiz gözəl olan Həcərə çox yerdən elçi düşsə də, heç kimə razılıq vermirmiş. Nəhayət, o öz əmisi oğlu ilə ailə qurmuş, lakin övladları olmamışdır. 1918-ci il olayında ailəsilə birgə Qızılvəngdən Gədəbəyə köçməyə məcbur olan Həcər xanım ömrünün sonunadək orada da yaşamışdır (S:10).

79. “Zəfərinlə tarixi yaz” misrası müəllifin düşüncələrini nə qədər poetik canlandırsa da, onun xəyalpərəst şair olmadığını da işartılandıra bilmişdir. Belə ki, 2020-ci ildə düşmənə qalıb gəlib əldə etdiyimiz o möhtəşəm “Zəfər”in müəllif hələ keçən əsrin doxsanıncı ilində arzusunda olmuşdur və elə bu niyyətlə də həmin ildə yazdığı şeirində bu məqamı ayrıca pafosla vurğulamışdır.

80. “Ağbulaq, Dağnıqsu, Qatardan belə” misrasında yer almış toponimlər Qoşabulaq yaylağına məxsus təbii resurslardır. Buradakı Dağnıqsu Daşağan çayının sol qolunun, Qatar isə yaylaqda yerləşən qayanın adıdır. Çayın sağ qolu isə Qaradaş və Qaraqaya dağlarının “müşayiətilə” bir xeyli uzanıb gedir. Çay, genişləndiyi məcrada (ayaqda) Qırxbulaq yaylağı ilə (Tərsəçaydan) Sarıyaqub yaylağından gələn axarlarla (adsız çaylarla) birləşdikdən sonra Aşağı Şorca və Sarıyaqub kəndlərinin ərazisindən keçərək Göyçə gölünə tökülür.

81. Mərzili – Qoşabulaq yaylağının ətəyində dərəli bir otlaq (yerli ləhcədə “otaraq”) yerinin adıdır. Yerli sakinlərin dediyinə görə, daha öncəki yaşlılar bu yeri Koroğlunun Mərzilisi adlandırırmış.

82. Qulağın dibinə tökülən tük nəzərdə tutulur və yolunanda kəskin ağrı verir.

83. Duzdağ – Qoşabulaq yaylağında yer, orta hissəsi çökək olan yüksəklikdir. Heyvandarlıqla məşğul olanlar oradakı daşların üzərinə duz töküb heyvanları yemlədərmişlər və bununla da yerin adı “Duzdağ” qalıb.

84. Anons: Bu faciə 2020-ci ildə, fevralın doqquzundan onuna keçən gecə Şəmkir rayonunun Bada kəndində baş verib. Faciənin qurbanlarından olan Zöhrab ixtisasca riyaziyyatçı idi və müəllimlərin təkmilləşdirilməsi proqram – layihəsi çərçivə-

sində Gəncə-Qazax regionu üzrə dövlət tərəfindən təyin olunmuş təlimatçı kimi çalışırmış. İşə münasibətdə, həm də qabaqcıl və yenilikçi olmasilə seçilirmiş. Allah rəhmət eləsin. Amin!

85. El bulağı – mənbəyi Qaradaş dağının ətəyindən başlayır və Daşağan çayına qədər uzanıb gedir. Bulağın çaya qovuşduğu yer daima qonaqlı-qaralı olardı. Qoşabulaq yaylağında digər bir bulaq Qaradaşın zirvəsindən axırdı və yerli sakinlər onu "tapınaq yeri" kimi qəbul etmişdi.

86. Tərsə Güney – Qoşabulaq yaylağında dağdır və Kəlbəcərin Sarıyer yaylağına qovuşuq ərazidə yerləşir. Qızılla zəngin olan bu dağ işğal dövründə ermənilər tərəfindən amansızcasına istismar olunub. Həmçinin bu dağ Qırxbulaq yaylağına bitişik ərazidədir və şərqdən Keyti dağına tərəf meyillənmişdir.

87. Balıdüşən – Qoşabulaqda yaylaqdır və şəxs adını daşıyır.

88. Dəlləkbiçən – Qoşabulaq yaylağında biçənək yerinin adıdır.

89. Qatar qaya – Qoşabulaq yaylağında Tərsə Güney dağının Daşağan çayına uzanan ətəyində yerləşir. Elə hündür olmasa da, qayanın arxası keçilməz və uçurumludur.

90. Domba – Qoşabulaq yaylağında dağdır, nisbətən aşağıda, yaylağın quzey hissəsində yerləşir.

91. Çınqıllı dağ – Daşağan çayının mənbəyidir, tikinti materialları və faydalı qazıntılarla (civə, qızıl, daş kömür) zəngin ərazi hesab olunur. Vaxtilə (sovet dövrü və sonrakı illərdə) ərazidə arxeoloji kəşfiyyat işləri də aparılıb. Aşkarlanan faydalı qazıntılar tələbata cavab vermədiyindən (tam yetişmədiyindən) ərazidə aparılan işlər dayandırılıb. Dağın hündür yerində tunel aşkarlanmışdır ki, bunun da ərəblərin gəlişi dövründə (VII-IX) salındığı ehtimal olunur. Məqsəd də buradakı

qızıl yataqlarının tapılıb istismar olunması imiş. Qurtaracaqda tunelin Kəlbəcər ərazisinə gedib çıxdığı müşahidə olunur ki, bu da Kəlbəcərdəki qızıl ehtiyatlarını da nəzarətə götürmək planına xidmət edə bilərdi.

92. Kəpəkli – Qoşabulaq yaylağında dağdır və dəniz səviyyəsindən 2 km hündürlükdə yerləşir. Ümumiyyətlə, ərazi tikintiyə yararlı daşlarla zəngindir. Daşlarının yüngül və kövrək olması (daban daşına bənzəməsi) ərazinin belə adlandırılmasını şərtləndirib. Ərazinin "zağa" deyilən yerindən qara qum çıxırdı və tikintidə geniş istifadə olunurdu. Yerli əhalinin "Ayı zağası" kimi tanıdığı digər bir zağa isə dağın ətəyində, yaylağın "Boğaz" adlanan ərazisində yerləşir. Gölə yaxın olduğundan bu yerdən həm də atçılığı inkişaf etdirmək üçün istifadə olunurdu. Atlar burada yetişdirildikdən sonra furqonlu arabalarla kəndə aparılar, sonra da təsərrüfatlara paylanardı (Ərazinin mürəkkəb relyefi maşınla hərəkətə imkan vermirdi). Maraqlıdır ki, Kəpəklidən təxminən 3-4 km aralı, yaylaqdan aşağıda Yanıq dərə adlanan yerdən qırmızı qum çıxırdı və bu da bütövlükdə ərazinin təbii resurslarla zəngin olduğunu göstərirdi (Əlavə edək ki, "Boğaz" ərazisi yerli əhali arasında "Mərzili" adı ilə də tanınır).

93. Davlı dərə – Qoşabulaq yaylağında biçənək yeridir və informator toponimin "davalı yer" anlamı daşıdığını bildirdi. O bunun açılışını belə təqdim etdi ki, "bir vaxtar Qayabaşılılar heyvannarın saxlamaqçün həmin yerdə pəyə* tikmək istıyiblər (Qayabaşı kəndi bizim yaylağnan bitişik ərazidədi). Kəndimizin adamları da buna etiraz edir və iki kənd arasında böyük dava düşür. İşin də başında oların hörmətdi adamı Xıdıroğlu İskəndərov dururmuş. Nə isə, Qoşabulaq camaatı yeri əldə saxlamaqçün Qayabaşı camaatı ilə əməlli döyüşməli olur.

Axırı elə olur ki, dərəni Qoşabulaqlılar özlərində saxliya bilir, həmin yerdən bir az aralıda bir adsız dərə vardı, o da Qayabaşı camaatına veriləsi olur. Bizim də dərən adı o vaxdan "Davlı dərə" qalır" (İnformator bildirdi ki, hadisə baş verən vaxtda – keçən əsrin otuzuncu illərində kəndlərinin kolxoz sədri onun ana babası olub. Adı Habil imiş, Həvil də deyirlərmiş ona – A.Ə.). "İndi sizə Xıdıroğlunnan deyim. Haca getdiyi üçün Hajoğlu deyirdilər ona. Deyilənə görə, Aşıq Ələsgərin şeirlərinin birində adı da çəkilib. Taniyannar deyirdi ki, çox xəsis adam olub. Hətta belə söylüyüllər ki, Qarabağdan yaylağa qonağı gəlir (Olarda heyvannarını bizim yaylaxlara gətirərdilər). Gəlib görür ki, heyvannarına özü çobannığ eliyir. Deer, əşi, sənin bı qədər var-dölətin var, özünə niyə çoban tutmursan?! Elənçinə pərt eliyib bını, çıxıb gedib. Hələ bir, adını dağa da vermişdilər. Qoşabulağın özündə "Ağ qaya" deyilən yer var, onun bir üzü həmən o dağa, Hajoğlu Güneyə baxır. Neysə, dölətinə görə hörməti olub" (S:13;T:2).

94. Camış uçan – Qoşabulaq kəndinin yaylağında dağ adıdır.

95. Yanığın dərəsi – Qoşabulaq yaylağında dağdır. Dağın iki hissəyə ayrıldığı yerdən çox münbit və geniş dərə ərazisi başlayır. Gül-çiçəklə hədsiz zəngin olan bu dərə arıçılıq təsərrüfatı üçün olduqca yararlı idi. Dağın özünə gəldikdə isə yaşıllığı kasaddır və zirvəsi "yanmış yer" təsiri bağışlayır. Ona görə də yerli sakinlər əraziyə "Yanığın dərəsi" (yaxud da Yanıq dərə) adını verib. Ətəyi "zağa" adlanan bu dərə düzənə çıxışda Daşağan çayına qədər uzanır və nəhayətdə Dəlləkbiçən ərazisi ilə birləşir (Dərənin təbii resurslarla zənginliyi haqda öncə məlumat vermişik. Bax, № 92, Kəpəkli).

96. "Yumru ilə yanaşı,
Sunur təpə də vardı" –

Misralarında adları çəkilən yerlər, həmçinin Qoşabulaq yaylağına məxsusdur. Elə də hündür olmayan bu təpələr yaylağa gedən yolun astanasında yerləşir. Yumruya nisbətən uca görünən Sunur təpənin yerləşdiyi ərazidən çıxan suyun axarı olmadığından birbaşa yola yayılırdı. Bölgədən olanlar fərz edirlər ki, bu su təpənin altından daima axdığına görə təpə Sunur, yəni "sulu yer" adını alıb. Beləliklə, qrunt suyun (əlavə də yağış sularının) hesabına bu işlək ərazi bir müddət bataqlığa çevrilir və yol tamamilə yararsız hala düşür. Lakin kolxoz sədri Quliyev Xasayın təşəbbüsü ilə kənddə iməcilik təşkil olunur, fəsadlar aradan qaldırılır və yol yenidən bərpa olur. Ruhu şad olsun, sədrin oğlu Alay Quliyev hazırda "Qoşabulaq" ictimai birliyinə rəhbərlik edir.

97. Ağ qaya – Qoşabulaqda obanın içində yerləşir. Sağı Hacıoğlu Güney dağına düşən bu kiçik qayanın sol səmti Camış uçan dağına baxır.

98. Nadirov Xıdır (1928-1971), Nadirov Qasım (1933-1975), Nadirova Züleyxa (1942-1961) və Nadirova Nardanə (1941-1955) müəllifin son olaydan öncə Göyçə mahalında dəfn olunmuş qardaş və bacılarıdır.

99. Şımpır – kənd adıdır, həmçinin Göyçə gölünə tökülən çayın adını daşıyır. Kənd 1918-ci ildə ermənilər tərəfindən yandırılaraq tamamilə dağıdılıb. Bəzi mənbələrdə Şımpırdan Sevgili adlı şairənin olduğu və onun XVII əsrin ortalarında yaşadığı bildirilir. Şeirlərini Sevgili təxəllüsü ilə yazmış şairənin az bir qisim şeiri günümüzə gəlib çatmışdır. El arasında dolaşan rəvayətə görə, Sevgili öz obasından olan Qul Mahmud adlı birisini dəlicəsinə sevirmiş (Qul Mahmud mənbələrdə bəzən aşıq, bəzən də el şairi kimi təqdim olunur). Lakin sevgilisinə qovuşa bilməməsi onun bu "həyat hekayəsi"ni yarıda qoyur. O bu dərdi heç vaxt unuda bilmir və deyilənə görə, bu uğursuz aqibətdən

ömrünün sonunadək şikayətlənmiş, çəkdiyi iztirabların təsiri altında yaşayıb-yaratmışdır (Mənbə: Hüseyn İsmayılov. Göyçə aşıqları və el şairləri (I cild). Bakı: Səda, 2006, 492 səh.).

100. Rayonun adı rəsmi sənədlərdə Keşişkənd yazılmasına baxmayaraq, yerli əhali arasında rayon Keşkənd kimi tanınıb. Məlumatı bizə təqdim edən söyləyici belə fərz edir ki, bu ad daha çox həqiqəti əks etdirir. O baxımdan ki, Qazax rayonu ərazisində eyni mənşəli toponimi daşıyan dağ mövcuddur və həmin dağ Keştəpə adlanır. "Keş" sözü isə dağ yamaclarında və dağətəyi yerlərdə suyun açdığı yarğan mənasını bildirir. Bu məna Dərələyəzin yerləşdiyi coğrafi şəraitlə də uyğun gəlir. Bir sözlə, rayonun adının xristian keşişi ilə ilişkili olduğu ağlabatan görünmür (S:2).

Yanaşma bizdə maraq doğurduğu üçün problemə digər bir rakursdan yanaşmağı da məqsədyönlü bildik. Potu[15] toponiminin açılışını sərgiləyən Nizami Vəlişov "Göyçay rayonu və onun toponimiyası" kitabında yazır ki, Potu toponimi güman ki, "su üstündə keçid və ya bərə" mənasındadır.... Bu yaşayış məntəqəsi Arvan çayının sahilində, bərə yaxınlığında yerləşdiyinə görə belə adlanmışdır... Kənd ərazisində vaxtilə çoxlu su dəyirmanları olmuşdur" (19, 203). Maraqlıdır ki, "keçid" sözü lokal ləhcədə "keş-gəl" kimi izah olunur və bu da bizə ip ucu verir ki, buradakı "keş" komponentinin öncə qeyd etdiyimiz "keş" komponenti ilə əlaqəsini axtaraq. Çünki hər iki komponentin alt qatında bir-birinə yaxın anlamların gizləndiyini ehtimal etmək olar ("Suyun açdığı yarğan"la "su üstündə keçid"in mənaca əlaqəsinin birbaşa sudan keçdiyini nəzərə almaqla biz bu qənaətə gəlmişik). Düşünürük ki, bu səpkidə olan müqayisə və təhlillər daha doğru olanın aşkara çıxarılmasına müəyyən mənada bələdçilik edə bilər.

[15] Göyçay rayonunda kənd adıdır.

SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

1. Cəfərov Abbas Cəfərqulu oğlu, təvəllüdü 1944, Dərələyəz m., Keşişkənd r.,[100] Sallı k. (Göyçay şəhərində məskunlaşıb), ali təhsilli, inşaat mühəndisi, hazırda təqaüddədir.

2. Cəfərov Aqil Abbas oğlu, təv. 1972, Dərələyəz m., Keşişkənd r., Sallı k. (Göyçay şəhərində doğulub), ali təhsilli, hazırda şəhərin 7 saylı ümumtəhsil orta məktəbində məktəbdənkənar və sinifdənxaric işlər üzrə təşkilatçı pedaqoq.

3. Məmmədov Vaqif Əli oğlu, təv. 1955, Zəngibasar r., Sarvanlar k. (Göyçay şəhərində doğulub), ali təhsilli, mədəniyyət işçisi, hazırda təqaüddədir.

4. Əliyev Əkbər Əli oğlu, təv. 1952, Zəngibasar r., Çarbax k. (Göyçay şəhərində doğulub), filologiya üzrə fəlsəfə doktoru, maarif işçisi, hazırda təqaüddədir.

5. Nadirov Qasım Bəşir oğlu, təv. 1933-1975, Göyçə m., Basarkeçər r., Qoşabulaq k., orta təhsilli, peşəsi çoban olub, vaxtilə SSRİ-nin Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunub.

6. Cabbarova Nəzifə Təhməz qızı, təv. 1962-2020, Göyçə m., Basarkeçər r., Qoşabulaq k. (İsmayıllı rayonunun Soltankəndində məskunlaşmışdı), natamam orta təhsilli, evdar olub.

7. Nadirov Xıdır Bəşir oğlu, təv. 1928-1971, Göyçə m., Basarkeçər r., Qoşabulaq k., orta təhsilli, peşəsi çoban olub.

8. Nadirov Çərkəz Bəşir oğlu, təv.1937-1996, Göyçə m., Basarkeçər r., Qoşabulaq k. (İsmayıllı rayonunun Uştal kəndində məskunlaşmışdı), orta təhsilli, peşəsi çoban olub, vaxtilə SSRİ-nin Şərəf ordeni ilə təltif olunub.

9. Nadirova Gülnaz (Şükürova) Dünyamalı qızı, təv. 1971, Göyçə m., Basarkeçər r., Qoşabulaq k. (Mingəçevir şəhərində məskunlaşıb), orta təhsilli, peşəsi xadimə.

10. Cabbarov Nizami Bəşir oğlu, təv.1957, Göyçə m., Basarkeçər r., Qoşabulaq k. (İsmayıllı rayonunun Soltankənd kəndində məskunlaşıb), kollec təhsilli, ixtisası zootexnik, hazırda təqaüddədir.

11. Məmişov Akif Musa oğlu, təv.1961, Göyçə m., Basarkeçər r., Qoşabulaq k. (Yevlax şəhərinin Aran qəsəbəsində məskunlaşıb), orta təhsilli, peşəsi çoban, hazırda təqaüddədir.

12. Nadirov Dünyamalı, Bəşir oğlu, təv. 1935-2006, Göyçə m., Basarkeçər r., Qoşabulaq k. (İsmayıllı rayonunun Soltankəndində məskunlaşmışdı), orta təhsilli, peşəsi çoban olub.

13. Əhmədov Müstəcəb Rəcəb oğlu, təv. 1951, Göyçə m., Basarkeçər r., Qoşabulaq k. (İsmayıllı rayonunun Soltankəndində məskunlaşıb), orta təhsilli, peşəsi sürücü, hazırda təqaüddədir.

14. Nadirov Tahir Dünyamalı oğlu, təv. 1974, Göyçə m., Basarkeçər r., Qoşabulaq k. (İsmayıllı rayonunun Soltankəndində məskunlaşıb), orta təhsilli, peşəsi çoban.

15. Əhmədov Vahid Rəcəb oğlu, təv.1951, Göyçə m., Basarkeçər r., Qoşabulaq k. (İsmayıllı rayonunun Uştal kəndində məskunlaşıb), ali təhsilli, ixtisası pedaqoq, hazırda təqaüddədir.

16. Əliyeva Şura Rəcəb qızı, təv.1935, Qırxbulaq m., Ellər r., Quyulu k. (Göyçay rayonunun Potu kəndində məskunlaşıb), kollec təhsilli, tibb sahəsində çalışıb, hazırda təqaüddədir.

17. Cabbarova Zəhra Məşədi Kazım qızı, təv. 1907-1990, Kəlbəcər r., Dərəqışlaq k., natamam orta təhsilli, evdar olub.

18. Nadirova Gülyaz Bilal qızı, təv. 1978 Göyçə m., Basarkeçər r., Qoşabulaq k. (İsmayıllı rayonunun Soltankəndində məskunlaşıb), orta təhsilli, evdar.

19. Cabbarova Həyat Yusif qızı, təv. 1950, Göyçə m., Basarkeçər r., Qoşabulaq k. (Bakı şəhərində məskunlaşıb), orta təhsilli, evdar.

20. Bəşirova Südabə Teymur qızı, təv. 1970, Göyçə m., Basarkeçər r., Qoşabulaq k. (Gəncə şəhərinin Gülüstan qəsəbəsində məskunlaşıb), kollec təhsilli, tibb bacısı.

21. Xəlilov Əbdülbari Təhməz oğlu, təv. 1952-2020, Göyçə m., Basarkeçər r., Qoşabulaq k. (Yevlax şəhərində məskunlaşmışdı), kollec təhsilli, ixtisasca mexanik olub.

22. Almuradov Məmmədxan Kejdər oğlu, təv. 1949, Dərələyəz m., Paşalı r., Axta k. (İsmayıllı rayonunun Kökəltmə yaşayış məntəqəsində məskunlaşıb), ali təhsilli, ixtisası pedaqoq, hazırda təqaüddədir.

23. Murtuzayeva Xədicə Hərbiyə qızı, təv. 1964, Dərələyəz m., Paşalı r., Axta k. (İsmayıllı rayonunun Kökəltmə yaşayış məntəqəsində məskunlaşıb), orta təhsilli, evdar.

24. Əkbərov Əkbər Paşa oğlu, təv. 1953, Gərnibasar m., Qəmərli r. (Göyçay rayonunda məskunlaşıb), orta təhsilli, voleybol üzrə idman ustası, hazırda təqaüddədir.

25.Muxtarov Zahid Fərhad oğlu, təv.1962, Kəlbəcər r., Yellicə k. (Gəncə şəhərinin Gülüstan qəsəbəsində məskunlaşıb), ali təhsilli, ixtisası jurnalist, "Kəlbəcər harayı" qəzetinin redaktoru.

26. Cabbarova Kifayət İsmayıl qızı, təv. 1955, Kəlbəcər r., Dərəqışlaq k. (Bakı şəhərində məskunlaşıb), ali təhsilli, ixtisası kitabxanaçı, hazırda təqaüddədir.

27. Əhmədov Rüstəm Süleyman oğlu, təv.1957, Göyçə m., Basarkeçər r., Qoşabulaq k. (İsmayıllı rayonunun Qalagah kəndində məskunlaşıb), ali təhsilli, ixtisası hidromeliorator, hazırda təqaüddədir.

28. Əhmədova Bəsdi Rəcəb qızı, təv. 1962, Göyçə m., Basarkeçər r., Qoşabulaq k. (İsmayıllı rayonunun Uştal kəndində məskunlaşıb), orta təhsilli, evdar.

29. Balıyeva Göyərçin Nəbi qızı, təv. 1950, Vedi r., Ərmik k. (Göyçay şəhərində məskunlaşıb), orta təhsilli, evdar.

30. Məmmədova Aybəniz Əkbər qızı, təv. 1960, Zəngibasar r., Çarbax k. (Göyçay şəhərində doğulub), orta təhsilli, evdar.

31. Sadıqov Nadir Bəşir oğlu, təv. 1935, Dərələyəz m., Keşişkənd r., Sallı k. (İsmayıllı rayonunda məskunlaşıb), orta təhsilli, peşəsi sürücü, hazırda təqaüddədir.

32. Zülfüqarov Rövşən Qasım oğlu, təv. 1956, Quba r., Birinci Qarabağ müharibəsinin iştirakçısı, kollec təhsilli, kiçik biznes sahəsində çalışıb, hazırda təqaüddədir.

TOPLAYICILAR HAQQINDA MƏLUMAT

1. Əliyev Dadaş Ağaməşədi oğlu, filologiya üzrə fəlsəfə doktoru

2. Əhmədli Atəş Şövkət oğlu, filologiya üzrə fəlsəfə doktoru, dosent

3. Abbasov Elçin Hüseynağa oğlu, filologiya üzrə fəlsəfə doktoru, dosent

ŞƏKİLLƏR

Qərbi Azərbaycan İcmasının Göyçay rayonunda fəaliyyət göstərən nümayəndəliyində Folklor İnstitutunun əməkdaşları ilə görüş

Göyçay rayonunda məskunlaşmış Şura Əliyeva və Əkbər Əkbərov deportasiya zamanı qarşılaşdıqları olaylar haqqında Atəş Əhmədli və Elçin Abbasovla bölüşərkən

Şura Əliyeva İrəvan mətbəxi haqqında Atəş Əhmədli
və Elçin Abbasova bilgilər çatdırarkən

Cəfərovlar ailəsi (oğul Aqil Cəfərov, valideynlər Abbas Cəfərov
və Göyərçin Abbasova) folklorşünas Atəş Əhmədli
ilə xatirələrini bölüşərkən

Folklorşünas Əkbər Əliyev və əmisi oğlu Vaqif Əliyev
Atəş Əhmədli ilə həmsöhbət olarkən

Vaqif Əliyev yaxın qohumları (Zakir Məmmədov və
Ehtiram Kərimov) ilə birgə Atəş Əhmədlini
olub-keçənlərlə məlumatlandırarkən

Vaqif Əliyev folklorşünas Atəş Əhmədliyə Zəngibasar mətbəxi haqqında bilgilər çatdırarkən

Göyçay rayon Potu kənd sakini Kərbəlayi Sahib və həmin kənddə məskunlaşmış terapevt-radioloq Yusif Kazımov Atəş Əhmədliyə bilgilər çatdırarkən

Yusif Kazımov atasından eşitdiklərini Atəş Əhmədli ilə paylaşarkən

Folklorşünas Dadaş Əliyev Göyçə sakini olmuş Nizami Cabbarovdan folklor örnəklərini qeydə alarkən

Folklor İnstitutunun əməkdaşları İsmayıllı rayonunun Soltankənd kəndində məskunlaşmış Göyçə sakinlərindən folklor örnəklərini qeydə alarkən

Atəş Əhmədli və Kərbəlayi Sahib Soltankənd, Uştal və Qalagah kəndlərində məskunlaşmış Göyçəli şair və folklor biliciləri ilə həmsöhbət olarkən (sağdan: Vahid Əhmədov, Rüstəm Əhmədov, Müstəcəb Əhmədov və Nizami Cabbarov)

Atəş Əhmədli Göyçədən olan folklor bilicisi Nizami Cabbarovdan örnəkləri qeydə alarkən

Atəş Əhmədli və Elçin Abbasov Göyçədən olan Müstəcəb və Rüstəm Əhmədovların şeirlərini dinləyərkən

Folklor İnstitutunun əməkdaşları İsmayıllı rayonunun Kökəltmə yaşayış məntəqəsində məskunlaşmış dərələyəzlilərdən folklor örnəklərini qeydə alarkən

Folklorşünaslar Atəş Əhmədli, Elçin Abbasov, elmi işçi Vüsal Abiyev Qərbi Azərbaycan İcmasının İsmayıllı rayonunda fəaliyyət göstərən nümayəndəliyinin rəhbəri Vidadi Məmmədov və icma üzvü Nadir Sadıqovdan məlumatlar qeydə alarkən

İcma rəhbəri Vidadi Məmmədov Folklor İnstitutunun əməkdaşları ilə çay süfrəsində

Folklorşünaslar Atəş Əhmədli və Elçin Abbasov Qaçqın və Məcburi köçkünlərin İsmayıllı və Qəbələ rayonları üzrə nümayəndəsi Tahir Əliyev və İsmayıllı şəhərində məskunlaşmış Aydın Abdullayevdən qeydlər götürərkən

Folklorşünaslar yaxınları ilə birgə Aşıq Elman Talıstanlının yubiley tədbirində (sağdan: balaban ifaçısı Rasim Ələsgərov, Müstəcəb Əhmədov, Atəş Əhmədli, Kərbəlayi Sahib, Nizami Cabbarov və Dadaş Əliyev)

MÜNDƏRİCAT

Ön söz 3

ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

Keyti dağı 45
Gəlin qayası 45
Koroğlu qayası 46
Çoban qayası 46
Ailədə sirr olmamalıdır 49
Haqq yerini tapar 50
İsgəndərin ölümü 51
Əmir Teymur haqqında rəvayətlər 52
Hacı Nağı rəvayətləri 53
Qaradaş dağı 55
Qanlı çökək 56
Qanlı dərə 57

NAĞILLAR

Allah yazanı pozmaq olmaz 59
Şeytanın əməli 59
Şeytan və Firon 62
Quzu və Canavar 63
Bülbül vətəndə 64
Qadının günahı 64
Molla və pozğun qadın 65
Kəmərbəndi 66
Tacir və dostu 68
O ağılnan-bu ağılnan 68
Siçan və qurbağa 69

Qoca və divar 70
Müqəddəs ocaqlarımız 71
ALQIŞLAR 74
QARĞIŞLAR 75
ANDLAR 76
ATALAR SÖZLƏRİ 77
MƏSƏLLƏR 79
DEYİMLƏR 80
TƏZADLAR 87
ÖYÜDLƏR 90
İNANCLAR 91
NOVRUZ İNANCLARI 95
GÖYÇƏ MAHALINDA XALQ TƏBABƏTİ 97
ETNOQRAFİK BİLGİ VƏ İNANCLAR 100
XATİRƏLƏR...TƏƏSSÜRATLAR 105
PAYIZ SÖYLƏMƏLƏRİ 118
GÖYÇƏ BAYATILARI 120
TAPMACALAR 138
NAZLAMALAR 141
UŞAQ DÜZGÜLƏRİ 142
ŞƏBƏDƏ 143
LƏTİFƏLƏR 144
Aşıq Behbudun lətifələri 144
Ölməyib, neyləyib?... 144
O dünya yaxşıdır 144
Ad 144
Saç 145
Kimdir günahkar?... 145
Tək ölmək istəyirsənsə 145
Bəhram Alı oğlu Qamanov 150

Hamasaran qurtarmışdı?... 151
Nə çoxdu cavan... 151
O qəzetə yazılıb ki... 151
Deməli, yağmır 152
Son sözüm odur ki... 152
Onda bir yaylıq da ver 153
Ya sən get, ya mən..... 153
Mənə də Ayrım Cavad deyərlər..... 153
Mığı kimi 154
Çıxart oxu 154
Qohumusan, nəyisən?... 155
Dedi ki... 155
İşdən gəlməyib ki... 155
Sol əlinlə yeyəydin... 156
Bir donuzdan ötəri 156
Üç yox, dörd 157
Şamxayın lətifələri..... 157
Göyçəsayağı lətifələr 160
Qarışıq mövzulu lətifələr..... 164
GÖYÇƏSAYAĞI ƏHVALATLAR 167
GÖYÇƏSAYAĞI GÜLMƏCƏLƏR..... 172
Ay it üzün-üzün 172
OLAYLAR, ƏHVALATLAR..... 178
Ana sevgisi 178
Düşmən kişi kimi..... 178
Əzizin olayı..... 179
Heyvanların olayları 180
At ağaca çıxır..... 181
Əslinə çəkib 182
Paxıl qonşu 182

Başımı uca, üzümü ağ elədin 184
Bəynən kasıf kişi 184
Qarıynan usta 185

AŞIQLAR VƏ EL ŞAİRLƏRİ 186
Aşıq Rəcəb Əhmədov 186
Oldu 186
Eylərəm mən 186
Göyçənin 187
Vaxtıdır 188
Deyişmə 189
Vahid Əhmədov (Rəcəboğlu) 191
Göyçə həsrəti 191
Göyçə dərdi, vətən dərdi, el dərdi 191
Gec olar 192
Ulu Göyçə 194
Sarı 195
Eylə 195
Baba dağı 196
Göyçəmizə 198
Müəllifli bayatılar, laylay və nazlamalar 199
Laylay və nazlamalar 207
Müstəcəb Əhmədov (Rəcəboğlu) 212
Hey axtarır 212
Qaldı Göyçədə 213
Qoşabulaq 214
Gərək 215
Göyçəm 216
Göyçəm 216
Yazmısan 217

Allah 219
Atam 219
Can deyən anam.....220
Mən.....221
Göyçə.....222
Babasan.....223
Olaydı 224
Ey Mələkxanım.....224
Ay Elnarə.....225
Dağlar 226
Dünya.....227
Yandırır.....228
Əllərindən 229
Qocaldım 230
Sazım 231
Oy 232
Xəyallara dala-dala 233
“Vağzalı” yox, “Atdandırma” 234
Dağlar 236
Gəlmişəm.....237
Qocaldım 238
A dağlar 239
Əsgər balam.....240
Bu nə paydı?! 241
Ölmə hələ, xəyalı yaz 242
Yaman xoşdu 245
Bilmişəm.....247
Qurbanam o torpağa 247
Qalmışam indi.....248
Bir qərib el gördüm, Göyçədi elə 249

A Şirvan 250
Burnuma vətənin qoxusu gəlir 251
Qalmışam 251
Barı görüşübən öləydim, Allah! 252
Bilmirəm 253
Xəyalım axtarır 254
Hamımızın gözü-könlü toxuydu 255
A qardaş 256
Unutmaram ölənətək 258
Bezmişəm 259
Sağalarsan, ay ürəyim 260
Dillənməyir telli sazım 261
Oğul 263
Necə unudum mən, a Göyçə səni?! 264
Kimsə didərgin olmasın 264
Yaşaginan, Azərbaycan! 265
Bir ailənin faciəsi və ya ağıların harayı 267
Müəllifli bayatı və eydirmələr 269
Eydirmələr 276

HƏVƏSKAR ŞAİRLƏR 277
Nizami Cabbarov 277
Vətən əbədidir 277
Göyçə həsrəti 277
Göyçəm mənim 278
Ulu Göyçə 279
Ana məzarı 280
Nəzifə Təhməzqızı (Cabbarova) 282
Yanmağının mənası nə?! 282
Eləyir 283

Mənim anam 283
Rüstəm Əhmədov (Qoşabulaqlı) 284
Bilmirəm 284
Müəllifli bayatılar 285
Əkbər Əlioğlu 293
Qorqud harayı 293
Qapıları döy görüm 295
"Xarıbülbül" haqqında bayatılar 296
Müəllifli bayatılar 297
Aqil Cəfərov (Kəngərli) 297
Çal, aşıq, çal 297
Müəllifli bayatılar 299
Kökümdən bağlıyam saz havasına 300
Dərələyəzə 300
Akif Məmişov 301
Qocalıq 301
Kimiyəm 302

MİLLİ MƏTBƏX 303
Göyçə mətbəxi 304
Lilpar yeməyi 304
Ələyəz yeməyi 304
Əvəlikli sup 305
Göyçə kətəsi 305
Göyçə xəşili 305
Nənə yeməyi 305
Qaşıq xəngəli 306
Qolsapağı (əvəlik) dolması 307
Hörrə 307
Ələyəz cılbırı 308

Quymaq 308
Dərələyəz mətbəxi 308
Əvəlikli əriştə 308
Şilə 309
Qeysəfə 309
Lobyalı aş 309
Əriştəli aş 310
Qovurma 310
Məişət alət və məmulatları 310
Rəfətə 310
Qəzil 310
Dəstər 311
Cecim (cejim) 311
Zəngibasar mətbəxi 311
Tərs kabab 311
İrəvan mətbəxi 312
Əvəlikli isti (şorba) 312
Qovurma 312
Lavaş 313
Alanı 313

QAYNAQLAR 314
DİALEKTOLOJİ SÖZLÜK 316
AYDINLATMALAR 321
SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT 352
TOPLAYICILAR HAQQINDA MƏLUMAT 356
ŞƏKİLLƏR 357

Qərbi Azərbaycan folkloru, VI cild.
Bakı, "Elm və təhsil", 2025

Nəşriyyat direktoru:
Ülya Məmmədli

Nəşriyyat redaktoru:
Vüsal Abiyev

Kompüter tərtibçisi və dizayneri:
Ləman Abdulxalıqova

Korrektor:
Ruhəngiz Əlihüseynova

Kağız formatı: 60x84 1/16
Mətbəə kağızı: №1
Tirajı: 150

Kitab Azərbaycan MEA Folklor İnstitutunun Kompüter Mərkəzində yığılmış, səhifələnmiş, "Elm və təhsil" NPM-də ofset üsulu ilə hazır diapozitivlərdən çap olunmuşdur.